

*Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi,*
*Türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi*
*Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir.*
*Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsi,*
*onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması,*
*qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir.*
*XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:

## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2024**

**3 (87)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

**BAKI – 2024**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Hikmət Məmmədov, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Elvin Əzizbəyov, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova, Yusif Ağayev***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2024, №3(87).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2024, 304s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2024*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2024
3 (87)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2024

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD:** ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Hikmat Mammadov, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Elvin Azizbayov, Sevil Mammadova, Firdovsiyya Ahmadova, Yusif Agayev***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2024, №3(87)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2024, 304p.*

*© Academy of Public Administration, 2024*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

*İyul - avqust - sentyabr 2024-cü il*

## *İyul*

**1 iyul**

- Qırğız Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Maksat Mamıtkanovun etimadnaməsini qəbul etmişdir.
- Kanadanın Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul etmişdir.
- Filippin Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Henri Jr. Bensurtonun etimadnaməsini qəbul etmişdir.
- 4 İyul – Müstəqillik Günü münasibətilə Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydeni təbrik etmişdir.
- Dövlət bayramı – Belarus Respublikasının Müstəqillik Günü münasibətilə Prezident Aleksandr Lukaşenkonu təbrik etmişdir.

**2 iyul**

- "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan "Zəngilan" tankerinin istismara verilməsi mərasimində iştirak etmişdir.

**3 iyul**

- Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sədri statusunda Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün Astanaya səfərə gəlmişdir.
- Astanada Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.
- Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü keçirilmişdir.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə birlikdə Astanada imzalanmış "Azərbaycan İnvestisiya Holdinqi və "Samruk-Kazına" Milli Rifah Fondu" Səhmdar Cəmiyyəti arasında Səhmdarlar Müqaviləsi"nin mübadilə mərasimində iştirak etmişdir.
- Astanada Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü keçirilmişdir.
- Astanada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə üçtərəfli görüşu olmuşdur.
- Astanada Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak edən nümayəndə heyətlərinin başçılarının şərəfinə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından verilmiş qeyri-rəsmi şam yeməyində iştirak etmişdir.

**4 iyul**

- Qazaxıstanın paytaxtı Astana şəhərində "ŞƏT plyus" formatında keçirilən görüşdə iştirak etmək üçün "Müstəqillik" Sarayına gəlmişdir.
- Sonra Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısının iştirakçıları ilə birgə foto çəkdirmişdir.
- Astanada Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısının iştirakçılarının şərəfinə verilmiş rəsmi ziyafətdə iştirak etmişdir.
- Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən "ŞƏT plyus" formatında görüşdə iştirak və çıxış etmişdir.
- Qazaxıstana səfəri başa çatmışdır.

**5 iyul**

- Xocalı Hava Limanında olmuşdur.
- Xankəndi şəhərində Qarabağ Universitetində görülən işlərlə tanış olmuşdur.
- Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Qarabağ" hotelinin açılışında iştirak etmişdir.
- Xankəndi Konqres Mərkəzinin təməlini qoymuşdur.
- Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Palace" hotelinin açılışında iştirak etmişdir.
- Şuşada "İsa bulağı" istirahət kompleksinin açılışında iştirak etmişdir.
- Şuşa sutəmizləyici qurğular kompleksinin açılışında iştirak etmişdir.
- Şuşada Aşağı Gövhər Ağa məscidinin bərpadan sonra açılışında iştirak etmişdir.
- Şuşa şəhərində Dövlət Xidmətləri Mərkəzinin əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.
- Şuşada Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul etmişdir.
- Şuşada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarı qəbul etmişdir.
- Şuşada Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul etmişdir.
- Azərbaycanda səfərdə olan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə

Şuşada 23 binadan ibarət birinci yaşayış kompleksində və Aşağı Gövhər Ağa məscidində olmuş, şəhəri gəzmişdir.
- Əvvəlcə Şuşa şəhərinin sakinləri ilə söhbət etmişdir.
- Sonra Qırğızıstan Prezidenti Sadır Japarovu qarşılamışdır.
- Daha sonra Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi qarşılamışdır.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Şuşa şəhərini gəzmişdir.
- Sonra Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Qırğızıstan Prezidenti Sadır Japarov ilə Aşağı Gövhər Ağa məscidində olmuşdur.
- Daha sonra Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Qırğızıstan Prezidenti Sadır Japarov ilə birlikdə Cıdır düzünə gəlmişdir.
- Şuşada Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə qeyri-rəsmi naharı olmuşdur.

**6 iyul**
- Rəsmi "X" sosial şəbəkə hesabında paylaşım edərək, Almaniyada keçirilən futbol üzrə Avropa çempionatında uğurla çıxış edən qardaş Türkiyə milli komandasını 1/4 mərhələyə vəsiqə qazanaraq 8 ən güclü Avropa millisi arasında yer alması münasibətilə təbrik etmişdir.
- Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşılamışdır.
- Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak və çıxış etmişdir.
- Daha sonra Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsinin imzalanması mərasimində iştirak etmiş, Bəyannaməni imzalamışdır.
- Şuşada Onun adından Türk Dövlətləri Təşkilatı dövlət və hökumət başçılarının şərəfinə verilmiş naharda iştirak etmişdir.
- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə təyin olunması münasibətilə Baş nazir Kir Starmeri təbrik etmişdir.
- İran İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezident Məsud Pezeşkianı təbrik etmişdir.

**8 iyul**
- Ölkəsinin milli bayramı münasibətilə Monqolustanın Prezidenti Uxnaaqiyn Xurelsuxu təbrik etmişdir.

**9 iyul**
- İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edərək, onu İran İslam Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik etmiş, ona fəaliyyətində uğurlar arzulamışdır.

**10 iyul**
- Ölkəsinin milli bayramı münasibətilə Monteneqronun Prezidenti Yakov Milatoviçi təbrik etmişdir.

**11 iyul**
- Pakistan İslam Respublikasına dövlət səfərinə gəlmişdir.
- İslamabadda Pakistan xalqının milli birliyini təcəssüm etdirən milli abidəni ziyarət etmiş, abidənin önünə əklil qoymuşdur.
- İslamabadda rəsmi qarşılanma mərasimindən sonra Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə məhdud tərkibdə görüşü olmuşdur.
- İslamabadda Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- İslamabadda Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə Azərbaycan ilə Pakistan arasında imzalanmış sənədlərin mübadiləsi mərasimində iştirak etmişdir.
- İslamabadda Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin adından Onun şərəfinə verilmiş rəsmi naharda iştirak etmişdir.
- İslamabadda Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.

**12 iyul**
- İslamabadda Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdarinin adından Onun şərəfinə verilən dövlət ziyafətində iştirak etmişdir.
- İslamabadda Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari ilə geniş tərkibdə görüşü olmuşdur.
- İslamabadda Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasının ərazisindəki "Milli Aerokosmik Elm və Texnologiya Parkı"nda (NASTP) hərbi sərgi ilə tanış olmuşdur.
- Pakistan İslam Respublikasına dövlət səfəri başa çatmışdır.

**13 iyul**
- ATƏT-in baş katibi xanım Helqa Mariya Şmidi qəbul etmişdir.
- Sosial şəbəkə hesablarında paylaşım edərək, ABŞ-ın Pensilvaniya ştatında Respublikaçılar Partiyasının builki prezident seçkilərində namizədi Donald Trampa qarşı siyasi zorakılıq aktını şiddətlə qınamışdır.

**15 iyul**
- Bakının Nərimanov rayonunda əsaslı şəkildə yenidən qurulan Nərimanov parkının açılışında iştirak etmişdir.

**18 iyul**
- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında

iştirak etmək üçün İngiltərəyə işgüzar səfərə gəlmişdir.
- “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısı çərçivəsində İsveçrə Konfederasiyasının Prezidenti Viola Amherd ilə söhbət etmişdir.
- “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısı çərçivəsində Macarıstanın Baş naziri Viktor Orban ilə söhbət etmişdir.
- Sonra digər dövlət başçıları və Sammit iştirakçıları ilə söhbət etmişdir.
- Oksfordda keçirilən “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının açılış plenar sessiyasında iştirak etmişdir.
- Plenar sessiya başa çatandan sonra iştirakçılar ilə birgə foto çəkdirmişdir.
- Oksfordda “Avropa Siyasi Birliyi”nin 4-cü Zirvə toplantısı çərçivəsində keçirilən “Enerji və bağlantı” mövzusunda dəyirmi masada iştirak və çıxış etmişdir.
- Oksfordda qarşı tərəfin müraciətinə əsasən Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşmüşdür.
- Oksfordda qarşı tərəfin müraciətinə əsasən Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşmüşdür.
- Oksfordda qarşı tərəfin müraciətinə əsasən Çex Respublikasının Baş naziri Petr Fiala ilə görüşmüşdür.
- Oksfordda “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının bağlanış plenar sessiyasında iştirak etmişdir.
- Oksfordda “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətdə iştirak etmişdir.
- Oksfordda qarşı tərəfin müraciətinə əsasən Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşmüşdür.

**20 iyul**
- “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda keçirilən 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində iştirak etmiş, sualları cavablandırmışdır.
- Ölkəsinin milli bayramı – İnqilab Günü münasibətilə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisini təbrik etmişdir.

**21 iyul**
- 22 İyul – Milli Mətbuat Günü münasibətilə sosial media hesablarında paylaşım etmişdir.

**23 iyul**
- Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi, görkəmli dövlət xadimi Nquyen Fu Çonqun vəfatı ilə əlaqədar Vyetnam Sosialist Respublikasının Prezidenti To Lama başsağlığı vermişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Maldiv Respublikasının Prezidenti Məhəmməd Muizzunu təbrik etmişdir.

**24 iyul**
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona möhkəm cansağlığı və prezidentlik fəaliyyətində yeni uğurlar arzulamışdır.
- Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olmuşdur.

**25 iyul**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Peru Respublikasının Prezidenti xanım Dina Ersilia Boluarte Zeqarranı təbrik etmişdir.

**27 iyul**
- Ölkəsinin milli bayramı münasibətilə Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədi təbrik etmişdir.

**29 iyul**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə “Paris-2024” XXXIII Yay Olimpiya Oyunlarında Olimpiya çempionu adını qazanan cüdoçu Hidayət Heydərova zəng edərək, cüdo yarışlarında parlaq qələbə qazanması münasibətilə ona təbriklərini çatdırmış, gələcək idman fəaliyyətində yeni qələbələr arzulamışdır.
- Venesuela Bolivar Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Nikolas Maduro Morosu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə İsveçrə Konfederasiyasının Prezidenti xanım Viola Amherdi təbrik etmişdir.

**30 iyul**
- Bakıda “Gənclik” metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olmuşdur.

## *Avqust*

**1 avqust**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə “Paris-2024” XXXIII Yay Olimpiya Oyunlarında Olimpiya çempionu olmuş azərbaycanlı cüdoçu Zelim Kotsoyevə zəng edərək, Olimpiadanın qızıl medalını qazanması münasibətilə onu təbrik etmiş, ona gələcəkdə də yeni uğurlar arzulamışdır. Azərbaycan idmançılarının Olimpiya Oyunlarında cüdo idman növü üzrə ilk dəfə iki Olimpiya qızıl medalını qazandıqlarını qeyd edərək, bu münasibətlə təbriklərini eyni zamanda komandanın məşqçilərinə və Cüdo Federasiyasının rəhbərliyinə çatdırmışdır.

**5 avqust**
- Paytaxtın Xətai rayonu ərazisində “Cavanşir” körpüsünün yerində inşa olunmuş şəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışında iştirak etmişdir.
- Avstraliya İttifaqının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri

Mayls Robert Armiteycin etimadnaməsini qəbul etmişdir.
- Burkina Fasonun Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vinta Somenin etimadnaməsini qəbul etmişdir.
- Pakistan İslam Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddinin etimadnaməsini qəbul etmişdir.

**6 avqust**
- Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunu qəbul etmişdir.

**7 avqust**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Ekvador Respublikasının Prezidenti Daniel Noboa Azini təbrik etmişdir.

**8 avqust**
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak etmək üçün Qazaxıstana səfərə gəlmişdir.
- Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən “Вечер дружбы” adlı qala konsertində iştirak etmişdir.
- Qazaxıstanın paytaxtı Astanada dövlət başçılarının qeyri-rəsmi şam yeməyində iştirak etmişdir.

**9 avqust**
- Digər dövlət başçıları ilə birlikdə Astanada keçirilən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə “Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanı”nın təntənəli təqdim edilməsi mərasimində iştirak etmişdir.
- Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak və çıxış etmişdir.
- Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından dövlət başçılarının şərəfinə verilmiş rəsmi qəbulda iştirak etmişdir.
- Qazaxıstan Respublikasına səfəri başa çatmışdır.

**12 avqust**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Konqo Respublikasının Prezidenti Deni Sassu Nqessonu təbrik etmişdir.

**14 avqust**
- XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul etmişdir.
- Sonra Olimpiya çempionları, cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev ona xatirə hədiyyələri təqdim etmişdir.
- Daha sonra XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılan yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə təltif olunan idmançılara və onların məşqçilərinə ordenləri təqdim etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə İndoneziya Respublikasının Prezidenti Coko Vidodonu təbrik etmişdir.

**17 avqust**
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ona zəng edərək, Türkiyədə baş vermiş meşə yanğınlarının qarşısının alınması üçün Azərbaycanın lazımi dəstəyi göstərməyə hazır olmasının yüksək qiymətləndirmiş, yanğınların söndürülməsində məhz “BE-200ÇS” amfibiya tipli təyyarəyə ehtiyacın yarandığını vurğulamış və bu təyyarənin Azərbaycandan Türkiyəyə göndərilməsi ilə bağlı qərara görə minnətdarlığını bildirmişdir.

**18 avqust**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə evlərində Azərbaycana dövlət səfərinə gələn Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə şam etmişdir.

**19 avqust**
- Rəsmi qarşılanma mərasimindən sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə məhdud tərkibdə görüşü keçirilmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə geniş tərkibdə görüşü olmuşdur.
- Rusiya Prezidenti Vladimir Putin ilə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış sənədlərin mübadiləsi mərasimində iştirak etmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə Azərbaycan və Rusiya dövlət başçılarının Birgə Bəyanatını qəbul etmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə “Bakı Ağ Şəhər”də olmuşdur.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə Bakıda Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralında olmuşdur.
- “Gülüstan” sarayında onun adından Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin şərəfinə verilən dövlət ziyafətində iştirak etmişdir.

**21 avqust**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Ukraynanın Prezidenti Volodimir Zelenskini təbrik etmişdir.

**22 avqust**
- Özbəkistan Respublikasına dövlət səfərinə gəlmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə Daşkənddəki Heydər Əliyev Meydanında Ümummilli Liderin xatirəsini ehtiramla yad etmiş, barelyefi önünə gül dəstələri qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə Daşkənddə Müstəqillik abidəsini ziyarət etmiş, abidənin önünə əklil qoymuşdur.

- Sonra Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə burada xatirə şəkli çəkdirmişdir.

**23 avqust**

- Daşkənddəki "Kuksaroy" dövlət iqamətgahında rəsmi qarşılanma mərasimindən sonra Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə məhdud tərkibdə görüşü olmuşdur.
- Daşkənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclasında iştirak və çıxış etmişdir.
- Daşkənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"ni imzalamışdır.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birlikdə "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının birinci iclasının Qərarı"nı qəbul etmişdir.
- Daşkənddə sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə mətbuata bəyanatla çıxış etmişdir.
- Daşkənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə hər iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə keçirilən görüşdə iştirak və çıxış etmişdir.
- Daşkənddə Birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva, qızları Saida Mirziyoyeva ilə birlikdə Azərbaycan və Özbəkistan incəsənət ustalarının birgə qala konsertində iştirak etmişdir.
- Daşkənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin və xanımı Ziroatxon Mirziyoyevanın adından onun və birinci xanım Mehriban Əliyevanın şərəfinə verilən dövlət ziyafətində iştirak etmişdir.

**24 avqust**

- Özbəkistan Respublikasına dövlət səfəri başa çatmışdır.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Moldova Respublikasının Prezidenti xanım Maya Sandunu təbrik etmişdir.

**28 avqust**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ona zəng edərək, Azərbaycana dövlət səfərinin nəticələrindən məmnunluğunu ifadə etmiş, səfər çərçivəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi istiqamətində aparılan fəaliyyətin Azərbaycan ilə Rusiya arasında tərəfdaşlıq və strateji müttəfiqlik münasibətlərinin daha da güclənməsinə xidmət edəcəyinə əminliyini bildirmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Bakıda "Sea Breeze" istirahət mərkəzinin ərazisində yaradılan "LANDAU School" Təhsil Kompleksinin məktəbinin və "The Grand" apart hotelinin açılışında iştirak etmişdir.
- Ölkəsinin milli bayramı 31 Avqust – Müstəqillik Günü münasibətilə Qırğız Respublikasının Prezidenti Sadır Japarovu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Malayziyanın Kralı Sultan İbrahimi təbrik etmişdir.

**29 avqust**

- Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul etmişdir.
- Ölkəsinin milli bayramı 1 Sentyabr – Müstəqillik Günü münasibətilə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevi təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Konstitusiya Günü münasibətilə Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrinini təbrik etmişdir.

**30 avqust**

- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona möhkəm cansağlığı və fəaliyyətində uğurlar arzulamışdır.
- Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Vyetnam Sosialist Respublikasının Prezidenti To Lamı təbrik etmişdir.

**31 avqust**

- Ölkəsinin milli bayramı – Respublika Günü münasibətilə San-Marino Respublikasının Regent Kapitanları Alessandro Rossi və xanım Milena Qasperonini təbrik etmişdir.

## *Sentyabr*

**1 sentyabr**

- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində səs vermişdir.
- Serbiya Respublikasının xarici işlər naziri Marko Curiçi qəbul etmişdir.

**2 sentyabr**

- Birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər rayonuna səfər etmişdir.

• Birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər rayonunda Tərtər çayı üzərində yerləşən "AzərEnerji" ASC-nin 22,5 MVt gücündə "Yuxarı Vəng" Su Elektrik Stansiyasının açılışında iştirak etmişdir.
• "Yuxarı Vəng" Su Elektrik Stansiyasını işə salmışdır.
• Birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər rayonunda Xudavəng monastır kompleksində olmuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər rayonunun Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində inşa olunan 4-cü tuneldə və bu yolun 15,2 kilometrlik hissəsində görülən işlərlə tanış olmuşdur.
• Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin təməlini qoymuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər Şəhər Təhsil Kompleksində aparılan işlər və bu il açılması planlaşdırılan modul tipli məktəbin layihəsi ilə tanış olmuşdur.
• Kəlbəcər şəhərində inzibati binanın təməlini qoymuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər şəhərində 524 ailəlik yaşayış kompleksinin tikintisi ilə tanış olmuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə yaşayış kompleksində hazır mənzillərə baxmışdır.
• Birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər rayonunda "İstisu" mineral su zavodunun açılışında iştirak etmişdir.
• Kəlbəcər rayonunda "AzərEnerji" ASC-nin 4,3 MVt gücündə "Zar" Kiçik Su Elektrik Stansiyasının (KSES-in) açılışında iştirak etmiş və SCADA sistemi vasitəsilə Göygöl rayonunda yeni tikilən 4,1 MVt gücündə "Toğanalı" KSES-in açılışını etmişdir.
• Kəlbəcər rayonunun İstisu qəsəbəsində "Azərişıq" ASC-nin 110/35 kV-luq "İstisu" yarımstansiyasının açılışında iştirak etmişdir.
• Birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər rayonunda "İstisu" Müalicə-İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olmuşdur.
• Kəlbəcər rayonunun İstisu qəsəbəsinin təməlini qoymuşdur.
• Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ona zəng edərək, Azərbaycanda keçirilən parlament seçkilərində Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə ona təbriklərini çatdırmış, seçkilərin azad, sərbəst, demokratik şəraitdə keçdiyini və Azərbaycan xalqının iradəsini əks etdirdiyini vurğulamışdır.

**3 sentyabr**

• Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ona zəng edərək, növbədənkənar parlament seçkilərində Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə təbriklərini çatdırmış, seçkilərin azad, demokratik, sərbəst mühitdə keçdiyini və Azərbaycan xalqının iradəsini ifadə etdiyini vurğulamışdır.

**4 sentyabr**

• Ölkəsinin milli bayramı 7 Sentyabr – Müstəqillik Günü münasibətilə Braziliya Federativ Respublikasının Prezidenti Luiz İnasio Lula da Silvanı təbrik etmişdir.
• İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə Romaya işgüzar səfərə gəlmişdir.

**5 sentyabr**

• Romada İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşmüşdür.
• Romanın "Quirinale" Sarayında İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə işçi naharı olmuşdur.
• Romanın "Chigi" Sarayında İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə təkbətək görüşü olmuşdur.
• Sonra nümayəndə heyətlərinin iştirakı ilə görüş davam etmişdir.
• Romada İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə Azərbaycan ilə İtaliya arasında imzalanmış sənədlərin mübadiləsi mərasimində iştirak etmişdir.
• Birinci xanım Mehriban Əliyeva ilə İtaliyanın paytaxtından Milan şəhərinə gəlmişdir.

**6 sentyabr**

• "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxış etmişdir.
• Çernobbio şəhərində İtaliyanın "Ansaldo Energia" şirkətinin baş icraçı direktoru Fabrizio Fabbri ilə görüşmüşdür.
• İtaliyanın Çernobbio şəhərində Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falih ilə görüşmüşdür.
• İtaliyaya işgüzar səfəri başa çatmışdır.
• Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonı təbrik etmişdir.
• Koreya Xalq Demokratik Respublikasının Yaranması Günü münasibətilə Koreya Xalq Demokratik Respublikasının Dövlət İşlərinin Sədri Kim Çen Inı təbrik etmişdir.

**9 sentyabr**

• Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ona zəng edərək, ölkəmizdə parlament seçkilərinin uğurla keçirilməsi və Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə ona təbriklərini çatdırmışdır.
• Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun iştirakçılarını təbrik etmişdir.

**10 sentyabr**

- Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olmuşdur.
- Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Abdelmacid Tebbunu təbrik etmişdir.

**12 sentyabr**

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Nikaraqua Respublikasının Prezidenti Daniel Orteqa Saavedranı təbrik etmişdir.

**13 sentyabr**

- "Gulfstream Aerospace" şirkətinin prezidenti Mark Börnsü qəbul etmişdir.
- Texnologiya sektorunda alternativ investisiyaların idarə edilməsi üzrə fəaliyyət göstərən ən nüfuzlu investisiya şirkətlərindən biri olan "Vista Equity Partners" şirkətinin təsisçisi və icraçı direktoru Robert Smiti qəbul etmişdir.

**14 sentyabr**

- Bakının Səbail rayonunda yerləşən "Xaqani" bağında və ətraf ərazilərdə aparılmış abadlıq-yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.

**15 sentyabr**

- Formula 1-in prezidenti və baş icraçı direktoru Stefano Domenikalini, Formula 1-in məsləhətçisi Flavio Briatoreni və britaniyalı supermodel Naomi Kempbelli qəbul etmişdir.
- Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayemi qəbul etmişdir.

**16 sentyabr**

- ABŞ Dövlət katibi Antoni Blinken ona zəng edərək, Ermənistanla Azərbaycan arasında davamlı sülhün əldə olunmasının vacibliyini vurğulamış, Amerika Birləşmiş Ştatlarının bu məqsədə nail olunması üçün bundan sonra da səylərini əsirgəməyəcəyini bildirmişdir.

**17 sentyabr**

- Əlcəzair Xalq Demokratik Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Zəkiyyə İğılın etimadnaməsini qəbul etmişdir.

**18 sentyabr**

- Malta Respublikasının müstəqilliyinin 60-cı ildönümü münasibətilə Malta Respublikasının Prezidenti xanım Miriam Spiteri Debononu təbrik etmişdir.

**19 sentyabr**

- Oğlu Heydər Əliyev ilə Ağdam rayonunun Eyvazxanbəyli kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Ağdam rayonunun Kəngərli kəndində aparılan bərpa işləri ilə tanış olmuşdur.
- Sonra kənddə hazır evlərə baxmışdır.
- Ağdam Sənaye Parkında görülən işlərlə tanış olub, yeni zavodların açılış mərasimlərində iştirak etmişdir.
- Əvvəlcə Ağdam Sənaye Parkında "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodunun açılışında iştirak etmişdir.
- Sonra "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalı zavodunun açılışında iştirak etmişdir.
- Ağdam Sənaye Parkının rezidentlərindən biri olan "Rail Trans Service" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodunun açılışında da iştirak etmişdir.
- Daha sonra "Mister Decor" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) divar kağızları istehsalı zavodunun açılışında iştirak etmişdir.
- Ağdam Sənaye Parkında "Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodunun açılışında iştirak etmişdir.
- Ağdam Sənaye parkının rezidenti "Prof-Dam" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) dam örtükləri istehsalı zavodunun açılışında iştirak etmişdir.
- Ağdam şəhərində İmarət Kompleksinin bərpadan sonra açılışında iştirak etmişdir.
- Sonra kompleksdə yaradılan Qarabağ atları parkında atlara baxmışdır.
- Daha sonra kompleksin ərazisində ağac əkmişdir.
- Ağdam şəhərində "Aghdam City Hotel"in açılışında iştirak etmişdir.
- Ağdam şəhərində "İmarət" stadionunun təməlini qoymuşdur.
- Ağdam rayonunun Xıdırlı kəndində görülən bərpa işləri ilə tanış olmuşdur.
- Sonra kənddə hazır evlərə baxmışdır.
- Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunda görülən işlərlə tanış olmuşdur.
- Xankəndi şəhərində "Bulud" hotelində aparılan təmir-bərpa işləri ilə tanış olmuşdur.
- Xankəndi şəhərində Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin təmirdən sonra açılışında iştirak etmişdir.
- Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanış olmuşdur.
- Xankəndi şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışında iştirak etmişdir.
- Xankəndi şəhərinin Zəfər meydanında Konqres Mərkəzinin tikintisi ilə tanış olmuşdur.
- Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında iştirak etmişdir.
- Şuşada Bayraq Meydanının açılışında iştirak etmişdir.

- Ölkəsinin milli bayramı – Krallıq elan edilməsi Günü münasibətilə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səudu təbrik etmişdir.

**20 sentyabr**
- Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü ilə bağlı sosial şəbəkə hesablarında video paylaşmışdır.
- Xankəndi şəhərində Qarabağ Universitetinin tələbə yataqxanasının təmirdən sonra açılışında iştirak etmişdir.
- Sonra tələbə yataqxanasında yaradılan şəraitlə tanış olmuşdur.
- Xankəndi şəhərində Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak etmişdir.
- Sonra Qarabağ Universitetində yaradılan şəraitlə tanış olmuşdur.
- Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşmüş və çıxış etmişdir.
- Sonra universitetin həyətindəki parkda yaradılan şəraitlə tanış olmuşdur.

**23 sentyabr**
- Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında iştirak etmiş və nitq söyləmişdir.
- Özbəkistan Respublikasının Baş nazirinin müavini Cəmşid Xocayevi qəbul etmişdir.
- "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisinin iştirakçılarını təbrik etmişdir.

**24 sentyabr**
- Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi ilə tanış olmuşdur.
- Azərbaycan Müdafiə Nazirliyinin stendində də olmuşdur.
- Sonra Bakı Ekspo Mərkəzinin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxmışdır.

**25 sentyabr**
- Heydər Əliyev Beynəlxalq Aeroportunda ona Pakistan Aviasiya Kompleksi və Chengdu Çin Aviasiya Korporasiyasının birgə layihəsi olaraq hazırlanmış müasir, yüngülçəkili, istənilən hava şəraitinə uyğun, gündüz və gecə rejimli çoxməqsədli JF-17C (Block-III) təyyarələri təqdim olunmuşdur.

**26 sentyabr**
- 27 Sentyabr - Anım Günü ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım etmişdir.
- Onun yanında keçirilən iqtisadi məsələlərə həsr olunmuş müşavirədə çıxış etmişdir.
- Çin Xalq Respublikasının yaranmasının 75-ci ildönümü münasibətilə Çin Xalq Respublikasının Sədri Si Cinpini təbrik etmişdir.

**27 sentyabr**
- Sentyabrın 27-də – Anım Günündə Bakıda inşası davam etdirilən Zəfər parkında olmuş, parkın girişində xatirə daşının önünə gül dəstəsi qoymuşdur.

**28 sentyabr**
- Beynəlxalq Prokurorlar Assosiasiyasının Bakı şəhərində keçirilən 29-cu İllik Konfransı və Ümumi Yığıncağının iştirakçılarını təbrik etmişdir.

**30 sentyabr**
- Oğlu Heydər Əliyev ilə Bakıda Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılışında iştirak və çıxış etmişdir.
- Sonra ustad sənətkar Aşıq Ələsgərin abidəsinin açılışını etmiş, abidənin önünə gül dəstəsi qoymuşdur.
- Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Leonid Slutskini qəbul etmişdir.
- Yəhudi xalqının milli yeni il bayramı – Roş ha-Şana münasibətilə Azərbaycanın yəhudi icmasını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Alman Birliyi Günü münasibətilə Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayeri təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Koreya Respublikasının Prezidenti Yun Sok Yolu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidi təbrik etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *Qırğız Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş səfiri Maksat Mamıtkanovun etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Qırğız Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Maksat Mamıtkanovun etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Maksat Mamıtkanov Qırğız Respublikasının Prezidenti Sadır Japarovun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və ən xoş arzulara görə minnətdarlığını bildirdi, onun da salamlarını Sadır Japarova çatdırmağı xahiş etdi.

Söhbət zamanı əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsində inkişaf etməsi məmnunluqla qeyd olundu.

Son illərdə ikitərəfli münasibətlərimizin böyük dərəcədə inkişaf etdiyini və keyfiyyətcə yeni mərhələyə qalxdığını deyən Azərbaycan Prezidenti dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin əhəmiyyətinə toxundu, ənənəvi dostluq və qardaşlıq əlaqələrimizin möhkəmləndiyini vurğuladı.

Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət, iqtisadiyyat, investisiya, nəqliyyat və digər sahələrdə mühüm layihələrin həyata keçirildiyini məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı Ağdam rayonunda Qırğızıstanın məktəb tikintisi layihəsini və quruculuq prosesinə göstərdiyi dəstəyi vurğulayaraq buna görə Qırğız Prezidentinə və xalqına bir daha minnətdarlığını bildirdi, bunu qardaşlıq əlaqələrimizin nümayişi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev əməkdaşlığımızın genişləndirilməsi üçün qarşıda böyük planların durduğunu dedi və əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycan və Qırğızıstan rəhbərliyində qardaş ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və mövcud potensialın reallaşdırılması üçün qarşılıqlı iradənin olduğunu bildirdi.

Türk Dövlətləri Təşkilatı çərçivəsində ölkələrimizin əməkdaşlığına toxunan Prezident İlham Əliyev bu təşkilatın bir ailə olduğunu qeyd etdi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının ilk dəfə Şuşa şəhərində keçiriləcək qeyri-rəsmi Zirvə görüşünün əhəmiyyətinə toxunuldu, bu tədbirdə dövlət başçıları arasında aparılacaq dialoq və müzakirələrin önəmi vurğulandı.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Maksat Mamıtkanov münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini vurğuladı, əlaqələrimizin genişləndirilməsi ilə bağlı Qırğızıstan Prezidentinin ona tapşırıqlar verdiyini dedi və bu istiqamətdə səylərini əsirgəməyəcəyini bildirdi.

Ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin yüksək səviyyədə olduğunu deyən səfir qeyd etdi ki, Azərbaycanın Qırğızıstana yatırdığı irihəcmli investisiyalar ölkə iqtisadiyyatının inkişafına böyük kömək göstərir.

Əməkdaşlığımızın möhkəmləndirilməsi üçün geniş potensialın olduğunu vurğulayan Maksat Mamıtkanov dedi ki, dövlət başçılarımız arasında olan münasibətlər və onların göstərdiyi səylər əlaqələrimizin uğurlu inkişafının əsasını qoyub.

Qırğızıstan Prezidentinin bu ilin aprelində ölkəmizə dövlət səfərinin əhəmiyyətinə toxunan səfir bu səfərin çox uğurlu olduğunu və yaxşı nəticələr verdiyini vurğuladı.

O, Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılmasının əhəmiyyətinə toxundu, onun ölkələrimiz arasında əməkdaşlığın inkişafına verdiyi töhfəni qeyd etdi.

Maksat Mamıtkanov Qırğızıstanda İssık-Kul gölünün sahilində Azərbaycan tərəfindən beşulduzlu mehmanxananın inşasının ölkəsində kurort sahəsinin inkişafında böyük rol oynayacağını dedi.

Diplomat görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun irsinə və onun xatirəsinə Azərbaycan tərəfindən göstərilən ehtirama görə minnətdarlığını bildirərək, Sadır Japarovun ölkəmizə dövlət səfəri zamanı Azərbaycan və Qırğızıstan prezidentlərinin iştirakı ilə görkəmli qırğız yazıçısının Bakıda abidəsinin açılışını məmnunluqla xatırladı.

Azərbaycan Prezidenti qeyd etdi ki, Çingiz Aytmatov bütün türk sivilizasiyasının övladıdır və dünyada böyük şöhrətə malikdir.

Görüşdə COP29 çərçivəsində Azərbaycanın və Qırğızıstanın birgə təşəbbüs imkanları barədə fikir mübadiləsi aparıldı.

***Kanadanın Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kevin Hamiltonun etimadnaməsinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Kevin Hamilton Azərbaycanın çox gözəl, dinamik inkişaf edən və mühüm ölkə olduğunu vurğuladı. Azərbaycan ilə Ermənistan arasında əhatəli sülh müqaviləsi imzalanarsa regionda əməkdaşlıq üçün yeni imkanların yarana biləcəyinə ümidvarlığını bildirən səfir dedi ki, biz regionda daha yaxşı münasibətlərin qurulmasını arzulayırıq ki, bunun nəticəsində bizim həm Azərbaycan, həm də Ermənistan ilə əlaqələrimiz inkişaf etsin.

Səfir Kanadanın həmişə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bildirərək, ədalətli, əhatəli və daimi sülh müqaviləsi üzərində fəal iş aparıldığından məlumatlı olduğunu dedi.

Dövlətimizin başçısı torpaqlarımızın işğalı dövründə orada etnik təmizləmə və soyqırımının törədildiyini, ərazilərimizin kütləvi şəkildə dağıdıldığını qeyd etdi. Prezident İlham Əliyev həmin dövrdə münaqişənin həlli ilə bağlı çox böyük səylər göstərildiyini, lakin bu səylərin uğursuz olduğunu bildirdi. Belə ki, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü münaqişənin həllinə nail ola bilmədi, daha doğrusu olmaq istəmədi. Onların hamısı Ermənistanın həyata keçirdiyi işğalın müxtəlif səbəblər üzündən həmişəlik olmasını istəyirdi. Dövlətimizin başçısı bu qənaətə prezidentlik fəaliyyətində öz şəxsi təcrübəsi əsasında gəldiyini dedi. Prezident İlham Əliyev 2003-cü ilin sonundan başlayaraq keçmiş Minsk qrupu üçlüyü və Ermənistan tərəfi ilə dəfələrlə görüşdüyünü xatırladı və bütün bunların heç bir nəticə vermədiyini dedi. Dövlətimizin başçısı bildirdi ki, keçmiş Minsk qrupunun üzvləri və Ermənistan tərəfi bunu istəmirdi. Ermənistan tərəfi torpaqlarımızı həmişəlik işğal altında saxlamaq istəyirdi.

Dövlətimizin başçısı bildirdi ki, hazırda biz ikitərəfli səviyyədə daha yaxşı nəticələr görürük. Kiminsə tərəfindən bu prosesə müdaxilə yoxdur. Sərhədlərin delimitasiyası, hətta nadir hal olan demarkasiya məsələlərində razılıqlara gələ bilirik. Azərbaycan Prezidenti qeyd etdi ki, düzdür, hələ sülh müqaviləsi imzalanmayıb, lakin artıq sərhədlərin delimitasiyasına nail olunub.

Prezident İlham Əliyev vurğuladı ki, COP29 məsələsində Ermənistan bizim bu tədbirə ev sahibliyi etməklə bağlı məhdudiyyətini aradan qaldırdı, biz isə onların COP-un idarəedici orqanlarında iştirakına qarşı çıxmadıq. Dövlətimizin başçısı qeyd etdi ki, açığı, o, belə hesab etmir ki, Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi bizim hansısa bir ölkə ilə ikitərəfli münasibətlərimiz üçün mühüm rol oynaya bilər.

Qlobal səviyyədə diplomatik fəaliyyətimizi şaxələndirdiyimizi deyən dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqının 10 ölkəsi arasında strateji tərəfdaşlıq haqqında bəyannamənin olduğunu qeyd etdi və vurğuladı ki, bu sənədlərin çoxu torpaqlarımızın işğalı zamanı Azərbaycan ilə Ermənistan arasında heç bir sülh müqaviləsi olmadığı bir dövrdə imzalanıb. Bu baxımdan Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin olmaması hər hansı bir ölkənin regionda fəaliyyətinin səviyyəsinin müəyyənləşdirilməsi üçün bir amil ola bilməz.

Dövlətimizin başçısı bir məqamı da vurğuladı ki, Ermənistan 28 illik bir dövrdə beynəlxalq hüququn fundamental prinsipləri ilə razılaşmaq istəmədi. Onlar bütün humanitar qanunları pozdular, BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən müvafiq qətnamələrinə məhəl qoymadılar. Heç kim onlara zərrə qədər də irad tutmurdu. Münaqişə barədə danışan bir çox ölkələr Azərbaycanın ərazi bütövlüyunə sadiqlik bəyan etmirdilər. Prezident İlham Əliyev vurğuladı ki, indi - biz Ermənistanın işğalçı ordusuna döyüş meydanında qalib gəldikdən və onları torpaqlarımızdan qovduqdan sonra bizim ərazi bütövlüyümüzə dəstəklə bağlı bəyanatlar eşidirik. Amma biz bunu artıq özümüz təmin etmişik. Kiminsə bizim ərazi bütövlüyümüzü tanıyıb-tanımaması mahiyyət kəsb etmir. Azərbaycan Prezidenti qeyd etdi ki, bu, torpaqlarımız işğal altında olan bir dövrdə önəmli idi. Bəli, bir sıra Qərb ölkələrində ermənipərəst sentimentlərin mövcudluğu, erməni diasporunun rol oynaması məlumdur. Amma beynəlxalq hüquqa gəldikdə bu emosiyalar kənara qoyulmalıdır. Lakin bunu anlamaq önəmlidir ki, 28 illik bir dövrdə razılaşdırıla bilməyən məsələlərin 1-2 ilə həll edilməsi çətindir. Həm də Azərbaycan ilə Ermənistan arasında substantiv danışıqlara demək olar ki, dekabr ayında başlanılıb. Çünki ondan əvvəl Ermənistan sülh müqaviləsinə dırnaqarası “Dağlıq Qarabağ” məsələsini salmaq istəyirdi və bu, qəbuledilməz idi. Prezident İlham Əliyev vurğuladı ki, çünki bu, bizim daxili məsələmizdir. Beləliklə, separatçı rejim ləğv edildikdən sonra dekabr ayından başlayaraq danışıqlar cəmi 6 aydır gedir. Dövlətimizin başçısı bildirdi ki, buna zaman lazımdır və əlbəttə, sülh sazişinin başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir. Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq. Bu, məlum məsələdir.

Azərbaycan Prezidenti qeyd etdi ki, bununla yanaşı, hesab edir ki, danışıqlar prosesi çərçivəsində kifayət qədər sürətli irəliləyirik. Dövlətimizin başçısı dedi: “Zənnimcə, sülh müqaviləsinin mətni, ən azı əsas prinsipləri üzərində işi bir neçə aya yekunlaşdıra bilərik.

Bildirim ki, işğal dövründə vasitəçilərin planı Madrid prinsipləri adlandırılan əsas prinsiplərlə bağlı razılığa gəlməkdən ibarət idi. Onlar paraflanmalı və daha sonra isə mətn tərtib edilməli idi. Hesab edirik ki, bu, bir variant ola bilər - əsas prinsiplərlə bağlı razılıq əldə edilsin, onlar paraflansın və daha sonra mətn üzərində iş getsin". Prezident İlham Əliyev qeyd etdi ki, bu, onların konstitusiyaya dəyişiklik edəcəkləri təqdirdə baş tutacaq.

Qayıdış hüququ ilə əlaqədar səfirin şərhinə cavabında Azərbaycan Prezidenti bildirdi ki, qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalı, o cümlədən də Qərbi Azərbaycan İcmasının nümayəndələrinə şamil edilməlidir. Bu xüsusda dövlətimizin başçısı keçən yüzillikdə, sonuncusu 1988-ci ildə olmaqla müxtəlif mərhələlərdə köklü Azərbaycan əhalisinin indiki Ermənistan ərazisindən etnik təmizləməyə məruz qaldığını və onlara aid maddi-mədəni irsin tamamilə dağıdıldığını qeyd etdi.

Səfir dövlətimizin başçısına hörmətini ifadə edərək, məlumatlara görə minnətdarlığını bildirdi.

### *Filippin Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Henri Jr. Bensurtonun etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Filippin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Henri Jr. Bensurtonun etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Henri Jr. Bensurto Filippin Prezidenti Ferdinand Romualdez Markosun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Filippinin dövlət başçısına çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidenti ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafını qeyd edərək beynəlxalq təşkilatlar çərçivəsində, həmçinin turizm, investisiyalar sahələrində əməkdaşlığa və insanlar arasında təmaslara toxundu, hökumət nümayəndə heyətlərinin səfərlərinin önəmini vurğuladı.

Səfir Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin çox uğurlu olduğunu, bu məsələdə böyük bir irs qoyduğunu və ölkəmizin bu Hərəkatın təsisatlanması istiqamətində ciddi addımlar atdığını qeyd etdi.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran Henri Jr. Bensurto Filippinin də bu tədbirdə yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını dedi.

Dövlətimizin başçısı ölkəmizin həm Qoşulmama Hərəkatına, həm də COP29-a sədrliyi ilə bağlı təbriklərə və xoş sözlərə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurla həyata keçirilməsinə üzv ölkə kimi Filippinin göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı COP29 çərçivəsində Azərbaycanın Qlobal Cənubun tərkib hissəsi olaraq ölkələr arasında həmrəyliyin gücləndirilməsinə və körpülərin qurulmasına çalışacağını vurğuladı.

### *Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Şuşada Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.

Görüşdə COP29-la əlaqədar hazırlıq prosesi müzakirə olundu. Azərbaycan ilə Almaniyanın bu sahədəki əməkdaşlığı təqdir edildi və yüksək qiymətləndirildi.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan COP29-la əlaqədar dünya ölkələri, xüsusilə Qlobal Cənub və Qlobal Şimal arasında konsensusun qurulması, həmrəyliyin artırılması istiqamətində səylərini bundan sonra da davam etdirəcək.

Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə yüksək qiymətləndirildi.

Almaniya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparıldı və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

## *Şuşa şəhərinə səfər*

İyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumda iştirak edib və sualları cavablandırıb.

**Moderator - "Euronews" televiziyasının aparıcısı və prodüseri xanım Rebekka Maklaflin-İstham:** Sizi görməyə çox şadam, cənab Prezident. Tədbirimizə qatıldığınıza görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Xanımlar və cənablar, mənim üçün böyük şərəfdir ki, bu cür çox mötəbər 2-ci Şuşa Qlobal Media Forumunda iştirak edirəm. Biz buraya səyahət edərkən çox gözəl, səfalı təbiətin, möhtəşəm tunellərin şahidi olduq və möhtərəm cənab Prezident, Sizə bu işdə uğurlar arzu edirəm. Mən şadam ki, bugünkü tədbirimiz Zati-aliləri, cənab İlham Əliyevin himayəsi altında keçirilir.

Mənim adım Rebekka Maklaflin-İsthamdır, mən "Euronews" televiziya kanalının aparıcısı və prodüseriyəm. Şadam ki, bu gün mən bu tədbirin moderatoru olacağam.

Bu gün çox maraqlı gündəliyimiz var. Bilirəm ki, hər biriniz Zati-aliləri İlham Əliyevlə sual-cavab hissəsini səbirsizliklə gözləyirsiniz. Bizim böyük iştirakçı siyahımız var və cənab Prezidentə təşəkkür edirik ki, o, bizə kifayət qədər vaxt ayırıbdır. Mən çox xahiş edirəm suallar qısa olsun ki, biz vaxtımıza qənaət edə bilək. Xahiş edirəm ki, özünüzü təqdim edəsiniz və təmsil etdiyiniz təşkilatın da adını çəkəsiniz.

Bu gün burada əllidən artıq ölkəni təmsil edən nümayəndələr var. Biz Şuşada yalan məlumatların ifşasına həsr edilmiş bir tədbirdə iştirak edirik. Bu, dezinformasiya ilə mübarizə baxımından çox vacib bir vəzifədir. Bu gün, əlbəttə ki, informasiyanın inkişafı

bizim sahə üçün çox əhəmiyyətlidir. Amma burada, əlbəttə ki, mənfi hallar da var. Burada media sektorunu təmsil edən nümayəndələrimiz var, onlar da öz əllərindən gələni edirlər ki, cəmiyyəti məlumatlandırsınlar. Əlbəttə ki, bu baxımdan bu gün burada oturan hər bir şəxs öz peşəsinə böyük sədaqətlə yanaşır.

Mövzuya gəldikdə, biz dörd əsas məqamı qeyd etməliyik: burada dezinformasiyanın təsiri, digər tərəfdən siyasət və təşəbbüslər və əlbəttə ki, Zati-alilərinin tövsiyəsi olacaqdır. Bu baxımdan əlbəttə ki, müsbət və mənfi təsirlərdən danışacağıq. Süni intellektin, eyni zamanda, media sahəsində məlumatlandırma və iqlim fəaliyyəti, - əlbəttə ki, COP29-la bağlı da biz səbirsizliklə gözləyirik bu tədbiri -, iqlim dəyişikliyi və ya keçid məsələsi də müzakirə mövzusu olacaqdır. Tədbirimizin üçüncü günündə də Frank Keyn tərəfindən "Yaşıl dünya naminə həmrəylik" mövzusunda təqdimat olacaqdır. O, sırf COP29 mövzusuna həsr ediləcəkdir və orada Elnur Soltanov tərəfindən də təqdimat keçiriləcək.

Sual-cavab hissəsinə başlamazdan əvvəl qeyd etməliyəm ki, burada maraqlı film təqdimatları olacaq və əlbəttə ki, biz şəhərlə də tanış olacağıq. Bu tədbirin çox səmimi və şəffaf olmasını arzu edirəm və buna əminəm.

Cənab Prezident, bir daha Sizə təşəkkür edirəm. İlk olaraq, cənab Prezidentə keçənilki forumla bağlı sual vermək istərdim. Ölkənizdə o tədbirdən bu günədək media sahəsində hansı dəyişikliklər baş veribdir?

**Prezident İlham Əliyev:** Əvvəlcə məni bu tədbirə dəvət etdiyinizə görə təşəkkür edirəm. Bu, böyük şərəfdir. Mənə məlumat verildi ki, burada 49 ölkədən və ev sahibi ölkədən nümayəndələr var, jurnalistlər var. Yəni, bu gün Qarabağda ikinci dəfə əllidən artıq ölkənin nümayəndəsi bir araya gəlibdir.

Mən xatırlayıram ki, ötən il məhz bu auditoriyada, məhz bu tarixdə mənim iştirakçılarla çox maraqlı söhbətim oldu və o vaxt mən arzumu bildirdim ki, bu forum bir ənənəyə çevrilsin və gördüyünüz kimi, bu tədbir artıq bir ənənəyə çevrilibdir. Deyərdim ki, mən ötən forumdan bəri regionda və ölkədə baş verən hadisələrlə bağlı geniş danışmağa başlasam, bizim vaxtımız qalmaz. Bu, təkcə media sahəsində deyil, ümumiyyətlə, ölkədə və regionda baş verən hadisələrdir. Cənubi Qafqaz regionuna gəldikdə deyə bilərəm ki, biz tarixi transformasiyanın şahidiyik, tarixi, geosiyasi dəyişikliklər baş verir. Ənənəvi ittifaqlar bir qədər zəifləyib və yeni əməkdaşlıq formatları meydana gəlib. Əlbəttə, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası, – bu, ötən ilin sentyabrında baş verdi, – ən mühüm hadisədir. Təkcə bu, birinci və ikinci forum arasında deyil, ümumiyyətlə, müasir tariximizdə mühüm hadisə oldu. Bundan əlavə bir çox hadisələr baş verdi və ümid edirəm ki, bütün bu hadisələr regionu daha proqnozlaşdırılabilən edəcəkdir.

Yəni, biz – bu regionun xalqları özümüzü təhlükəsiz hiss edəcəyik. Buna əminəm, münaqişələr və qarşıdurmalar keçmişdə qalıb. Füzuli hava limanından buraya səfər edərkən siz gördünüz ki, biz nəhəng yenidənqurma proqramı həyata keçiririk və sizin gördükləriniz, bəlkə bu işlərin heç beş faizi deyil. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri ilə bağlı biz çox nikbinik və Azərbaycan cəmiyyəti də olduqca nikbindir və bu işlərə çox həvəslə yanaşır. Bu, hər bir ölkənin müvəffəqiyyətə nail olması üçün əsas amildir. Burada rahatlıq və təhlükəsizlik vacib amildir. Eyni zamanda, gözləntilər vacibdir. Cəmiyyət görür ki, uzun illər can atdığı məqsədlər artıq reallığa çevrilibdir.

**Moderator Rebekka Maklaflin-İstham:** Cənab Prezident, daha bir sualım yalan məlumatların ifşası və dezinformasiyaya qarşı mübarizə mövzusundadır. Sizcə, biz nə dərəcədə çətin vəziyyətdəyik, böhran nə dərəcədə ağırdır?

**Prezident İlham Əliyev:** Təəssüflər olsun ki, bu gün dünyada baş verənlər məhz bu mövzunun bir növ qurbanına çevrilibdir. Təəssüf ki, bu, bizim artıq həyat tərzimizin bir hissəsinə çevrilibdir. Bəzən biz təəccüblənirik ki, Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur – yəni, faktların manipulyasiyası, yanlış narrativlər. Biz uzun illər ərzində bunun qurbanı olmuşuq, əlbəttə ki, onlardan biri Ermənistan və Azərbaycan arasındakı münaqişə idi və bütün erməni diasporunun səfərbər olması idi. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər, Azərbaycan haqqında yanlış narrativlər yayırdılar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər. Mən xatırlayıram ki, müxtəlif xarici qonaqlarla görüşlərimdə, səmimi söhbətlərdə, mütləq hallarda mənə ötürülən mesaj olur ki, biz Azərbaycanın bu dərəcədə inkişaf etmiş ölkə olduğunu gözləmirdik və ona görə də bu narrativlər çox zərərvericidir. Bu, təkcə ölkənin nüfuzunu ləkələmir. Bu, ölkənin biznes potensialını, sərmayə imkanlarını azaldır. Bu, beynəlxalq ictimaiyyətin əsas məsələlərdən diqqətini yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir.

Biz etnik təmizləmənin qurbanı olmuşuq, işğalın qurbanı olmuşuq. Bu hal 30 il davam edib. Ancaq bizi dünyada təcavüzkar kimi təqdim edirdilər və medianın bu məsələni işıqlandırması, siyasi motivlərə söykənən mesajlar və qərarlar nəticəsində biz beynəlxalq sanksiyalara məruz qaldıq. ABŞ 1992-ci ildə Azərbaycana qarşı sanksiyalar tətbiq edibdir. Biz işğalın və təcavüzün qurbanı olmuşuq və o zaman konqresin ermənipərəst nümayəndələrinin səyləri nəticəsində bizə qarşı sanksiyalar tətbiq edildi. Yəni, bu, absurd bir vəziyyətdir ki, humanitar böhrana məruz qalan, bir milyon qaçqını olan, işğal edilmiş əraziləri tamamilə dağıdılan bir ölkə sanksiyalara məruz qalmışdır. O zaman bizim beynəlxalq media şəbəkələrinə o qədər də çıxış imkanımız yox idi. Biz müstəqilliyini yeni bərpa etmiş ölkə idik və biz ciddi səylər göstərməli idik. Bizə elə gəlirdi ki, mesajımızı çatdıra bilmirik. Biz özümüzü günahlandırırdıq,

resurslarımızı səfərbər edirdik, beynəlxalq ictimaiyyəti maarifləndirirdik. Daha sonra biz dərk etdik ki, bir çox insanlar, müxtəlif fərdlər bizim mesajları eşitmək istəmir, onlar vəziyyəti tamamilə fərqli şəkildə təqdim etmək istəyir. Ona görə də bu məsələyə yanaşmanın ən yaxşı yolu budur: 30 il müstəqil olan ölkə nə edə bilər? Sizin kimi şəxsləri Bakıya və bölgələrimizə dəvət etmək və bizim nə işlər gördüyümüzü, planlarımızı təqdim etmək, gözləntilərimizi sizə çatdırmaqdır ki, biz dövlət quruculuğunda nələrə nail olmuşuq. Məhz bu, ən səmərəli üsuldur. Biz uzun illərdir üzləşdiyimizi bu gün görürük ki, Amerika Prezidenti də buna məruz qalıbdır. Prezident Tramp "Vaşinqton Post"u və "Nyu-York Tayms"ı feyknyus, yəni yalan xəbər mənbəyi adlandırıb. Mən tamamilə onunla razıyam. Mən təkcə bu məsələdə deyil, onun bir çox bəyanatları ilə razıyam. Bu gün ABŞ Prezidenti məhz media tərəfindən hücumların qurbanıdır, ictimai rəyin manipulyasiyasının qurbanıdır. Elə, sadəcə, bunu görəndə biz özümüzü bir az rahat hesab edə bilərik. Yəni, bu gün diqqət Azərbaycandan yayınıbdır. Əlbəttə, biz çox arzu edirik ki, media obyektiv olsun, hər kəs obyektiv olsun. Ancaq medianın xüsusi məsuliyyəti var. Çünki medianın mesajları, məsələni işıqlandırması bir çox insanların həyatına təsir edir.

**Moderator Rebekka Maklaflin-İstham:** Cənab Prezident, təşəkkür edirəm. Bu səmimiyyətə görə Sizə təşəkkürümü bildirirəm. İndi isə auditoriyaya müraciət edəcəyəm. Birinci, TASS xəbər agentliyindən Mixail Qusmana sözü vermək istəyirəm.

**Prezident İlham Əliyev:** Hər zamankı kimi...

**Mixail Qusman:** Cənab Prezident, bir il bundan əvvəl mən I Şuşa Forumunda iştirak edirdim və orada sualımı Azərbaycan dilində verdim, bu gün sualımı rus dilində səsləndirəcəyəm. Siz Prezident Trampı qeyd etdiniz, mən də uzun səyahət etmişəm. Açığı, mən dörd gün həmin tədbirdə olmuşam, agentliyi təmsil etmişəm. Respublikaçılar Partiyasının bir çox rəhbəri ilə görüşmüşəm və çox maraqlı bir toplantı idi. Qeyd edim ki, orada mövzular maraqlı idi və bu, rəhbərin müəyyənləşdirilməsi tədbiri idi, əvvəlki toplantıdan kifayət qədər fərqlənirdi və çox maraqlı idi. Sualım odur ki, - bəlkə də sual verməzdim, əgər orada olmasaydım, - Prezident Putinə və digər rəhbərlərə bu suallar verilir və bir sıra rəhbərlər özləri bu sualları verir. Amerikada vəziyyət heç də birmənalı deyil. Bir ay əvvəl fərqli idi və Demokratlar Partiyasının vəziyyəti fərqli idi. Beləliklə, Siz Azərbaycan Prezidenti olaraq, – bildiyiniz kimi, Amerika konstitusiyasına əsasən seçkilər keçirilir, – kimin adının yanvarın 20-si səsləndirilməsini istərdiniz. Noyabrın 6-sı bu, yuxarı-aşağı bəlli olacaq. Düzdür, biri ilə əlaqədar məsələ aydındır, ikinci ilə əlaqədar şayiələr var, Prezident Baydenin qalıb-qalmaması.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm sualınıza görə. Tərəfimdən bəlkə də tam birmənalı cavab vermək düzgün olmazdı. Mən çalışıram, əlimdən gələni edirəm ki, maksimum dərəcədə fikirlərimi səmimi ifadə edim. İstənilən auditoriya qarşısında, istər mətbuat qarşısında və yaxud da Azərbaycan ictimaiyyəti qarşısında keçirilən tədbirlərdə mən heç bir halda yanlış məlumat paylaşmıram. Lakin siyasi mədəniyyət anlayışı var və bu anlayış sizin sualınıza birbaşa cavab verməyə imkan yaratmır. Ancaq sizin sualınız başa düşürəm ki, tamamilə ritorikdir. Biz bir-birimizi onilliklərdir tanıyırıq və tamamilə əminəm, siz də yaxşı bilirsiniz ki, mən kimə üstünlük verərdim. Düşünürəm ki, Azərbaycanda mən bu məsələdə, bu mövqedə yeganə deyiləm. Bizə gəldikdə, bu məsələyə öz nöqteyi-nəzərimizdən yanaşırıq. Qərarı Amerika xalqı verəcək. Bu, onların prezidentidir. Lakin, eyni zamanda, bu, bütün dünya üçün xüsusi əhəmiyyətə malikdir. Çünki bir çox xalqların və ölkələrin taleyi böyük dərəcədə Birləşmiş Ştatların birinci şəxsinin verəcəyi qərarlardan asılı olacaq. Mənim fikrimcə, Prezident Trampın hələ də davam edən kampaniya zamanı səsləndirdiyi mühüm tezislərdən biri də odur ki, onun vaxtında heç bir müharibə olmayacaq. Onun hakimiyyəti dövründə Amerika müharibələrə başlamadı, Vyetnam, Koreya, Yuqoslaviya, Əfqanıstan, Liviya, İraq, Suriya və necə deyərlər, onların davamı olmadı. Bax, bu müddət ərzində onların heç biri baş vermədi. Ancaq buna, yəqin ki, böyük hörmətlə yanaşmağa dəyər.

İkinci tezis də çox əhəmiyyətlidir. Bu mövzuya, necə deyərlər, uzun-uzadı və dərindən toxunmaq istəmirəm, amma indiki halda, ilk növbədə, ABŞ-ın özü və onun bilavasitə təsiri altında olan ölkələr üçün ikinci tezis də vacibdir. Bu, təbii ki, ənənəvi dəyərlərdən gələn məsələ ilə bağlı aydın mövqedir. Zənnimcə, Azərbaycan xalqının mütləq əksəriyyəti nəinki bu mövqeyi bölüşür, həm də onu fəal şəkildə təbliğ edir və əməldə həyata keçirir. Odur ki, mən daha dərinə getsəm, hər şey çox aydın olacaq. Ona görə də bununla fikrimi yekunlaşdırıram.

**Mixail Qusman:** Təşəkkür edirəm, İlham Heydəroğlu. Birinci Forumda iki sual vermək imkanı yaradılmışdı.

**Prezident İlham Əliyev:** İstənilən halda moderatora müraciət etməli olacaqsınız.

**Mixail Qusman:** Odur ki, birinci forumun ənənəsinə sadiq olaraq ikinci sualım çox qısa olacaq. Siz qeyd etdiniz ki, Azərbaycanda ənənəvi dəyərlərə sadiqdirlər. Bu məsələdə Azərbaycanla birbaşa həmrəy olan digər bir ölkə var – Rusiya. Forumda 2022-ci il fevralın 22-dəki görüşdən irəli gələrək, ölkələr arasında Bəyannamənin imzalanması tarixinə qayıtmaq istəyirəm və həmin tarixdən bu günədək münasibətlər sürətli şəkildə artmaqdadır. Bununla bağlı Prezident Putinlə görüşdə, həmçinin Prezident Putin Sankt-Peterburqda AZƏRTAC-ın İdarə Heyətinin sədrinin sualına cavabında fikir bildirmişdi və düşünürdü ki, daha da davam etdirilməlidir. Elə mövzular varmı hansı ki, həll olunmur. Belə deyək, Rusiya ilə Azərbaycan arasında

yalnız iqtisadiyyat deyil. Nəzərə alsaq ki, mən hər şeyi bilmək haqqında maraqlı olan TASS informasiya agentliyini təmsil edirəm və Rusiya Prezidentini Azərbaycana dəvət etmisiniz və bizdə deyirlər ki, bu, yaxın zamanda baş verəcək. Belə deyək, Rusiya Prezidenti ilə müzakirə olunacaq hansı məsələ ən açıqdır?

**Prezident İlham Əliyev:** Qeyd edim ki, ikitərəfli münasibətlərdə həll oluna bilməyən məsələ mövcud deyil və uzun müddətdir ki, belədir. Düşünürəm ki, hətta müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamədən əvvəl də belə idi. Prinsip etibarilə biz bütün məsələləri qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və xalqlarımızın münasibətlərinin çoxəsrlik tarixi nəzərə alınmaqla nizamlamışıq. Siz tamamilə haqlısınız, son vaxtlar Zirvə görüşlərinin intensivliyi artıb və buna böyük ehtiyac var. Biz apreldə Moskvada, bu ayın əvvəlində Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində görüşmüşük və güman ki, ilin sonuna qədər yenə görüşlər olacaq, mövzular çox genişdir. Ancaq onu da deməliyəm ki, indi əsasən, gündəlik çox geniş olsa da, – siz, əlbəttə, gündəliyə hamıdan daha yaxşı bələdsiniz, – düşünürəm ki, yenə də ön plana çoxtərəfli əməkdaşlıq məsələləri çıxır. Çünki prinsip etibarilə, ikitərəfli əməkdaşlıqda artıq hər şey nizamlanıb.

Siyasi qarşılıqlı fəaliyyət uğurla davam etdirilir. Ticarət dövriyyəsi artır. Rusiya ilə Ermənistan arasında olduğu kimi deyil. Bildiyiniz kimi, Rusiya ilə Ermənistan arasında ticarət dövriyyəsi son iki ildə 5 dəfə artıb, 1,5 milyard dollardan 7,3 milyard dollara çatıb. Bu, bizə çox maraqlıdır. Maraqlıdır ki, Ermənistan nəyin hesabına öz ixracını bu qədər artıra bilib. Bu, necə deyərlər, ritorik sualdır. Ancaq bizim ticarət dövriyyəmiz son bir ildə təxminən 17 faiz artıb – 4 milyard 300 və ya 4 milyard 400-ə bərabər olub. Bu, sabit artımdır.

Ancaq çoxtərəfli əməkdaşlıqla bağlı məsələlərə gəldikdə, bu sahədə əlbəttə ki, həm tərəfdaşların, həm də başqa ölkələrin iştirakı ilə müzakirə etdiyimiz, həll etdiyimiz mövzular çoxdur. Bu, ilk növbədə, geosiyasi vəziyyət və Azərbaycan ərazisində bu layihənin bütün seqmentlərinin artıq yaradıldığı nəzərə alınarsa, bu gün Rusiya yükgöndərənləri üçün həmişəkindən daha vacib olan Şimal-Cənub Nəqliyyat Dəhlizidir. Biz bu dəhlizin buraxılış imkanlarının genişləndirilməsi barədə danışıqlar aparırıq. Lakin bir çox başqa mövzular da var.

Əlbəttə ki, bizə xüsusilə yaxın olan məsələlər müzakirə olunmadan heç bir Zirvə görüşü keçirilmir. Bu, humanitar əməkdaşlıqdır, insanlar arasında təmasdır, mədəni əməkdaşlıqdır, təhsildir. Yəni bu, hamımızın yaxşı bildiyimiz böyük bir sahəni əhatə edir. Əminəm ki, münasibətlərimizin belə intensiv inkişafı davam edəcək. Bu, həm ölkələrimiz, həm də bütövlükdə region üçün son dərəcə zəruridir.

**Moderator Rebekka Maklaflin-İstham:** Təşəkkür edirəm, cənab Prezident. İndi sual Holqer Fridrixdəndir. Buyurun, sualınızı verin.

**Holqer Fridrix:** Mən "Berliner Zeitung" qəzetinin nümayəndəsiyəm. Mənim sualım belədir: Sizin məhz ölkənizlə və prezidentliyinizlə bağlı natamam, qeyri-dəqiq və manipulyasiya edilmiş hesabatlara münasibətiniz necədir? Fərq etməz, bu məlumatlar haradan qaynaqlanır?

**Prezident İlham Əliyev:** Təəssüf ki, bu, Qərbdən qaynaqlanır və dediyim kimi, bu, bizim gündəlik həyatımızın bir hissəsinə çevrilib. Əvvəllər biz təəccüblənirdik, sonra məyus olurduq, indi isə buna çox biganə yanaşırıq. Bizim üçün fərq etməz, çünki burada əsas qərar sahibi Azərbaycan xalqıdır və hökumətin fəaliyyəti məhz xalqın mənafeyi naminədir.

Əlbəttə, biz istərdik ki, Azərbaycanda və regionda baş verən hadisələr obyektiv şəkildə işıqlandırılsın. Bu, müəyyən dezinformasiya sayəsində obyektiv deyilsə, eybi yoxdur. Ancaq bu, məqsədyönlü şəkildə edilirsə, bu, Azərbaycanı nüfuzdan salmağa yönəlibsə, əlbəttə, biz sual veririk ki, bu, nədən baş verir, bu, niyə belə olmalıdır? Dediyim kimi, bizim bununla bağlı edə biləcəyimiz o qədər də çox deyil. Bu gün Qarabağda apardığımız işlər, ola bilsin ki, bu vəziyyəti dəyişə bilər. Ancaq vaxt keçdikcə siyasi dairələrdə - Qərbdə reallıq daha çox üzə çıxır və Azərbaycana bərabər tərəfdaş kimi yanaşılır.

Bilirsiniz ki, Sovet İttifaqının süqutundan sonra Qərbdə və keçmiş sovet respublikalarının çoxunda belə bir fikir var idi ki, irəli getməyin və mövcudluğunu təmin etməyin yeganə yolu böyük ölkələrin diktəsi altında yaşamaqdır. Biz fərqli yol seçdik. Bu, asan deyildi. Bizim ölkədə sabitliyi pozmaq səyləri oldu. 2000-ci illərin əvvəllərində narıncı inqilablar, rəngli inqilablar cəhdləri olurdu. Eyni zamanda, bizim seçimimiz Azərbaycanın satellit ölkəyə, "proksi" ölkəyə, vassal, qul ölkəyə çevrilməsinin qarşısını aldı və bu da əlbəttə ki, bizim xalqımızın çox dəhşətli dərəcədə əziyyət çəkməsinə imkan vermədi. Biz de-fakto və de-yure müstəqilliyi seçdik. Müstəqil xarici siyasət, özünü təmin edən iqtisadiyyat, tərəfdaşlarımızla, – o ölkələrlə ki, onlar bizimlə əməkdaşlığa can atırdı, – səmərəli əməkdaşlıq. Əlbəttə ki, daxili potensialımıza söykənirdik. Eyni zamanda, biz region ölkələri ilə də sıx əlaqələr qurduq. Bu, bizə imkan verdi ki, iqtisadi problemlərin böyük əksəriyyətini həll edək və biz öz üzərimizdə çalışdıq, diqqətimizi xalqımıza, ölkəmizə yönəltdik və dedi-qodulara, Avropa Parlamentində və ya Avropa Şurasında kiminsə hansısa bəyanatına məhəl qoymadıq, fikir vermədik. Biz onlara tamamilə biganə yanaşırıq.

Yəni, sizin regionunuzda olan ölkələrdən nə qədər çox insan buralara gəlsə, ölkəmizlə bağlı anlayış daha dəqiq olar. Əlbəttə ki, Azərbaycanın sizin Qərb ölkələri ilə əlaqələri də daha yaxşı olacaq. Çünki təəssüratlar, media və ictimai həyatın digər elementləri qərar qəbul edənlərin mövqeyinə təsir edir və onlar ictimai rəyi nəzərə almaya bilməzlər. Çünki bəzən biz demoniza-

siyaya məruz qalırıq. Bəzən elə siyasətçilər var ki, onların səyləri nəticəsində biz onların ölkələrinin xeyrinə müsbət qərar qəbul edə bilmirik. Ona görə də biz daha da yaxınlaşmalıyıq və yaxınlaşdıqca daha az yanlış məlumatlar olacaqdır.

**Moderator Rebekka Maklaflin-İstham:** Növbəti sual Gela Vasadzedəndir. O, müstəqil jurnalistdir.

Gürcüstanlı müstəqil jurnalist və siyasi analitik Gela Vasadze: Cənab Prezident, Sizi salamlayıram. Belə bir tədbirdə Sizi görmək çox xoşdur. Səmimi desəm, çox düşündüm və sualı daha dəqiq belə formalaşdırardım. Mən sual vermək istərdim ki, Siz Azərbaycan Respublikasının milli inkişaf konsepsiyası haqqında danışırdınız. Nəyə nail olmusunuz və bugünkü vəziyyət necədir? Sualım belədir: Bu gün Sizin arzuladığınız Azərbaycan və Cənubi Qafqaz nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Sizi görməyə çox şadam. Keçən il siz iştirak etmişdiniz, təşəkkür edirəm ki, bir daha təşrif buyurmusunuz.

Mən bu haqda fevralda inauqurasiya mərasimindəki çıxışımda danışmışam. Qeyd etmişəm ki, biz hamımız bir yerdə cəmiyyət, bütün insanlar - hansılar ki, gələcək inkişafa töhfə vermək istəyən insanlar gərək yeni milli ideyanı formalaşdıraq. Bizim belə bir ideyamız var idi. Yəni, siyasi üstünlükdən asılı olmayaraq belə bir ideyamız var idi. Bu da ərazi bütövlüyümüzün bərpası və öz ərazilərimizin qaytarılması idi. Biz buna nail olduq, keçən ilin sentyabrında biz buna tamamilə nail olduq.

Lakin biz dincəlməməliyik, biz bu mövzunu uzun-uzadı müzakirə etməməliyik. Çünki bu mövzunu çox uzun müddət istismar etmək olar, lakin bu, bizə bir nəticə verməyəcək. Sözsüz ki, biz heç bir zaman nə işğalı, nə fəsadları, nə verdiyimiz qurbanları, nə böyük Qələbəmizi unutmayacağıq. Biz və bizim gələcək nəsillərimiz bu Qələbə ilə fəxr edəcək. Lakin biz buna fokuslanmamalıyıq, biz bu mövzunu daimi istismar etməməliyik və onu daimi bir rəmzə çevirməməliyik, biz irəli getməliyik. Ona görə Prezident olaraq mən cəmiyyətə üz tutub dedim ki, gəlin, birgə düşünək. Mən bunu təkbaşına düşünə bilmərəm. Hətta mən nəyi isə düşünsəm, bu, sözsüz ki, ictimai müzakirələrin, ictimai düşüncələrin, fikirlərin əsasında, yaxud da Azərbaycanda baş verən hadisələr əsasında formalaşacaq. Eyni zamanda, bildirim ki, tərəfimdən bu məsələ fevral ayında qeyd olunmuşdur, lakin hələ də bu proseslər davam edir.

Həmçinin əminəm ki, yeni milli ideyanın, yaxud da ideyaların necə olmasından asılı olmayaraq, onlar geosiyasi konteksti nəzərə almadan mövcud ola bilməz. Bölgədə geosiyasi kontekst dramatik şəkildə dəyişmişdir. Hətta kiminsə təsəvvür etdiyindən daha kəskin dəyişmişdir. Hazırda Azərbaycanın Qarabağda Qələbəsi yeganə geosiyasi dəyişiklik deyil. Mən bunu artıq dəfələrlə demişəm və çıxışımın əvvəlində demişəm ki, köhnə alyanslar artıq eroziyaya məruz qalır, yeni əməkdaşlıq formatları isə üzə çıxmaqdadır. Mən bu məsələyə daha dərindən vara bilərəm, lakin bu, hamıya kifayət qədər məlumdur.

Biz Cənubi Qafqaz ölkələrindən bəhs ediriksə, bu ölkələrin hər birində çox ciddi siyasi və xarici siyasi transformasiyalar baş vermişdir və baş verməkdədir. Hətta deyərdim ki, kəskin dəyişikliklərə yaxın transformasiyalar baş vermişdir və bu da Cənubi Qafqazda yeni vəziyyətin üzə çıxması deməkdir və biz bunu dərindən başa düşməliyik. Bundan irəli gələrək Gürcüstanın, Ermənistanın, Azərbaycanın xarici siyasət vektorlarının necə inkişaf etməsindən asılı olaraq, biz sizin sualınıza cavab verə bilərik ki, hansı Cənubi Qafqazda yaşamaq istəyirik. Hamı deyəcək ki, biz sülh içində yaşayan, münaqişəsiz, müharibəsiz, ərazi iddiası olmayan, hamının bir-birini sevdiyi, əməkdaşlıq etdiyi Cənubi Qafqaz istəyirik. Lakin bu, badə qaldıranda gözəl kəlamlardır, real siyasət üçün belə deyil. Odur ki, həm Gürcüstanda, həm də Ermənistanda yeni xarici siyasət gündəliyi formalaşan dövrdə onu dərindən düşünməli, təhlil etməli və bundan sonra, – Azərbaycanda bu dəyişməyib və əminəm ki, dəyişməyəcək, – biz müəyyən tədbirlər görməliyik ki, inteqrasiya olmasa da, ən azından müəyyən əməkdaşlıq mövcud olsun.

Mən dəfələrlə söyləmişəm və dərindən təəssüf edirəm ki, Cənubi Qafqaz ölkələri – hansılar ki, müharibə vəziyyətinə düşmüşdü, Baltikyanı ölkələrin yolunu təkrarlaya bilməyiblər. Bildiyiniz kimi, həmin ölkələr açıq şəkildə münaqişələrdə olmayıb. Əgər bölgəmizdə də belə olsaydı, Cənubi Qafqaz iqtisadi inkişaf və siyasi əməkdaşlıq baxımından nümunə ola bilərdi. Çünki əsrlər boyu bizim ölkələrdə xalqlar bərabər yaşamışlar. Lakin bu, baş vermədi. İndi bu barədə nə demək olar. Ancaq indi bir şans var. Bunun üçün yenə də həm Gürcüstanda, həm də Ermənistanda həmin xarici siyasət modifikasiyalarının nə ilə yekunlaşacağını Azərbaycan düzgün təhlil etməli və sonunu görməliyik. Bundan sonra müəyyən mənada daha ciddi addımlar atmalıyıq. Hər halda biz hesab edirik ki, uzunmüddətli sülh mümkündür və təbii ki, ona üstünlük veririk.

**Moderator Rebekka Maklaflin-İstham:** Frans Keyn, buyurun, sualınızı verin.

**Frans Keyn:** Təşəkkür edirəm, Zati-aliləri, cənab Prezident. Əvvəlcə minnətdarlığımı bildirmək istərdim ki, bu gün Şuşada, azad olunmuş Qarabağda tədbirdə iştirak edirəm. Bu fürsətə görə dərin minnətdarlığımı bildirirəm. Təşəkkür edirəm ki, Siz media ilə bağlı Azərbaycanın mövqeyini ifadə edirsiniz. Noyabrdakı tədbir həqiqətən Sizin üçün çox böyük hadisə olacaqdır. Mən Birləşmiş Ərəb Əmirliklərində, Dubay şəhərində yaşayıram və işləyirəm. Bilirəm ki, Siz COP28-də Dubayda səfərdə idiniz. O, çox uğurlu bir tədbir idi. Baxmayaraq ki, Qərb mediası bu tədbiri çox mənfi işıqlandırırdı. Çünki onlar bu tədbiri görməzdən

gəldilər. Ona görə də Sizə sualım belədir: COP29-la bağlı tədbirlərin mediada işıqlandırılmasını necə görürsünüz və Sizin yanaşmanız necə olacaqdır? Çünki böyük ehtimalla bu tədbir Qərb mediası tərəfindən qərəzli şəkildə işıqlandırılacaqdır.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Bizim namizədliyimiz və ev sahibliyimizlə bağlı qərar verildikdən sonra – növbəti həftə Qərb mediasında bizə qarşı hücumlar başladı. Bu, gözlənilən bir hal idi və bunu müzakirə etdiyim bir çox şəxslərlə danışıqlarımda, – həmkarlarımı, dövlət və hökumət başçılarını nəzərdə tuturam, – onlar mənə deyirdilər ki, bu, Azərbaycan üçün böyük başağrısı olacaq. Əlbəttə, biz dərk etdik ki, hücumlara məruz qalacağıq. Biz əlbəttə, bunu proqnozlaşdıra bilmərik ki, ittihamların mövzusu necə olacaqdır? Amma əminəm ki, kifayət qədər ittihamlar olacaqdır. Biz nədə ittiham olunurduq? Neft və qazla zəngin olan ölkə olduğumuz üçün. Bu, çox təəccüblü bir haldır. Yeri gəlmişkən, COP28-in ev sahibi olan Birləşmiş Ərəb Əmirlikləri də eyni mövzuda ittihamlarla üzləşdi. Təəssüf ki, bizə qarşı çox geniş və koordinasiya edilmiş media prosesi başladı, biz ilk vaxtlar buna hazır deyildik. Biz izah etməyə çalışırdıq, bu, bizim günahımız deyil ki, biz neft və qazla zənginik. Bizim fəaliyyətimiz onun əsasında qiymətləndirilməməlidir. Biz iqtisadiyyatımızı necə şaxələndirmişik, işsizliyin öhdəsindən necə gəlmişik, yoxsulluğu necə azaltmışıq, mövzular bunlar olmalıdır. Bu gün bu göstəricilər inkişaf edən ölkələrin səviyyəsindədir, bəzən ondan daha aşağı, daha azdır, yoxsulluq beş faiz səviyyəsindədir və bəzi ölkələr bunu heç yuxusunda görə bilməz. Qazıntı yanacaq növlərindən əldə etdiyimiz gəlirlərin ədalətli paylanılması çox şəffaf şəkildə, məsuliyyətli şəkildə həyata keçirilir. Buna baxmayaraq, ittihamlar davam edir. Ancaq deyə bilərəm ki, vaxt keçdikcə bizə qarşı hücumların sayı azalır, bizim COP heyətimiz çox səmərəli işləyir, öz vaxtının böyük hissəsini xaricdə keçirir, müxtəlif görüşlər keçirir. Bizim COP-la bağlı gündəliyimiz proqnozlaşdırılabilən, aydın hədəflərə, məqsədlərə, nəticələrə köklənmiş gündəlikdir. Deyə bilərəm ki, qərardan altı ay keçdikdən sonra biz daha az hücuma məruz qalırıq. Ancaq onu bilirik ki, tədbir yaxınlaşdıqca bu ittihamların və hücumların sayı artacaqdır.

Ədalətsiz və ikili standartlara əsaslanan işıqlandırmaya gəlsək, biz bilirik ki, COP tədbirinin biri Qlazqoda - Böyük Britaniyanın neft hasil etdiyi bir bölgəsində keçirilirdi və heç kəs o zaman Böyük Britaniyanı ittiham etmirdi ki, onların neft və qazı var. Bu, məhz bizim dediklərimizin həqiqi olduğunu sübut edir. Bu tədbirin əhəmiyyəti əlbəttə ki, bütün bu mənfi hallardan qat-qat çoxdur. Çünki bu, qlobal miqyasda ən mühüm hadisələrdən biridir. Bu, dünyada beynəlxalq arenada bir nömrəli konfransdır və ilk dəfədir ki, postsovet məkanında keçirilir. Bizim üçün bu, misilsiz bir şansdır ki, ən yüksək liqaya daxil oluruq. Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik. Biz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qururuq. Bizim üstünlüyümüz ondan ibarətdir ki, dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişik. 120 ölkənin iştirakı ilə orada yekdil şəkildə sədr seçilmişdik və sədrlik müddətimiz də uzadıldı. Sədrliyimiz dövründə biz böyük nüfuz qazandıq.

Eyni zamanda, Azərbaycan bəlkə yeganə ölkədir ki, bizim regionumuzda və postsovet məkanında Avropa İttifaqı dövlətləri ilə, Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib və imzalayıb. Yəni, Avropa İttifaqının 10 üzvü Azərbaycanın strateji tərəfdaşıdır. Biz İslam Əməkdaşlıq Təşkilatının üzvüyük. Biz “OPEC Plus” formatının üzvüyük. Biz neft hasil edən ölkələrlə fəal şəkildə işləyirik. Biz müəyyən təkliflər irəli sürmüşük ki, neftlə zəngin ölkələr maliyyə mənbələrinin toplanılmasında, səfərbər edilməsində necə daha vacib rol oynaya bilər.

Mən dünən Londondan, “Avropa Siyasi Birliyi”nin Zirvə toplantısından qayıtmışam. Mən artıq 3-cü dəfədir o tədbirdə iştirak edirəm. Yəni, budur bizim üstünlüyümüz. Biz körpülər qura bilirik. Mən səmimi desəm, bundan əvvəl iqlim məsələləri ilə o qədər də dərindən məşğul olmurdum. Ancaq indi mən anladım ki, inkişaf edən və inkişaf etmiş ölkələr arasında çox böyük qeyri-səmimiyyət, qarşılıqlı ittiham var. Hansı ölkə planetimizə daha çox ziyan vurubdur, məsuliyyətli ölkə kimdir və onları bir növ məsuliyyətə cəlb etmək və cəzalandırmaq cəhdləri var. Biz bunu geridə qoymalıyıq. Bu, bizə heç bir nəticə verməyəcəkdir. Biz inkişafda olan kiçik ada ölkələri ilə əməkdaşlıq edirik. Bizim COP29 çərçivəsində bununla bağlı tədbirimiz olacaqdır və orada ittifaq ölkələri də iştirak edəcək. Biz ittifaq ölkələri ilə birgə fond yaradacağıq ki, inkişafda olan həmin kiçik ada ölkələrinə kömək edək. Çünki bu vəziyyət onların mövcudluğuna təhlükədir. Yəni, biz müxtəlif istiqamətdə irəliləyirik. Hesab edirəm ki, biz Birləşmiş Ərəb Əmirliklərinin COP28-in ev sahibi kimi təcrübəsindən istifadə edəcəyik və onun üzərindən işimizi aparacağıq. Ancaq ondan qabaq COP-a Misir ev sahibliyi edibdir. Onların da neft və qazı var. Bizdən sonra da Braziliya ev sahibliyi edəcək. Yenə də neft və qaz ölkəsidir. Bu, onu göstərir ki, bu ölkələr enerji təhlükəsizliyi baxımından özlərini çox rahat hiss edən ölkələrdir. Onlar məsuliyyət nümayiş etdirirlər. Onlar yaşıl texnologiyaya, yaşıl keçidə sərmayə qoyur, töhfə verirlər. Xanım Rebekka qeyd etdiyi kimi, yaşıl həmrəylik mövzusu müzakirə ediləcəkdir. Bu il Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Ümid edirəm ki, uğurlu tədbir kimi onun yaxşı nəticələri olacaq. Bütün dostlarımızı noyabrda bizimlə birlikdə olmağa dəvət edirəm.

**Moderator Rebekka Maklaflin-İstham:** Biz böyük məmnuniyyətlə orada iştirak edəcəyik. Növbəti sual Karlayl Korbindəndir. O, BMT-də Fransa Polineziyasının nümayəndəsidir.

**Karlayl Korbin:** Cənab Prezident, yanlış narrativlərdən biri odur ki, guya kolonializmə son qoyulmuşdur. Siz bu sahədə ən fəal liderlərdən birisiniz, bəlkə də ən fəal Lidersiniz. Əlbəttə, Siz Qoşulmama Hərəkatına sədrlik dövründə də buna diqqət yetirdiniz. Bakı Təşəbbüs Qrupu çox fəaldır, koloniya kimi, müstəmləkə kimi yaşayan ölkələri bir araya gətirir. Biz Fransa müstəmləkə əraziləri ilə bağlı mühüm bir tədqiqatı başa çatdırmışıq və onu təqdim edəcəyik. Siz inkişafda olan kiçik ada ölkələrini qeyd etdiniz. Çox şadıq ki, Siz Karib hövzəsində iqlim dəyişikliyi ilə bağlı bizi dəstəkləyirsiniz. Çünki bu, bizim mövcudluğumuza təhlükədir. Eyni zamanda, kolonializmə dair gələcək təşəbbüsləriniz barədə nə deyərdiniz?

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Tamamilə haqlısınız ki, biz Qoşulmama Hərəkatına sədrliyimizə başlayandan bu məsələ ilə yaxından məşğul olmağa çalışdıq. Çünki Qoşulmama Hərəkatının bir çox üzvü keçmişdə kolonializmin qurbanı olmuşdur. Milyonlarla insan bunun qurbanı olmuşdur və bəzi ölkələr hələ də bundan əziyyət çəkir. Məsələn, Qəmər adaları, Mayot adası. Hələ də onlar kolonial idarəçilik altındadır. Biz bu ölkələrə kömək etmək istəyirik ki, keçmişin bu iyrənc qalığından özlərini azad edə bilsinlər. Təəssüflər olsun ki, Fransa hökuməti yenə də mediadan istifadə edərək bizi ittiham edir ki, guya biz onların daxili işlərinə qarışırıq. Ancaq bu, qətiyyən belə deyil. Biz bunu Avropa İttifaqında, BMT-də anti-Azərbaycan mövqeyi ilə əlaqələndiririk. Onlar Azərbaycana qarşı soyuq müharibəyə başlayıblar. Biz bunu ona görə edirik və əminik ki, Fransanın etdikləri iyrəncdir, qəbuledilməzdir və buna son qoyulmalıdır. Onların həmin insanların taleyinə bu dərəcədə təsir etməyə ixtiyarları yoxdur. O ölkələr Fransadan minlərlə kilometr uzaqda yerləşir, onları assimilyasiya etməyə çalışırlar, onları təhqir edirlər. Sonuncu hadisələrdə Yeni Kaledoniyada yeddi insan həlak olub. Bu, Fransanın və onun prezidentinin əməli nəticəsində baş verib.

Biz kolonializmdən əziyyət çəkən bütün xalqları dəstəkləməyə davam edəcəyik, əlimizdən gələni edəcəyik. Əlbəttə ki, siz Bakı Təşəbbüs Qrupunu qeyd etdiniz. Bu, bir qeyri-hökumət təşkilatıdır. Ancaq bu qeyri-hökumət təşkilatı birgə səylər nəticəsində Azərbaycanda yaradılıb və onlar, məncə, çox yaxşı işləyirlər. Çünki kolonializmdən əziyyət çəkən həmin xalqların səsini heç kəs eşitmir. Çünki az sayda ölkə var ki, Fransanı əməllərinə görə ittiham etsin. Bir çox ölkələr buna göz yummağa çalışırlar, başqa tərəfə baxmağa çalışırlar. Özlərinə başağrısı axtarmırlar. Onlar qorxurlar ki, "Fiqaro" və ya "Le Monde" qəzetlərində demonizasiyaya məruz qalarlar. Həmin qəzetlər bu gün Fransa prezidentinin rejiminin təsiri altındadır. Mən sizə tam əminliklə deyə bilərəm, biz çox gözəl bilirik ki, həmin o media şirkətlərinə Yelisey sarayından hansı mesajlar ötürülür. Biz buna məhəl qoymuruq. Biz sizi hər zaman dəstəkləyəcəyik. Əlimizdən gələni edəcəyik ki, siz və sizin kimi milyonlarla insan öz torpağında azad yaşaya bilsin. Siz öz gələcəyinizi planlaşdırmalısınız. Siz öz irsinizi və ləyaqətinizi, dilinizi qorumalısınız, hansı ki, bu gün sizi ondan məhrum etməyə çalışırlar. Biz sizin yanınızda olacağıq.

**Moderator Rebekka Maklaflin-İstham:** Təşəkkür edirəm, Zati-aliləri. Növbəti sual Maksim Şevçenkodandır.

**Maksim Şevçenko:** Cənab Prezident, gözəl Şuşaya dəvətə görə təşəkkür edirəm. Mən onu xarabalıq vəziyyətində görmüşəm. Mən onu Vətəni ilə əlaqədən məhrum olanda, qəm-qüssə içində görmüşəm. Mən 2000-ci illərin əvvəllərində Azərbaycan ilə Ermənistan arasında humanitar danışıqlar üzrə bir cəhddə iştirak etmişəm və sairə. Ona görə də indi işğaldan azad edilmiş ərazilərin belə dirçəlişini görəndə Azərbaycan üçün şad oldum. Gördüyünüz işlərə görə Sizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına dərin təşəkkürümü bildirirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Maksim Şevçenko:** Mən bu fikri davam etdirəcəyəm. Yalan məlumatlar çox vacib bir mövzudur. Rus dilində daha sərt səslənir - uydurulmuş hekayələr. Bu yalanlar nədən ibarətdir? Onlar bu gün Sizin haqqında danışdığınız kimi, Qərbin dünya xalqları üzərində hökmranlığını davam etdirməsinə, müxtəlif ərazilərə işarə edərək, öz siyasi və tarixi hekayələrini dünya xalqlarının üzərinə sırımağa davam etməyə imkan verən yalanlardır. Nədənsə, bu rəvayətlər orada formalaşır. Kim harada yaşayıb, qədim tarixçilər kimə harada yaşamağa icazə veriblər, harada kimin nə haqqı var, çünki min il əvvəl haradasa filan yerdə filankəs nəsə yazıb, bu gün etnik təmizləmə aparmaq və ya öz dövlətlərini yaratmaqla bağlı. Ona görə də Azərbaycan xalqı Sizin rəhbərliyinizlə bu yalana zərbə vuranda, bu, əslində, bütün bu sistemin, XX əsrdə Osmanlı İmperiyasının xarabalıqları üzərində formalaşan aldatma sisteminin məhv edilməsinin başlanğıcı idi. Xalqları öz Qərb ağalarına tabe etmək cəhdləri ilə Rusiya İmperiyasını məhv etdilər.

Cənubi Qafqazın taleyi ilə bağlı sualım var. Mənim çoxlu sayda azərbaycanlı dostlarım var, onların əksəriyyəti əslən Qərbi Azərbaycandandır. Orada əcdadlarının qəbirləri var, onlar bu gün öz tarixi Vətənlərini, azərbaycanlıların yaşadığı yerləri ziyarət etmək imkanından məhrumdurlar. Müxtəlif xalqlara mənsub fərqli dinlərin nümayəndələri min illər boyu orada yaşayıblar, yəqin ki, müəyyən müharibələr və münaqişələr olub, lakin bu ərazilər heç vaxt etnik təmizləməyə şahidlik etməyib. Sovet İttifaqının süqutundan sonra 300 minə yaxın azərbaycanlı Qərbi Azərbaycandan, indiki Ermənistan ərazisindən qovulub. Deyirlər ki, bu proses hələ 1980-ci illərdə başlayıb. Bu barədə mənə müxtəlif versiyalar söylədilər. Amma indi burada, Siz dediyiniz kimi, keçmişin davamı olaraq hər hansı əlavə fikirlər söyləmək istəmirəm. Gələcək – humanitar

əməkdaşlıqdır. Sualım belədir, biz azərbaycanlıların öz Vətənlərinə heç olmasa, qonaq kimi gələ bildiyi günü görə biləcəyik? Bəlkə də kimsə orada yaşamaq istəyəcək. Dostlarım var, onlar orada, Göyçə gölünün, ermənicə Sevan gölünün sahillərində necə yaşadıqlarını hələ də xatırlayan yaşlı insanlardır, – yeri gəlmişkən, onların çoxu ermənicə bilir, – bu gün onlar bu imkandan məhrumdurlar. Mənim tanıdığım ermənilər var ki, onların bir çoxu eynilə Azərbaycana gəlmək istərdilər, hansı ki, nəsilləri üçün vətən olub. Ona görə də bu humanitar mübadilə, ədalətin, Qafqazın öz ənənələri ilə əsl bütövlüyünün bərpası, etnik təmizləmənin olmaması prosesi haqqında nə düşünürsünüz? Bu, zənnimcə, Gürcüstana da aiddir. Burada mənim mövqeyim dəyişməz olaraq qalır. Hər bir gürcü qovulduğu torpaqlara qayıtmalıdır. Mən bunu bir Rusiya vətəndaşı kimi cəsarətlə deyirəm. Bu prosesdə hər hansı irəliləyiş olacaqmı? Azərbaycanlılar öz Vətənlərini – Qərbi Azərbaycanı görəcəklərmi?

**Prezident İlham Əliyev:** Sağ olun, sualınıza görə təşəkkür edirəm. Bu məsələ ilə bağlı nə düşündüyüm barədə cavab verməzdən əvvəl demək istərdim ki, azərbaycanlılar hələ XX əsrin əvvəllərində - 1918-ci ildə və müharibədən dərhal sonra, - mən İkinci Dünya müharibəsini nəzərdə tuturam, - Qərb ölkələrində yaşayan ermənilərin Ermənistana köçürülməsi və onların yerləşdirilməsi kimi tam düşünülmüş bir bəhanə ilə indiki Ermənistan ərazisindən deportasiyaya məruz qalıblar. O vaxt, 1940-1950-ci illərdə sovet hökuməti tərəfindən bir neçə qərar qəbul edildi və yüz minlərlə insan Qərbi Azərbaycanda yaşadıqları, məskunlaşdıqları ərazilərdən sürgün olundu. Yaşayış üçün yararsız, Zəngəzur, Göyçə və digər yerlərdəki təbii-iqlim şəraitindən tamamilə fərqli olan Kür-Araz ovalığına deportasiya edildi. Onların çoxu, sadəcə, dözə bilməyib və vəfat edib. Həm də, prinsipcə hər şey, əlbəttə, 1980-ci illərin sonlarında baş verən etnik təmizləmədən başladı. Çünki yenə də sualınızın əvvəlində yalan rəvayətlərlə bağlı dediyiniz o şərhlərə qayıdaraq, bütün bunlar barədə Qərbin, o cümlədən Rusiyanın, 1990-cı illərin Rusiyasının media məkanında danışılmayıb. Onlar bu barədə susublar. Qafan bölgəsində və başqa rayonlarda azərbaycanlıların Ermənistan ərazisindən vəhşicəsinə deportasiyası haqqında tamamilə susarkən, Ermənistanın yalan hekayəsinə dair yüz faizli birtərəfli meyil var idi. Prinsipcə, elə hər şey də buradan başladı. Bu, sonradan böyük yanğına çevrilən qığılcım idi. Beləliklə, xalqımız deportasiyanın bütün əzablarını yaşadı.

Konkret suala gəldikdə isə, mən əminəm ki, həmin gün mütləq gələcək. Burada biz, əlbəttə ki, Ermənistan rəhbərliyinin siyasi iradəsinə, bəyan etdiyi demokratiya və qanunun aliliyi prinsiplərinə sadiqliyinə ümid bəsləyirik. Bilirsiniz, hələ ötən ilin sentyabrında antiterror əməliyyatı keçirilməmişdən əvvəl, biz Qarabağın erməni əhalisinin nümayəndələrini dəfələrlə görüşlərə, söhbətlərə dəvət etmişdik. Mən parlamentin üzvləri arasından Prezidentin xüsusi nümayəndəsini təyin etdim, o, Qarabağın erməni əhalisi ilə təmasların qurulması və onların sonrakı yaşayışının və həyat fəaliyyətinin müəyyən edilməsi üçün xüsusi olaraq təlimatlandırıldı. O vaxt Qarabağ ermənilərinin nümayəndələri ilə hətta ilk görüş hələ nəzarətimiz altında olmayan ərazidə, Xocalıda, Rusiya sülhməramlı kontingentinin bazasında baş tutdu. Ancaq biz həm də o vaxt təklif etdik ki, növbəti görüş artıq nəzarətimiz altında olan ərazidə baş tutsun. Lakin ovaxtkı separatçı rejim bundan imtina etdi. Bir neçə ay ərzində biz onları iki dəfə görüşə dəvət etdik və iki dəfə imtina edildi, bundan sonra isə prosesdə iştirak etməyə çalışan bir çox beynəlxalq oyunçular bizə sual ilə müraciət etdilər: bəs onların həyat fəaliyyəti necə təmin ediləcək? Ona görə də biz reinteqrasiya layihəsini sadəcə olaraq internetdə yerləşdirməyə məcbur olduq. Layihəyə giriş açıqdır. Düşünürəm ki, bu problemlə maraqlananların çoxu onun məzmunu ilə tanış olub. Orada hər şey aydın şəkildə qeyd edilib. Onların orada, Azərbaycan ərazisində hansı şərtlər daxilində – vətəndaşlığı qəbul edəcəkləri təqdirdə qala biləcəkləri qeyd olunmuşdu və bunun necə etməyin qaydası, iş və yaşayış icazəsinin alınması şərtləri göstərilmişdir. Yəni, başqa ölkənin vətəndaşının digər ölkədə daimi yaşaya bilməsinin hər hansı başqa forması, sadəcə olaraq, mövcud deyil. Bundan da imtina edildi. Yəni, o vaxt bizim nəzarətimizdə olmayan Qarabağda yaşayan erməni millətindən olan vətəndaşların təhlükəsiz həyatını təmin etmək baxımından biz mümkün qədər konstruktiv idik. Sentyabrın 20-də biz nəzarəti bərpa edərək separatizmə son qoyanda yenə erməni əhalisinin nümayəndələri ilə bir neçə görüş keçirildi, amma yenə də nəticə əldə olunmadı. Bu dediklərim bizim məsələyə olan yanaşmamız haqqındadır. Təbii ki, biz Ermənistan hökuməti tərəfindən də eyni yanaşmanı gözləyirik. Biz onlardan açıq-aydın bəyanat gözləyirik ki, bugünkü Ermənistan ərazisindən, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlılar, yaxud oradan didərgin salınanların övladları və nəsilləri öz tarixi torpaqlarına necə qayıda və həmin yerlərə gedə bilərlər, yaxud həmin torpaqlarda necə yaşaya bilərlər. Üstəlik, bizdə olan kifayət qədər mötəbər məlumatlara görə, azərbaycanlıların yaşadığı kəndlərin 90 faizində indi həyat yoxdur, yəni həmin yerlər boşdur, oralar Füzuli, Ağdam və digər yerlər, habelə bütün digər Azərbaycan kəndləri 30 il ərzində dağıdıldığı kimi yerlə-yeksan edilib. Orada bəzi kəndlərdə isə erməni əhalisi məskunlaşıb. Ona görə də mən çox inanıram ki, həmin gün mütləq gələcək. Mən bu barədə dəfələrlə danışanda, təbii ki, erməni diasporunun nəzarətində olan beynəlxalq müstəvilərdə məni az qala işğalçı fikirlərə düşməkdə ittiham etməyə başladılar. Mən dedim ki, biz oraya tanklarla yox, avtomobillərlə gələcəyik. Mən bunu indi də deyirəm. Düşünürəm ki, bu mesaj, bugünkü erməni rejiminin

sponsorlarının, xüsusən Parisdə və digər Qərb paytaxtlarındakıların onlara çox aydın şəkildə çatdırmalı olduğu ismarışlardan biridir. Axı, indi onlar özlərini ən qabaqcıl avropalılar kimi qələmə verirlər. Qoy onlar Avropa İttifaqına xas olanı – milli azlıqların, onların dilinin, tarixinin, mədəniyyətinin necə qorunmalı olduğunu nümayiş etdirsinlər. Bunu sözdə deyil, əməldə nümayiş etdirsinlər. Düşünürəm ki, burada təkcə Azərbaycanın istəyi, yaxud Azərbaycanın fəaliyyəti kifayət etməyəcək. Zənnimcə, bu məsələyə beynəlxalq media qurumları və beynəlxalq qeyri-hökumət təşkilatları qoşulsaydı, çox yaxşı olardı. Çünki Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların və onların nəsillərinin sayı bu gün Azərbaycanda milyonlarladır. Əgər buna Azərbaycanın region kontekstindən yanaşsaq, bu, əhalisinin sayına görə ölkəmizin ən böyük regionudur.

**Moderator Rebekka Maklaflin-İstham:** Təşəkkür edirəm. “Haber Global”dan olan nümayəndənin sual verməsini istərdim.

Türkiyənin “Haber Global” televiziyasının aparıcısı Saynur Tezen: Cənab Prezident, dəvətə görə təşəkkür edirəm. Bu gün Qarabağda, Şuşada olmağımdan şərəf hissi keçirirəm, xüsusilə də nəzərə alsaq ki, bu ərazilər 30 il ərzində işğala və dağıntıya məruz qalıb. Fantastik dəyişikliklərin şahidi oldum.

Mən “Haber Global”dan, İstanbuldan olan jurnalistəm. Hazırkı vəziyyət, sülh sazişi ilə bağlı vəziyyət nədən ibarətdir? Noyabrın 8-i Qarabağda Qələbə əldə edildi. 2023-cü ilin sentyabrında antiterror əməliyyatı keçirildi və bununla da Qarabağın erməni işğalına son qoyuldu. Bu da Azərbaycanın ərazi bütövlüyünün tam bərpası ilə nəticələndi. Sülh sazişi hələ də imzalanmayıb. Siz bəyan etmisiniz ki, Ermənistan konstitusiyasında dəyişiklik edilməsi sülh müqaviləsinin imzalanması üçün başlıca şərtdir. Son zamanlar Ermənistanın baş naziri Paşinyan tərəfindən bəyanatlar verilib ki, o, sülh tərəfdarıdır. O, parlamentdə çıxışında da qeyd edib ki, sülh tərəfdarıdır. Ancaq revanşist abhavanı nəzərə alsaq, Prezident Ərdoğana da bu sual veriləndə, o dedi ki, yanlış tarixi narrativlərdən uzaqlaşmaq lazımdır və realist yanaşma nümayiş etdirilməlidir. Prezident Ərdoğan qeyd etdi ki, Paşinyan artıq bunu başa düşüb. Ermənistan, erməni diasporu və revanşist qüvvələr də bunu dərk etməlidir. Ümid edirəm ki, Ermənistan düzgün qərar qəbul edəcək. Çünki imkanlar hər zaman olmur və bu fürsətdən istifadə etmək lazımdır. Bu, Prezident Ərdoğanın sözləridir. Yəni, bu imkandan yararlanmağın şərtləri hansılardır və Sizcə sülh sazişi nə zaman imzalanacaq?

**Prezident İlham Əliyev:** İcazənizlə, mən əvvələ qayıdım, İkinci Qarabağ müharibəsinin sonuna. O zaman ATƏT-in keçmiş Minsk qrupu fəaliyyətdə idi və onların nümayəndələri, bilirsiniz ki, orada üç həmsədr var idi, onlar Azərbaycana gəldilər, səfərdə oldular və mən anladım ki, onlar nə edəcəklərini bilmirlər. Yəni, gələcək addımları nədən ibarətdir onu bilmirdilər. Çünki münaqişəyə və işğala Azərbaycan özü son qoydu və 20 il ərzində razılaşdırılmış bütün prinsiplər tərəfimizdən təmin edildi. Yəni, biz bunu etdik.

Bizim ölkə və şəxsən mən sülh sazişi üzərində işləməyi təklif etdim. Mənim fikrim ondan ibarət idi ki, Qarabağ münaqişəsi həll edilib. Biz nə etməliyik ki, iki ölkə münasibətləri normallaşsın. Bu, açıq şəkildə Azərbaycan tərəfindən bəyan edildi. Ancaq Ermənistandan bir cavab gəlmədi. Bir müddətdən sonra biz prinsiplərimizi elan etdik. Bu, beş prinsipdir, təməl prinsipləridir, beynəlxalq hüququn prinsipləridir. Əminəm ki, bu işlərlə məşğul olanlar bilir mən nədən danışıram. Yenə də Ermənistana çox uzun müddət lazım oldu ki, buna razı olsunlar. Yəni, o zamandan etibarən danışıqlar bizim təşəbbüsümüzlə başladı. Həmin danışıqlar bir müddət davam etdi və burada heç bir ciddi irəliləyiş olmadı. Bunun bir xüsusi səbəbi var idi, çünki Ermənistan həmin sülh sazişinə dırnaqarası “Dağlıq Qarabağ” məsələsini daxil etmək istəyirdi. Biz bunun qəti əleyhinə idik. Çünki bu, bizim daxili məsələmizdir. Daxili məsələlər müzakirə mövzusu ola və təbii ki, sazişə də daxil edilə bilməz. Bu məsələ açıq qaldıqca digər məsələlər haqqında, o qədər də əhəmiyyətli olmayan məsələlər haqqında danışmağın mənası yox idi. Azərbaycan öz suverenliyini ötən ilin sentyabrında bərpa etdikdən sonra biz daha üç ay gözlədik ki, Ermənistan nəhayət, danışıqlara yenidən başlasın. Yəni, praktiki baxımdan mahiyyət etibarilə real danışıqlar altı aydır – dekabr ayından başlayaraq gedir və o, xarici işlər nazirləri səviyyəsində həyata keçirilir. Müxtəlif ölkələrdə bir neçə görüş keçirilibdir.

Sülh sazişinin mətninə gəldikdə, mənə xarici işlər naziri tərəfindən verilən məlumata görə, mətnin 80-90 faizi razılaşdırılıb. Ona görə də Ermənistan həmin o müddəanı və terminologiyanı oradan götürməyə razı oldu və beləliklə, normallaşma prosesində irəliləyiş baş verdi. Ancaq burada yenə də hazırda iki məsələ var. Birincisi, Ermənistan bizim təkliflərə müsbət cavab verməlidir ki, həm Ermənistan, həm Azərbaycan birgə ATƏT-ə müraciət etsin ki, Minsk qrupu ləğv edilsin. Çünki artıq uzun müddətdir bu qrup fəaliyyətsizdir, bəlkə də bir-iki ildir. Minsk qrupunun fəaliyyətdə olması üçün heç bir səbəb yoxdur. Çünki həmsədrlər de-fakto bir-biri ilə müharibədədir, yəni onların ikisi digərinə qarşı bir yerdədirlər. Fransa burada bütün imkanlardan məhrum edilib. Onlar nəinki vasitəçi, heç bu regionda ola bilməzlər. Onlar Cənubi Qafqaz regionunda bizim razılığımız olmadan mövcud ola bilməzlər. Bizsiz onu etmək istəyirlərsə, onlar uğursuzluğa düçar olacaqlar və bu, bir daha onlar üçün çox acınacaqlı və ağrılı bir məsələ olacaq. Yəni, Minsk qrupunun burada bir növ “canlı” saxlanılmasında nə fayda var, nə məqsəd var?! ATƏT daxilində konsensus şəklində qərarlar qəbul edilir. Ermənistan Minsk qrupunu hələ də fəaliyyətdə saxlamaq istəyirsə, bu o deməkdir ki, Ermənistanın hələ

də Azərbaycana qarşı ərazi iddiası var və bu, çox ciddi bir faktordur. Bu, bir testdir, bu, bir göstəricidir. Onlar bəyanatlarında bəzən bir şey deyirlər, əməldə isə tam fərqli hərəkət edirlər. Onlar bu gün ən yüksək səviyyədə deyirlər ki, "Qarabağ Azərbaycandır!". Halbuki 2019-cu ildə bir neçə kilometr buradan uzaqda həmin şəxs çox emosional şəkildə bəyan edirdi ki, "Qarabağ Ermənistandır!". Bu gün həmin adam deyir ki, "Qarabağ Azərbaycandır!". Bu, çox gözəl transformasiyadır və mən bunu təqdir edirəm. Ancaq indi bunu əməli addımlarla sübut etmək lazımdır. Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə birgə müraciət edilməlidir.

Növbəti şərt odur ki, Ermənistan konstitusiyasında dəyişikliklər edilməlidir. Bizim onların daxili işlərinə hər hansı bir müdaxilə etmək niyyətimiz yoxdur. Ermənistan konstitusiyasında müstəqillik barədə müddəa var və orada Azərbaycanın ərazi bütövlüyünə qarşı təhlükə var, təhdid var. Orada Ermənistanın və dırnaqarası "Dağlıq Qarabağ"ın birləşməsindən söhbət gedir. Yəni, bu müddəa o konstitusiyada olduğu müddətdə sülh sazişi mümkün deyil. Bir daha demək istəyirəm ki, məni hər kəs yaxşı başa düşsün. Ermənistanın daxili işlərinə bizim hər hansı müdaxiləmizdən söhbət gedə bilməz. Ancaq konstitusiyada belə bir maddənin olması sülh sazişini mümkünsüz edir. Çünki konstitusiya hər hansı bir beynəlxalq müqavilədən üstün sənəddir. Ona görə biz o vəziyyətdə olmaq istəmirik ki, bir gün onlar yenə də öz fikirlərini dəyişəcəklər və biz sentyabrda atdığımız addımları təkrar etməyə məcbur qalacağıq.

Bununla yanaşı, mətn üzərində danışıqlar davam edir. Deyə bilmərəm ki, xarici işlər nazirləri növbəti görüşü nə zaman keçirəcək? Bu gün mən daha az nikbinəm. Çünki bildiyiniz kimi, baş nazir Paşinyan mənimlə Britaniyada görüşməkdən imtina etdi. Bu, Britaniya Hökumətinin təşəbbüsü idi. Təklif o idi ki, bizim aramızda belə bir görüş keçirilsin, həmin Oksford tədbiri çərçivəsində. Ermənistan tərəfi bu təklifi rədd etdi. Biz buna çox təəccübləndik, çünki dörd ay bundan əvvəl Kansler Şolts Münxen şəhərində bənzər bir görüş təşkil etdi. O, görüşdə iştirak edirdi, 5-6 dəqiqə ərzində bizimlə bir yerdə oldu, sonra otağı tərk etdi. Detallar bu idi. Belə bir format düşünülmüşdü ki, o, giriş sözündən sonra otağı tərk etsin. Beləliklə, görüşümüz ikitərəfli qaydada davam etdi. Britaniya Hökuməti də eyni təklifi verdi. Görüşdə Britaniyanın Baş naziri iştirak edəcəkdi və sonra çıxacaqdı. Baş nazir Paşinyan bundan imtina etdi. Yəni, o, mənimlə danışmaq istəmirsə, hansı sülh sazişindən söhbət gedə bilər. O, Britaniyanın Baş naziri ilə danışmaq istəmirsə, Londona və Oksforda niyə səfər edirdi? Yəni, bir sıra məsələlərdə çox ciddi ziddiyyət var. Ancaq biz baxacağıq, dediyim kimi, mən Londondan dünən qayıtmışam. Bir istiqamət mətndir – sülh sazişinin mətni, digəri isə, əlbəttə ki, dediyim kimi, Ermənistan konstitusiyasıdır.

**Moderator Rebekka Maklaflin-İstham:** Çox təşəkkür edirəm. Professor Paulo Liebl Fon Şirak, söz sizindir. O, Vaşinqtonun Bey Atlantik Universitetini təmsil edir.

**Paulo Liebl Fon Şirak:** Təşəkkür edirəm, cənab Prezident. Mən ötən il də bu tədbirdə iştirak etmişəm. Bir daha təşəkkür edirəm ki, məni dəvət etmisiniz. İcazənizlə, Qərbi Azərbaycan məsələsinə toxunmaq istəyirəm. Biz Vaşinqtonda bir neçə gün öncə Qərbi Azərbaycan İcmasının nümayəndəsi ilə də görüşdük, bunu ətraflı müzakirə etdik. Biz bilirik ki, bu məsələ ilə bağlı necə qərəzli işıqlandırma var. Üç yüz min azərbaycanlının oradan didərgin salınması ilə bağlı heç kəsdə məlumat yoxdur. Burada hər hansı kompensasiya edilməyib, bunun hər hansı bir əsaslandırılması olmayıb, təqdim edilməyib. Mən şadam ki, belə bir görüş keçirildi və biz məlumatlandırıldıq.

Mənim sualım COP29-la bağlıdır. Bildiyiniz kimi, Qərbin dünyanın həyatına təsir və dekarbonizasiya ilə bağlı öz iddiaları var. Ola bilər, bu, bu gün baş verməyəcək, yaxşı fikirdir. Ancaq bu, nə qədər realdır? Mən səmimi şəkildə deyə bilərəm ki, neft-qaz aktuallığını saxlayacaqdır. Mən ABŞ-ı təmsil edirəm və orada biz bu məsələyə 100 milyardlarla dollar xərcləmişik. Ancaq ötən il ABŞ tarixində neft-qaz sahəsində ən böyük hasilata nail olundu. Bu, Bayden Administrasiyası dövründə baş verdi. O Administrasiya ki, yaşıl enerji məsələsinə sadiqdir və mənim sualım bundan ibarətdir. Siz tezliklə COP29-a ev sahibliyi edəcəksiniz. Siz neft-qaz hasil edən ölkəsiniz. Siz ötən il dediniz ki, biz bərpaolunan enerji sahəsində irəliləyəcəyik. Siz hər iki istiqamətdə irəliləyə bilirsiniz. Burada Siz bu narrativləri bir növ idarə edə bilirsiniz. Yəni, Sizin dünyaya mesajınız nədən ibarətdir? Bəli, biz yaşıl enerjiyə sadiqik, ancaq bu texnologiya hələ tam hazır deyil. Bunlar çox bahalı təşəbbüslərdir. Dünya buna hələ hazır deyil və Siz qeyd etdiyiniz kimi, ölkəniz Qlobal Cənub və Qlobal Şimalla körpü ola bilər. Siz neft hasilatçısısınız, Sizin ölkədən İtaliyaya qədər uzanan boru kəmərləriniz var. Sizin bu baxımdan - hibrid atmosferdə yaşamaqla bağlı, yəni, həm faydalı qazıntı növlərindən istifadə edərək, həm də yeni bərpaolunan enerjiyə diqqətin təmin edilməsi ilə bağlı mesajınız nədən ibarətdir? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Mənim mesajım qısa şəkildə ola bilər. Mən deyərdim ki, riyakarlığa son qoyulmalıdır. Mən deyə bilərəm ki, ötən görüşümüzdən bu günədək Azərbaycan bərpaolunan enerji sahəsində böyük nailiyyətlərə imza atıb. Biz ən böyük Günəş Elektrik Stansiyasını - 230 meqavat gücündə stansiyanı istifadəyə verdik. İndi isə 240 meqavatlıq külək elektrik enerjisi stansiyası ilə bağlı işlər yekunlaşır və tezliklə biz 240 meqavatlıq Günəş Elektrik Stansiyasının açılışını edəcəyik. Birinci layihə "Masdar" şirkəti, ikinci layihə isə "Acwa Power" şirkəti tərəfindən həyata keçirilir. Üçüncüsü isə BP tərəfindən inşa ediləcək. Yəni, bunlar dünyanın aparıcı enerji şirkətləridir. Bununla yanaşı, ötən ay Bakıda biz üç Günəş və külək

elektrik stansiyasının təməlini qoyduq, ümumi həcm bir qiqavatdır. Biz bu sahədə çox böyük işlər görürük. Böyük potensialımız var, həm texniki, həm də iqtisadi potensialımız. Texniki baxımdan dənizdə külək enerjisi potensialı 157 qiqavatdır. Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına görə, iqtisadi baxımdan quruda Günəş və külək stansiyalarının potensialı, göstərir ki, biz 27 qiqavat həcm istehsal edə bilərik, yəni, həcm böyükdür.

Bununla yanaşı, biz texniki əsaslandırma işləri həyata keçiririk. Söhbət Xəzər dənizindəki külək enerji stansiyalarından Rumıniyaya Qara dənizin dibi ilə uzanacaq elektrik kabel layihəsindən gedir. Orada da potensial dörd qiqavatdır. Biz "Acwa Power" şirkəti ilə saziş imzalamışıq ki, istehsal edilən bərpaolunan enerjinin saxlanma şəraiti olmalıdır, imkanlar olmalıdır. Çünki bu, ən böyük problemdir. Siz bunu istehsal edə bilərsiniz, ancaq bir növ nəhəng bir batareya şəklində inşa ediləcək bu layihə. Ona görə də biz oraya həm sərmayə cəlb edirik və bu işə öz sərmayəmizi də yatırırıq. Bununla yanaşı, bu, bizə imkan verəcək ki, təbii qaza qənaət edək. Bu gün Avropanın bizim qaza böyük ehtiyacı var. Mən nəyə görə dedim ki, gəlin riyakarlığa son qoyaq?! Bir tərəfdən Avropa bizdən xahiş edir ki, hasilatı artıraq və onu Avropaya nəql edək. Çünki onların buna ciddi ehtiyacı var. Digər tərəfdən, onlar bunu maliyyələşdirmirlər və bu, mənim avropalı həmkarlarımla müzakirələrimdə mövzudur. Avropa İnvestisiya Bankı faydalı qazıntı yanacağı ilə bağlı layihələri maliyyələşdirməyi tamamilə dayandırıb. Avropa Yenidənqurma və İnkişaf Bankı demək olar ki, bu sahəyə maliyyə ayırmır. Cənub Qaz Dəhlizi - bu, 3500 kilometr uzunluğunda olan inteqrasiya edilmiş boru kəməridir, tam həcmdə, 100 faiz həcmlə işləyir. Bu gün Avropa ölkələrinin əlavə qaza böyük ehtiyacı var. Biz Sloveniyadan olan bir şirkətlə saziş imzaladıq və bu da Azərbaycanın doqquzuncu tərəfdaşıdır ki, bizim qazın istehlakçısı olacaqdır. Ancaq Avropanın maliyyə institutları bunu maliyyələşdirmir. Onlar istəyirlər ki, biz Cənub Qaz Dəhlizini 16 milyard kubmetrdən 32 milyard kubmetrə qədər genişləndirək. Söhbət TANAP-dan gedir və TAP-ı 10 milyarddan 20 milyard kubmetrə çatdıraq. Biz oraya milyardlarla pul yatırmalıyıq. Deyə bilərəm ki, Cənub Qaz Dəhlizinə yatırdığımız sərmayənin hələ də tam mənfəətini götürməmişik və bizim neft-qaz sahəsindən əldə etdiyimiz gəlir hələ də bu borcun ödənilməsinə yönəlib. Onlar gözləyirlər ki, biz oraya milyardlarla vəsait yatıraq və eyni zamanda, deyirlər ki, 10 ildən sonra Avropa İttifaqının qaza ehtiyacı yoxdur. Yəni, biz ağılsızıq ki, onların ehtiyacı olmadığı qaza 10 milyardlarla vəsait qoyaq? Yəni, sonra da deyək ki, bizim qazımız haradadır. Yəni, mənim mesajım o oldu ki, gəlin, bu oyuna son qoyaq, faydalı qazıntı yanacağı olmadan yaşamaq mümkün deyil. Bu, birincisi.

İkincisi, mən bilirəm ki, Avropa şirkətləri bərpaolunan enerjiyə nə qədər yatırım edirlər. Mən bunu təqdir edirəm. Ancaq beynəlxalq ekspertlərin hesabatına görə, nə qədər etsələr də, bu, dünyanın və Avropanın ehtiyacını tam ödəyə bilməyəcək və ona görə də biz həmin kabel üzərində işləyirik. Layihə təkcə bu deyil. Biz Özbəkistan və Qazaxıstanla bir neçə ay bundan əvvəl Xəzər dənizinin dibi ilə gedəcək elektrik kabeli haqqında saziş imzalamışıq və bunun texniki əsaslandırılması olacaq. Onların da bu sahədə təcrübəsi var. Bizim planlarımız istədiyimiz kimi həyata keçsə, Özbəkistan və Qazaxıstandan Xəzər dənizindən keçərək Azərbaycana, Gürcüstana, Türkiyə və Rumıniyaya uzanacaq kabel xətti inşa edə bilərik. Yəni, bu layihə Cənub Qaz Dəhlizindən də daha böyük layihə olacaq. Amma bizim əməkdaşlığa, eyni zamanda, koordinasiyaya ehtiyacımız var.

Bu günə qədər doqquz və ya on dəfə, hər ilin fevral ayında Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclası keçirilib. İclasda onlarla ölkədən nümayəndələr iştirak edir. Buna sədrliyi Azərbaycan və Avropa İttifaqı edir və bu mövzulardan biri də məhz yaşıl enerjidir. Biz sinerjinin tərəfdarıyıq. Yəni, bir işi görüb, digərini görməsək, bu, mümkün olmayacaq. Burada şüurlu yanaşma və həm istehsalçı, həm tranzit, həm istehlakçı ölkələr arasında maraqların balansı olmalıdır.

**Moderator Rebekka Maklaflin-İstham:** Çox sağ olun, cənab Prezident. Bu, COP29-un da əsas mövzularından biridir. Növbəti sual Ramis Yunisdəndir.

**Ramis Yunis:** Hörmətli cənab Prezident, Sizi Qarabağın tacı olan müqəddəs Şuşa şəhərində salamlamaq mənim üçün böyük şərəfdir. Bu fürsətə görə mən şəxsən Sizə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Allah Sizdən razı olsun, Allah Azərbaycan xalqını qorusun!

**Prezident İlham Əliyev:** Vətənə xoş gəlmisiniz.

**Ramis Yunis:** Təşəkkür edirəm. Cənab Prezident, nəzərə alsaq ki, bu gün bu möhtəşəm tədbirdə çoxlu sayda hörmətli qonaqlar iştirak edir, icazənizlə, mən öz sualımı ingilis dilində Sizə ünvanlayım.

**Prezident İlham Əliyev:** Buyurun.

**Ramis Yunis:** Təşəkkür edirəm. Hörmətli cənab Prezident, mənim üçün burada - müqəddəs Qarabağın müqəddəs Şuşa şəhərində olmaq böyük şərəfdir. Bu imkana görə təşəkkür edirəm. Mənim sualım ABŞ-Azərbaycan əlaqələri barədədir. Bildiyiniz kimi, noyabrda ABŞ-da seçkilər olacaq. Siz seçkilər haqqında cənab Qusmanın sualına çox gözəl diplomatik cavab verdiniz. Mənim sualım seçkilər barədə deyil. Eyni zamanda, Sizin hər iki – həm Respublikaçılar, həm Demokratlarla əlaqələrdə yaxşı təcrübəniz var. Cənab Prezident, Sizcə, Demokratlar və ya Respublikaçılar administrasiyalarından hansı ilə daha yaxşı, necə deyərlər, dil tapmaq olur. Sizcə, Ağ evdə dəyişikliyin regionumuzla bağlı hansı nəticələri olacaq, hansı dəyişikliklər olacaq?

**Prezident İlham Əliyev:** Bir daha sizi bu uzun illərdən sonra Vətəndə salamlamaq xoşdur. Əlbəttə ki,

Azərbaycan-ABŞ əlaqələri, onun görünən tərəfi haqqında danışdıqda, bizim Respublikaçılar hakimiyyəti ilə daha nəzərəçarpacaq dərəcədə uğurlu və nəticəyönümlü əlaqələrimiz olubdur. Siz mənim Amerika liderləri ilə əlaqələrimə, təmaslarıma nəzər salsanız, bu, aydın olar. Eyni zamanda, Prezident Trampın prezidentliyi dövründə bizim çox səmərəli əməkdaşlığımız olub. Bu əməkdaşlıq qarşılıqlı hörmət üzərində qurulmuşdur və qarşılıqlı dəstəyin yüksək qiymətləndirilməsindən ibarət idi.

Bizim ABŞ-la münasibətlərimiz demək olar ki, hər zaman sabit olub. Əlbəttə ki, müəyyən enişli-yoxuşlu dövrlər olub və o da bizim günahımız deyildi. Çünki bəzən Azərbaycanla bağlı müəyyən şişirdilmiş gözləntilər olub. Digər tərəfdən, onlar bizim siyasi həyatımıza müdaxilə etməyə çalışıblar, siyasi müxalifəti maliyyələşdirmək cəhdləri ediblər. Bu cəhdlər birbaşa və ya müəyyən QHT-lər vasitəsilə olub. Bildiyiniz kimi, Azərbaycan balaca ölkədir və Bakıda hər kəs hər şeyi bilir. Ona görə bunu gizlətmək çətin olardı. Bütün bu enişli-yoxuşlu dövrlərə baxmayaraq, biz münasibətlərə strateji, vacib mövqedən yanaşmışıq və biz burada mümkün qədər əlimizdən gələni etməyə çalışmışıq. Xüsusilə də bizim praktiki baxımdan sülhməramlı əməliyyatlarda iştirakımızı nəzərdə tuturam.

Bildiyiniz kimi, bu əməliyyatlar başlayanda Azərbaycan ilk qeyri-NATO ölkəsi idi ki, Əfqanıstanda həmin əməliyyatlara qoşuldu və oradan sonuncu çıxdı. ABŞ qoşunları ölkəni tərk etdi və daha dəqiq desək, oranı qoyub qaçdılar. Biz hələ də orada idik. Biz Türkiyənin Silahlı Qüvvələri ilə birlikdə hava limanını tərk edən sonuncu ölkələr olduq. Bu idi bizim tərəfdaşlığımız. Əfqanıstanla bağlı onların bizə ehtiyacı var idi. Mən xatırlayıram ki, ABŞ-ın yüksəkrütbəli məmurları və nəqliyyat komandanlığı, Müdafiə Nazirliyinin nəqliyyat komandanı Azərbaycana dəfələrlə gəlirdilər və bizə minnətdarlıq bildirirdilər ki, Azərbaycan "Şimal şəbəkə" adlandırılan bir dəhliz idi və biz onun tərkib hissəsi idik. Onu da qeyd etmək lazımdır ki, Əfqanıstana gedən əsas marşrut çox çətin marşrut idi. Ancaq Əfqanıstanda missiya başa çatdıqdan sonra onların etdikləri nə oldu? Onlar yenidən bizə qarşı sanksiyanı bərpa etdilər. Mən 907-ci düzəlişdən danışıram. Buna heç bir məntiqi əsaslandırma və izah təqdim etmədən, bu da onların bizə təşəkkürü. Uzun illər ərzində biz onlara qarşı etdiyimizin və yaxşı tərəfdaş olduğumuzun müqabilində Azərbaycan xalqı nə düşünə bilər bu Administrasiya haqqında? Yəni, deməli, siz onlara lazım olanda olursunuz yaxşı bir adam, yaxşı bir ölkə, sizin haqqınızda təriflər yağdırırlar. Onların sizə ehtiyacı olmayanda nəinki sizə biganə yanaşırlar, hətta sanksiyalar tətbiq edirlər. Nəyə görə? Çünki biz suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etmişik. Mən bunu demək olar ki, bütün liderlərə demişəm bir neçə gün öncə Oksfordda – Britaniyada. Çünki onlar hamısı mənə Ermənistan haqqında, sülh sazişi haqqında suallar verirlər. Sanki Avropada bütün məsələlər həll edilib və Ermənistan-Azərbaycan məsələsi yerdə qalan yeganə problemdir. Mən təəccüb edirdim ki, onlar hər zaman bütün söhbətlərdə bu məsələni qaldırırlar. Mən heç vaxt Avropa liderləri və ya digər liderlərlə danışığımda bizə, mənə şəxsən aid olmayan heç bir məsələni müzakirə etmirəm. Mən bu görüşlərdə onlara izah etməyə çalışırdım ki, bizim etdiyimiz sizin dəstəklədiyiniz tərəfin hərəkətlərindən heç nə ilə fərqlənmir. Fərq ondan ibarətdir ki, bütün milyardlarına rəğmən, onlar uğursuz oldular, biz isə bunu bacardıq. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini geri qaytardıq. Bunu hərbi və siyasi yolla etdik və dərhal bizə qarşı sanksiya tətbiq edildi. Yəni, bu, çox məyusedici bir haldır. Həmin o müxtəlif bəyanatlarda bizə qarşı istifadə edilən terminlər, yəni, "Azərbaycanla bundan sonra əlaqələr əvvəlki kimi ola bilməz", belə bir bəyanat verdilər, amma nə oldu? Yenidən adi qaydada əlaqələrə qayıtdıq. Yəni, biz həmin o şişirdilmiş gözləntiləri təmin etmək üçün heç bir şey etmədik, heç bir addım atmadıq. Ona görə mən bir daha təkrar etmək istəyirəm və cənab Qusman da sualını verəndə artıq cavabı bilirdi. Sizə də təşəkkür edirəm ki, mənə bu barədə sual verdiniz.

Biz hazırkı ABŞ Administrasiyasının fəaliyyətindən, hərəkətlərindən dərindən məyus olmuşuq. Bu, birtərəfli yanaşmadır. Qafqazda ayırıcı xətlərin çəkilməsi olduqca təəccüblüdür. Bildiyiniz kimi, ABŞ Dövlət katibi, Avropa Komissiyasının prezidenti və onların bir növ xarici işlər naziri hesab edilən ali komissarı Brüsseldə görüşdülər. Bu görüşdə onlar Ermənistanın hərbi baxımdan maliyyələşdirilməsi məsələsini müzakirə etdilər. Onlar hərbi sahədə maliyyə ayırmaq məqsədini güdürlər və bu, bizim üçün tamamilə qəbuledilməzdir. Biz bəzən açıq, ictimai şəkildə, bəzən də pərdəarxası mesajlarımızı veririk ki, Azərbaycanın maraqları Cənubi Qafqazda təmin edilməlidir. Kimsə bizim maraqlarımızı görməzdən gəlməyə çalışsa, əlbəttə ki, onlar yanılacaqlar və uğursuzluğa düçar olacaqlar. Biz əlbəttə ki, ABŞ-da prezident seçkilərinin nəticələrindən asılı olmayaraq, mən səmimi deyirəm ki, anti-Azərbaycan fəaliyyətin bir hissəsi prezident seçkiləri ilə bağlıdır. Onlar ermənilərin səslərini qazanmaq istəyirlər. Ona görə də zənnimcə, məqsəd məhz elə bundan ibarət idi. Mən tamamilə obyektiv olmağa çalışıram. Ümid edirəm ki, seçkidən sonra ABŞ-da və Avropada Azərbaycan haqqında, bizim potensialımız, rolumuz haqqında daha yaxşı anlayış olsun. Yəni, biz şou qurmuruq, öyünmürük. Biz bilirik potensialımız nədən ibarətdir və bunu bizimlə əməkdaşlıq edən hər kəs bilir. Bu potensialdan xoş niyyət, xoş məram, konsolidasiya, tərəfdaşlıq üçün istifadə edilməlidir və biz demonizasiya qurbanı olmamalıyıq. Mən cənab Prezident Trampı "Vaşinqton Post" və "Nyu-York Tayms"ı "feyk nyus" adlandırmasını artıq qeyd etdim. Yəni, "Vaşinqton Post" təsəvvür edin ki, redaktorlar səviyyəsində onlarla

məqalə dərc edir. Məni diktator, satrap adlandırırlar. Hikmət Hacıyev bunu bilir. Yəni, bir daha Ramis, sizi görməyə şadam. Vətənə xoş gəlmisiniz.

**Moderator Rebekka Maklaflin-İstham:** Zatialiləri, bizim yenə də müəyyən suallarımız var.

**Prezident İlham Əliyev:** Buyurun, davam edək.

**Rebekka Maklaflin-İstham:** Cordan Morqan, buyurun, xahiş edirəm, ayağa qalxasınız.

**Cordan Morqan:** Cənab Prezident, bir daha Şuşada olmağımdan məmnunam və təşkilatçılara təşəkkür edirəm. Mən Londonda fəaliyyət göstərən QHT-də çalışıram. Bizim əsas istiqamətimiz Fələstin-İsrail münaqişəsidir. Azərbaycanın mövqeyi nədən ibarətdir ki, Qəzza bölgəsində sülh təmin edilsin, ən azı atəşkəs təmin edilsin?

**Prezident İlham Əliyev:** Mən bir neçə dəfə öz mövqeyimi bildirmişəm ki, bu münaqişə ən qısa zamanda dayandırılmalıdır, ona son qoyulmalıdır. Biz uzun illər ərzində siyasi və iqtisadi baxımdan Fələstinə dəstək göstərmişik. Biz onların müstəqil dövlət qurmaq arzusunu hər zaman dəstəkləmişik. Yaxın Şərqdə sülhün təmin edilməsi baxımından iki dövlətli həll yolu yeganə çıxış yoludur: Fələstin dövlət qurmalıdır və Şərqi Qüds onun paytaxtı olmalıdır. Yəni, bu mövqe dəfələrlə tərəfimizdən vurğulanıb. Biz BMT-də seçkilər zamanı da mövqeyimizi bildirmişik, İslam Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq təsisatlarda bununla bağlı mövqeyimizi açıq şəkildə ifadə etmişik. Bu mövqe dəyişməz və aydın olaraq qalır. Bu münaqişə dərhal dayandırılmalıdır. Biz bilirik ki, hazırda müxtəlif vasitəçilik səyləri var. Biz heç bir zaman heç bir yerdə vasitəçi olmağa çalışmamışıq, o yerlərdə ki, bizi heç kəs dəvət etməyib. Əlbəttə, bizə belə bir dəvət daxil olsa, biz öz rolumuzu oynayıb töhfə verə bilərik. Ancaq Ərəb Liqası daha fəal olmalıdır və münaqişəyə dair daha açıq mövqe ifadə etməlidir. Bu, mənim Prezident olaraq mövqeyimdir ki, Ərəb Liqası bir təşkilat olaraq burada daha çox iştirak etməlidir. Bunun obyektiv səbəbləri var.

**Moderator Rebekka Maklaflin-İstham:** Təşəkkür edirəm, cənab Prezident. Mariana Qonçaruk ukraynalı jurnalistdir. Buyurun, söz sizindir.

**Mariana Qonçaruk:** Hörmətli cənab Prezident, mən Ukraynanı təmsil edirəm. Əvvəlcə, mən ölkəmə – Ukraynaya humanitar dəstək göstərdiyinizə görə Sizə təşəkkür edirəm. Ermənistanın hərbi təcavüzü ilə yanaşı, Azərbaycan beynəlxalq mediada dezinformasiyanın da qurbanı olmuşdur. Bizim üçün Azərbaycanın bu dezinformasiya ilə mübarizə sahəsində təcrübəsi çox vacibdir. Çünki bu gün Ukrayna, bildiyiniz kimi, Rusiyanın həm hərbi, həm də informasiya təcavüzünün qurbanıdır. Bizim kimi ölkələrə Sizin tövsiyəniz nədən ibarət olar ki, biz həqiqətləri necə çatdırmalıyıq və bizim nümayəndələrimiz bu sahədə necə əməkdaşlıq edə bilər?

**Prezident İlham Əliyev:** Humanitar dəstəyimizi qeyd etdiyinizə görə təşəkkür edirəm. Bu günədək biz Ukrayna xalqına humanitar və maliyyə dəstəyi göstərmişik. Qırx milyon avroya yaxın yardım edilibdir və bu yardım davam edir, tamamilə şəffaf yardımdır. O, humanitar xarakterlidir. Biz Ukraynada bir neçə, xüsusilə İrpen şəhərində sosial infrastrukturun bərpasını həyata keçirmişik. Bu dəstək davam edəcəkdir. Ukraynalı uşaqlar Azərbaycana gəlir, burada reabilitasiya keçirlər. Biz kömək üçün əlimizdən gələni edəcəyik. Çünki bilirik ki, sizin bu sahədə böyük probleminiz var.

Mediaya gəldikdə, hazırda Ukrayna daha yaxşı vəziyyətdədir. Çünki Qərb mediası sizin tərəfinizdədir. Yəni, bu gün CNN, BBC, “France24”, hətta yapon mediası, Koreya mediası, bütün Qərb və digər media kanalları sizi dəstəkləyir. Bu, bizim vəziyyətdən tamamilə fərqlidir. Ona görə mən burada məsləhətçi olmaq istəməzdim. Əlbəttə, iki ölkə arasında müharibə davam etdiyi vaxtda siz onu gözləyə bilməzsiniz ki, qarşı tərəf sizin haqqınızda nəsə bir müsbət məqalə dərc etsin və ya material yayımlasın. Ona görə münaqişə - Ermənistan-Azərbaycan münaqişəsi bitəndən sonra, yəni artıq bundan xeyli vaxt keçib, hələ də baxırsınız ki, Ermənistan və Azərbaycan mediasında müsbət bir məqalə belə dərc edilsə, o adam xain adlandırılır. Ona görə də siz gözləyə bilməzsiniz ki, Rusiya mediasında və ya onlara yaxın olan mediada ölkəniz haqqında müsbət bir məqalə və ya material dərc edilsin. Yenə də deyirəm, bu gün bütün dünya mediası sizin tərəfinizdədir. Ancaq görürsünüz ki, bu, heç də müharibənin dayandırılması üçün kifayət etmir.

Oksforddakı tədbirlərdə Ukrayna mövzusuna böyük vaxt ayrılmışdı. Mən deyə bilərəm ki, həm açılışda və həm bağlanış sessiyasında, həm plenar sessiyada liderlərin çıxışlarının 90 faizi Ukraynaya həsr edilmişdi. Ona görə bu gün sizin çox güclü dəstəyiniz var. Ancaq yenə də bu, müharibənin dayandırılması üçün kifayət deyil.

Eyni zamanda, mənim müşahidələrimə görə, müəyyən vasitəçilik göstərmək səyləri var. Ancaq bu, əlbəttə, hər iki tərəfdən asılı olan məsələdir, hər iki tərəf danışıqlar aparmağa hazırdırmı. Zənnimcə, danışmaq lazımdır. Sizə bir analogiya gətirə bilərəm: bizim münaqişə davam etdiyi dövrdə Ermənistanla daimi prosesimiz var idi. Əlbəttə, onun heç bir nəticəsi olmadı, ancaq bu proses davam edirdi. ATƏT-in keçmiş Minsk qrupu, – biz onların fəaliyyətindən narazı idik və buna haqqımız da var idi, ancaq buna baxmayaraq, bu proses davam edirdi, danışıqlar var idi. Mən Ermənistanın liderləri ilə dəfələrlə görüşmüşəm, indiki hakimiyyət və ondan əvvəlki prezidentlərlə də danışıqlar aparmışam. Ona baxmayaraq ki, əvvəlki iki prezident Azərbaycana qarşı soyqırımı törədənlər, xüsusilə də Xocalıdakı soyqırımını törədənlərdən idi. Bu, mənim üçün heç də xoşagələn hal deyildi ki, mən məcbur onlarla əl ilə görüşürdüm. Ancaq mən bunu sülh naminə və ərazilərimizin azad edilməsi naminə edirdim və Prezident olaraq bütün hisslərimi, bütün emosiyalarımı kənara qoymalı

idim. Yəni, sən bu vəzifəni daşıyırsansa, emosiyalarını kənara qoyacaqsan. Həmin görüşlər bizə kömək etdimi ərazilərimizi bərpa edək? Məncə bəli, onların xeyri oldu. Detallara varmaq istəmirəm, ancaq bir çoxları anlayır, mən nə haqda danışıram və bütün o illər ərzində biz bunu edirdik. Elə bir dövr var idi ki, biz atəşkəsə razı olmalı olduq. Bu, 1994-cü ildə baş verdi. Bu, çox çətin qərar idi, sizi əmin edirəm və dəfələrlə Qərb ölkələrindən gələn qonaqlar mənə sual verirdilər, bu məsələ necə həll edilə bilər? Mən onlara deyirdim: mənim atam Azərbaycanı məndən az sevmirdi və ya hər hansı bir azərbaycanlıdan az sevmirdi. Ancaq o, məcburən 1994-cü ildə bu atəşkəsə razı oldu, çünki ölkəni xilas etməli idi. O zaman Azərbaycanın faktiki olaraq ordusu yox idi. Biz ordumuzu hələ yeni qururduq və bu proses sonra davam etdi və bu gün biz qürur duya biləcəyimiz ordu qurmuşuq.

Əlbəttə, insan bəzən çətin qərarlar verməli olur və şəxsən mən 17 il idi ki, Prezident idim Qarabağı azad edərkən. Lazım olsaydı, biz daha 17 il gözləyərdik ki, torpaqlarımızı azad edək. O zaman fərqi yoxdur kim prezident olacaqdı. Yəni, bunun heç bir fərqi yoxdur. Bu hadisə bəlkə də bundan 50 il sonra baş verəcəkdi. Yəni burada insan eqoist olmalı deyil. Bu, mənimlə bağlı deyil, fərq etməz lider və prezident kimdir, bu, ləyaqət məsələsi idi və bizim tarixdən dərslərimiz olub. Təkrar edirəm, bəzən biz çətin qərarlar verməli idik ki, əsas məqsədimizə çataq.

Yəni bu, uzun bir hekayədir. Ancaq bu baxımdan Azərbaycanın təcrübəsi maraqlı ola bilər. Yenə də deyirəm, media baxımından bütün dünya mediası sizin arxanızda dayanıbdır. Sizin məsələ beynəlxalq mediada çox gözəl işıqlandırılır və bir daha təşəkkür edirəm ki, bizim Ukrayna ilə bağlı humanitar dəstəyimizi qeyd edirsiniz.

**Moderator Rebekka Maklaflin-İstham:** Təşəkkür edirəm, cənab Prezident. "Radio Latviya"nın nümayəndəsi Ansis Boqustovs buyurun.

**Ansis Boqustovs:** Cənab Prezident, bizi buraya dəvət etdiyinizə görə təşəkkür edirik. Mən Avropa İttifaqının və bu regionun müəyyən ambisiyaları və iddiaları ilə bağlı sualıma cavab almaq istəyəcəyəm. Siz ərazi bütövlüyünüzü bərpa etmisiniz. Bununla bağlı Sizi təbrik edirəm. Ancaq bu ərazilər mina ilə doludur və Siz bu işi necə görürsünüz və nə qədər ailə, keçmiş məcburi köçkünlər artıq qayıdıb? Rəqəmlər nədən ibarətdir? Daha nə qədər ailə qayıdacaq? Bu karbon neytrallığı məsələsinə gəldikdə, o əraziləri bildiyimə görə yaşıl enerji zonası elan etmisiniz. Halbuki Avropa İttifaqı hələ 2050-ci ilə qədər bu məsələni həll edə bilməyəcəkdi. Bunu necə edirsiniz? Hansı vəsait yatırılır? Bu maliyyə mənbəyi nədən ibarətdir? Neft-qaz pullarıdır? Eyni zamanda, minaların təmizlənməsi prosesi necə davam edəcək? Həmin məsələni Ukraynaya da şamil etmək olar.

**Prezident İlham Əliyev:** Təəssüf ki, dünən insident baş verdi, üç nəfər mina partlayışı nəticəsində yaralandı. 2020-ci ildən bu yana 300-dən çox insan ya həlak olub, ya da yaralanıb. Təəssüf ki, nəhayət, Ermənistanın bizə verdiyi mina xəritələri tamamilə yararsızdır, onlar dəqiq deyil. Əvvəl biz onlardan xahiş edəndə deyirdilər ki, – onların baş nazirləri mənə deyirdi ki, – bizdə xəritələr yoxdur. Ancaq sonra etiraf etməli oldular ki, xəritələr var, amma onlar tamamilə yararsız xəritələrdir.

Burada, əlbəttə ki, ən böyük maneə məhz minalardır. Bizim həmin ərazilərin reabilitasiyasının daha sürətli aparılması üçün infrastruktur layihələrinin və yaşayış binalarının inşasına başlamamışdan əvvəl o ərazilər minalardan təmizlənir. Təəssüflər olsun ki, bizim kifayət qədər resursumuz, təcrübəli heyətimiz yoxdur. Beynəlxalq təşkilatlar və şirkətlər bizə elə qiymətlər təklif edirlər ki, hər bir kvadratmetrə təklif edilən qiymət 5-10 dəfə artıqdır. Çünki bizim də özümüzün Minatəmizləmə Agentliyimiz və şirkətlərimiz var. Bu, nə qədər davam edəcək, bunu demək çox çətindir. Bu yaxınlarda Balkanlardan olan bəzi həmkarlarım mənə dedilər ki, hələ də onlarda mina partlayışı olur. Yəni, Balkanlarda münaqişə illərdir sona çatmasına baxmayaraq, hələ də bu hallar baş verir. Təəssüflər olsun ki, biz də onilliklər ərzində bununla üzləşəcəyik. Bu gün bizdə olan məlumata görə, orada bir milyondan artıq mina basdırılıb. Ən qorxulusu o idi ki, 2020-ci ilin 10 noyabr tarixli üçtərəfli Bəyanatından sonra - bizim Laçın dəhlizi üzərində nəzarətimiz olmadığı dövrdə Ermənistandan mina daşınırdı və onlar orada basdırılırdı. Biz bunu necə bilirik? Çünki o minaların üzərində "İstehsal tarixi 2021-ci il, Ermənistanda istehsal edilmişdir" yazıları var. Yəni, təsəvvür edin ki, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra belə onlar bizə qarşı mina terroru həyata keçirirdilər.

Qayıdış məsələsinə gəldikdə, dörd şəhərə və dörd kəndə vətəndaşlar artıq qayıdıblar. Azad edilmiş ərazilərdə artıq 8 minə yaxın əhali yaşayır. İlin sonuna qədər bu rəqəm 20 minə çatacaq. Bir neçə ay əvvəl biz 23 binadan ibarət yaşayış kompleksini istifadəyə verdik, üç, dörd, beşmərtəbəli binalardır. Buraya yaxındır, oranı gedib görə bilərsiniz. Artıq orada sakinlər yaşayırlar. Yəni, Qarabağda və Şərqi Zəngəzurda geniş reabilitasiya proqramı həyata keçirilir.

Bəli, siz düzgün qeyd etdiniz ki, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan coğrafi baxımdan da eyni regiondur. Onlar yaşıl enerji zonaları elan edilib. Burada çox böyük potensial var, həm də Günəş elektrik enerjisi baxımından. Mənim bayaq qeyd etdiyim, BP tərəfindən inşa olunan Günəş Elektrik Stansiyası buraya yaxın yerləşən Cəbrayıl rayonunda tikiləcək. Naxçıvanda 500 meqavat gücündə Günəş Elektrik Stansiyası ilə bağlı böyük planımız var. İkinci Qarabağ müharibəsi bitdikdən sonra biz hidroelektrik enerjisi sahəsinə vəsait yatırmışıq. Bu üç il ərzində 270 meqavat həcmində su elektrik stansiyaları artıq fəaliyyətdədir. Zənnimcə, bu rəqəm 500 meqavata çatdırılacaq. Bu, bizə regionu tam

əhatə etməyə kifayət edəcəkdir. Tam inteqrasiya olunmuş elektrik kabeli layihəsi həyata keçirildikdən sonra Qarabağda istehsal edilən elektrik enerjisi Azərbaycanın digər bölgələrinə nəql olunacaqdır.

Bizim əsas investorlarımız xarici şirkətlərdir. Azərbaycan burada kiçik pay sahibi kimi çıxış edir. Bu, o deməkdir ki, bizim ölkədə biznes mühitimiz və sərmayə imkanlarımız, sərmayə qarşılığında gəlir əldə edilməsi baxımından çox uğurlu bir mövqedəyik. Əks təqdirdə, heç kəs bura bir dollar belə vəsait qoymazdı. Dediyim kimi, artıq iki qiqavata yaxın həcmlə bağlı qərarlar verilib və ümumilikdə, 10 meqavat həcmində saziş və memorandumlar imzalanıb. Gələn il buraya gələndə görəcəksiniz ki, bu region tamamilə yaşıl enerji regionuna çevrilib.

**Moderator Rebekka Maklaflin-İstham:** Nailə Balayevaya söz vermək istərdim.

**Nailə Balayeva:** Təşəkkür edirəm. Mən “Reuters” xəbər agentliyini təmsil edirəm. Cənab Prezident, Rusiya Ukrayna ərazisindən Avropaya qazın nəqlini 2025-ci ildə dayandıracaq. Azərbaycan Avropaya qaz nəqlinin həcmini necə artıra bilər? Buna Ukrayna vasitəsilə Avropaya svop əməliyyatı çərçivəsində Slovakiyanı misal göstərmək olar. Bu, necə baş verə bilər? Bu, mümkündürmü? Avropaya 2027-ci il üçün həcmin iki dəfə artırılması mümkündürmü? Bu, Azərbaycan qazı olacaqdır və ya digər ölkələrdən də qaz həcmləri cəlb edilə bilər?

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Biz 2022-ci ilin iyul ayında Avropa Komissiyasının Prezidenti ilə enerji sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalayanda qarşıya konkret hədəf qoyduq. Azərbaycan qazının Avropaya nəqlini iki dəfə artırmaq öhdəlik deyil, bu, bizim hədəfimizdir. Biz bu hədəfə doğru irəliləyirik. 2021-ci ildə biz Avropaya 8 milyard kubmetr qaz nəql edirdik. Bu il təkcə Avropaya 13 milyard kubmetrə yaxın həcmdə nəql ediləcək. Ümumi həcm isə 25 milyard kubmetr olacaqdır. 2027-ci il haqqında danışırıqsa, biz Avropaya ixracı 16 milyard kubmetrə çatdırmalıyıq. Bu resursların Avropaya mövcud şəbəkə – Cənub Qaz Dəhlizi, həm də onun interkonnektorları vasitəsilə çatdırılması planlaşdırılır.

Ukrayna ilə Rusiya arasında müqaviləyə xitam verilməsi məsələsinə gəldikdə, Ukrayna və Avropa İttifaqı bizə müraciət edib ki, biz bu müqavilənin uzadılmasında yardımçı olaq. Hesab edirəm və mənə elə gəlir ki, hər iki tərəf bunda maraqlıdır. Çünki Ukraynanın özünün bu qaza ehtiyacı var. Düzgün qeyd etdiniz, Avstriya, Slovakiya kimi ölkələr də çox ciddi çətinliklə üzləşəcəklər. Onlar ya, - dəqiq rəqəm demək istəmirəm, - digər mənbələrdən qaz almaq üçün yüzlərlə milyon dollar və ya avro həcmində əlavə pul verməli olacaqlar və fiziki olaraq da onların əlavə qaz həcmlərinə çıxışı olmayacaq. Çünki digər Avropa ölkələri kimi, bu iki ölkə də ən çətin vəziyyətdədir. Yəqin ki, məlumatınız var, Azərbaycan, - yenə də mövzuya qayıdırıq, – Rusiya qazını satmaqda ittiham edilirdi. Bu, tamamilə “feyknyus”, yalan xəbərdir. Sizin üçün bir misal çəkim: bəli, biz Rusiya ilə 1 milyard kubmetr həcmində qazla bağlı müqavilə imzaladıq. Bazarlarda qiymət çox yüksək olanda Rusiya qazının qiyməti daha münasib idi və bu, tamamilə kommersiya prinsipli bir biznes sazişi idi. Dediyim kimi, biz 25 milyard kubmetr ixrac edirik, yalnız 1 milyardı idxal etmişik. Yəni, burada Rusiya qazının ixracı üçün hər hansı bir kanal olmaqda ittiham edilməmiz çox yanlış və necə deyərlər “feyk” xəbərdir.

Biz çox diqqətli olmalıyıq. Çünki hər bir şey bizi qane edir. Dediyim kimi, səkkiz və bu yaxınlarda daha bir Avropa ölkəsi bizim müştərimizdir. Bizim “Abşeron” adlanan nəhəng qaz yatağımız var. Bu il biz 1,5 milyard kubmetr qaz hasil edəcəyik, qarşıdan gələn illərdə bu rəqəm 5 milyard kubmetrə çatacaq. Gələn il biz “Azəri-Çıraq-Günəşli” yatağından əlavə qaz alacağıq. Yəni, bizim heç bir ölkənin qazına ehtiyacımız yoxdur. Yəqin, bilirsiniz, Türkmənistan qazının İran ərazisindən Azərbaycan vasitəsilə nəql edilməsi də müəyyən səbəblərdən dayandı. Yəni, bizim buna ehtiyacımız yoxdur. Ukrayna tərəfi və Avropa Komissiyası bizə müraciət edib. Biz Rusiya ilə bu baxımdan danışıqlar aparırıq. Biz burada yardımçı ola bilsək, bunu edəcəyik. Amma yenə də təkrar edirəm, bu sualınıza görə də təşəkkür edirəm ki, hər hansı bir ittihamlardan uzaq olmaq üçün biz hər hansı möhtəkirliyə yol vermirik. Hesab edirəm ki, bu müqavilənin uzadılması mümkündür. Bu, Rusiya üçün də faydalı olacaq, çünki o istiqamətdə 50 milyard kubmetrdən artıq premium bazarında satılacaq qazı var. Biz bilirik ki, bu gün Rusiya digər bazarları da nəzərdən keçirir. Bunu da anlamaq olar. Onlar qazı Qazaxıstana nəql etməyə başlayıblar, artıq Özbəkistana da qaz nəql edilir. Çünki bu iki ölkənin ənənəvi təchizatçılarla bağlı problemləri var. Digər müəyyən fikirlər də var. Hər bir ölkə şaxələndirmə üzərində işləyir. Bizim Rusiyaya, İrana, Gürcüstana, Türkiyəyə, İtaliyaya – hər yerə uzanan boru kəmərlərimiz var. Biz bu baxımdan özümüzü rahat və təhlükəsiz hiss edirik. Sizin sualınıza uzun cavab verdim, çünki bu, çoxtərəfli sual və məsələdir. Bir daha qeyd edirəm ki, biz kömək etməyə hazırıq. Ancaq biz yalnız vasitəçiyik. Bundan başqa hər hansı digər mövzudan söhbət gedə bilməz.

**Moderator Rebekka Maklaflin-İstham:** Cənab Prezident, Siz geniş cavab verirsiniz. Biz bunun yalnız tərəfdarıyıq. Cənab Prezident, icazənizlə, növbəti suala keçək. Sual verən xanım Özbəkistanı təmsil edir.

**Özbəkistanın Milli İnformasiya Agentliyinin (UZA) baş redaktoru Durdona Salixova:** Təşəkkür edirəm. Əvvəlcə, istərdim dəvətə və bu Forumda iştiraka imkan yaratdığınıza görə təşəkkürümü bildirim. Sualım belədir ki, Siz media sənayesinin gələcəyini və süni intellektin bu prosesdə rolunu necə görürsünüz?

**Prezident İlham Əliyev:** Burada mənə məşhur media sənayesinin nümayəndələri ilə rəqabətə girmək çətin olacaq. Onların bilmədiklərini deyə bilmərəm. O ki qaldı, süni intellektə, doğrudan da bu mövzu hazırda tamamilə yeni müstəviyə çıxmaqdadır. Vaxtaşırı rəsmi məlumatlar, Azərbaycanın səlahiyyətli qurumlarının rəsmi məlumatları onu göstərir ki, mənim adımdan fərqli biznes layihələrinin elan olunması haqqında məlumatlar daxil olur və bunların heç birinin nə mənə, nə də Azərbaycana aidiyyəti yoxdur. Təəssüf ki, bəzi insanlar, böyük sayda insanlar buna inanır. Sən bunun öhdəsindən necə gəlməlisən? Cavab çox çətindir. Çünki kimsə etirazı, təkzibi oxuyacaq, ya oxumayacaq, yaxud da çox gec olacaq. Bu feyki dərhal tapmaq çox çətin olur. Sən bir müddət sonra onu aşkarlayırsan. Həmin müddət ərzində insanlar artıq buna inanır. Bu, müəyyən mənada çox kəskin mahiyyət daşımır. Kimsə bunun üzərindən pul qazanmaq istəyir və mənim adımdan süni intellektdən istifadə edərək elanlar dərc olunur ki, məsələn, buraya pul yatırın, oraya pul yatırın. Lakin bu yolla getsələr fərqli elanlar olacaq: mənim adımdan bəlkə də müharibə elan edərlər və kimsə buna inana bilər və hansısa digər müəyyən tədbirlər həyata keçirə bilər.

Məsələ yalnız Azərbaycandan getmir. Nüvə silahına malik ölkələr var. Bu ölkələr, eyni zamanda, süni intellekt tərəfindən manipulyasiyaya məruz qala bilər. Hətta məişət səviyyəsində bir çox hadisələr var ki, bir çoxlarına - insanların münasibətlərinə, ləyaqətinə, nüfuzuna bərpa olunmayan xələl yetirilə bilər. İctimai şəxslərin fərqli feyk video, vizual və audioməlumatlarla tamamilə yamsılanması gedir. Düşünürəm ki, siz də, ümumiyyətlə media ictimaiyyəti siyasətçilərə yol göstərməlidir. Siyasətçilər çox ciddi qərarlar qəbul etməlidirlər ki, müəyyən mənada bunu məhdudlaşdırsınlar. Çünki bu, yalnız feyk xəbər deyil. Bu, insanların təhlükəsizliyinə, həyatına, cəmiyyətə, ölkələrə, fərdlərə kifayət qədər ciddi təhlükədir, təhdiddir, onların şəxsi həyatına, fəaliyyətinə ciddi təhdiddir. Düşünürəm ki, bu mövzu bu gün, sabah və birisi gün sizin tərəfinizdən müzakirə olunacaq mövzulardan biridir.

Zənnimcə, beynəlxalq səviyyədə belə bir mexanizm işlənib hazırlana bilər. Bu, heç bir halda söz azadlığının məhdudlaşdırılması kimi qəbul olunmayacaq. Beynəlxalq səviyyədə, BMT səviyyəsində, yaxud da "Böyük 20"lik tərəfindən təşəbbüslər irəli sürülə bilər ki, buna son qoyulsun. Bu, çox ciddi bir təhdiddir və təşəkkür edirəm ki, siz bu mövzuya toxunursunuz.

**Moderator Rebekka Maklaflin-İstham:** Təşəkkür edirəm, cənab Prezident. Növbəti sual Mirşahin Ağayevindir.

"Real" televiziyası, Azərbaycan, Mirşahin: Cənab Prezident, bir neçə dəfə Siz bu mövzuya toxunmusunuz ki, Azərbaycana karbohidrogen ehtiyatlarının hasil edilməsini irad tutublar və bu gün də bu mövzuya toxundunuz. Bu gün mən Sizin yadınıza 30 il bundan əvvəli salmaq istəyirəm. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanmışdı və o müqavilə imzalanandan təxminən 10 dəqiqə sonra mən Sizdən müsahibə götürmüşdüm. Siz o müqavilə haqqında danışarkən onun nəticələrinin Azərbaycan xalqının gələcəyinə işlədiyini bildirmişdiniz. Çox maraqlıdır mənə, Ulu Öndərlə müsahibələrimizdə, söhbətlərimizdə də bu barədə danışmışdıq ki, müqavilənin hazırlanması ilə bağlı şərtlərin demək olar, hamısında Siz iştirak etmisiniz, hazırlanma prosesi Sizin rəhbərliyiniz altında keçib. Rəhmətlik Xoşbəxt Yusifzadə bu barədə geniş danışmışdı. Mənə çox maraqlıdır, indi Azərbaycana irad tutan dövlətlər ki var, axı, onlar "Əsrin müqaviləsi"nin hazırlanmasında cidd-cəhdlə iştirak edirdilər. Onlar özlərini onda necə aparırdılar. Onda deyirlər yox, lazım deyil, müqaviləni imzalamayaq. Yox, gəlin bunu saxlayaq, ekoloji filan, filan, filan, yoxsa onlar çalışırdılar, axı mən bilirəm, o layihələrə düşmək o qədər asan deyildi. Onlar böyük rəqabətdən sonra seçilmişdilər. Xatırlayıram, "Amoco"nu xatırlayıram, "Penzoil"i xatırlayıram, BP-ni. Mənə bu, maraqlıdır və bir də ümumiyyətlə, nə qədər inanmaq olar bu müəyyən dövlətlərin səmimiyyətinə ki, onlar COP29-la guya dünyanın xilasına çalışacaqlar. Mən Azərbaycanın bu barədə səmimiyyətinə Sizin çıxışlarınızdan özüm qədər əminəm. Amma haradan bilə bilərik ki, 30 il bundan sonra onlar yaşıl enerjini də Azərbaycana irad tutmayacaqlar ki. Axı bu gün o dövlətlər bir yandan kəpənək effektindən qorxurlar ki, ay aman, çiçəyin üstünə ehmalca qonsun ki, dünya dağılar, o tərəfdən də dünyanın bütün pulunu, dollarlarını, avrolarını sərf edirlər Rusiya-Ukrayna müharibəsinə, az qala nüvə başlıqlarını hərəkətə keçirmək haqqında düşünürlər. Nə qədər çətindir Sizə belə qeyri-səmimi tərəfdaşlarla iş aparmaq və COP29-dan Siz nə gözləyirsiniz? Doğrudanmı, onlar öz sözlərinin sahibi olacaqlar? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Bilirsiniz, siz yaxşı bilirsiniz, bizim sizinlə dəfələrlə söhbətlərimiz olub. Biz bu qeyri-səmimi münasibətlərə bir növ öyrəşmişik, əfsuslar olsun. Bəzi hallarda ikili standartları görməyəndə özümüz-özümüzə sual veririk, görəsən, nələr baş verir? Biz buna o qədər öyrəşmişik ki, yəni, ağa qara, qaraya ağ demək adi hala çevrilib. Burada bunun yeganə yolu buna məhəl qoymamaq, fikir verməmək, öz yolundan dönməmək və ölkə üçün, xalq üçün lazım olan bütün addımları vaxtında atmaqdır. Necə ki, 1994-cü ildə, siz də bunu qeyd edirsiniz, Ulu Öndər tərəfindən tarixi qərar qəbul edildi. O, tarixi qərar idi və o vaxt mən də xatırlayıram, bu müqavilə ilə əlaqədar bir çox mülahizələr, bir çox fikirlər var idi. Bunu qəbul etməyənlər var idi. Siz də yaxşı xatırlayırsınız və o hadisələri işıqlandırmısınız. O müqavilə imzalanandan iki həftə keçməmiş dövlət çevrilişinə cəhd edildi və bunun səbəblərindən biri məhz bu müqavilə idi. Ondan sonrakı geosiyasi gedişatların da təməlində məhz bu dayanırdı. Bu müqavilə Azərbaycana əsl müstəqillik

gətirə biləcək bir müqavilə idi və onu o vaxt biz də bilirdik, dostlarımız da bilirdi, bizi istəməyənlər də bilirdi. Bu, bizim üçün bir nəfəs borusu, bir oksigen borusu idi. Xatırlayıram, mənim atam o müqavilə imzalanandan sonra tez-tez məndən soruşurdu, nə vaxt biz artıq onu görəcəyik, nə vaxt görəcəyik və biz əlimizdən gələni, yəni, bütün bizim komandamız, rəhmətlik Xoşbəxt müəllim, rəhmətlik Natiq Əliyev, Valeh Ələsgərov, Allah canını sağ eləsin və digər yoldaşlar, mən daxil olmaq şərtilə, – əlimizdən gələni edirdik ki, biz maksimum qısa müddət ərzində ilk nefti hasil edək. Əgər dünya neft kontraktlarının tarixçəsinə nəzər yetirsəniz görərsiniz ki, belə qısa müddət ərzində bu cür nəhəng neft yatağından neft çıxarmaq cəmi üç il ərzində tarixdə olmayıb. 1994-cü ilin sentyabr ayında müqavilə imzalandı, 3–4 aydan sonra parlamentdə ratifikasiya edildi, qanun kimi qüvvəyə mindi və 1997-ci ilin noyabr ayında “Çıraq-1” platformasından ilk neft çıxarıldı. Ondan iki il sonra Bakı-Supsa kəməri tikildi, daha sonra Ulu Öndər öz əlləri ilə Bakı-Tbilisi-Ceyhanın təməlini qoydu. Yəni, bütün bunlar o vaxt da, bu gün də bizim gördüyümüz işlərin nə qədər uzunmüddətli olduğunu bir daha göstərir. Təsəvvür edin, əgər o vaxt bu müqavilə imzalanmasaydı, yaxud ondan iki il keçməmiş “Şahdəniz” üzrə müqavilə imzalanmasaydı, bu gün həm biz, həm də bizim qazımızdan bəhrələnən, ondan öz enerji təhlükəsizliyində istifadə edən ölkələr hansı çətinliklərlə üzləşəcəkdilər? Yəni, o, qlobal təfəkkürün və müdrikliyin təzahürü idi.

O ki qaldı iradlara, bilirsiniz, o vaxt da bizə başqa iradlar tuturdular. Bəlkə də siz də yəqin ki, xatırlayırsınız. Deyirdilər ki, Azərbaycanda neft yoxdur, neft kəmərləri tikilməməlidir, Azərbaycan blef edir, nefti yoxdur, nə bilim yalan məlumatlar ötürür. Bu günə qədər “Azəri-Çıraq”dan hasilatımız davam edir. “Şahdəniz” müqaviləsi bağlananda sonra da ortalığa bir uydurma atmışdılar ki, Azərbaycanda qaz yoxdur. Azərbaycan özü filan yerdən qaz alır və heç vaxt, heç bir ölkəyə qaz nəql edə bilməz. Artıq səkkiz ölkəyə qaz nəql edirik, bu il bizdə 50 milyard kubmetr hasilat gözlənilir. Onun bir hissəsi yenidən neft laylarına vurulacaq ki, oradan neft hasilatı daha da artsın, bir hissəsi daxili istehlaka yönəldiləcək, 25 milyard kubmetri isə dünya bazarlarına nəql olunacaq. Bu, təkcə mənfəət deyil. Bu, geosiyasi əhəmiyyətdir, bu sahə ilə yaxından tanış olanların hamısı yaxşı bilirlər ki, bu gün qaz amili enerji təhlükəsizliyinin bir nömrəli amilidir. Mən istisna etmirəm, bəlkə də siz haqlısınız, gün gələcək bizə yaşıl enerjini də irad tutacaqlar. Çünki yaşıl enerji ilə bağlı indi üzə çıxan bir çox məqamlar var ki, insanları və qərar qəbul edənləri düşünməyə vadar edir. Yəni, orada o materialların utilizasiyası necə olacaq? Batareyaların, akkumulyatorların taleyi necə olacaq? Yəni, indidən artıq bunun altına da bir mina qoyulur ki, lazım olan vaxtda o, kiminsə başında çatlasın. Amma yenə də deyirəm, bizim atdığımız bütün addımlar və təşəbbüslərimiz əsas məqsədi güdür – ölkəmizi gücləndirmək, iqtisadi gücümüzü artırmaq, iqtisadi və siyasi müstəqilliyimizi daha da gücləndirmək və Azərbaycanı yüksək liqaya daxil etdirmək.

COP29 bu istiqamətdə çox önəmli bir addım olacaq. Biz bu istəkdə olanda bəziləri bəlkə də bunu anlamırdı. Bu gün də buna ağızlarını büzənlər var ki, nəyə lazımdı, qoyun rahat yaşayaq. Yenə tədbir olacaq, yenə qonaq gələcək. Biz artıq bunun bəhrəsini görürük. Azərbaycanın geosiyasi önəmi əhəmiyyətli dərəcədə artıb. Bizim beynəlxalq müstəvidə təmasda olduğumuz ölkələrlə ikitərəfli əlaqələr tamamilə başqa məcrada inkişaf edir. Ənənəvi mövzulardan başqa, bu mövzu və buna paralel olan mövzular da daxil edilir.

Mən artıq qeyd etdim, inkişafda olan 50-dən çox kiçik ada dövlətləri var. Onlar üçün biz xüsusi fond təsis edirik və o fonda əhəmiyyətli dərəcədə vəsait də qoyacağıq. Onlara kömək göstərəcəyik. Əlbəttə, onlar bizim təbii müttəfiqlərimizə çevriləcək və mən digər ölkələri sadalamıram. Biz bu addımları atmaqla ölkəmizi böyük dərəcədə gücləndiririk və bu gün burada bizim COP nümayəndələri, komandamız iştirak edir. Onlar da çox fəal işləyir və mən demişəm, siz xarici ölkələrdə işləməlisiniz, bütün dünyanı dolaşmalısınız ki, Azərbaycanın mövqeyini, Azərbaycanın gündəliyini bütün tərəf-müqabillərinə çatdırasınız.

Təşkilati nöqteyi-nəzərdən mən sözün düzü, hər hansı bir çətinlik görmürəm. Çünki bizim təcrübəmiz kifayət qədər böyükdür. Nəticə etibarilə nə hasil ediləcək, bunu bəri başdan demək çətindir. Bir də ki, bu, artıq bizdən asılı deyil. Biz maksimum edə biləcəyimizi edəcəyik, körpülər quracağıq, Qlobal Cənubla Qlobal Şimal arasında təmasları gücləndirəcəyik. Ancaq əlbəttə, bu iqlim məsələsində əsas söz sahibləri təbii ki, Azərbaycan boyda ölkələr deyil. O böyük ölkələrdir ki, onları da bir araya gətirmək üçün biz indi səylər göstəririk.

**Moderator Rebekka Maklaflin-İstham:** Zatialiləri, Siz kifayət qədər vaxt ayırmısınız.

**Prezident İlham Əliyev:** Mən qorxuram ki, bizim auditoriyamız artıq yorulubdur. Əgər yorulmamısınızsa, biz davam edə bilərik. Yəni, çox uzun çəkdikdə müzakirələr bir növ darıxdırıcı ola bilər. Auditoriyamız hələ də fəaldırsa, biz davam edə bilərik.

**Rebekka Maklaflin-İstham:** Gəlin razılaşaq ki, əlavə dörd sual veriləcək. Bizim Nigeriyadan olan iştirakçımız var, müstəqil jurnalistdir.

**Müstəqil jurnalist Con Ayomide:** Cənab Prezident, təşəkkür edirəm. Burada olmaq mənim üçün böyük şərəfdir. Mən ikinci dəfədir Şuşaya səfər edirəm və çox böyük işlərin şahidi olmuşam. Beynəlxalq səviyyədə əməkdaşlıq haqqında sual vermək istərdim. Sizə Türk Dövlətləri Təşkilatı və Afrika İttifaqı arasında əlaqələr haqqında sual vermək istərdim. Sizin fikrinizcə, hansı təşəbbüslər irəli sürülə bilər ki, belə bir əməkdaşlıq gücləndirilsin? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** İki həftə bundan əvvəl məhz burada Türk Dövlətləri Təşkilatının qeyri-formal Zirvə toplantısı keçirildi və mövzulardan biri bağlılıq və nəqliyyat idi. Digəri isə təşkilatımızın potensialının gücləndirilməsi idi və biz bəyan etdik ki, Azərbaycan təşkilatın katibliyinə iki milyon dollar məbləğində ianə ayırdı. Ona görə ki, təşkilatımız beynəlxalq müstəvidə daha fəal olsun. Biz beynəlxalq təşkilatlarla praktiki və möhkəm əlaqələr qurmaq istəyirik, o cümlədən Afrika İttifaqı ilə. Bildiyimə görə, bizim təşkilatımızın Afrika İttifaqı ilə rəsmi təmasları olmamışdır. Ancaq biz bunu ciddi şəkildə nəzərdən keçirməliyik.

Azərbaycana gəldikdə, biz Afrika İttifaqının üzv ölkələri ilə əməkdaşlığı gücləndirməyə çalışmışıq və Afrika İttifaqında - Efiopiyada öz səfirliyimizi təsis etmişik ki, orada əməkdaşlıq üçün zəmin yarada biləк. Həmin qitədə Afrika İttifaqının bir çox üzvləri ilə bizim fəal təmaslarımız var. Əlbəttə ki, Qoşulmama Hərəkatına sədrliyimiz bizə Afrika qitəsindən olan ölkələrlə praktiki təmaslar qurmağa kömək etmişdir. Bu gün artıq oradan rəsmilər Azərbaycana səfər edir və mən COP29-la bağlı dəvətlər göndərmişəm. Bir çox Afrika ölkələrinin prezidentləri öz iştiraklarını təsdiq ediblər. Bu da yaxşı fürsət olacaq ki, təmaslar qurulsun. Yəni, hazırda deyə biləcəyim odur ki, Türk Dövlətləri Təşkilatı və Afrika İttifaqı arasında rəsmi əməkdaşlıq kanalları yoxdur. Mən şübhə etmirəm, bu, olacaqdır. Ancaq milli səviyyədə Azərbaycan və Afrikanın müxtəlif ölkələri arasında yaxşı əməkdaşlıq var. Hər hansı fikir ayrılığı yoxdur. Əksinə, biz Afrika İttifaqından olan bir çox ölkələri COVID dövründə dəstəkləmişik. Biz 80-dən artıq ölkəyə COVID dövründə humanitar və maliyyə yardımı göstərmişik və onların bir çoxu Afrika İttifaqının üzvləridir.

Biz Afrika İttifaqı ölkələrindən olan tələbələr üçün hazırda təqaüd mexanizmi üzərində işləyirik. Çalışacağıq fəal olaq və sağ olun ki, bu forumda iştirakla bağlı bizim ölkəyə bir daha səfər edirsiniz.

**Moderator Rebekka Maklaflin-İstham:** Növbəti sual İsraildən gələn müstəqil jurnalistdəndir.

**Müstəqil jurnalist Roman Qureviç:** Cənab Prezident, dəvətə görə təşəkkür edirəm. Qeyd etmək istərdim ki, 2021-ci ildə mən Şuşada olmuşam, dağıntılar, hər şey çox pis vəziyyətdə idi, minalar. Mehmanxanaların heç biri yox idi. Bu gün gözümüzün qarşısında xarıbülbülün çiçək açması, Şuşanın gözəl çiçəyinin açılmasını görmək doğrudan da unudulmaz bir xatirədir. Çağdaş dünyada ksenofobiya, yadlara nifrət, insanların bir-birini qəbul etməməsi ən ciddi problemdir. Azərbaycanda, eyni zamanda, müxtəlif dinlərə mənsub insanlar yaşayırlar: müsəlmanlar, xristianlar, yəhudilər və bir çox digərləri. Onlar hər zaman bir-biri ilə mehriban, qarşılıqlı hörmət şəraitində yaşayıblar. Novruz bayramında bir-birinə səməni bağışlayır, xanuka zamanı xanuka gelt keçirirlər. Xristianların pasxası zamanı bir-birinə qonaq gedib kuliç yeyirlər və bu, hər zaman yaxşı olub və bir-birinə mane olmayıb. Bu, hər zaman, əsrlərlə belə olub və indi də belə olmaqdadır. Beləliklə, Azərbaycan insanların bir-biri ilə necə yaşamasının, qarşılıqlı hörmət, dözümlülük, tolerantlıq nümunəsidir. Sualım belədir, Azərbaycan torpağında, Azərbaycan xalqında hansı xüsusiyyət bunu mümkün edir, buna imkan yaradır? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Əvvəlcə evinizə xoş gəlmisiniz. Sizi yenidən görməyə çox şadam. İkincisi, azad olunmuş ərazilərin bərpası ilə əlaqədar gördüyümüz işlərə dair xoş sözlərə görə təşəkkürümü bildirirəm. Düşünürəm ki, sualınızın cavabı sizə də məlumdur. Lakin sual verdiyinizə görə sizə təşəkkür edirəm. Düşünürəm ki, burada bir sintez var, fərqli amillərin vəhdəti var. Burada bu amillərdən biri olmasaydı, qarşılıqlı hörmət, məhəbbət mühiti mümkün olmazdı. Qeyd etmək istədiyim digər məsələ odur ki, bu mühiti süni yaratmaq mümkün deyil. Əsas odur ki, bunu qoruyasan, gücləndirəsən və özündən sonra növbəti nəsillərə ötürəsən.

Bəhs etdiyiniz məsələlər bizə yüzilliklərlə, minilliklərlə xas olan bir xüsusiyyətdir və birgə yaşam, müxtəlif dini etiqadların, müxtəlif etnik qrupların birgə yaşamı, bunların hər biri Azərbaycan dövlətçiliyinin qurulmasında, müasir Azərbaycanın qurulmasında rol oynayıb və həmin o töhfəni verməkdə davam edirlər. Bu, böyük bir fəaliyyətdir. Ərazilərimiz işğaldan azad olunandan sonra mən təklif etdim ki, ilk Xarıbülbül festivalını Azərbaycanda yaşayan bütün xalqların mədəniyyətinə həsr edək. Bu, mənim ideyamdır və düşünürəm, çox düzgün bir ideyadır ki, Azərbaycanda yaşayan bütün xalqlar, bilirsiniz ki, azadlıq naminə mübarizədə iştirak ediblər. Dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər biri, hər bir nümayəndəsi öz həyatını qurban verib, sağlamlığından məhrum olub. 2021-ci ildə keçirilən Xarıbülbül festivalında biz bunun hər birini nümayiş etdirdik. Şəxsən bundan daha emosional, daha mədəni tədbir xatırlamıram və bəlkə də heç olmayacaq. Cəmiyyət və hökumət, əsasən də hökumət bu məsələyə gündəlik əsasda diqqət yetirməlidir. Bu, elə bir mövzu deyil ki, onu kənara qoyub sonradan məşğul olasan, ikinci dərəcəli hesab edəsən və ya da iqtisadiyyat deyil, büdcə deyil. Bu, maddi bir aktiv deyil. Çünki bu, hər bir şeyin təməlidir.

Prezident İlham Əliyev Qarabağ Universitetində yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, bütün tədris binaları əsaslı təmir olunub. Əsas tədris binasının fasadı yenilənib, kommunikasiya xətləri quraşdırılıb, tədris və inzibati otaqlar müasir tələblərə cavab verən müvafiq avadanlıqlarla təchiz edilib.

Qarabağ Universiteti hazırda 3 tədris binasında yerləşir. Əsas tədris binasında Pedaqoji, Mühəndislik, Humanitar və sosial elmlər, İqtisadiyyat və Turizm fakültələri, 2-ci tədris binasında İncəsənət fakültəsi, 3-cü tədris binasında isə Beynəlxalq dil mərkəzi fəaliyyət göstərir.

Tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla möhkəmləndirilməsi üçün ilk tədris ilinin müvafiq ehtiyacları nəzərə alınmaqla universitetdə 6 (Fizika, Kimya, Mexatronika, Robototexnika, Kompüter və qrafiki dizayn, Kompüter və proqramlaşdırma) laboratoriya yaradılıb.

Müasir standartlara uyğun şəkildə dizayn edilmiş universitet kitabxanasının xidmətlərindən eyni vaxtda 200 tələbə istifadə edə bilər. Kitabxananın fondunda Azərbaycan, ingilis və rus dillərində 6 mindən çox dərslik və digər ədəbiyyat mövcuddur. Burada tələbələr "Elektron kitabxana" sisteminin geniş imkanlarından faydalana bilərlər.

Qeyd edildi ki, bu tədris ilində ölkənin və regionun ehtiyacları, həmçinin beynəlxalq əmək bazarının müasir trendləri nəzərə alınmaqla, ilkin mərhələdə Qarabağ Universitetində kadr hazırlığı 6 fakültədə - Pedaqoji, İncəsənət, Humanitar və sosial elmlər, İqtisadiyyat, Mühəndislik və Turizm fakültələrində aparılacaq.

Hazırda universitetin 160 əməkdaşı var. Onlardan 60 nəfəri akademik heyətin üzvü, 100 nəfəri isə inzibati və texniki heyətin üzvüdür.

Kadr heyətinin seçimi zamanı Qarabağ Universitetinin fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili üçün vacib olan bilik və bacarıqlara sahib peşəkar mütəxəssislərə üstünlük verilib. Müvafiq vəzifələrin tutulması üzrə vakansiya elanları Elm və Təhsil Nazirliyinin rəsmi saytında və universitetin sosial şəbəkə hesablarında geniş ictimaiyyətin diqqətinə çatdırılıb.

Hazırda peşəkar və təcrübəli yerli və xarici professor-müəllim heyətinin akademik fəaliyyətə cəlb olunması istiqamətində işlər davam etdirilir. Bu prosesdə xaricdə yaşayan azərbaycanlı alimlər və müvafiq dövlət proqramları ilə nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil alan gənclər diqqət mərkəzində saxlanılır.

Bildirildi ki, 2024/2025-ci tədris ili üzrə universitetin bakalavriat səviyyəsinə tələbə qəbulu planında ümumilikdə 1120 yer nəzərdə tutulub. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanların nəticələrinə əsasən 1104 tələbə qəbul olub və qəbul planı 98,5 faiz yerinə yetirilib.

Qarabağ Universitetinə qəbul olan tələbələrdən 101 nəfəri 600-dən, 385 nəfəri isə 500-dən çox bal toplayıb. Ən yüksək nəticə 683,8 balla Hüquqşünaslıq ixtisası üzrə qeydə alınıb. Olimpiada qalibi olan bir abituriyent universitetin Elektrik və elektronika mühəndisliyi ixtisasına müsabiqədənkənar qəbul edilib. Ümumilikdə, Qarabağ Universitetinə I-IV ixtisas qrupları üzrə orta qəbul balı 467,6 təşkil edib.

Bundan əlavə, ilk tədris ilində Qarabağ Universitetində Hüquqşünaslıq, Xarici dil müəllimliyi (ingilis dili), Maliyyə və Mühasibat ixtisasları üzrə SABAH qrupları təşkil olunub. Müxtəlif ali təhsil müəssisələrinin birinci tədris ilini (kursunu) bitirmiş tələbələri arasında keçirilən müsabiqədə uğur qazanan 60 tələbə sözügedən 4 ixtisas üzrə Qarabağ Universitetinin SABAH qruplarında ikinci tədris ilində təhsil alacaq.

Dövlətimizin başçısı Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşüb və çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

-Sabahınız xeyir olsun. İlk növbədə, sizi və bütün Azərbaycan xalqını Dövlət Suverenliyi Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu günü biz

birlikdə Xankəndidə qeyd edirik və əminəm ki, 20 Sentyabr bundan sonra Azərbaycanda geniş qeyd ediləcək.

Düz bir il bundan əvvəl qəhrəman Azərbaycan Ordusu dövlət suverenliyini tam bərpa etmişdir. Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi. Bu günü bizə bəxş edən qəhrəman hərbçilərimizi hər zaman böyük minnətdarlıqla yad edirik. Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini daim qəlbimizdə saxlayırıq və saxlayacağıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Vətən müharibəsi və antiterror əməliyyatı keçirilərkən bizim 3200-dən çox qəhrəman şəhidimiz şəhadət zirvəsinə ucalmışdır. Onların və digər qəhrəman hərbçilərimizin rəşadəti və vətənpərvərliyi Qələbənin əsas amilləridir. Vətən uğrunda İkinci Qarabağ müharibəsində 90 mindən çox gənc azərbaycanlı iştirak etmişdir.

Bildiyiniz kimi, 44 gün ərzində şanlı Ordumuz hər gün irəli gedirdi, hər gün yaşayış məntəqələri işğalçılardan azad edilirdi və bildiyimə görə, dünya hərb tarixində buna oxşar hərbi əməliyyatlar olmamışdır. Bir gün belə geriyə addım atmamışıq, hər gün bir neçə kənd, bir neçə qəsəbə, şəhər azad edilirdi. Bir nəfər olsun döyüş meydanını tərk etməmişdir. Amma Ermənistanın rəsmi nümayəndələrinin özlərinin etirafına görə, Ermənistan ordusunda 12 mindən çox fərari olmuşdur. Bu, nəyi göstərir? Əlbəttə ki, xalqımızın yüksək mənəvi keyfiyyətlərini göstərir. Bununla bərabər, onu göstərir ki, sinəsini qabağa verən gənclər o qədər vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur ki, onlar üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur. Sinəsini qabağa verən, ölümə gedən gənclər bir amalla yaşayırdılar ki, milli ləyaqətimizi bərpa edək və bunu etdik. Ona görə mənəvi-psixoloji üstünlük bir daha bizim ümumi üstünlüyümüzü göstərir. Müharibədən keçmiş ölkə kimi və Ali Baş Komandan kimi müharibənin nəticələrini şərtləndirən amillərə nəzər salaraq, təhlil edərək tam əminliklə deyə bilərəm ki, birinci yerdə, birinci növbədə milli ruh məsələləridir, mənəvi hazırlıqdır. Təbii ki, peşəkarlıq, qəhrəmanlıq, texniki təchizat – bütün bunlar da vacib amillərdir. Ancaq mənəvi üstünlük olmasa, milli düşüncə olmasa, heç bir ən güclü ordu heç vaxt heç bir qələbə qazana bilməz.

Bildiyiniz kimi, bu gün dünyada bir çox yerlərdə müharibələr, hərbi münaqişələr, toqquşmalar gedir, onların sayı azalmır, artır və indi hər şey göz qabağındadır. Müqayisə etmək üçün də kifayət qədər imkanlarımız var, məlumatlarımız var. 44 gün ərzində bu çətin coğrafiyada düşmənin 5-6, bəzi yerlərdə 7 müdafiə xəttini yararaq hər gün irəliyə getmək, itkilər verərək aşağıdan yuxarıya qalxmaq, Şuşa kimi alınmaz qalanı sıldırım qayalara dırmaşaraq ancaq yüngül silahlarla azad etmək, - müasir tarixdə hansı ordu buna bənzər qəhrəmanlıq, peşəkarlıq göstərmişdir! Bu, həqiqətdir.

Təbii ki, biz bu Qələbə ilə, haqlı olaraq hərbçilərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik. Ancaq əminəm ki, hər bir qərəzsiz təhlilçi, hərbi ekspert və obyektiv insan bizim bütün bu 44 günlük qəhrəmanlıq salnaməsini təhlil edərək eyni nəticəyə gəlməlidir.

O ki qaldı, antiterror əməliyyatının keçirilməsinə, burada da cəmi bir neçə saat davam edən əməliyyat Azərbaycan Ordusunun tam zəfəri ilə başa çatmışdır. Ermənistan ordusunun 15 mindən çox hərbi kontingenti tamamilə iflic vəziyyətinə düşmüşdür və bir neçə saatdan sonra kapitulyasiya şərtlərini artıq biz onlarla müzakirə etməyə başlamışdıq. İndi deyilir ki, 23 saat davam etdi, bəli ümumi proses 23 saat davam etdi. Ancaq bu prosesin hərbi hissəsi bir neçə saat davam etmişdir. Bütün bunlar bir daha dövlətimizin gücünü, xalqımızın iradəsini, gənc nəslin tərbiyəsini, bacarığını göstərir. İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı imkan verdi ki, Azərbaycan nəinki beynəlxalq hüququ bərpa etdi, nəinki öz milli qürurunu bərpa etdi, bütün dünyaya nümayiş etdirdi ki, ədalətsizlik əbədi davam edə bilməz.

İşğal dövründə keçmiş köçkünlərlə mənim çoxsaylı görüşlərim olmuşdur. Bildiyiniz kimi, onların yaşayış şəraitini yaxşılaşdırmaq üçün dövlət bir çox önəmli layihələr icra etmişdir. Biz demək olar ki, hər il 15-20 min keçmiş köçkünü yeni qəsəbələrə, evlərə, mənzillərə köçürürdük və beləliklə, onların yaşayış səviyyəsi yaxşılaşırdı. Təqribən 300 mindən çox keçmiş köçkün artıq o yataqxanalardan, o yararsız yerlərdən, uşaq bağçalarından köçürülmüşdü. Ancaq, eyni zamanda, onlarla hər dəfə görüşəndə deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir, gün gələcək və azad edilmiş torpaqlarda sizin üçün daha gözəl şərait yaradılacaq. Mən buna inanırdım, onlar da inanırdılar, bütün xalqımız buna inanırdı, bu fikirlə yaşayırdı. Amma, eyni zamanda, illər keçdikcə mən görürdüm ki, onların ümidləri yavaş-yavaş azalır. Bu da təbiidir, çünki işğal təxminən 30 il davam etdi.

Minlərlə, on minlərlə keçmiş köçkün bu Qələbə gününü görə bilmədi, həyatdan getdi. Təbii olaraq dünyada gedən prosesləri təhlil edərək mövcud ədalətsizliyi, beynəlxalq hüququn işləməməsini, böyük dövlətlərin Ermənistanın arxasında dayanmasını, bütün bunları – geosiyasi vəziyyəti təhlil edərək ola bilər kimsə belə fikrə gələ bilərdi ki, bu işğalla biz əbədi yaşamalıyıq. Biz bütün bu tezisləri, bütün bu paradiqmaları darmadağın etdik. Biz göstərdik ki, güclü iradə, peşəkarlıq, vətənpərvərlik, milli ruhda tərbiyə olunan gənc nəsil olarsa, heç bir qüvvə o xalqın qabağında dura bilməz – nə 6, 7, 8, 9, 10 müdafiə xətti, nə Ermənistan ordusunun coğrafi üstünlüyü, – çünki bütün təpələrdə onlar yerləşmişdi, – nə böyük dövlətlər, nə də Ermənistanı silahlandıran və onlara mənəvi və fiziki yardım göstərən dövlətlər. Bax, bütün bu amillər bir yerdə olanda, o xalqın qabağında heç kim dura bilməz. Biz bütün dünyaya və bu gün işğaldan əziyyət çəkən, hətta

müstəmləkəçilikdən əziyyət çəkən xalqlara göstərdik ki, inamla yaşamaq lazımdır. İnam heç vaxt qırılmamalıdır. Əgər inam qırılsa, onda heç vaxt ədalət zəfər çala bilməz. Amma dünyada ədalət var. Prezident kimi müəyyən dövrlərdə mənim də ağlıma belə fikirlər gəlirdi ki, yəqin dünyada ədalət yoxdur. Amma bilirdim ki, bu ədalətə çatmaq üçün sən gərək onu əldə edəsən, o, göydən düşməz. Sən haqlısan, bütün dünya da sənin haqlı olduğunu etiraf edir, bilir, ancaq nəticə yoxdur. Ona görə gələcək fəaliyyətimiz üçün də bu, əsas olmalıdır. Əlbəttə ki, bu gün işğaldan əziyyət çəkən və ədalətsizliklərlə üzləşən bir çox xalqlar üçün bizim nümunəmiz bir ümid işığıdır. Bu, önəmlidir. Amma bizim xalqımız üçün gələcəkdə öz gücünə güvənmək, güclü olmaq, güclü dövlət qurmaq, heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək - bax, bu, əsas hədəflərimizdir. Bunu təmin etmək üçün əlbəttə ki, dövlət siyasəti olmalıdır və var. Cəmiyyətdə birlik olmalıdır, bu da var. 44 günlük Vətən müharibəsi onu göstərdi ki, bəlkə də heç bir ölkədə bizim cəmiyyətimiz qədər birlik nümayiş etdirən cəmiyyət yoxdur. Bizdən sonra gələn nəsil, gənclər də bu yolla getməlidirlər. Onlar, ilk növbədə, milli ruhda tərbiyə almalıdırlar, öz mədəniyyətinə, ənənələrinə, mənəvi dəyərlərinə sadiq olmalıdırlar. Heç kimin təsiri altına düşməməlidirlər, müxtəlif vədlərə aldanmamalıdırlar. Bizim bu 30 illik işğal dövrümüz onu göstərdi. Demək olar ki, bütün böyük güclər, onların hamısı bu işğalı əbədi etmək istəyirdi. Heç biri istəmirdi ki, xalqımız bu işğaldan yaxasını qurtarsın. Yəni, daim bizi təzyiq altında saxlamaq, daim bu işğaldan bir təsir amili kimi istifadə etmək, öz maraqlarını təmin etmək və nəticə etibarilə bizi bu vəziyyətlə barışdırmaq istəyirdilər. İşğal dövründə müxtəlif paytaxtlardan gələn qonaqlar dəfələrlə deyirdilər ki, bu məsələnin, bu münaqişənin hərbi həlli yoxdur. Bəlkə sizin də yadınızdadır ki, belə bir tezis var idi – bunun hərbi həlli yoxdur, sülh yolu ilə həll olunmalıdır. Eyni zamanda, o vaxt "Birinci Qarabağ" deyilmirdi, amma Qarabağ müharibəsinin nəticələri də nəzərə alınmalıdır. Yəni, bizi nə ilə barışdırmaq istəyirdilər?! Məğlubiyyətlə. İstəyirdilər ki, xalqımız bu məğlubiyyətlə razılaşsın.

Digər tezis ondan ibarət idi ki, Ermənistanla əməkdaşlığa başlamaq lazımdır. Deməli, qeyri-hökumət təşkilatlarının xətti ilə müxtəlif seminarlar keçirilirdi. Bizdən olan xarici dairələrə satılmışlar da gedib o treninqlərdə ermənilərlə cici-bacılıq edirdilər, sövdələşirdilər, birləşirdilər, birgə məclislər təşkil edirdilər. Qaniçən, Xocalı soyqırımını törədən, Qarabağ bölgəsində bütün şəhər və kəndlərimizi viran qoyan düşmənlə hansı təmaslardan söhbət gedə bilərdi? Amma bu işğalı əbədi etmək istəyənlərin də məqsədi o idi ki, gələcək nəsil, gənc nəsil artıq müharibə istəməyəcək, biz Ermənistanla barışaq, işğal da yerində qalsın. Bax, bütün bu planları biz Azərbaycan xalqı darmadağın etdik, alt-üst etdik. Ona görə bu günə qədər bizə qarşı əsassız ittihamlar, təzyiqlər edilir. Mən hər səhər mətbuatla, o cümlədən Azərbaycan haqqında dünyanın müxtəlif yerlərində gedən yazılarla tanış oluram. Bu gün səhər tezdən baxıram, bizə qarşı nə qədər əsassız ittihamlar işlədilir. Özü də müxtəlif Qərb ölkələrinin siyasətçiləri və yüksək vəzifə tutanlar, bəzi ölkələrin rəsmi nümayəndələri belə bir qəbuledilməz ifadələr işlədirlər ki, Azərbaycan Qarabağı zəbt edib. Yəni, bu, ikiüzlülüyün, riyakarlığın zirvəsidir. Ölkə öz torpağını necə zəbt edə bilər?! Bizim müharibəmiz azadlıq müharibəsi idi. Yəni, bunu deyənlər, bizə qarşı ittihamlar irəli sürənlər də bunu yaxşı bilirlər. Sadəcə olaraq, ikili standartlar, ikiüzlülük, riyakarlıq, islamofobiya və xalqımıza olan düşmənçilik – biz bunu heç vaxt unutmamalıyıq və gənc nəsil bunu bilməlidir. Çünki təbii olaraq siz o illəri yaşamamısınız və tarixi kitablardan oxuyursunuz. Ona görə həm orta məktəblərdə, həm də ali məktəblərdə müəllimlərin üzərinə çox böyük vəzifə düşür. Mən bu gün bizim müəllimlərimizi, onların işini xüsusilə qeyd etmək istəyirəm. Çünki bizim gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında onların çox böyük rolu olmuşdur, bu gün də var. İki tərbiyə mənbəyi var – ailə və müəllim. Xoşbəxtlikdən Azərbaycanda ailə dəyərləri üstün tutulur və həmişə belə olmalıdır. Bizim ənənələrimiz bunu diktə edir və eyni zamanda, bəzi Qərb ölkələrində ailə dəyərlərinin tamamilə eybəcər formasına düşməsi hər birimizdə haqlı olaraq ikrah hissi doğurur. Ona görə ailə dəyərləri, ailə tərbiyəsi birinci növbədə qorunmalıdır. Yenə də deyirəm, müəllimlər uşaqların, gənclərin biliklərini artırmaq, eyni zamanda, onların vətənpərvərlik ruhunda tərbiyəsi üçün fəal və səmərəli işləyirlər. İkinci Qarabağ müharibəsi bunu göstərdi. Heç vaxt Qarabağı görməyən gənclər Qarabağ uğrunda ölümə gedirdilər, ölümə getməyə hazır idilər, şəhid oldular, yaralandılar. Ancaq yenə də bu Zəfəri təmin etmək üçün dayanmadılar. Hərbi hospitallara yerləşdirilmiş hərbçilərimizin bir çoxu həkimlərə müraciət edərək deyirdi ki, tezliklə məni sağaldın, ayağa qaldırın, yenə də gedim döyüşüm, belələrinin sayı çox idi. Yüngül yaralanmış hərbçilər müalicədən sonra yenə də könüllü olaraq döyüş bölgələrinə gedirdilər.

Bu gün, eyni zamanda, Qarabağ Universitetinin açılışıdır. Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir və keçən ilin noyabrında müvafiq Sərəncam imzalandı. Sonra mən buraya baş çəkdim. Artıq mənim buraya üçüncü gəlişimdir və bütün göstərişlər verildi, Elm və Təhsil Nazirliyi tezliklə bütün lazımi tədbirləri gördü. Demək olar ki, bina yenidən quruldu. Bu bina sovet dövründə Azərbaycan memarları, inşaatçıları tərəfindən inşa edilmişdi. İşğal dövründə bunu erməniləşdirmək üçün müəyyən işlər görülmüşdü. O əlamətlər də tamamilə silindi. Binanın önü açıldı, gözəl bir park

yaradıldı. Master-plan hazırlandı, yəni gələcək illərdə, yəqin ki, növbəti üç ildə yeni tədris korpusları inşa ediləcək. Gözəl yataqxana yaradıldı, bu gün tanış olmuşam. Ən önəmlisi gənclər, yəni tələbələr buraya böyük həvəslə gəlməyə başladılar. İndi mənə məlumat verildi ki, 1200 tələbə var. Ölkəmizin hər bir bölgəsindən tələbə var. Yüksək bal toplayan, o cümlədən 600-dən çox bal toplayan tələbələr bizimlə görüşdə iştirak edirlər və buraya böyük həvəslə gəlmişlər. Müəllim heyəti də formalaşdı. Bilirəm ki, müəllimlər də böyük həvəslə bu işə başlayırlar və ümid edirəm ki, Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir. Bunu etmək üçün bütün imkanlar var. İndi verilən məlumata görə, artıq altı fakültə yaradılıb. Növbəti illərdə Tibb fakültəsi də yaradılacaq. Xocalıda Aqrar elmlər fakültəsi, Şuşada Turizm fakültəsi fəaliyyət göstərəcək. Yəni, bu, bir neçə şəhəri birləşdirən universitet olacaq. Əlbəttə ki, Qarabağa qayıdacaq keçmiş köçkünlər, onların uşaqları burada oxuyacaq və ölkəmizin hər bir yerindən gənclər buraya gələcəklər.

Bura bizim tarixi torpağımızdır və əminəm ki, bunu Azərbaycanda bilməyən yoxdur, dünyada da bunu bilirlər ki, Xankəndi şəhəri qədim Azərbaycan yaşayış yeri olubdur, onun adı onu göstərir – Xanın kəndi. Sadəcə olaraq, yenə də Azərbaycana, xalqımıza qarşı düşmənçilik siyasəti nəticəsində uzun illər ərzində bizim nəzarətimiz burada ya zəif idi, ya da ümumiyyətlə, yox idi. Çünki XIX əsrin əvvəlində bağlanmış üç müqavilə - “Kürəkçay”, “Gülüstan”, “Türkmənçay” müqavilələri faktiki olaraq sonrakı işğalı da şərtləndirdi. Məhz bu müqavilələrdən sonra heç vaxt Qarabağ torpağında yaşamayan ermənilər kütləvi surətdə İrandan və Şərqi Anadoludan buraya köçürülmüşdür və bu, həqiqətdir, bu, dəqiq tarixdir. Sadəcə olaraq, Ermənistan və erməni alimləri hər zaman olduğu kimi, tarixi təhrif edərək yeni uydurma tarix yaratmağa çalışırdılar və öz lobbi şəbəkələri vasitəsilə müəyyən dərəcədə beynəlxalq ictimaiyyəti də çaşdırmağa nail olmuşdur.

XX əsrin əvvəlində isə xalqımıza qarşı növbəti düşmənçilik addımları atılmışdır. 1923-cü ildə heç bir əsas olmadan Azərbaycanda, Qarabağda “Dağlıq Qarabağ Muxtar Vilayəti” yaradılmışdı, sovet Azərbaycanı Respublikasının tərkibində. Bu vilayətin tabeçiliyi Sovet İttifaqının mərkəzinə bağlanmışdı. Beləliklə, bu bölgəni Azərbaycandan ayırmaq üçün növbəti addım atıldı. Ondan üç il əvvəl Zəngəzuru bizdən aldılar, yəni Qərbi Zəngəzuru, tamamilə əsassız. Bunu 1920-ci ilin noyabr ayında, Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən bir neçə ay keçəndən sonra etdilər. 1923-cü ildə isə bizim canımıza növbəti saat bombasını saldılar və ondan sonra burada kütləvi erməniləşmə siyasəti aparılırdı. Müxtəlif yerlərdən, o cümlədən Ermənistandan sovet hökuməti erməniləri buraya şüurlu olaraq doldururdu ki, burada ermənilərin sayı, yəni ovaxtkı muxtar vilayət çərçivəsində daha çox olsun. Eyni zamanda, burada mövcud olan separatizm meyillərinə də düzgün reaksiya verilmirdi. Ancaq Ulu Öndər Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gələndən sonra burada bütün separatçıların yuvaları dağıdıldı və sabitlik yaradıldı. Keçmiş “Dağlıq Qarabağ Muxtar Vilayəti”ndə azərbaycanlıların sayı 9 faizdən, təqribən 30 faizə qədər artdı. Dəmir yolu çəkildi ki, azərbaycanlılar müxtəlif bölgələrdən buraya daha tez gələ bilsinlər. Xankəndidə dəmir yolu vağzalı tikildi, böyük infrastruktur layihələri yaradıldı – Sərsəng, Suqovuşan su anbarları. Hansılar ki, ermənilər işğal dövründə bizi sudan da məhrum etmişdilər. Bir neçə müəssisə yaradıldı və bu müəssisələrdə çalışan azərbaycanlılar müxtəlif bölgələrdən, o cümlədən Qarabağ bölgəsindən gəldilər. Bütün bunlar davam edirdi. Ancaq 1987-ci ildə Heydər Əliyev istefaya göndəriləndən sonra yenə də separatçılar baş qaldırdılar və bu dəfə bu, xalqımıza çox baha başa gəldi. Bəlkə gənclər onu da bilmirlər, Heydər Əliyevin istefasından iki həftə sonra bir sovet erməni alimi Fransanın “Humanite” qəzetində məqalə dərc etmişdi ki, “Dağlıq Qarabağ Muxtar Vilayəti” Azərbaycandan çıxarılıb Ermənistana birləşməlidir. Cəmi iki həftədən sonra, – artıq Heydər Əliyev iqtidarda yox idi, – dərhal burada – Xankəndidə və Ermənistanda hərəkət başlamışdı, müxtəlif təşkilatlar yaradılmışdı. Mərkəzi hökumət, yəni Sovet İttifaqı rəhbərliyi buna laqeyd yanaşırdı. Hətta o, separatçıları, erməni millətçilərini, necə deyərlər, stimullaşdırırdı, onları daha da fəal olmağa təhrik edirdi. Qarşıya vəzifə qoyuldu ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi zəiflik, qorxaqlıq, bəzi hallarda xəyanət göstərmişdir. Həm 1980-ci illərin sonlarında, həm 1990-cı illərin əvvəllərində, həm kommunist, həm də Xalq Cəbhəsi hakimiyyətinin satqınlığı, qorxaqlığı, xəyanəti nəticəsində biz torpaqları itirdik.

Xankəndidən azərbaycanlılar qovuldu, ondan sonra – müstəqillik elan olunandan dörd ay sonra 1992-ci ilin fevralında Xocalı soyqırımı törədildi, 1992-ci ilin may ayında Şuşa, Laçın işğal olundu, 1993-cü ilin aprelində isə Kəlbəcər. Beləliklə, xəritəyə baxsanız görərsiniz ki, bütün böyük bir bölgə nəzarətdən çıxdı və faktiki olaraq Ermənistanla Qarabağ bölgəsi arasında coğrafi əlaqə yaradıldı. Bax, bu idi bizim tariximiz.

Yenə də bu gün Ulu Öndərin xatirəsinə hörmət ifadə edərək bir daha deyirik və görürük ki, əgər 1993-cü ildə xalqın tələbi ilə o, Azərbaycana gəlməsəydi, Azərbaycan, ümumiyyətlə, dünya xəritəsindən silinə bilərdi. Sabitlik yaradıldı, inkişafa qədəm qoyuldu və quruculuq işlərinə başlandı. Quruculuq və inkişaf işlərinin məntiqi nəticəsi 8 Noyabr - Zəfər Günümüzdür, Şuşanın azad olunması, Ermənistanın kapitulyasiyası və ondan sonrakı tarix artıq göz qabağındadır. Əgər 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər bizim bütün addımlarımızı və gördüyümüz işləri təhlil etsəniz görərsiniz ki, hər bir addım əvvəlki addımın məntiqi davamı idi və hər bir addımın son məqsədi 20 Sentyabr – Dövlət Suverenliyi Günü idi.

Mən bir daha sizi ürəkdən salamlayıram. Mən Azərbaycan tarixi haqqında çox danışa bilərəm. Çünki mən bu tarixi yaşamışam, son 30 ilin tarixini və bu gün Qarabağda, azad Qarabağda olmaq, sizi görmək, yataqxanada, o balkonda tələbələrin gülər üzlərini görmək doğrudan da böyük xoşbəxtlikdir. Bəlkə də bundan böyük xoşbəxtlik ola bilməz. Müəllimlərə, tələbələrə uğurlar arzulayıram. Yaxşı işləyin, yaxşı oxuyun ki, hər zaman Azərbaycan zəfər çalsın, hər zaman – əgər lazım olarsa, həm döyüş meydanında, həm iqtisadi sahədə, həm siyasi müstəvidə, hər bir yerdə Azərbaycan həmişə zirvələrdə olsun! Sizi təbrik edirəm.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxış edərək dedi:

– Möhtərəm cənab Prezident, Sizi Qarabağ Universiteti ailəsi adından böyük şərəflə və sonsuz qürur hissləri ilə salamlayırıq. Biz də fürsətdən istifadə edərək, ilk növbədə, Sizi 20 Sentyabr - Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü münasibətilə bütün kollektivimiz adından təbrik edirik.

Təbii ki, bu gün Qarabağ Universitetinin açılışını Sizin iştirakınızla etməyimiz Ali Baş Komandanlığınızla qazanılmış tarixi Zəfərin növbəti təntənəsidir. Buna görə Sizə dərin təşəkkürümüzü bildiririk. İlk növbədə, xüsusi vurğulamaq istəyirəm ki, Qarabağ Universitetini yaratdığınıza və onun qısa bir zamanda fəaliyyətə başlamasına çox böyük dəstək göstərdiyinizə, davamlı qayğınıza görə bütün heyətimiz adından Sizə təşəkkür edirik.

Sizin müvafiq tapşırıq və göstərişləriniz əsasında Qarabağ Universitetinin qurulması yolunda işlərimiz sürətlə davam edir. Çox qısa olaraq məlumat vermək istəyirəm ki, bütün heyətimiz çox peşəkar insanlardan formalaşdırılıb. Bizi çox sevindirir və qürurlandırır ki, Qarabağ Universitetinin ilk tələbələri üçün elan etdiyimiz qəbul planı tam dolub və xüsusi vurğulayaq ki, tələbə qəbulu çox keyfiyyətli olub. Universitetimizə qəbul olan tələbələr arasında imtahanlarda yüksək bal toplayan gənclərimizin sayı çoxdur. Bu, bizi qürurlandırır və keyfiyyətli universitet quruculuğu yolunda daha da ruhlandırır.

Təbii ki, tələbələrimizin Azərbaycanımıza layiqli vətəndaş, yüksəkixtisaslı mütəxəssis olmaları ilə bağlı vacib tapşırığınız var. Buna görə də universitetimizi yeni dövrün çağırışlarına uyğun, məhz müasir Azərbaycan gəncinin arzu və istəklərinə uyğun formalaşdırmağa çalışırıq. Universitetimizdə məhz buna uyğun akademik məzmun yaradılıb və yeni dövrə uyğun universitet idarəetmə modeli formalaşdırırıq. Əmin edirik ki, Qarabağ Universiteti Sizin böyük dəstəyinizlə çox qısa bir zamanda Azərbaycanımızın əsas elm, təhsil və innovasiya mərkəzlərindən birinə çevrilə biləcək. İstəyimiz ondan ibarətdir ki, tələbələrimizi Ulu Öndərimizin ideyalarına sadiq, vətənpərvər ruhlu, müasir dünyagörüşlü, milli-mənəvi dəyərlərimizə sadiq gənclər olaraq yetişdirə bilək ki, bütün gənclərimiz qarşıdakı dövrdə Azərbaycanımızın inkişafına öz layiqli töhfələrini verə bilsinlər.

Sizin tapşırığınızla Qarabağ Universitetinin qarşısına qoyulan əsas hədəf keyfiyyətli ali təhsil xidmətləri göstərmək, nəticəyönümlü tədqiqatlar həyata keçirmək və cəmiyyətimizə faydalı ola biləcək innovativ həllər tətbiq etməkdir. Təbii ki, işğaldan azad olunmuş torpaqlarımızda fəaliyyətə başlayan ilk universitetin və ya adı Qarabağla bağlı olan bir universitetin heyətində təmsil olunmaq hər birimiz üçün sonsuz şərəfdir və həm də çox böyük məsuliyyətdir. Bu məsuliyyəti aydınlığı ilə dərk edirik. Siz çox doğru vurğuladınız ki, bu universiteti tarixi Zəfəri yaşamış gənclər üçün yaratmısınız və məhz tarixi Zəfərin qazanıldığı torpaqda yaratmısınız. Bu, bizim məsuliyyətimizi daha da artırır.

Sizi əmin edirik ki, qarşımıza qoyduğunuz bütün tapşırıqları yerinə yetirmək üçün bütün heyətimiz formalaşıb. 1200 tələbəmizin gəlişi ilə gücümüz əhəmiyyətli şəkildə artıb, müasir gəclərimiz komandamızda formalaşıb. Əmin ola bilərsiniz ki, qarşımıza qoyulan bütün tapşırıqları yerinə yetirmək üçün var qüvvəmizlə çalışacağıq. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ ol. Təşəkkür edirəm.

Sonra çıxış edən tələbə Fənarə Məmmədzadə dedi:

-Hörmətli cənab Prezident, mən Bərdə şəhərində fəaliyyət göstərən Ağdam rayon 9 nömrəli tam orta məktəbin məzunuyam. Laçın rayonundan keçmiş məcburi köçkünəm. Doğma torpaqlarımızı heç vaxt görməsəm də, bu sevgimi qəlbimdə daşımışam. Bu gün çox xoşbəxtəm. Qəbul imtahanında 642 bal toplayaraq Qarabağ Universitetinin maliyyə ixtisasını seçmişəm və doğma yurduma tələbə statusunda qayıtmışam. İnanıram ki, tələbələrimiz Qarabağ Universitetinin bizə verdiyi imkanlardan ən doğru şəkildə istifadə edərək gələcəyin parlaq mütəxəssisləri olacaqlar və Qarabağımızın dirçəlməsində birlikdə iştirak edəcəklər.

Son olaraq doğma torpaqlarımızı işğaldan azad etdiyiniz və biz gənclərə burada təhsil almaq şansı yaratdığınız üçün Sizə minnətdarlığımı bildirirəm.

Prezident İlham Əliyev: Sağ ol, təşəkkür edirəm.

Tələbə Rauf Penceyev dedi:

– Möhtərəm Prezident, mən Bakı şəhəri 85 nömrəli tam orta məktəbin məzunuyam. Ötən ilin qəbul imtahanlarında 600 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olmuşam. Birinci kursda oxuduğum zaman Sizin Qarabağ Universitetinin yaradılması ilə bağlı Sərəncam imzaladığınız barədə xəbəri eşitdim. Bu xəbəri eşitdikdən sonra Qarabağ Universitetinin ilk tələbələrindən olmaq sevincini yaşamaq üçün əlimdən gələni etmək istədim və bunun üçün respublikamızda keçirilən "SABAH" qrupu imtahanlarında yüksək nəticə toplayaraq təhsilimi Qarabağ Universitetində davam etdirmək hüququ qazandım. Həm Qarabağ Universitetinin ilk tələbələrindən biri olmaq və həm də ilk məzunlarından biri olacağım üçün çox xoşbəxtəm və qürurluyam. Bu gün bu möhtəşəm tədbirdə – Qarabağ Universitetinin açılışında Sizin qarşınızda "SABAH" qrupunun tələbələrindən biri

olaraq çıxış etməkdən fərəh hissi duyuram. Qarabağa ilk gəlişim Xankəndi şəhərinə təsadüf etdi və buraya tələbə statusunda gəlmək daha böyük qürurverici hissdir. Xankəndi şəhərində yaradılan şərait və infrastrukturla tanış olmuşam. Burada yaradılan şəraitə, ən əsası isə biz tələbələr üçün müasir tipli yataqxananı və qısa müddətdə Qarabağ Universitetini hazır vəziyyətə gətirdiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

Prezident İlham Əliyev: Sağ ol.

Tələbə Zenfira Nəsirova dedi:

– Möhtərəm cənab Prezident, mən Salyan şəhər, Aşıq Pənah adına 1 saylı məktəbin məzunuyam. Builki qəbul imtahanında 684 bal toplayaraq Qarabağ Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olmuşam. Doğrusu, topladığım bal mənə respublikamızın digər ali məktəblərini seçmək imkanını yaradırdı. Lakin məhz seçimim Qarabağ Universiteti oldu və sevinirəm ki, ailəm də bu seçimimi dəstəklədi. Çünki burada təhsil almaq hər bir azərbaycanlı gənc üçün böyük fəxarətdir. Bu gün bu tədbirdə iştirak edirəm və çox xoşbəxtəm ki, həm Qarabağ Universitetinin ilk tələbələrindənəm, həm də tələbələr arasında ən yüksək nəticəni mən göstərmişəm və Sizin qarşınızda çıxış etmək imkanı qazanmışam.

Biz tələbələr olaraq Sizi tam əmin edə bilərik ki, yüksək təhsil alıb peşəkar mütəxəssis kimi yetişərək ölkəmizə, Vətənimizə daim fayda verəcəyik. Yaradılan bütün şəraitə və ümumi olaraq Azərbaycan gəncinə göstərdiyiniz dəstəyə görə Sizə və Mehriban xanıma xüsusi təşəkkürümüzü bildiririk.

Prezident İlham Əliyev: Sağ ol. Təşəkkür edirəm.

Sağ olun, əziz dostlar, uşaqlar. Bir daha sizi həm Dövlət Suverenliyi Günü münasibətilə, həm də Qarabağ Universitetinin fəaliyyətə başlaması münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, uğurlar, yeni zəfərlər arzulayıram. Qarabağ Azərbaycandır!

Sonra Prezident İlham Əliyev universitetin həyətindəki parkda yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, burada 1,1 hektar sahədə yaşıllaşdırma işləri həyata keçirilib, müəllim və tələbələrin istirahəti üçün hər cür şərait yaradılıb.

Sonda Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə xatirə şəkli çəkdirildi.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQLƏRİ, ÇIXIŞLARI VƏ MÜSAHİBƏLƏRİ

## *Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında İlham Əliyevin çıxışı*

– Hörmətli deputatlar, xanımlar və cənablar.

Yeddinci çağırış Milli Məclis bu gün öz işinə başlayır. Bu münasibətlə bütün deputatları ürəkdən təbrik etmək istəyirəm, Milli Məclisə uğurlar arzulayıram.

Əminəm ki, Milli Məclis və onun deputatları öz işi ilə ölkəmizin hərtərəfli inkişafına öz töhfəsini bundan sonra da verəcək və Azərbaycanın dayanıqlı inkişafı təmin ediləcəkdir.

Builki prezident və parlament seçkiləri müstəqil ölkəmizin tarixində ilk dəfə idi ki, ölkəmizin bütün ərazisində keçirilmişdir. Bu, tarixi hadisədir. İkinci Qarabağ müharibəsi və suverenliyimizin tam bərpa edilməsi dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı güclü iradə, birlik göstərərək 30 il davam edən işğala son qoydu. Azərbaycan dövləti öz gücünü göstərdi, xalqımız isə bütün dünyaya öz əyilməz ruhunu göstərmişdir. Ona görə əminəm ki, 2024-cü il bu baxımdan tarixdə qalan il olacaq. Çünki prezident və parlament seçkiləri bütün ərazilərdə keçirilərək bir daha Azərbaycan xalqı öz iradəsini ortaya qoydu.

İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində suverenliyimizin tam bərpa edilməsi ölkə qarşısında yeni imkanlar, yeni üfüqlər açır. 30 ilin işğalı arxada qaldı. İndi ölkəmiz genişmiqyaslı quruculuq, inkişaf işinə qədəm qoymuşdur və nəticələr də göz qabağındadır. Son 3-4 il ərzində ölkəmizin beynəlxalq mövqeləri daha da möhkəmləndi. İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələrini biz bütün dünyaya qəbul etdirə bildik. Halbuki bunu qəbul etmək istəməyən ölkələr və dairələr var idi, bu gün də var. Biz hamımız bunu yaxşı görürük ki, bizə qarşı əsassız ittihamlar, ikili standartlar əsasında qurulmuş ittihamlar davam edir. Ancaq bu, nə bizim iradəmizə, nə xalqımızın iradəsinə heç cür təsir edə bilməz.

Dövlət suverenliyinin bərpa edilməsindən cəmi bir il keçir. Üç gün bundan əvvəl biz artıq bu günü bayram günü kimi qeyd etmişik. Bununla bərabər, demək istərdim ki, arxayınlaşmaq üçün heç bir əsas yoxdur. Biz bu şanlı tarixi qəlbimizdə əbədi yaşadacağıq. Azərbaycan xalqı, bütün gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər. Ancaq ölkə qarşısında duran vəzifələr icra edilməlidir ki, biz daim inkişafda olaq, öz gücümüzü artıraq və Azərbaycan xalqının bundan sonra da təhlükəsiz həyatını təmin edək.

Ona görə bu gün bu fürsətdən istifadə edərək ölkə qarşısında duran bəzi vəzifələr haqqında öz fikirlərimi sizinlə və Azərbaycan xalqı ilə bölüşmək istərdim.

Birinci nömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, eyni zamanda, Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Hərbi gücümüz olmasa, biz heç bir müstəvidə – nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilmərik. Hesab edirəm ki, müstəqil Azərbaycanın tarixi, o cümlədən 30 illik işğal bunu əyani şəkildə göstərir. Bizim hərbi imkanımız, gücümüz olmasaydı, heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. İndi dünyada nəinki siyasətlə məşğul olanlar, hesab edirəm ki, bütün insanlar görürlər ki, beynəlxalq hüquq anlayışı tamamilə sarsılıb. İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturası artıq mövcud deyil, “Kim güclüdür, o da haqlıdır” prinsipi üstünlük təşkil edir və artıq bəzi böyük dövlətlər bunu heç gizlətmirlər. Bizim isə siyasətimiz, əslində, uzun illər ərzində bu istiqamətdə aparılırdı. İşğal dövründə, ilk növbədə, hərbi gücümüzün artırılması daim bizim əsas vəzifəmiz idi və hər il Milli Məclisdə dövlət büdcəmiz təsdiq olunanda artıq hər kəs görürdü ki, birinci xərclər hərbi xərclərdir. Bu gün də belə olmalıdır.

Bəli, ölkə qarşısında böyük vəzifələr durur, ilk növbədə, Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək vəzifəsi. Ancaq əgər biz hərbi sahəyə diqqətimizi azaltsaq və oraya ayrılan vəsaiti lazımi səviyyədə təmin etməsək, gələcəkdə bizi problemlər gözləyə bilər.

Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bu, təkcə marginal siyasi ünsürlər deyil, eyni zamanda, bugünkü Ermənistan hakimiyyəti bu fikirlərlə, bu xülyalarla yaşayır. Onlar İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri ilə barışmaq istəmirlər. Üzdə bunu desələr də, onların işləri, siyasətləri,

addımları tam əks mənzərə yaradır. Bu günə qədər heç bir funksional mahiyyət daşımayan Minsk qrupunun formal olaraq saxlanması da məhz buna dəlalət edir. Hər kəs yaxşı bilir Minsk qrupu nə üçün yaradılmışdır – Qarabağ münaqişəsinin həlli üçün. Qarabağ münaqişəsi həll olunub, tam və birdəfəlik. Ermənistanın rəsmi dairələri də öz bəyanatları ilə sanki bunu etiraf edirlər. Amma bununla paralel olaraq, bizim bütün təkidlərimizə rəğmən, Minsk qrupunu yenə də formal olaraq saxlamaq ancaq bir məqsədi güdə bilər ki, yenidən bizə qarşı ərazi iddiaları baş qaldırsın. Ermənistanın arxasında dayanan ölkələr, onların fəaliyyəti, onların qəbul etdikləri qərarlar, qətnamələr, açıqlamalar - bütün bunlar onu göstərir ki, bizə qarşı bu çirkin oyun hələ bitməyib. Bizim Qələbəmizi həzm edə bilməyən xarici dairələr bizə qarşı yeni planlar hazırlayır. Bu barədə geniş danışmağa ehtiyac yoxdur. Ancaq əldə edilmiş məlumatlar bunu göstərir. Media kampaniyasının, qarayaxma, iftira, böhtan kampaniyalarının da məqsədi məhz budur - bu mövzunu daim gündəlikdə saxlamaq və ümidlə yaşamaq ki, nə vaxtsa Azərbaycan büdrəsə, zəifləsə, yenidən bizə qarşı bu çirkin hərəkətlər başlasın. Yəni, biz bunu bilməliyik. Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Ona görə bizim arxayınlaşmağa heç cür haqqımız yoxdur.

Ona görə bir daha deyirəm: vəzifə nömrə bir – hərbi gücümüzün artırılması və biz bunu edirik. İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq, yeni silahlı birləşmələr yaradıldı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı. Yeni Xüsusi Təyinatlı Qüvvələr, Komando qüvvələri yaradıldı və onların da say tərkibi ildən-ilə artır və artacaq. Digər xüsusi təyinatlı silahlı birləşmələr yaradılmışdır və gecə-gündüz təlim işləri aparılır. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir. Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq.

Bununla paralel olaraq, biz yerli hərbi sənaye kompleksimizi də daha sürətlə inkişaf etdirməliyik. Bu il bu məqsədlə böyük vəsait ayrılmışdır və gələn il də ayrılacaq. Bizim bütün hərbi zavodlarımızda genişmiqyaslı modernləşmə işləri aparılır. Deməli, yeni avadanlıq, texnika, silah-sursat istehsal olunur. Bir neçə xarici tərəfdaşla yeni istehsalat sahələrinin yaradılması artıq praktik müstəviyə keçibdir. Yəqin ki, növbəti bir-iki il ərzində bizim hərbi sənaye kompleksimiz daha böyük olacaqdır, həm çeşidlərin sayına, həm də ki, istehsal olunacaq məhsulların keyfiyyətinə görə. Burada bir neçə məqsəd güdülür. İlk növbədə, yerli hərbi sənaye kompleksinin yaradılması hər bir ölkənin ümumi gücünü və inkişafını göstərir. İkincisi, biz xarici mənbələrdən daha az asılı olmalıyıq. Təbii ki, bu asılılığı tam aradan qaldırmaq mümkün olmayacaq. Bunu da biz bilməliyik. Amma maksimum dərəcədə özümüzü yerli istehsalla təmin etməliyik. Bu sahədə, xüsusilə müasir dövrdə tətbiq olunan texnoloji yeniliklər bizim ümumi intellektual potensialımızı gücləndirəcək. Çünki bu sahədə çalışan kadrlar, öz işlərini tamamilə yeni, texnoloji və metodoloji əsaslar üzərində qururlar və quracaqlar. Minlərlə yeni iş yeri yaradılacaq. Artıq bütün bunlar bizim təkcə planlarımız deyil, həyata keçirilən layihələrdir. Təbii olaraq, bu layihələr haqqında geniş danışmağa ehtiyac yoxdur. Sadəcə olaraq bildirməliyəm ki, bu da bizim növbəti illər üçün əsas vəzifələrimizdən biri olacaqdır.

Digər amil ondan ibarətdir ki, bu gün dünya silah bazarında aparıcı rol oynayan ölkələrin başı öz işlərinə qarışıb. Onlar daha çox öz daxili tələbatını ödəmək üçün çalışırlar. Ona görə dünya silah bazarında təbii olaraq qıtlıq yaranıbdır. Biz bunu da nəzərə almalıyıq. Eyni zamanda, bu sahə bizə imkan verəcək ki, hərbi-texniki məhsullarımızın ixrac coğrafiyasını genişləndirək. Onsuz da bu gün Azərbaycan onlarla ölkəyə hərbi sənaye kompleksinin məhsullarını ixrac edir və ildən-ilə bu coğrafiya genişlənir. Bu, bizim bir çox ölkələrlə apardığımız danışıqların, o cümlədən iqtisadi və sərmayə qoyuluşu sahəsində aparılan danışıqların tərkib hissəsidir - biz yaxın gələcəkdə dünya silah bazarında önəmli oyunçuya çevrilək və bu imkanlar var.

Siz onu da yaxşı bilirsiniz ki, artıq bu yaxınlarda biz bu sahəni özəl sektor üçün də açıq elan etmişik və şadam ki, mənim çağırışıma özəl sektor da müsbət reaksiya vermişdir. Artıq bir neçə yerli Azərbaycan şirkəti, özəl şirkət hərbi sənaye kompleksinin inkişafında iştirak edir, təbii olaraq, müvafiq dövlət qurumlarından lisenziyalar almaq şərti ilə. Beləliklə, bu, bizə imkan verəcək ki, bir neçə ildən sonra bu sahədə istehsal olunan məhsul milyardla dollarla ölçülsün.

Növbəti önəmli vəzifə sərhədlərimizin qorunması ilə bağlıdır. Mən bu haqda artıq bir neçə dəfə öz fikirlərimi ictimaiyyətə çatdırmışam. Hazırda həm Ermənistanla şərti sərhədimizdə mühəndis işləri aparılır, eyni zamanda, digər qonşularla sərhədimiz müasir infrastrukturla təchiz edilməlidir.

İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla vaxtilə işğal altında olan şərti sərhədimizin uzunluğu 500 kilometrdən çoxdur. Özü də bu şərti sərhədin relyefi, coğrafiyası çox ağır, həm də ki, iqlim

nöqteyi-nəzərdən çox çətin yerlərdə yerləşir və orada xidmət aparmaq o qədər də asan deyil. Bizim bəzi xidmət yerlərimizin hündürlüyü 3 min metrdən çoxdur. Amma buna baxmayaraq, bizim sərhədboyu yerləşən hərbi mövqelərimiz möhkəmlənir. Biz şərti sərhəddə möhkəmlənirik, çünki hər an Ermənistandan istənilən təxribat gözləmək olar və Ermənistan tərəfi həm kütləvi surətdə silahlanır, eyni zamanda, xarici ölkələrlə, özü də böyük dövlətlərlə hərbi təlimlər keçirir. Ermənistana Qərb ölkələrindən silah, sursat göndərilir. Bəzi hallarda açıq - necə ki, Fransa-Ermənistan hərbi əməkdaşlığı açıq-aşkar aparılır - bəzi hallarda isə məxfi formada. Ancaq biz indi hər şeyi bilməliyik və bilirik, kimlər nəyi Ermənistana nə vaxt ötürür, hansı hərbi yük təyyarələri Ermənistan hava limanlarına enir və o yük təyyarələrində hansı hərbi məhsullar Ermənistana daşınır. Yəni, Ermənistanı bizə qarşı yönəltmək üçün bəzi Qərb dövlətlərinin planları göz qabağındadır. Təbii ki, onları erməni xalqı maraqlandırmır. Erməni xalqı, sadəcə, onlar üçün bir alətdir, bir vasitədir ki, Azərbaycanı daim təzyiq altında saxlasın, Ermənistan ərazisindən istifadə edərək Azərbaycan üçün və Ermənistanın digər qonşuları üçün təhdid mənbələri yaratsın və beləliklə, öz maraqlarını təmin etsin. Yəni, bu metodologiya kifayət qədər bəsitdir. Ancaq onu da bilməlidirlər ki, biz buna imkan verməyəcəyik. Mən artıq demişəm ki, əgər biz real təhdid görsək, o təhdidi istənilən ərazidə məhv etmək bizim üçün böyük çətinlik yaratmayacaq. Onu hər kəs bilsin. Sərhədlərin mühafizəsi isə həm vizual, həm infrastruktur, həm texnoloji vasitələrlə təşkil edilir və edilməlidir. Ancaq biz hamımız bilməliyik ki, bu, çox böyük, genişmiqyaslı bir işdir.

Digər qonşularımızla da sərhədlərimizin möhkəmləndirilməsi vacib şərtlərdən biridir və əminəm ki, Azərbaycan vətəndaşları da bu məsələyə anlayışla yanaşırlar. Bizim quru sərhədlərimiz hələ də bağlıdır, yəni, vətəndaşların gəliş-gedişləri üçün. Başa düşürük ki, bu, müəyyən çətinliklər yaradır. Ancaq bugünkü geosiyasi vəziyyət də hamının gözü qarşısındadır, daxili təhlükəsizliyi təmin etmək üçün bu, yeganə düzgün addımdır. Daxili təhlükəsizlik ilə bağlı bütün lazımi tədbirlər görülür. Təhdidlər də var – real və potensial. O təhdidlərin aradan qaldırılması üçün müvafiq qurumlar fəal işləyirlər. İctimaiyyət də lazım olan həcmdə bu məsələ ilə tanış olur, məlumatlar verilir. Ancaq bu sahə çox həssas olduğu üçün hesab edirəm Azərbaycan vətəndaşları başa düşürlər ki, bu barədə çox şey danışmaq yersiz və zərərli olar. Amma mən tam əminliklə deyə bilərəm ki, son illər ərzində quru sərhədlərimizin bağlı olması bizi çox böyük fəlakətlərdən xilas etdi. Hətta bu gün – sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlər olur və bu hərəkətlərin qarşısı alınır. Ona görə sərhədlərimizin qorunması bizi xarici risklərdən qoruyacaq, daxili risklər Azərbaycanda yoxdur. Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq uzun illərdir təmin edilir, sabitlik bütün dünya üçün nümunə ola bilər. Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz. Bu gün sabitliyi pozulan ölkələrin vəziyyətini və aqibətini hər kəs yaxşı görür. Bu, təhlükəsizliyin, inkişafın, xarici sərmayənin cəlb edilməsi üçün başlıca şərtdir. Bizim təhlükəsizliklə bağlı bütün digər tədbirlər lazımi səviyyədə təmin edilir. Azərbaycan güclü dövlətdir və ildən-ilə bizim gücümüz artmaqdadır.

Digər vacib vəzifələr ideoloji təhlükəsizliklə bağlıdır və burada da biz daim diqqətli olmalıyıq. Çünki bizə qarşı ideoloji təxribatlar davam edir. Düzdür, onların bu günə qədər heç bir nəticəsi olmayıb, çünki bunların qarşısında xalqımızın güclü iradəsi və milli ruhumuz dayanır. İstənilən ideoloji təxribatın burada kök salması qeyri-mümkündür. Ancaq bununla bərabər, bu, bizi sakitləşdirməməlidir. Ona görə biz buna daim hazır olmalıyıq və bizə qarşı aparılan çirkin oyunları ifşa etməliyik, necə ki, edirik, həm rəsmi surətdə, həm ictimai məkanda, həm də media məkanında. Hesab edirəm ki, Azərbaycan xalqı bu gün hər şeyi yaxşı görür, hər şeyi yaxşı bilir - bizim dostumuz kimdir, düşmənimiz kimdir. Əsas meyar ölkələrin bizim suverenliyimizin bərpasına olan münasibətidir, daha başqa uzağa getmək lazım deyil. Bizi kim dəstəkləyib, suverenliyimizin bərpa edilməsində kim təbrik edib? Bu, bizim dostlarımızdır. Buna qarşı kim çıxıb və kim çıxır? Bunlar bizə dost ola bilməzlər. İşğal dövründə bu, o qədər də aydın deyildi. Yəni, bizim üçün aydın olsa da, geniş ictimaiyyət üçün aydın deyildi. Çünki vaxtilə xarici təbliğat Azərbaycanda o qədər kök salmışdı, özü də bir mənbədən yox, bir neçə mənbədən. Bir-biri ilə rəqabət aparan xarici qüvvələr və ölkələr çalışırdılar ki, Azərbaycanda ictimai fikirdə söz sahibi olsunlar. İstəyirdilər ki, onların əlaltıları vasitəsilə bizim media məkanında istənilən təxribatı ortaya ataraq, vəziyyəti öz xeyrinə dəyişdirsinlər. Yəni, belə cəhdlər çox olub, amma güclü iradə və xalqımızın birliyi buna imkan verməyib. Bu gün də bu davam edir. Ona görə yenə də deyirəm, çox sadə meyarlar var. Kim bizimlə Qarabağın Azərbaycana qaytarılmasına sevinirsə, o, bizim dostumuzdur, qardaşımızdır. Kim bundan məyus olub və kim bu gün yenidən separatçılara ürək-dirək vermək istəyir, kim onları xarici ölkələrə dəvət edir, kim onlara vizalar verir, kim bizə qarşı müxtəlif alətlər vasitəsilə qarayaxma kampaniyası aparır, o, necə bizim dostumuz ola bilər? Ona görə hər şeyin, necə deyərlər, açıq-aydın görünməsi bu gün daha aydındır. Çünki yenə də deyirəm, işğal dövründə bizə

qarşı bu qədər açıq, təxribat xarakterli addımlar olmamışdı. Çünki o işğal bizə qarşı olan qüvvələri tam qane edirdi - Azərbaycan dövləti daim təzyiq altında olsun, daim hansısa vasitəçilərə möhtac olsun, daim xalqımız mənəvi əzab çəksin, qaçqınlıq əzabı. Torpaqlarını itirmiş xalqın duyğularını başa düşmək üçün böyük ağıla malik olmaq lazım deyil. Yəni, biz bu bəladan canımızı qurtardıq və bizə qarşı olan anti-Azərbaycan qüvvələrin maskaları dərhal yırtıldı və bu gün də biz bunu görürük. Mən hesab edirəm ki, ad çəkməyə ehtiyac yoxdur, hər kəs hər şeyi görür. Ona görə ideoloji təhlükəsizlik məsələləri də daim diqqət mərkəzində olmalıdır, həm dövlət qurumlarının, həm qanunvericilik orqanının, həm də ictimai fəalların. Biz bu məsələ ilə əlaqədar əlbəttə ki, öz addımlarımızı atırıq və atacağıq.

Bir məsələyə də toxunmaq istərdim. Mən üç gün bundan əvvəl Xankəndidə Qarabağ Universitetinin açılışında bunu demişəm, bir də demək istəyirəm. Məsələnin vacibliyi bunu diktə edir ki, gənc nəslin milli ruhda böyüməsi sadəcə olaraq sözlər deyil. Bu, Azərbaycanın gələcək inkişafının əsas təminatçısıdır, çünki ölkələri insanlar idarə edir. İnsanların fikirləri, düşüncələri, cəsarəti, yaxud da ki, tam fərqli mənfi xüsusiyyətləri və ölkələrin düşdükləri vəziyyət də böyük dərəcədə bundan asılıdır. Ona görə elə gənc nəsil yetişdirilməlidir ki, həm bilikli, savadlı olmalıdır, həm də Vətənə bağlı olmalıdır. Xarici təsirə boyun əyməməlidir, qürurlu olmalıdır. Zatən qürurlu olmaq üçün bizim şanlı müharibələrimizdən sonra, İkinci Qarabağ müharibəsindən və antiterror əməliyyatından sonra əgər biz qürurlu olmasaq, onda hansı xalq olmalıdır?! Bu parlaq Qələbəni cəmi 44 gün ərzində, şəhidlər verərək, – Allah bütün şəhidlərimizə rəhmət eləsin, – kim qazana bilib?! Bir neçə saat böyük xarici təzyiq altında davam edən antiterror əməliyyatı, – mən heç başqa amilləri demirəm, – separatçılığın kökü kəsildi Azərbaycanda – kim edə bilərdi?! Yəni, öz ölkəmizlə, xalqımızla fəxr etmək üçün ən çox haqlı olan xalq Azərbaycan xalqıdır.

Yenə də deyirəm, ona görə biz – bütün cəmiyyət daim diqqətli olmalıyıq. Mən Xankəndidə də bunu dedim: Tərbiyənin əsas mənbəyi ailə və məktəbdir. Bu, əsasdır. Təbii ki, cəmiyyət, cəmiyyətdə hökm sürən ümumi ab-hava, necə deyərlər, iqlim – bütün bunlar gənc nəslin şüuruna, gələcəyinə ciddi təsir göstərir. Ona görə bu məsələ daim diqqət mərkəzində olmalıdır. Əminəm ki, belə də olacaq. O cümlədən bizim deputatlar da, təbii olaraq öz seçiciləri ilə görüşlər əsnasında bu məsələni daim diqqətdə saxlasınlar.

Qarabağın və Şərqi Zəngəzurun bərpası təbii olaraq bizim hər birimizin önəmli vəzifəsidir.

Əgər mən İkinci Qarabağ müharibəsindən sonra görülmüş işləri sadalamağa başlasam, onda gərək bir neçə saat sizin qarşınızda çıxış edim. Sadəcə olaraq, bir neçə rəqəmi sizin və ictimaiyyətin diqqətinə çatdırmaq istərdim. Müharibədən sonra bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manatdır. Vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinə xərclənib. Eyni zamanda, keçmiş köçkünlərin qaytarılması üçün də işlər görülür və səkkiz mindən çox keçmiş köçkün artıq Qarabağa və Şərqi Zəngəzura yerləşib və hər ay, hər il onların sayı artacaqdır.

İnfrastruktur layihələri çox geniş miqyas alıb, 3 min kilometr avtomobil yolu inşa edilib. Ümumi layihələrin içində 45 tunel nəzərdə tutulur və bu tunellərin uzunluğu 70 kilometrdir, – yəni, o dağlarda tunel açmaq, yol salmaq asan məsələ deyil, – 450 körpünün inşası nəzərdə tutulur. Dəmir yolları, iki beynəlxalq hava limanı istifadəyə verilmişdir. Enerji potensialı gücləndirilir və üç il ərzində 270 meqavat gücündə su elektrik stansiyaları istismara verilmişdir və bu proses davam etdirilir. Məktəblər, xəstəxanalar, sosial obyektlər, kəndlər salınır. Yəni, bir sözlə, Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır. Bilmirəm, tarixdə buna oxşar bərpa işləri hansısa ölkədə aparılmışdır, ya yox. Ancaq bu fakt bir də onu göstərir ki, bu, bizim üçün həmişə ən vacib məsələ olub, – həm işğal dövründə məcburi köçkünlər üçün yeni qəsəbələr salınırdı və xüsusilə indiki şəraitdə.

Bizim mədəni, tarixi irsimizin qorunması üçün praktiki işlər görülür, tarixi abidələr bərpa edilir. Ermənilər tərəfindən dağılmış yeddi məscid yenidən qurulmuşdur. Səkkiz məscidin inşası davam edir. Zəfər muzeyləri, işğal muzeyləri, zəfər parkları, – yəni bu coğrafiyada belə genişmiqyaslı işləri aparmaq, bir daha deyirəm, doğrudan da xalqımızın böyük imkanlarını göstərir və burada söhbət təkcə maliyyə vəsaitindən getmir. Bizim qurduğumuz dövlət, eyni zamanda, texniki imkanlara malikdir. Kadr hazırlığı da yerindədir. Çünki bu işləri görmək – üç min metrdən yuxarı hündürlüyü olan dağlarda qış vaxtında elektrik xətləri çəkmək, doğrudan da böyük peşəkarlıq tələb edir. Yəni, ölkəmizin potensialı budur. Biz buna hazırıq. Biz torpaqları azad edən kimi dərhal buna başlamışıq. Hətta onu da deyim ki, hələ 44 günlük İkinci Qarabağ müharibəsi bitməmişdi, biz Ağdərə rayonunda artıq yol infrastrukturunu inşa etməyə başlamışdıq. Əlbəttə ki, gələcək illərdə işlər daha sürətlə gedəcək. Yaxın vaxtlarda gələn ilin büdcəsi məclisdə müzakirə ediləcək. Əminəm ki, deputatlar hökumətin Qarabağ və Şərqi Zəngəzur üçün nəzərdə tutulan planlarını təsdiq edəcəklər və biz bunu təmin edəcəyik. Təbii ki, bütün bu işləri görmək üçün iqtisadi imkanımız olmalıdır.

Çünki mən onu da bildirməliyəm ki, bütün bu işləri biz öz hesabımıza edirik. Bu günə qədər bizə bərpa işlərində köməklik edən Özbəkistan və Qazaxıstan qardaş dövlətlər olub. Füzuli şəhərində məktəb və uşaqların yaradıcılıq mərkəzi inşa edilibdir və hazırda Qırğızıstan Respublikası da Ağdam rayonunda məktəb inşası ilə məşğuldur. Vəssalam. Bundan başqa necə deyərlər, bizə bir daş da müftə verilməmişdir. Biz bütün bu işləri öz hesabımıza edirik. Dünyanın bir çox donor təşkilatları var, onlar, necə deyərlər, bu məsələyə biganədirlər. Halbuki bu böyük ərazini bu vəziyyətdə görən minlərlə xarici nümayəndə olub. Bunu görüb və heç bir praktiki iş görməmək bir daha onu göstərir ki, bizə olan münasibət nəzərə alınmalıdır. Bu, bir daha bizə göstərməlidir ki, biz ancaq öz gücümüzə arxalanmalıyıq, biz öz potensialımıza güvənməliyik.

Bu ilin iqtisadi sahədə göstəriciləri, hesab edirəm ki, müsbətdir. Səkkiz ayda iqtisadiyyat dörd faizdən çox artıb, qeyri-neft sektorunda yeddi faiz olub. Biz son illər ərzində mənim tapşırığımla xarici borcumuzu ildən-ilə aşağı salırdıq və bu gün ümumi daxili məhsula nisbətdə bu, cəmi 7,5 faiz təşkil edir. Demək olar ki, biz bütün əsas kreditləri qaytarmışıq və yəni, əgər borcumuzu mütləq rəqəmlərlə götürsək, təqribən 5,3 milyard dollardır, – biz bir gündə qaytara bilərik. Daha heç bir ölkə ilə özümüzü müqayisə etmək istəmirəm. Amma bir rəqəmi deyim ki, inkişaf etmiş ölkələrin bəzilərində, o cümlədən bizə mühazirə oxumaq istəyən bəzi ölkələrdə xarici borc ümumi daxili məhsulun 100 faizini, ondan da yüksək rəqəmi təşkil edir. Yəni, bu, sadəcə olaraq kiçik bir arayışdır.

Əlbəttə, bizim gələcək planlarımızı həll etmək, o cümlədən vətəndaşların sosial rifahını yaxşılaşdırmaq üçün iqtisadiyyat daim inkişaf etməlidir. Çünki biz 2018-ci ildən bu yana dörd sosial islahatlar paketi həyata keçirmişik. Bu sosial islahatlar paketinin məbləği 7 milyard manatdır və bu, 4 milyon insanı əhatə edir. Son beş il ərzində Azərbaycanda minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artmışdır. Onu da bildirməliyəm, artıq göstəriş verildi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaqdır.

Yəni, bu sosialyönümlü siyasət bir daha bizim ümumi siyasətimizi, niyyətimizi göstərir. Əlbəttə ki, gələcəkdə bu istiqamətdə siyasəti aparmaq üçün iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, yerli istehsalın genişləndirilməsi əsas şərtdir. Bu gün ölkəmizin bütün bölgələrində, həmçinin Qarabağda yeni istehsalat sahələri açılır. O cümlədən böyük rəmzi məna daşıyan "İstisu" su zavodunun açılışı olmuşdur və artıq istisu yenə də bizim süfrəmizdədir. Bu, doğrudan da həm böyük rəmzi məna daşıyır, həm də ki, tarixi ədalətin bərpasıdır. Çünki vaxtilə – sovet dövründə fəaliyyət göstərən həm zavod, həm də sanatoriya ermənilər tərəfindən dağıdılmışdır.

Ermənistanla münasibətlərin normallaşması məsələsinə də toxunmaq istərdim. Yenə də bildirmək istəyirəm ki, İkinci Qarabağ müharibəsində məhz Azərbaycanın təşəbbüsü ilə sülh danışıqları başlamışdır. O vaxt nə Ermənistan, nə başqa ölkələr, ümumiyyətlə, gələcək nədən ibarət olacaq, bu haqda heç öz fikirlərini formalaşdırmamışdılar. Bizim təşəbbüsümüz idi. Bir müddət sonra görəndə ki, bu, cavabsız qalır, biz artıq əsas baza prinsiplərini ortaya qoyduq, onları ictimailəşdirdik və artıq proses başlamışdır. Ancaq nəyi görürük? Görürük ki, Ermənistan bu məsələni süni şəkildə uzadır. Çünki bu günə qədər – bizim birinci layihəmiz Ermənistana göndəriləndən bu günə qədər 10 şərhlər mübadiləsi olmuşdur və hər dəfə müəyyən müddəalar razılaşdırılırdı, yəni, bu işdə tərəqqi var idi. Bunu biz necə var, elə də deməliyik. Amma bununla yanaşı, aylar keçdikcə, təbii olaraq biz gözləyirdik ki, Ermənistan öz şərhlərini bizə daha operativ və çevik verəcək. Ancaq biz bunun tam əksini gördük. Son variantın onlardan alınmasını biz 70 gün gözləməli olduq. İyunun 24-də bizim şərhlərimiz onlara göndərildi və avqustun sonunda, ya da ki, sentyabrın əvvəlində onlar bizə cavab göndərmişdilər. Bu cavab nədən ibarət idi? Bütün razılaşdırılmamış müddəalar onların variantında sülh müqaviləsindən çıxarıldı. Yəni, bu dərəcədə primitiv və qeyri-adekvat addım, sözün düzü, gözlənilən deyildi. Mətndən çıxarılmış, yəni, onların istəyi ilə çıxarılması nəzərdə tutulan müddəalar vacibdir. Onlarsız sülh müqaviləsi natamam olacaq. Ona görə bu qədər qeyri-səmimi münasibət bizi təbii olaraq düşündürür. Bayaq dediyim amillərlə yanaşı, əgər biz bütün bu amilləri necə deyərlər, bir çərçivəyə salsaq, görərik ki, həm sürətli silahlanma, revanşizm meylləri, həm də Ermənistanın himayədarlarının bizə qarşı yenidən Qarabağ mövzusunu ortaya atması, sülh müqaviləsinin gedişatında qeyri-adekvat və qeyri-səmimi münasibət, vaxt uzatma taktikası və digər məqamlar deməyə əsas verir ki, Ermənistan, əslində, sülh istəmir, vaxt uzatmaq, bu vaxtdan istifadə edərək, xarici himayədarların dəstəyi ilə hərbi potensial qurmaq istəyir. Artıq bəzi Avropa ölkələrinin və təkcə Avropa deyil, digər Qərb ölkələrinin nümayəndələri Ermənistan ordusunda işə başlayıblar. Bizim sərhədimizdə qanunsuz olaraq dırnaqarası "Avropa sülh", ya bilmirəm "müşahidəçi" missiyası yaradılıb, halbuki bu, əldə edilmiş razılaşmanın pozulmasıdır. Mən həm Avropa İttifaqına, həm Ermənistana onu da xatırlatmaq istəyirəm ki, 2022-ci ilin Praqa görüşündə razılıq əldə edilmişdir ki, – bəli, biz də razılıq vermişdik, – Ermənistan

tərəfində şərti sərhəd istiqamətində kiçik sayda müşahidəçi missiya yerləşsin, cəmi iki, ya üç aya. Yəni, bizimlə bu razılaşdırıldı. Amma ondan sonra bizsiz bunu uzatdılar, onların sayını artırdılar, oraya Kanadadan nümayəndələr daxil edildi və faktiki olaraq bu missiya NATO missiyasıdır. Ondan sonra bizə qarşı "Binokl diplomatiyası", deməli, siyasəti aparılırdı. Gecə-gündüz xarici nümayəndələr gəlirdi, binoklla bizə baxırdı. Nə göstərmək istəyirdilər bizə?! Bu, nə demonstrasiyadır, nə ucuz şoudur?! Bütün bu amillər bizi ciddi düşündürməlidir və təbii ki, düşündürür. Ona görə Ermənistanla normallaşma əgər onlara lazım deyilsə, deməli, bu olmayacaq. Biz hər halda öz mövqeyimizdən bir addım geri atmayacağıq. Kim nə istəyir desin, vasitəçilər də bizə lazım deyil. Düzdür, indi bəzi vasitəçilik təkliflərinə biz etiraz etmirik, sadəcə olaraq, siyasi nəzakət naminə. Ancaq, əslində, bizə vasitəçi lazım deyil. Biz Ermənistanla dövlət sərhədinin delimitasiyasını vasitəçilərsiz etdik. Sadəcə olaraq, onlara bildirdik ki, Qazax rayonunun dörd kəndi bizə qeyd-şərtsiz qaytarılmalıdır və bunu son dəfə mən bu ilin fevral ayında demişəm. Hesab edirəm ki, bu sözlər çox tutarlı oldu və ondan sonra heç bir vasitəçisiz, heç bir qeyd-şərtsiz Qazaxın dörd kəndi, – hansı ki, işğal altında idi, – bizə qaytarıldı. Beləliklə, biz nəinki delimitasiyanı, hətta demarkasiyanı da başlamışıq. Ona görə danışıqlarda da bizə heç bir vasitəçi lazım deyil. Ermənistan da buna bel bağlamasın. Ümumiyyətlə, heç kimə bel bağlamasın. Onlar əgər bu coğrafiyada yaşamaq istəyirlərsə və təhlükəsizlik şəraitində yaşamaq istəyirlərsə, öz qonşularına qarşı siyasətlərində ciddi düzəlişlər etməlidirlər. Bu birincisi. İkincisi, nə onlar, nə onların arxasında duranlar 30 illik işğalı heç vaxt unutmamalıdırlar. Amma bunu unutmaq istəyirlər və unutdurmaq istəyirlər. Sanki bu işğal olmayıb. İkinci Qarabağ müharibəsinin nəticələrini unutmamalıdırlar, Ermənistan ordusu darmadağın edilmişdir. Ermənistan kapitulyasiya aktını imzalamışdır. Ondan sonra mən əmr verdim və Azərbaycan Ordusunun şanlı Zəfər yürüşü dayandırıldı. Bugünkü reallıq bir daha göstərir ki, bu nə qədər düzgün addım idi, ondan sonrakı hadisələr də göz qabağındadır və nəticə etibarilə 20 Sentyabr – suverenliyimizin tam bərpa edilməsi günü unudulmamalıdır və bu tarixi həqiqət danışıqlar masasında da daim olmalıdır.

İkinci Dünya müharibəsindən sonra faşist Almaniyasına heç kim sülh müqaviləsi təklif etməmişdir. Faşist Almaniyası bir neçə yerə bölünmüşdü, kapitulyasiyaya uğrayan faşist dövlət cəzalandırıldı. Burada isə kapitulyasiyaya uğrayan faşist dövlət nəinki cəzalandırılmadı, hətta onlara bütün preferensiyalar verilir. Onlara Amerikadan indi 250 milyon dollar pul verilir. O puldan onlar öz daxili məqsədlərinə istifadə edəcəklər, qənaət olunan pula isə silah alacaqlar, bizi öldürməyə. Bu məsuliyyəti kim daşıyır və kim daşıyacaq? O pulu onlara verən. O cümlədən dırnaqarası "Avropa Sülh Fondu". Görün, bu riyakarlığın səviyyəsinə baxın. Silah üçün nəzərdə tutulan fond, ona Sülh Fondu deyirlər, Ermənistan ondan istifadə edir, Fransadan pulsuz silah alır. O vəsait də ödənilmir, başqa yerlərdən. Ona görə bu, ciddi məsələdir və bu barədə çox da danışmaq istəməzdim. Sadəcə olaraq, bizim şərtlərimiz yerində qalır. Ermənistanı silahlandıranlar bilməlidirlər ki, bütün gələcək hadisələrə birbaşa onlar cavabdehlik daşıyacaqlar və təbii olaraq, bizə qarşı rəsmi ərazi iddialarına son qoyulmalıdır. Onların konstitusiyasına dəyişiklik edilməlidir, Minsk qrupu da ləğv olunmalıdır.

Bilirsiniz, işğal dövründə bizim təbii olaraq xarici siyasətimizin böyük hissəsi bu istiqamətə yönəlirdi. İndi isə – tarixi Zəfərimizdən sonra biz xarici siyasətimizdə daha sərbəstik və bu münasibətlə bir neçə kəlmə demək istərdim: müstəqil, prinsipial xarici siyasət bizim əsas istiqamətimizdir. Biz heç kimə qarşı heç vaxt heç bir iş görməmişdik, heç kimin işinə qarışmamışdıq. Amma bizim işimizə qarışmaq istəyənlərə də hər dəfə dərs vermişik ki, bunu etməsinlər. Belə cəhdlər var, olacaq. Düzdür, onların heç bir əhəmiyyəti yoxdur. Ancaq bizim xarici siyasət istiqamətində bu amil təbii olaraq həmişə nəzərə alınacaq. Kim bizimlə ikitərəfli formatda, qarşılıqlı hörmət əsasında əməkdaşlıq etmək istəyirsə, biz ikiqat əməkdaşlıq edəcəyik. Amma əgər kimsə hesab edir ki, bizə gəlib nəsə diktə edəcək, yaxud da ki, bizi əsassız olaraq ittiham edəcək, ya da ki, hansısa vasitələrlə bizi qaralayacaq və sanki heç nə olmamış kimi bu ölkələrlə biz dostluq edəcəyik, bu, səhv təsəvvürdür, bu, olmayacaq! Azərbaycan çoxdan özünü ləyaqətli və qürurlu dövlət kimi təsdiqləyib. Xüsusilə, tarixi Zəfərimizdən sonra bizim beynəlxalq nüfuzumuz bir neçə dəfə artıb. Beynəlxalq mövqelərimiz möhkəmlənib, beynəlxalq ictimaiyyət bizimlədir. Çünki bəzi Qərb ölkələri hesab edirlər ki, beynəlxalq ictimaiyyət ancaq onlardır və onların əli altında olan demək istəmirəm yəni, asılı dövlətlər. Yox, beynəlxalq ictimaiyyət bütün dünya ölkələridir və bu dünya ölkələri bizə yekdilliklə səs verib. COP29-un Azərbaycanda keçirilməsi 200-ə yaxın ölkə tərəfindən yekdilliklə qəbul edilmiş qərardır və bizim beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amildir. Bundan sonra da xarici siyasətdə geriyə heç bir addım olmayacaq. Dostlarımızın bütün qitələrdə sayı artır. Biz indi – İkinci Qarabağ müharibəsindən və suverenliyimizi bərpa edəndən sonra daha fəal xarici siyasət aparacağıq. Vaxtilə mövcud olmadığımız bölgələrlə indi çox ciddi

təmaslar qurulur, həm sərmayə qoyuluşu layihələri nəzərdən keçirilir, eyni zamanda, müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaranır. Təbii olaraq, ənənəvi tərəfdaşlarımızla, dostlarımızla münasibətlərimiz yerindədir və daha da inkişaf edir və edəcək.

Təbii ki, ölkə qarşısında bir çox digər vəzifələr var. Bir daha məclis üzvlərini yeddinci çağırış parlamentin fəaliyyətə başlaması münasibətilə təbrik etmək istəyirəm. Hər birinizə uğurlar, cansağlığı arzulayıram. Sağ olun.

## *İqtisadi məsələlərə həsr olunmuş müşavirədə İlham Əliyevin çıxışı*

– Bugünkü müşavirədə biz iqtisadi məsələləri müzakirə edəcəyik. İlin sonuna cəmi üç ay vaxt qalır. İlin sonuna qədər görüləcək işlər haqqında da fikir mübadiləsi aparılacaq.

Bütövlükdə deməliyəm ki, ilin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədədir. İlin əvvəlində mən bu ilin iqtisadi sahədə uğurlu olub-olmaması haqqında danışanda qeyd etmişdim ki, tam əminəm, bu il iqtisadiyyatımız üçün uğurlu olacaq. İlin əvvəlindən əldə edilmiş nəticələr və iqtisadi göstəricilər mənim sözlərimi təsdiqləyir. İqtisadi artım 4,3 faiz təşkil edib. Bugünkü dünyada gedən prosesləri təhlil edərkən və ümumiyyətlə, geosiyasi vəziyyətə nəzər saldıqda deyə bilərəm ki, bu, çox müsbət göstəricidir. İqtisadi inkişaf templəri inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələyir. Xüsusi əhəmiyyət daşıyan məqam ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir.

Onu da bildirməliyəm ki, son illər ərzində xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə neftin hasilatı ildən-ilə azalırdı və bu da təbii olaraq bizim ümumi iqtisadi inkişaf templərimizə mənfi təsir göstərirdi və biz bu tənəzzülü qeyri-neft sektorunun inkişafı ilə tənzimləyirdik. Ancaq neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırılmış və onlardan tələb edilmişdir ki, bu nöqsanlar aradan qaldırılsın, neft hasilatının sabitliyi təmin edilsin. Son aylar ərzində bu istiqamətdə çox fəal iş aparılırdı. Bu işin nəticəsi olaraq əsaslı ümidlər yaranmışdır ki, daha bundan sonra heç bir əsası olmadan neft hasilatında tənəzzül olmayacaq. Təbii olaraq hökumət qurumları və Dövlət Neft Şirkəti bu işlərin gələcək gedişatına da daim diqqət yetirəcək. Beləliklə, bizim iqtisadi inkişaf templərimizi geriyə çəkən əsas amil ümid edirəm ki, aradan qaldırılacaq və gələn il sabit neft hasilatı təmin edilməlidir. Nəzərə alsaq ki, hazırda biz neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işləyirik və o layihələrin işlənməsi nəticəsində yeni hasilat proqnozlarımız var. Yəqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır.

Ancaq təbii olaraq, bizim əsas hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. İnflyasiya ilin əvvəlindən cəmi 1 faizdən bir qədər çox olmuşdur. Bu da çox müsbət göstəricidir. Mən artıq bəyan etdim ki, gələn il minimum əməkhaqqı və minimum pensiya artırılacaq, baxmayaraq ki, inflyasiya çox aşağı səviyyədədir, baxmayaraq ki, ölkə qarşısında duran vəzifələr böyük maliyyə vəsaiti tələb edir, ilk növbədə, hərbi, hərbi sənaye kompleksinin inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı. Bütün bunlara baxmayaraq, biz həssas təbəqə sayılan vətəndaşlarımızın da rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik. Bu yaxınlarda Azərbaycan Milli Məclisində etdiyim çıxışda bütün o rəqəmlər diqqətə çatdırılmışdır. Təkrar etmək istəmirəm, son beş il ərzində Azərbaycanda nə qədər böyük sosial islahatlar paketi reallaşdırıldı.

Yəni, bütün bu məsələlər tam əminliklə deməyə əsas yaradır ki, iqtisadi inkişaf templəri həm bu ilin sonuna qədər saxlanılacaq, həm də, – nəzərə alsaq ki, indi gələn ilin büdcəsi müzakirə olunur və büdcənin parametrləri də daha genişmiqyaslı olacaq, – gələn il də iqtisadi inkişaf templəri lazımi səviyyədə olacaq.

Xarici sərmayələrin cəlb olunması üçün, xüsusilə qeyri-neft sektoruna cəlb edilməsi üçün bir çox təşviq layihələri həyata keçirilir. Azərbaycanda hökm sürən

sabitlik və proqnozlaşdırılan vəziyyət, eyni zamanda, Azərbaycan dövlətinin güclənməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsi xarici investorların bizə olan münasibətini təbii olaraq daha da yaxşılaşdırıb. Baxmayaraq ki, Azərbaycanda çox müsbət sərmayə iqlimi uzun illərdir davam edir, hökm sürür. İnvestisiyaların adambaşına düşən həcminə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Son illər ərzində və xüsusilə antiterror əməliyyatından sonra dövlət suverenliyimizin tam bərpa edilməsi təbii olaraq bütün investorlara ciddi müsbət siqnal göndərmişdir və biz bunun bəhrəsini indi görürük. Bizim ənənəvi sənaye məntəqələrimizdə, – Bakı şəhəri, Sumqayıt şəhəri, sənaye parkları, – yeni müəssisələr açılır. Eyni zamanda, azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parklarının yaradılması çox müsbət hal kimi qiymətləndirilməlidir.

Qeyd etdiyim kimi, indi gələn ilin büdcəsinin müzakirəsi gedir, yaxın vaxtlarda mənə təqdim ediləcək. Təbii olaraq, büdcə bizim imkanlarımızı əks etdirir. Biz, necə deyərlər, ayaqlarımızı yorğanımıza görə uzadırıq və uzatmalıyıq. Heç bir yerdən heç bir yardım almırıq, əksinə, xarici borcu azaldırıq və bir neçə il bundan əvvəl qarşıya qoyduğum vəzifə artıq uğurla yerinə yetirilir. Xarici borcun ümumi daxili məhsula nisbətdə Azərbaycan dünya miqyasında qabaqcıl ölkələr sırasındadır. Bu, cəmi 7,5 faizdir və bu, bizə imkan verir ki, gələcəkdə daha az vəsaiti xarici borcun qaytarılmasına sərf edək. Bu gün onu da biz müzakirə edəcəyik, baxarıq, bəlkə də bəzi borcları vaxtından əvvəl ödəmək də faydalı ola bilər. Halbuki mən bunu artıq bir neçə dəfə demişəm ki, istəsək, biz bir gün ərzində bütün borcu sıfırlaya bilərik. Hər halda, bu məsələni müzakirə etmək üçün bu gün, əlbəttə ki, fikir mübadiləsi aparılacaqdır.

Gələn ilin əsas xərcləri artıq müəyyən edilib. Mənim Milli Məclisdəki çıxışımda əsas prioritetlər açıq-aydın göstərilib. İlk növbədə, ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inkişafı, təhsil xərcləri, Qarabağın və Şərqi Zəngəzurun bərpası və digər layihələr. Həm sosialyönümlü layihələr, sosial infrastrukturla bağlı olan layihələr, həm də ümumi infrastrukturla bağlı olan layihələr - bütün bunlar bizim Dövlət İnvestisiya Proqramında öz əksini tapacaq. Bu barədə də danışacağıq. Elə etməliyik ki, biz gələn il imkan daxilində bütün əsas vəzifələri icra edək. Şübhə etmirəm ki, belə də olacaq. Artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki, aparmışıq və aparacağıq.

Bu gün biz bir çox digər məsələləri müzakirə edəcəyik. Əminəm ki, müzakirə və əldə edilmiş nəticələr, qəbul ediləcək qərarlar bizim iqtisadi inkişafımızı daha da sürətləndirəcəkdir.

## *Aşıq Ələsgərin abidəsinin açılışında İlham Əliyevin nitqi*

-Əziz dostlar, bu gün şəhərimizdə çox əlamətdar bir gündür. Deyə bilərəm ki, ölkə üzrə çox əlamətdar bir gündür. Bakının mərkəzində Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin abidəsi açılır. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bu, doğrudan da çox gözəl hadisədir.

Bildiyiniz kimi, üç il əvvəl Aşıq Ələsgərin adının əbədiləşdirilməsi üçün mən iki Sərəncam imzalamışam. Bir Sərəncam əsasında Aşıq Ələsgərin 200 illik yubileyi dövlət səviyyəsində qeyd edildi. İkinci Sərəncam əsasında onun abidəsinin ucaldılması məsələsi nəzərdə tutulurdu. Bu gün şəhərimizin bu gözəl yerində, deyə bilərəm ki, şəhərimizin mərkəzində, gözəl parkda Aşıq Ələsgərin abidəsi ucaldılıb.

Bildiyiniz kimi, Aşıq Ələsgər ömür boyu Azərbaycanın qədim torpağı olan Göyçə mahalında yaşamış, yaratmışdır, uzun ömür yaşamışdır və ömrünün son illərində öz doğma torpaqlarını tərk etməyə məcbur olmuşdur. O vaxt onun 97 yaşı var idi, 1918-ci ildə erməni vəhşiləri azərbaycanlıları etnik təmizləməyə məruz qoymuşdular. Bu, XX əsrdə azərbaycanlıların öz qədim torpaqlarından – Qərbi Azərbaycandan birinci deportasiyası idi. Əfsuslar olsun, ondan sonra da bizim xalqımız iki deportasiyaya məruz qalmışdır. Aşıq Ələsgər ailəsi ilə birlikdə qonşu Kəlbəcər rayonuna köçmüşdür. Ancaq doğma Vətən, doğma torpaq onu yenə də Göyçə mahalına çəkirdi, baxmayaraq ki, iqlim, təbiət, gözəllik baxımından Kəlbəcər və Göyçə mahalı çox da fərqlənmir. Amma onun Vətən sevgisi, torpaq sevgisi o qədər güclü idi ki, bütün təhlükələrə baxmayaraq, o, təqribən üç ildən sonra öz doğma Ağkilsə kəndinə qayıtmış və bir neçə ildən sonra orada vəfat etmişdir.

Hamımız yaxşı bilirik ki, 1970-ci illərdə Ulu Öndərin təşəbbüsü ilə Aşıq Ələsgərin 150 illik yubileyi qeyd edilmişdir, özü də Sovet İttifaqı miqyasında və bu yubiley münasibətilə doğma Ağkilsə kəndində onun abidəsi ucaldılmışdır. Xalqımız deportasiyanın üçüncü dalğasına məruz qalanda erməni vandalları onun abidəsini dağıtmışdılar. Necə ki, indi biz hamımız bunu görürük. Qarabağda, Şərqi Zəngəzurda bizim tarixi abidələrimiz, görkəmli şəxsiyyətlərin abidələri, məscidlərimiz, saraylarımız, qəbiristanlıqlarımız erməni vandalları tərəfindən dağıdılmışdı. Bu praktika yeni deyil, əsrlər boyu bütün dünyanın gözü qarşısında bizə qarşı bu ədalətsizlik, bu vəhşilik törədilirdi.

Bu gün bu tədbirdə iştirak edən yoldaşlar Aşıq Ələsgərin fəaliyyəti və yaradıcılığı ilə bağlı danışacaqlar. Sadəcə olaraq, onu demək istəyirəm ki, onun yaradıcılığı Azərbaycan xalqının ürəyində böyük bir iz buraxmışdır ki, 200 il keçəndən sonra yenə də o, görkəmli şəxsiyyət, vətənpərvər insan, öz xalqını, Vətənini sevən insan kimi xalqımızın yaddaşında yer tutub. Əlbəttə ki, biz onun timsalında xalqımızın yüksək ruhunu görürük. Çünki yenə də deyirəm, 97 yaşında öz torpağından köçməyə məcbur olmuş insan 100 yaşında yenə də bütün təhlükələrə baxmayaraq, – o vaxt hələ o təhlükələr tam sovuşmamışdı, – yenə də öz Vətəninə qayıtmışdır.

Qeyd etdiyim kimi, xalqımız XX əsrdə üç deportasiya dalğasına məruz qalmışdır – 1918-ci ildə birinci, 1940-50-ci illərdə ikinci və 1980-ci illərin sonları-1990-cı illərin əvvəllərində üçüncü deportasiya baş vermişdir. İki deportasiyadan müəyyən müddətdən sonra Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıtmış, yəni, hamısı olmasa da, böyük bir qisim qayıtmışdır. Bu, bizdə haqlı olaraq əminlik yaradır ki, üçüncü etnik təmizləmə dalğasına məruz qalmış Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Əlbəttə ki, Vətən sevgisi, o torpaqlar unudulmayıb və unudulmayacaq, o torpaqları görməyən Qərbi azərbaycanlıların sonrakı nəsilləri Vətən həsrəti ilə yaşayırlar.

Bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. O torpaqları heç vaxt görməyən Qarabağdan, Şərqi Zəngəzurdan olan soydaşlarımız həvəslə, səbirsizliklə o qayıdış gününü gözləyirlər, Böyük Qayıdış proqramının icrasını səbirsizliklə gözləyirlər. Əslində, bu proqram artıq icra edilir. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik. Çünki bu gün Şuşada, Laçında, Xankəndidə, Xocalıda, Füzulidə uşaqlar, məktəblilər məktəbə gedirlər. Birinci dərs günü bunu göstərdi. Yəni, sözün əsl mənasında, bütün bu bölgələrdə və bütün Azərbaycanda bayram ab-havası idi. Qərbi Azərbaycandan olan soydaşlarımız da əminəm ki, eyni hissləri yaşayacaqlar. Hər şey bizim əlimizdədir. Qarabağın işğalı dövründə də bəzi hallarda hər birimiz məyusluq və inamsızlıq hissləri yaşamışıq. Hər birimizin qəlbini incidən bu ədalətsizlik bizə sanki əbədi olacaq kimi gəlirdi. Amma o fikirləri biz özümüzdən hər zaman uzaqlaşdırırdıq, inamla yaşayırdıq və onu da bilirdik ki, ədaləti bərpa etmək bizim öz işimiz olmalıdır, heç kim bizim əvəzimizə bu ədaləti bərpa etməyəcək, heç kimin belə niyyəti də, istəyi də olmamışdır.

İşğal dövründə çoxsaylı xarici nümayəndələrlə görüşlər əsnasında mən bu barədə artıq bir neçə dəfə demişəm. Belə fikirlər eşidirdim ki, reallıqlarla barışmaq lazımdır, Qarabağ artıq əldən gedib, Ermənistanla barışmaq lazımdır, gənc nəsli sülhə hazırlamaq lazımdır. Bu münaqişənin hərbi həlli yoxdur və digər fikirlər səsləndirilirdi. Bəzi hallarda bu fikirləri səsləndirənlər bəlkə də səmimi idilər, bəzi hallarda bizi yolumuzdan döndərmək, bizə bədbinlik duyğuları aşılamaq üçün edirdilər. Həyat və reallıq onu göstərir ki, hər şey bizim əlimizdədir. Həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı və ondan sonrakı dövr, yəni, bir il göstərdi ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, xalqımızın əyilməz ruhu olan yerdə heç bir qüvvə, heç bir təşkilat bu iradənin qabağında dura bilməz. Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, suverenliyimizin tam bərpa olunması, - mən bunu bilirəm, - Qərbi azərbaycanlılarda da bu nikbinlik hisslərini, fikirlərini, ümidlərini daha da artırmışdır. Hətta işğal dövründə, 10 il, bəlkə də ondan da qabaq mən bəzi çıxışlarımda Qərbi Azərbaycanla bağlı fikirlərimi səsləndirirdim. Biz hər dəfə qarşıya hədəflər qoymalıyıq. Bu hədəflər həm strategidir, həm taktikidir, həm qısamüddətlidir, həm uzunmüddətlidir. Amma hədəflər düzgün seçilməsə, heç bir nəticəyə nail olmaq mümkün olmayacaq. Hədəflər həm həqiqəti, ədaləti və həm də real vəziyyəti, real gücümüzü əks etdirməlidir. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək. Bu gün antiterror əməliyyatından keçən il ərzində biz bunu görürük. Əslində, birinci həftələr, birinci aylar ərzində bizə qarşı nə qədər əsassız ittihamlar irəli sürülürdü, bizə sanksiyalar tətbiq edildi. Daha böyük sanksiyaların tətbiq edilməsi üçün böyük dövlətlər, – hər halda, özlərini belə sayanlar, - bizə qarşı müxtəlif beynəlxalq platformalarda açıq hücuma keçmişdilər, soyuq müharibə başlamışdır. Bu gün də bu, davam edir. Antiterror əməliyyatının ildönümü ərəfəsində biz yenə də nə qədər genişmiqyaslı şər,

böhtan kampaniyası ilə üzləşdik. Bu, bizim iradəmizə təsir edə bilər? Heç vaxt! Çünki bizim işimiz haqq işidir və bizim işimizi Azərbaycan xalqı dəstəkləyir. Əslində, bu, Azərbaycan xalqının işidir. Qarabağı, Şərqi Zəngəzuru azad etmək, suverenliyi tam bərpa etmək Azərbaycan xalqının iradəsi hesabına, qəhrəman övladlarımızın qəhrəmanlığı, şücaəti hesabına mümkün olmuşdur.

Biz üç gün bundan əvvəl Anım Gününü qeyd etmişik. Bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik, onların qəhrəmanlığı heç vaxt unudulmayacaq. Amma bizim təqvimimizə bu kədərli 27 Sentyabr günü ilə bərabər, iki bayram günü də əlavə edildi – 8 Noyabr və 20 Sentyabr günləri. Bunlar bayram və Zəfər günləridir. Bu Zəfər bizimlə əbədi yaşayacaq.

Bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq, eyni zamanda, bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik.

DOI: https://doi.org/10.30546/2309-1347.2024.3.87.201

**S İ Y A S Ə T**
**P O L I T I C S**

UOT 321.01

**ELMAN NƏSİROV**

**Azərbaycan Respublikası Milli Məclisinin deputatı,
Dövlət İdarəçilik Akademiyasının
Siyasi Araşdırmalar İnstitutunun direktoru,
siyasi elmlər doktoru, professor**

*e-mail: elmannasirov@yahoo.co.uk*

# PREZİDENT İLHAM ƏLİYEV DÖVLƏTİMİZİN QARŞISINDA DURAN YENİ STRATEJİ VƏZİFƏLƏRİ MÜƏYYƏN ETMİŞDİR

Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin müəllifi olduğu coxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq cevik, innovativ və hücum taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Bu statusuna tam adekvat olaraq İlham Əliyev həm daxili, həm də xarici siyasət kursunun həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli analiz qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir. Hər dövlət başçısına nəsib olmayan bu unikal şəxsi keyfiyyətlərin daşıyıcı olan Prezident İlham Əliyev harada çıxış etməsindən və mövqe bildirməsindən asılı olmayaraq, şahmat dili ilə desək, həmişə ağ fiqurlarla oynayır və artıq start vəziyyətində qarşı tərəf və ya tərəflər üzərində ilkin üstünlüyünü təmin etmiş olur. Həmin “siyasi şahmat lövhəsi”ndə siyasət qrossmeysterinin-Prezident İlham Əliyevin rəqibinə “mat” elan etməsi labüddür. Bu zaman problemə sistemli və ardıcıl yanaşma tərzi, səlis və məntiqli ifadə üslubu, auditoriya ilə işləmək və onu ələ almaq qabiliyyəti, səs diapazonundan düzgün istifadə məharəti və nəhayət ecazkar cəzbetmə potensialı və bənzərsiz xarizması ilə dövlət başçısı ən qatı siyasi opponentlərini də “tərksilah” etməyə və onları “siyasi hipnoz” vəziyyətinə salmağa müyəssər ola bilir. Əsl siyasət və xarizmalı lider belə olur.

Həmin siyasətin təntənəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusilə də tarix yazaraq ərazi bütövlüyü və suverenliyimizi tam təmin edən güclü ordusunda öz təsdiqini tapır. Məhz həmin siyasətin təntənəsi olaraq 2024-cü ildə həm prezident, həm də parlament seçkiləri suveren ölkəmizin bütün ərazisində keçirilmişdir. Miqyas və əhəmiyyətini nəzərə alaraq Prezident İlham Əliyev sentyabrın 23-də VII çağırış Milli Məclisin ilk iclasında çıxışı zamanı bu reallığı “Tarixi hadisə” kimi xarakterizə etmişdir. Həmin iclasda dövlətimizin başçısı proqram xarakterli nitq söyləyərək, ölkəmizin ərazi bütövlüyü və

suverenliyinin tam bərpa olunmasından sonra yaranan yeni reallıqda qarşıda duran strateji əhəmiyyətli vəzifələri müəyyən etmiş, mövcud təhlükə, təhdid və çağırışların mahiyyətini açmış və onların aradan qaldırılması düsturunu göstərmiş, xarici siyasət kursunun çevikliyi və dəyişən dünya reallıqlarına adekvat reaksiya qabiliyyəti ilə bağlı strateji yönümlü baxışlarını ifadə etmişdir. Bəs konkret olaraq dövlətimizin başçısı hansı strateji vəzifələri ön plana çəkmişdir? Həmin vəzifələri şərti olaraq 6 istiqamət üzrə təsnifatlandırmaq olar:

Birincisi, hərbi gücümüz artırılmalıdır. Bu məsələni prioritet istiqamət kimi irəli sürən cənab İlham Əliyev vurğulamışdır ki, "İşğal dövründə, ilk növbədə, hərbi gücümüzün artırılması daim bizim əsas vəzifəmiz idi və hər il Milli Məclisdə dövlət büdcəmiz təsdiq olunanda artıq hər kəs görürdü ki, birinci xərclər hərbi xərclərdir. Bu gün də belə olmalıdır." (1)

Həqiqətən də, Ali Baş Komandan cənab İlham Əliyev prezidentliyinin ilk ilindən başlayaraq müəyyən etdiyi strateji niyyətin – torpaqlarımızın işğaldan azad olunması vəzifəsinin icrası naminə ölkəmizin hərbi və təhlükəsizlik potensialının artırılmasına xüsusi diqqət ayırdı. Əgər 2003-cü ildə dövlətimizin müdafiə və təhlükəsizlik büdcəsi 135 milyon dollar təşkil edirdisə, yenilməz ordumuzun tarixə zəfərə imza atdığı 2020-ci ildə bu göstərici 1,9 milyard dollara, 2021-ci ildə isə 2.7 milyard dollara yüksəlmişdir. Cari ildə-2024-cü ilin may ayında büdcə dürüstləşmədən sonra isə müvafiq xərclər 414 milyon dollar artırılmaqla 3,8 milyard dollardan 4,2 milyard dollara qaldırılmışdır (2). Müqayisə üçün qeyd edək ki, revanşizmin tüğyan etdiyi məğlub Ermənistanda müvafiq göstərici hal-hazırda 1,4 milyard dollara bərabərdir. "İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturası artıq mövcud deyil, "Kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir və artıq bəzi böyük dövlətlər bunu heç gizlətmirlər.", – dövlətimizin rəhbərinin səsləndirdiyi bu acı reallıq fonunda hərbi güc və təhlükəsizlik məsələlərinin hələ uzun müddət beynəlxalq gündəliyin əsas prioritetlərdən biri olacağı şübhə doğurmur.

Beynəlxalq gündəliyin bu reallığı fonunda qətiyyən arxayınlaşmaq olmaz. Qeyd edilən istiqamət üzrə ardıcıl və sistemli addımlar atılmaqdadır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin təbirincə desək, "İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq, yeni silahlı birləşmələr yaradıldı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı. Yeni Xüsusi Təyinatlı Qüvvələr, Komando qüvvələri yaradıldı və onların da say tərkibi ildən-ilə artır və artacaq. Digər xüsusi təyinatlı silahlı birləşmələr yaradılmışdır və gecə-gündüz təlim işləri aparılır. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir. Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq."

İkinci strateji vəzifə-ölkəmizin hərbi-sənaye kompleksinin daha da möhkəmləndirilməsi və sürətli inkişafı mənafeyini özündə ehtiva edir. Bu ilk növbədə yerli həbi təyinatlı məhsulların istehsalı, xarici tərəfdaşlarla yeni istehsalat sahələrinin yaradılması, istehlakı və ixracı ilə bağlı məsələlərdir. Bu sahəyə böyük həcmdə maliyyə vəsaitlərin qoyulması və real nəticələrin hasil olunması əsas hədəfdir. Bəs məqsəd nədir? Prezident İlham Əliyev bu suala cavab verərək bildirdi ki, "İlk növbədə, yerli hərbi sənaye kompleksinin yaradılması hər bir ölkənin ümumi gücünü və inkişafını göstərir. İkincisi, biz xarici mənbələrdən daha az asılı olmalıyıq" (1). Qeyd edilən istiqamətdə atılan addımların dinamikası göstərir ki, artıq ciddi uğurlar əldə edilmişdir. Müdafiə Sənayesi Nazirliyinin verdiyi məlumata əsasən, 2007-2023-cü ilin 9 ayı ərzində ümumilikdə 4 milyard 7 milyon manatlıq hərbi

təyinatlı məhsul istehsal edilmişdir. Müqayisə üçün qeyd edək ki, 2007-ci ildə bu göstərici cəmisi 40,8 milyon manata bərabər olmuşdur. 2023-cü ilin 9 ayı ərzində isə 386,2 milyon manatlıq hərbi məhsul istehsal olunmuşdur. Onların çeşid sayı isə 1000 addan çoxdur. 2015-2023-cü ilin 9 ayı ərzində 1 milyard 508 milyon manat məbləğində hərbi təyinatlı məhsul ixrac edilmişdir (2). Qeyd olunan reallıq fonunda Prezident İlham Əliyev onu da xüsusi olaraq vurğulamışdır ki, "...bu gün dünya silah bazarında aparıcı rol oynayan ölkələrin başı öz işlərinə qarışıb. Onlar daha çox öz daxili tələbatını ödəmək üçün çalışırlar. Ona görə dünya silah bazarında təbii olaraq qıtlıq yaranıbdır. Biz bunu da nəzərə almalıyıq. Eyni zamanda, bu sahə bizə imkan verəcək ki, hərbi-texniki məhsullarımızın ixrac coğrafiyasını genişləndirək. Onsuz da bu gün Azərbaycan onlarla ölkəyə hərbi sənaye kompleksinin məhsullarını ixrac edir və ildən-ilə bu coğrafiya genişlənir" (1).

Üçüncüsü, sərhədlərimizn etibarlı qorunması məsələsidir. Dövlətimizin başçısı bu vəzifəni yeni geosiyasi reallıqda əsas istiqamətlərdən biri kimi müəyyən edərək bildirmişdir ki, "Hazırda həm Ermənistanla şərti sərhədimizdə mühəndis işləri aparılır, eyni zamanda, digər qonşularla sərhədimiz müasir infrastrukturla təchiz edilməlidir" (1). Sərhədlərin mühafizəsi həm vizual, həm infrastruktur, həm texnoloji vasitələrlə təşkil edilir.

Bu vəzifənin strateji mahiyyət kəsb etməsini şərtləndirən bir sıra amillər mövcuddur. Bu, ilk növbədə 500 km-lik şərti sərhədlərimizin olduğu Ermənistanın kütləvi şəkildə müasir hücum silahları ilə təmin edilməsi, bəzi böyük dövlətlərlə birgə hərbi təlimlərin keçirilməsi reallığı ilə bağlıdır. Faktiki olaraq Fransa kimi dövlətlər Ermənistanı yeni müharibəyə sürükləyirlər. Onlar üçün əsas olan öz çirkin niyyətlərinin reallaşdırılmasıdır və erməni xalqının taleyi onlar üçün heç bir əhəmiyyət kəsb etmir. Erməni xalqından bir alət və vasitə kimi istifadə edirlər. Ermənistan ərazisindən isə Azərbaycana və digər qonşu dövlətlərə təzyiq göstərmək üçün faydalanmaq niyyətindədirlər.

Bu reallıq fonunda Prezident İlham Əliyev parlament kürsüsündən bir daha Ermənistanın siyasi-hərbi rəhbərliyinə və onların miskin havadarlarına xəbərdarlıq etdi: "Mən artıq demişəm ki, əgər biz real təhdid görsək, o təhdidi istənilən ərazidə məhv etmək bizim üçün böyük çətinlik yaratmayacaq. Onu hər kəs bilsin" (1).

Növbəti strateji vəzifə-ideoloji təhlükəsizlik ilə bağlıdır. Səbəb də bəllidir. Ölkəmizə qarşı permanent ideoloji təxribatlar davam etməkdədir. Cənab İlham Əliyev bu təxribatların heç bir nəticə verməməsinin və gələcəkdə də perspektivsiz olmasının motivləri sırasında iki amilə xüsusi önəm verir: xalqımızın güclü iradəsi və əyilməz milli ruhumuz. Eyni məntiqlə də ölkəmizdə istənilən ideoloji təxribatın kök ataraq real qüvvəyə çevrilməsini mümkünsüz hesab edir. Eyni zamanda arxayınlaşmaq da qəbuledilməzdir.

Cənab Prezident xüsusi olaraq vurğuladı ki, torpaqlarımız işğal altında olanda ölkəmizə qarşı ideoloji təxribatların miqyası indiki kimi böyük deyildi, çünki ilhaq faktı onları qane edirdi. Bu vəziyyəti davamlı olaraq qoruyub saxlamağa çalışardılar. Vasitəçilərə möhtac olmağımız üçün dəridən-qabıqdan çıxırdılar. Vəziyyət torpaqlarımız azad olunduqdan və suverenliyimiz bərpa edildikdən sonra tam dəyişdi. Maskalar yırtıldı. Eybəcər sifətlər üzə çıxdı. Kimin dostumuz və ya düşmənimiz olduğu məchul qalmadı. Bu reallıqda ideoloji təxribatların miqyası və çeşidləri də kəskin artdı. Eyni səbəbdən də Prezident İlham Əliyevin xüsusi olaraq vurğuladığı kimi, "Ona görə ideoloji təhlükəsizlik məsələləri də daim diqqət mərkəzində olmalıdır, həm dövlət qurumlarının, həm qanunvericilik orqanının, həm də ictimai fəalların. Biz bu məsələ ilə əlaqədar əlbəttə ki, öz addımlarımızı atırıq və atacağıq" (1).

Bu addımlar içərisində gənc nəslin milli ruhda böyüməsi məsələsi xüsusi məna və

əhəmiyyət kəsb edir, çünki beynəlxalq anti Azərbaycan siyasi dairələr ilk növbədə yetişən gənc nəslin şüuruna müdaxilə edib, onlardan öz çirkin niyyətlərinin həyata keçirilməsi üçün bir alət kimi istifadə etmək istəyirlər. Bu gerçəkliyi nəzərə alaraq Prezident İlham Əliyev xarici ideoloji təxribatlar fonunda bilikli, savadlı və vətənpərvər gənclərin yetişdirilməsi vəzifəsinə diqqəti cəlb etdi: ”Gənclərimiz xarici təsirə boyun əyməməlidir, qürurlu olmalıdır. Zatən qürurlu olmaq üçün bizim şanlı müharibələrimizdən sonra, İkinci Qarabağ müharibəsindən və antiterror əməliyyatından sonra əgər biz qürurlu olmasaq, onda hansı xalq olmalıdır?!” (1) Bu prosesdə dövlətimizin başçısı ailə və məktəbin üzərinə xüsusi məsuliyyətin düşdüyünü dilə gətirdi. Eyni zamanda cəmiyyətdə hökm sürən ab-havanın da gənc nəslin şüuruna, gələcəyinə ciddi təsir etdiyini qeyd etdi. Cənab Prezident eyni zamanda deputatlara da xitabən söylədi ki, “...öz seçiciləri ilə görüşlər əsnasında bu məsələni daim diqqətdə saxlasınlar”.

Nəhayət, Prezident İlham Əliyev parlamentdə çıxışında Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidənqurulması məsələsini mühüm strateji vəzifə olaraq bir daha müəyyən etdi. Bu da səbəbsiz deyil, çünki əsas strateji vəzifə həll olunduqdan sonra, yəni ərazi bütövlüyü və suverenliyimizin tam bərpa edilməsi reallığında Ermənistandakı xunta rejiminin xarabalığa çevirdiyi torpaqlarımızda bərpa işlərinə dərhal start verildi. 2021-ci ildə bu məqsəd üçün dövlət büdcəsindən 2,2 milyard manat, 2022 və 2023-cü illərdə isə müvafiq olaraq 4,3 və 5,6 milyard manat maliyyə vəsaiti ayrıldı. Cari ildə isə bu göstərici 4,9 milyard manata bərabərdir. 2021-2024-cü ilin sonunadək eyni məqsəd üçün bütövlükdə 19 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulur (3). Qarabağa və Şərqi Zəngəzura “Böyük qayıdış” proqramı da uğurla icra olunur. Artıq 8 mindən çox keçmiş köçkün ata-baba yurduna qayıtmışdır. Eyni zamanda infrastruktur layihələrinin də uğurla icra olunduğuna diqqəti cəlb edən dövlətimizin başçısı qeyd etdi ki, “3 min kilometr avtomobil yolu inşa edilib. Ümumi layihələrin içində 45 tunel nəzərdə tutulur və bu tunellərin uzunluğu 70 kilometrdir, – yəni, o dağlarda tunel açmaq, yol salmaq asan məsələ deyil, – 450 körpünün inşası nəzərdə tutulur. Dəmir yolları, iki beynəlxalq hava limanı istifadəyə verilmişdir. Enerji potensialı gücləndirilir və üç il ərzində 270 meqavat gücündə su elektrik stansiyaları istismara verilmişdir və bu proses davam etdirilir. Məktəblər, xəstəxanalar, sosial obyektlər, kəndlər salınır. Yəni, bir sözlə, Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır” (1).

Bütün bu iri miqyaslı tədbirləri ölkəmiz öz gücünə edir. İstisna hal 3 qardaş dövlətlə bağlıdır. Özbəkistan və Qazaxıstan Füzuli şəhərində müvafiq olaraq məktəb və uşaqların yaradıcılıq mərkəzini inşa etmişdir. Qırğızıstan da Ağdamda məktəb tikintisini icra edir. Digər heç bir dövlət və donar təşkilatı bu prosesə konkret töhfə verməmişdir.

Prezident İlham Əliyev VII çağırış Milli Məclisin ilk iclasında çıxışında ölkəmizin qarşısında duran sadalanan strateji əhəmiyyətli vəzifələrin icrası üçün mühüm şərt- iqtisadi güc fenomeninə də xüsusi olaraq toxundu. Doğrudan belə iri miqyaslı vəzifələrin icrası ilk növbədə dövlətin iqtisadi qüdrəti ilə bağlı məsələdir. Cənab Prezident konkret faktlara və arqumentlərə istinad edərək əsaslandırdı ki, irəli sürülən strateji hədəflərə çatmaq üçün iqtisadi imkanlarımız tam adekvatdır: “Səkkiz ayda iqtisadiyyat dörd faizdən çox artıb, qeyri-neft sektorunda yeddi faiz olub. Biz son illər ərzində mənim tapşırığımla xarici borcumuzu ildən-ilə aşağı salırdıq və bu gün ümumi daxili məhsula nisbətdə bu, cəmi 7,5 faiz təşkil edir. Deməк olar ki, biz bütün əsas kreditləri qaytarmışıq və yəni, əgər borcumuzu mütləq rəqəmlərlə götürsək, təqribən 5,3 milyard dollardır, – biz bir gündə qaytara bilərik” (1).

Bu, bir həqiqətdir ki, ölkəmizin iqtisadi potensialı 2003-cü ildə bəri dinamik inkişaf

tempinə malikdir. Təsadüfi deyildir ki, cənab İlham Əliyevin Prezident seçildikdən sonra 2003-cü il noyabrın 24-də imzaladığı ilk hüquqi sənədlərdən biri "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmandır (4). Əslində bu Fərmanı imzalamaqla dövlətimizin başçısı tarixi torpaqlarımızın azad olunması üçün mühüm iqtisadi bazanın formalaşması missiyasına start vermiş oldu. Bu Fərmanın davamı olaraq 2004-cü ildə bəri Prezidentin imzaladığı Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına dair 4 dövlət proqramı qəbul edilmişdir. Bu proqramlar çərçivəsində 100 milyard manatdan çox investisiyalar qoyulmuşdur ki, nəticədə regionlarımızın siması başdan-başa dəyişmişdir. "Güclü iqtisadiyyat ən önəmli şərtdir" deyən Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə son 21 il ərzində Ümumi Daxil Məhsul (ÜDM) 3, 6 dəfə artmışdır (4). Bu müddətdə qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə yüksəlmişdir. Bu dövr ərzində iqtisadiyyata qoyulmuş sərmayelərin həcmi 300 milyard dollardan çoxdur və onların 190 milyard dolları qeyri-enerji sektoruna yönəlmişdir. Strateji valyuta ehtiyatlarımız 1,6 milyard dollardan (2003-cü il) 73 milyard dollara qalxmışdır. 2003-cü ildə ölkəmizdə 7,1 milyard manatlıq ÜDM istehsal olunmuşdursa, hal-hazırda bu göstərici təxminən 123 milyard manata çatmışdır (4).

Prezident İlham Əliyev parlamentdə çıxışında bir daha vurğulamışdır ki, güclü iqtisadi potensiala söykənərək uğurlu sosial siyasəti həyata keçiririk: "2018-ci ildən bu yana dörd sosial islahatlar paketi həyata keçirmişik. Bu sosial islahatlar paketinin məbləği 7 milyard manatdır və bu, 4 milyon insanı əhatə edir. Son beş il ərzində Azərbaycanda minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artmışdır. Onu da bildirməliyəm, artıq göstəriş verildi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaqdır" (1).

Həqiqətən də, Prezident İlham Əliyevin müəyyən etdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Bu baxımdan faktlar özü danışır. Belə ki, 2003-cü ildə ölkəmizdə minimum aylıq əmək haqqı cəmisi 9 manat təşkil edirdisə, hal-hazırda bu rəqəm 345 manata bərabərdir. Başqa sözlə, 38 dəfə artım qeydə alınmışdır. Minimum aylıq pensiya 2003-cü ildə 20 manat təşkil edirdisə, indi 280 manatdır, yəni 14 dəfə artım. Orta aylıq pensiya isə 24 manatdan 436 manata yüksəlmişdir, yəni 18,2 dəfə artım baş vermişdir (5).

Şəhid ailələri, müharibə əlilləri və müharibə veteranlarına dövlət qayğısı ən yüksək səviyyədə təmin olunmuşdur. 2007-ci ildə şəhid ailələri, 2008-ci ildə isə müharibə əlilləri üçün Prezidentin aylıq təqaüdü təyin edilmişdir (5).

Bu müddət ərzində paytaxtda və regionlarda 3630 məktəb, 760-dək səhiyyə müəssisəsi tikilmiş və ya əsaslı təmir olunmuşdur (5).

Yuxarıda qeyd olunan iqtisadi və sosial yönümlü uğurların natamam siyahısı belə təsdiqləyir ki, Prezident İlham Əliyevin post-müharibə dövrünün yeni reallıqları fonunda irəli sürdüyü mühüm strateji vəzifələrin icrası üçün kifayət qədər münbit şərait formalaşmışdır. Ən əsası xalq olaraq yumruq kimi birləşmişik, güclü siyasi iradə və maliyyə resurslarına sahibik.

Bu reallıqda Ermənistan rəhbərliyin siyasi hoqqabazlığı və onun xarici havadarlarının siyasi avantürası da haqq işimizə mane ola bilməz. Bir qədər də açıq desək, nə ABŞ Konqresi və Dövlət Departamentinin "sanksiyalar diplomatiyası", nə Avropa İttifaqının "binokl diplomatiyası", nə Fransa dövlətinin "qırğı diplomatiyası", nə də Ermənistanın "80%-lik sülh diplomatiyası" yenilməz ruhumuzu sarsıda bilməz. Qarşı tərəf və tərəflər ağıllarını başlarına yığıb dərindən düşünməli, xüsusən də yenilməz ordumuzun öz müzəffər Ali Baş Komandanı İlham Əlievin rəhbərliyi altında İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatlarda qazandığı tarixi qələbələrdən və özlərinin biabırçı məğlubiyyətlərdən ibrət

dərsi almalıdırlar. Ermənsitanın və onun havadarlarının son davranışları əsrlərin süzgəcindən süzülərək gəlmiş bir həqiqəti təsdiqləyir: "Tarixin ən böyük dərsi odur ki, ondan heç kim dərs almır." Ermənistan və onun himayədarları da eyni yolu seçməkdə davam edərlərsə, bu halda Müzəffər Ali Baş Komandan İlham Əliyevin 23 sentyabr 2024-cü il tarixdə Azərbaycan Respublikası Milli Məclisinin VII çağırış ilk iclasında səsləndirdiyi sərt xəbərdarlığı dinləyib, ciddi nəticə çıxarsınlar: "Sadəcə olaraq, bizim şərtlərimiz yerində qalır. Ermənistanı silahlandıranlar bilməlidirlər ki, bütün gələcək hadisələrə birbaşa onlar cavabdehlik daşıyacaqlar və təbii olaraq, bizə qarşı rəsmi ərazi iddialarına son qoyulmalıdır. Onların konstitusiyasına dəyişiklik edilməlidir, Minsk qrupu da ləğv olunmalıdır" (1).

**Ədəbiyyat:**


1. Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında İlham Əliyevin çıxışı / https://president.az/az/articles/view/66924
2. Nəsirov E.X. Tarixi Zəfərin simvolları: Müzəffər Prezident, yenilməz ordu və dəmir yumruğa çevrilmiş / xalq/https://www.yap.org.az/az/view/news/89636/tarixi-zeferin-simvollari-muzeffer-prezident-yenilmez-ordu-ve-demir-yumruga-chevrilmish-xalq
3. Zəfər büdcəsi/https://www.azerbaijan-news.az/az/posts/detail/zefer-budcesi-1668460352
4. "Vətənə, xalqa, dövlətçiliyə misilsiz xidmətin 20 ili" mövzusunda konfrans keçirilir. Baş nazir Əli Əsədovun çıxışı/https://nk.gov.az/az/xeberler/matbuat-xidmatinin-malumati/vetene-xalqa-ve-dovletciliye-misilsiz-xidmetin-20-2981
5. Azərbaycan 2003-2023: sosial-iqtisadi nailiyyətlər/ereforms.gov.az


***Açar sözlər:*** *İlham Əliyev, ərazi bütövlüyü, xarici siyasət kursu, strateji vəzifələr*

**Elman Nasirov**

*Member of the Milli Majlis of the Republic of Azerbaijan,
Director of the Institute of Political Research
of the Academy of Public Administration
under the President of the Republic of Azerbaijan
Professor, Doctor of Political Sciences*

# PRESIDENT ILHAM ALIYEV HAS IDENTIFIED NEW STRATEGIC TASKS FACING OUR STATE

## ABSTRACT

The article analyzes the strategically important ideas expressed by President Ilham Aliyev during his speech at the first session of the Milli Majlis of the seventh convocation. In his speech, the head of state outlined the key tasks ahead in the new reality that has emerged after the full restoration of the territorial integrity and sovereignty of our country. He explained the nature of the existing dangers, threats, and challenges, presented the formula for their elimination, and shared his strategically oriented views on the flexibility of the foreign policy course and the ability to adequately respond to changing global realities.

Scientific-theoretical and empirical approaches are introduced to address these issues, supported by facts and arguments

***Keywords:*** *Ilham Aliyev, territorial integrity, foreign policy course, strategic tasks*

**Эльман Насиров**

*Депутат Милли Меджлиса Азербайджанской Республики,*
*директор Института политических исследований*
*Академии Государственного управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор политических наук, профессор*

# ПРЕЗИДЕНТ ИЛЬХАМ АЛИЕВ ОПРЕДЕЛИЛ НОВЫЕ СТРАТЕГИЧЕСКИЕ ЗАДАЧИ, СТОЯЩИЕ ПЕРЕД НАШИМ ГОСУДАРСТВОМ

## РЕЗЮМЕ

В статье анализируются стратегически значимые мысли (высказывания) Президента Ильхама Алиева, озвученные им в выступлении на первом заседании Национального Собрания. Глава государства в своем выступлении определил стратегические задачи, стоящие перед страной в условиях новых реалий, возникших после полного восстановления территориальной целостности и суверенности страны. Президент раскрыл сущность имеющихся опасностей, угроз и вызовов, показал формулу их устранения, выразил стратегические взгляды по поводу способности гибкости и адекватной реакции внешнеполитического курса на изменяющиеся реалии современного мира.

Были выдвинуты научно-теоретический и эмпирический подходы со ссылкой на факты и аргументы по упомянутым вопросам в статье.

***Ключевые слова:*** *Ильхам Алиев, территориальная целостность, внешнеполитический курс, стратегические задачи*

DOI: https://doi.org/10.30546/2309-1347.2024.3.87.205

**S İ Y A S Ə T**
**P O L I T I C S**

UOT 321.01

**NİGAR ƏLƏKBƏROVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor**

*e-mail: nigaralakbar@mail.ru*

# DÖVLƏT SİYASƏTİNİN EKSPERT MÜŞAHİDƏSİ NƏZƏRİ VƏ TƏCRÜBİ FENOMEN KİMİ

## Siyasi əhəmiyyətli ekspert fəaliyyətinin formalaşma və təkamül prosesi

Qədim zamanlardan hökmdarlar qəbul etdikləri qərarlar, yeni qanunlar, idarəetmənin təşkili və digər dövlət əhəmiyyətli məsələlərlə bağlı etibarlı məsləhət almaq üçün ekspert biliyinin daşıyıcılarına müraciət edirdilər. Bu mənada dövlət siyasətinin ekspert müşahidəsi bəşər sivilizasiyası qədər qədimdir və siyasi əhəmiyyətli biliyin mistisizmdən tutmuş müasir elmə qədər müxtəlif istehsal formalarını özündə ehtiva edir. Ekspertlərə (orakullara, astroloqlara, bəsirətli adamlara) məsləhət üçün belə növ müraciət təcrübəsini siyasi məsləhətləşmənin ən erkən forması kimi şərh etmək olar.

Artıq e.ə. ikinci minillikdə Mesopatamiya, Hindistan və Misirin qədim dövlətlərində həyatın yeni gerçəklikləri siyasi əhəmiyyətli biliyin istehsalı sferasında ixtisaslaşan və siyasi qərarların (məsələn hərbi fəaliyyət, yaxud kənd təsərrüfatı işlərinin planlaşdırılması sahəsinə aid qərarların) nəticələrinin proqnozlaşdırılmasına cavab verə biləcək təhsilli sosial stratanın mövcudluğunu zəruri etmişdi.

Orta əsr Avropasından başlayaraq publik siyasət üzrə mütəxəssislərin peşəkar sinfinin tarixi təkamülünü M.Veber "Siyasət istedad və peşə kimi" əsərində nümunəvi surətdə təsvir etmişdi. Tədricən dövlət maliyyəsinin idarə edilməsi, hərbi iş və məhkəmə icraatı elə üç əsas sahəni təşkil etdi ki, burada peşəkar ekspert biliyi "knyaz istibdadı" üzərində qələbə çaldı. Müasir analoqu spiçrayter olan humanitar təhsilli saray katibləri (mirzələri) də siyasi qərarların qəbul edilməsinə məhdud, lakin kifayət qədər əhəmiyyətli təsir göstərirdilər.

Lakin Avropada yalnız sənaye inqilabı və maarifçilik dövründən başlayaraq siyasi əhəmiyyətli ekspert biliyi özünün xüsusi prosedurları olan nisbətən müstəqil fəaliyyət növünə çevrilir. Maarifçilik ideyalarının təsiri ilə bu fəaliyyət empirizm və elmi metod kanonlarına tabe olur.

Dövlətin idarə edilməsi və dövlət qulluqçularının hazırlanması məqsədi ilə hələ XVIII əsrin birinci yarısında kontinental Avropada, xüsusən Almaniyada, maarifçi mütləqiyyət o zamanki müasir biliyin nailiyyətlərinin istifadəsinə dair sosial sifariş irəli sürür.

Dövlət tərəfindən ekspert komissiyaları və şuralarının yaradılması praktikasına ən azı

XIX əsrin əvvəllərindən rast gəlinir. Məhz o zaman dövlət idarəçiliyinin tanınmış islahatçıları Karl fon Şteyn və Karl-Avqust fon Qardenberq nazirliklər yanında elmi və praktiki fəaliyyət təcrübəsi olan ekspertlərin texniki və elmi komissiyalarının yaradılması təklifi ilə çıxış edirlər. Ölkənin sənayeləşmə dövrünə qədəm qoyması ilə "Qaynar qazan komitələri" geniş yayılır. Bu komitələr fəhlələr arasında sosial partlayışın qarşısını almaq, dövlət idarəçiliyinin ən aktual sosial problemlərinin həllinə texniki yardım göstərmək məqsədi ilə yaradılırdılar. Beləliklə, Almaniyada ekspert məsləhətləşməsinin kökləri aşkar sənaye-texnoloji xarakterə malikdir. Amma sonradan belə növ məsləhətləşmə iqtisadi və sosial siyasət sahələrində də çox müsbət nəticələr verir. Məsələn, 1880-ci ildə İqtisadiyyat məsələləri üzrə ekspert Şurası, 1897-ci ildə Mühacirət məsələləri üzrə Şura və 1890-cı ildə Səhiyyə məsələləri üzrə Şura yaradılmışdı.

Bununla eyni vaxtda Böyük Britaniyada empirik verilənlərin mütəmadi yığımı və analizinə əsaslanan siyasi əhəmiyyətli bilik istehsalçılarının yeni nəsli formalaşır. 1830-cu illərdə alim, bankir və sənayeçilərin birgə səyləri ilə yaradılan London və Mançester statistik cəmiyyətləri sosial problemlərə dair ənənəvi (fəlsəfi-etik, normativ) təfəkkür üsullarını urbanizasiya və sənayeləşmə proseslərini və onların ziddiyyətli sosial nəticələrini xarakterizə edən verilənlərin mütəmadi öyrənilməsi ilə əvəz etməyə can atırdılar.

Burjua cəmiyyətinin yeni sosial çağırışları qarşısında tərəqqipərvər islahatçılar (siyasətçi, alim, sənayeçi və maliyyəçilər) "sosial məsələnin" empirik tədqiqinin yerinə yetirilməsi, sosial islahatların həyata keçirilməsinin labüdlüyünə hökumətin, qanunvericilərin və bütövlükdə cəmiyyətin inandırılması məqsədi ilə elmi biliyin cəlb edilməsinin vacibliyini başa düşdülər. Böyük Britaniyada bu hərəkat özəl klub və cəmiyyətlər formasını aldı. Bunların arasında ən məşhur olanlar Fabian Society və Reform Club-dır.

Ekspert mərkəzlərinin formalaşması dövrü məsələsinə gəldikdə qeyd edilməlidir ki, problemə kifayət qədər geniş yanaşsaq, onda sosialist hərəkatının ideya platformasını möhkəm elmi əsaslara qoymağa çalışan Fabian cəmiyyətini müasir siyasi ekspertiza mərkəzinin örnəyi kimi dəyərləndirə bilərik. Əgər formal təşkilati strukturu önə çəksək, onda siyasi ekspertizanın ilk tam mükəmməl mərkəzi qismində ABŞ-da 1907-ci ildə yaradılan Rassel Seyc Fondu göstərilməlidir.

Almaniyada praktik və sosial istiqamətli iqtisadçılar 1873-cü ildə Sosial Siyasət Assosiasiyasını (Verein fur Socialpolitik) təsis etdilər. Həmin Assosiasiya hökuməti aktiv sosial siyasətin həyata keçirilməsinə vadar etmək məqsədi ilə mühüm əhəmiyyətli sosial problemlər sahəsində tətbiqi tədqiqatların aparılmasına təşəbbüs göstərməyi tələb edirdi. XIX əsrdə ixtisaslaşdırılmış siyasi əhəmiyyətli biliyin istehsalı həlledici dərəcədə yeni və getgedə daha da mürəkkəbləşən sənaye cəmiyyətinin hakim elitaları qarşısında duran praktik və aktual problemlərin həllinə yönəldilmişdi. ABŞ-da bu biliyin istehsalı 1865-ci ildə yaradılan Amerika İctimai Elmlər Assosiasiyasının (American Social Science Association-ASSA) təbliğ etdiyi islahatçı və maarifçi ideyalarla şərtləndirilmişdi. Bu Assosiasiyanın ideyasına uyğun olaraq sosial tədqiqatçı ilk növbədə öz cəmiyyətinin yaxşılaşdırılmasına çalışan nümunəvi vətəndaş kimi çıxış etməli idi.

XX əsrin əvvəlində mütərəqqi islahatçılar belə qənaətə gəlmişdilər ki, müvafiq universitet təhsili almış siyasi ekspertlərin yeni nəsli eqoist maraqlar siyasətinə meydan oxuyaraq sənaye inqilabının həyata gətirdiyi sosial və iqtisadi problemlərin real həllini təklif edə bilər. Həmin ekspertlərin səyləri nəticəsində siyasi proses təkmilləşəcək, cəmiyyət isə daha yaxşı məlumatlandırılacaq. Bu inam həm çoxsaylı ictimai elmlər fakültələri və publik siyasət ali məktəblərinin (Public Policy School) yaradılması və inkişafına, həm də eyni zamanda, dövlət qərarları qəbul edən şəxslər üçün siyasi əhəmiyyətli tədqiqatlar hazırlayan bir çox müstəqil ekspert strukturlarının formalaşmasına səbəb oldu. Belə praktikanın

elmi əsaslandırılması XX əsrin birinci qərinəsində siyasi-idarəçilik elmlərinin klassikləri (Ç.Merriamdan tutmuş Q.Lassvel və C.Kinqdona qədər) tərəfindən qoyulmuşdu. Bu və bir çox digər alimlər hesab edirdilər ki, ardıcıl elmi axtarışlar ümumi ideya iqliminə fundamental təsir göstərə bilər. Sonuncu isə, öz növbəsində, uzunmüddətli perspektivdə qərar qəbul edən şəxslərin şüuruna nüfuz edir.

Amerika siyasi tədqiqatlar məktəbinin klassiki C.Kinqdon siyasi-idarəçi (policy community) və siyasətçilər (political people) birliklərini bir-birindən ayırır və siyasi ekspertləri birinci birlik sırasına aid edirdi.

XX əsrin birinci yarısında alimlərin əksəriyyəti Kinqdon kimi inanırdılar ki, ictimai problemlərin həlli üçün hazırlanan, elmi baxımdan əsaslandırılmış, metodiki nöqteyi-nəzərdən dəqiq və dürüst, möhkəm, hətta inkaredilməz sübutlarla gücləndirilmiş göstərişlər (tövsiyələr) siyasi debatların keyfiyyətini qat-qat yüksəltmək iqtidarındadır. Bununla yanaşı belə növ bilik daşıyıcıları “çirkli” və münaqişəli siyasi proseslərə bulaşmamalı, qərəzsiz olmalıdırlar. XX əsr boyu siyasi ekspertlər həqiqətən də bu gözləntilərə cavab verərək neytral və tərəfsiz mövqe tutmağa çalışırdılar. Bütövlükdə siyasi ekspertiza qərarlar qəbul edən şəxslər üçün ən azı uzunmüddətli perspektivdə elmi baxımdan əsaslandırılmış, etibarlı və rasional tövsiyələr stilistikasını tətbiq edirdi.

Halbuki XX əsrin sonunda əks tendensiya özünü büruzə verir: siyasi-ekspert birliyinin əhəmiyyətli bir hissəsi elmi obyektivlik, ciddi rasionallıq və qərəzsizlik meyarlarına artıq cavab vermir. Uzunmüddətli perspektivə hesablanmış ənənəvi, dərin və hərtərəfli analitik tədqiqatların yerinə ekspertlərdən tez-tez günün gündəliyinin ən aktual məsələlərinə dair aqressiv, böyük əks-sədaya hesablanmış proqnostik rəylər eşidilir. Ekspert kommunikasiyasının forma və metodlar arsenalı mətbuat konfransları, publik parlament dinləmələri və kəskin televiziya müzakirələri hesabına genişlənir. Belə növ aktivliyin əsas hissəsi sayı ciddi surətdə artan və “beyin mərkəzləri” kimi tanınan ekspert strukturları əməkdaşlarının payına düşür. Bu təcrübə həmin ekspert strukturlarının müasir siyasi diskussiyaların məzmununa güclənən təsirini sübuta yetirir.

Klassik mövqeyə əks olaraq hazırda siyasi ekspertlər cari siyasi debatlarda aktiv iştiraka meyillidirlər. Neytrallıq və obyektivlik prinsiplərini kənara ataraq onlar müəyyən ideya və ideologiyaların aqressiv vəkilləri, hərdən isə hətta siyasi kompromis axtarışında broker rolunda da çıxış edirlər.

## Dövlət siyasətinin ekspert müşahidəsinin mahiyyəti və spesifik cəhətləri

1960-ci illərə qədər əksər ölkələrdə (ABŞ istisna idi, çünki bu ölkədə müvafiq proseslər iki onillik ötüb keçmə ilə inkişaf edirdi) hökumət öz dövlət qulluqçularının səriştəliyi və bacarıqlılığına tam arxayınlıqla yanaşırdı. Həmin illərdə tədqiqatçılar siyasətlə elmin qarşılıqlı əlaqəsini əsasən nəzəri baxımdan təhlil edirdilər. 1970-1980-ci illərdə isə bunu artıq təcrübədə görmək mümkün oldu. Bütövlükdə siyasi prosesin və dövlət idarəçiliyinin ayrı-ayrı hissələrinin mürəkkəbləşməsi boyunca siyasi məsləhətçilərə müraciətlər geniş vüsat aldı. Nəhayət, 1990-cı illərdə belə kompleks qarşılıqlı münasibətləri açıqlayan nəzəri modellərin qısa və dürüst izahının vaxtı yetişdi. “Siyasi məsləhətləşmə” termini geniş yayılmağa başladı.

Xüsusi vurğulanmalıdır ki, siyasi məsləhətləşmənin bir fenomen kimi (iştirak edən aktorların – ekspertlərin və sifarişçilərin – rol mövqeyindən asılı olaraq) mövcudluğunun müxtəlif formaları vardır. Yurgen Habermasın ardınca adətən üç mümkün model qeyd olunur:

1. desizionist model nəzərdə tutur ki, dövlət qərarlarını qəbul edən şəxslər dövlət siyasətinin məqsədlərini qısaca və dürüst ifadə edir, ekspertlər isə bunlara nail olmaq üsullarını açıqlayırlar;
2. texnokratik model ona əsaslanır ki, ekspertlər həm məqsədləri, həm də uyğun vasitələri təklif edir, qərarları qəbul edən

şəxslər isə bunların implementasiyasını yerinə yetirirlər;

3. praqmatik modelin mahiyyətinə görə məqsəd və vasitələr demokratik müzakirələr zamanı aydınlaşır, sonra isə qərarlar qəbul edən şəxslər bunların implementasiyasını həyata keçirirlər.

Son onilliklər boyu qərarların işlənib hazırlanması və qəbul edilməsi prosesində ekspertlərin (məsləhətçilərin) rolu ciddi müzakirə və mübahisə predmetinə çevrilmişdir ki, bu da bir sıra ölkələrdə onların fəaliyyətinin formatında müəyyən dəyişikliklərə gətirib çıxarmışdır. Bir çox tənqidi rəylərdə məsləhətçilərin xidmətlərinin yüksək qiyməti və işlərinin keyfiyyəti arasında uyğunsuzluq, məsləhətçi və siyasətçilərin qarşılıqlı əlaqəsində korrupsiya sxemlərinin mövcudluğu, həm də bu fəaliyyətin məsuliyyəti və hesabatlılığının aşağı səviyyəsi vurğulanır. Səslənən tənqidə reaksiya birmənalı olmamışdır. Məsələn, Niderlandda həmin sahədə dövlət tənzimlənməsi tədbirləri tətbiq edilmiş, Almaniya və Danimarkada özünüməhdudlaşdırma yolu seçilmişdir.

Müasir inkişaf etmiş parlament demokratiyalarında ekspert-məsləhətçi sisteminin mürəkkəb strukturu haqqında ümumi təsəvvürü alman mütəxəssisləri S.T.Siefken və M.Şults tərəfindən hazırlanan və aşağıda diqqətinizə təqdim edilən sxem verir.

| Formalizasiya | | | | |
|---|---|---|---|---|
| Müştərilər | İnstitusionallaşdırılmış | Tənzimlənən | | Qeyri-formal |
| | | kənardan | daxildən | |
| İcra hakimiyyəti | -Hakimiyyət departamentləri<br>-Departamentlərin analitik xidmətləri<br>-İxtisaslaşdırılmış dövlət şuraları | -Məsləhətləşmə şuraları, ictimai şuralar | -Məsləhətləşmə şuraları<br>-Komissiyalar<br>-Məsləhətləşmə kompaniyaları | -Müşavirlər<br>-Sifarişli tədqiqatlar<br>-Sammitlər |
| Qanunverici hakimiyyət | -Parlament aparatı<br>-İxtisaslaşdırılmış parlament komissiyaları<br>-Parlament yoxlamaları komissiyaları<br>-Auditor (hesablama) palatası<br>-Texniki qiymətləndirmə xidməti | -Parlament dinləmələri | | -Lobbiçilər<br>-Maraq qrupları<br>-Seçicilərlə görüşlər |
| Cəmiyyət | -Beyin mərkəzləri<br>-Partiya fondları<br>-Qeyri-partiya fondları | | -Xəbər mediaları<br>-Akademik tədqiqatlar<br>-Konfranslar, dəyirmi masalar | -Televiziya tok-şouları<br>-İntellektuallar, ictimai rəy liderləri |

**Sxem. Qərb parlament demokratiyalarında ekspert-məsləhətləşmə sistemi [11]**

Qeyd edək ki, əsas funksiyasından, yəni siyasi administrativ qərarların işlənib hazırlanması və qəbul edilməsi prosesinin informasiya-analitik təminatından başqa siyasi məsləhətləşmənin digər latent funksiyaları da ola bilər. Bunlardan ən əsasları aşağıdakılardır:

– kommunikativ və simvolik funksiyalar (publik gündəliyin formalaşdırılması);
– legitimləşmə funksiyası (qəbul edilən qərarın müstəqil, yaxud elmi nüfuzlu rəylə möhkəmləndirilməsi);
– təmsiletmə funksiyası (müvafiq siyasi altsistem iştirakçılarının özünütənzimlənməsinə kömək).

Məsləhətləşmə strukturlarının fəaliyyəti ilə bağlı funksiyaların geniş dairəsinin anlaşılması siyasi qərarların işlənib hazırlanması və qəbul edilməsi prosesində onların yeri və rolunu daha dəqiq mövqeləndirməyə imkan verir. Bu ekspert-məsləhətləşmə sisteminin statistik (struktur) xarakteristikalarından dinamik (prosessual) xüsusiyyətlərinə keçərkən ilk olaraq ondan başlanılmalıdır ki, inkişaf etmiş qərb demokratiyalarında dövlət siyasətinin işlənib hazırlanması prosesi yuxarıdan aşağıya istiqamətlənmiş vektora malikdir: təşəbbüs institusional liderlərdən, ilk növbədə biznes, maliyyə və media sahəsindəki liderlərdən gəlir, həm də o zaman ki, öz maraq və dəyərlərinə hədə kimi qəbul edilən bəzi sosial təzahürlərlə bağlı onlar narahatlıq keçirməyə başlayırlar. Elitaların maraqlarına birbaşa toxunmayan bir vəziyyətdə ictimai təzahürlərin problem kimi eyniləşdirilməsinə, həm də diskussiya predmetinə çevrilməsinə çox az şans vardır. Lakin bu heç də o demək deyil ki, vaxtaşırı bilikli, mədəni elitalar kütlələrin maraqlarına toxunan problemlərdən irəli gələn ictimai narazılığın güclənməsini önləməyə qadir deyillər.

Dövlət idarəçiliyi üzrə tanınmış mütəxəssis U.Domhoff yazır: "Dövlət siyasətinin formalaşması prosesi korporativ məsləhətləşmə otaqları, klublar və müzakirə qruplarında qeyri-formal şəkildə başlanır. Burada siyasi həllini gözləyən bu, yaxud digər situasiyalar "problem" kimi eyniləşdirilir. Həmin prosesin son nöqtəsi bu siyasi qərarları təsdiq və realizə edən dövlət orqanlarıdır. Hər iki vəziyyət (mövqe) arasında kompleks şəbəkə mövcuddur, belə ki, problemlərin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsində, onların həllinin müxtəlif alternativ variantlarının ölçülüb-biçilməsində öz rolunu oynayır" [8]. Bütövlükdə siyasi qərarların qısa və dürüst ifadə edilməsi prosesi hakim elitalardan başlayaraq aşağı enir və administrativ strukturları, özəl fondları, beyin mərkəzlərini, siyasi planlaşdırma və layihələşdirmə institutlarını, həm də KİV-i əhatə edir.

Bundan başqa, daimi əsaslarla işləyən və ən vacib siyasi məsələlər üzrə elit konsensus əldə etmək məqsədi ilə xüsusən yaradılan institutları, məsələn ABŞ-da İqtisadi İnkişaf Şurasını (Council of Economic Development) və Dəyirmi Biznes Masasını (The Bizness Roundtable) qeyd etmək olar. Şura həm siyasi qərarları qısa və dürüst ifadə edir, həm də Vaşinqtonda biznesin təşkilatlanmış maraq qrupu rolunu oynayır.

Dəyirmi Biznes Masası elitaların koordinasiyasının olduqca nüfuzlu institutudur və ABŞ-ın 200 ən böyük korporasiyalarının top-menecerlərini birləşdirir. Dəyirmi Masanın yüksək statusu qismən onun çox ciddi qaydaları sayəsində saxlanılır. Həmin qaydalara görə korporasiya rəhbərinin müşavirəyə hətta vitse-prezident səviyyəsində belə öz nümayəndəsini göndərmək ixtiyarı yoxdur.

Dəyirmi Masanın gündəlik işi "işçi qrupları" formasında təşkil olunmuşdur. Bu qrupların tərkibinə korporasiyaların yalnız birinci şəxsləri daxildir. Hər "işçi qrupu" konkret problem sahə ilə məşğul olur, analitik tədqiqatlar təşkil edir, əsas prioritet və istiqamətlər üzrə konsensus işləyib hazırlayır, üstəlik tərtib etdiyi siyasi tövsiyələrin gerçəkləşdirilməsi üzrə planlar tutur. Gerçəkləşdirilmə tədbirləri parlament dinləmələrində çıxışları, həm də dövlət qərarlarını qəbul edən əsas şəxslərlə xüsusi əlaqələri daxil edə bilər.

Korporativ və özəl kapitallar özəl fondlarda - siyasi planlaşdırma və layihələşdirmə institutları ("fikir fabrikləri", "beyin mərkəzləri"), universitet və kolleclər, mədəniyyət və

incəsənət təşkilatları və s. adətən vergilərdən azad edilən təsisatlarda-akkumulyasiya olunur. Ən böyük ABŞ fondları sırasında ilk növbədə Ford, Rokfeller, Karnegi, Mellon, Pyu, Dyük, Lilli, Kelloq, Yetti, Pakkard fondları yer alır. ABŞ-da kapitalı 2 milyon dollar və daha çox olan 10 mindən artıq fond fəaliyyət göstərərək cəm halında 300 milyard dollardan artıq aktivləri nəzarətdə saxlayır və hər il 15 milyarda yaxın dollar qrant bölüşdürürlər. Bunlardan 38-i bütün Amerika fondlarının 50% aktivlərini kontrol edir.

Siyasi qərarların işlənib hazırlanması prosesini nisbətən azsaylı ən iri fondlar maliyyələşdirirlər. Belə növ təşkilatların əksəriyyəti öz vəsaitlərini muzey, teatr və digər incəsənət növlərinə xərcləyir, publik siyasətin problem sahələrinin geniş dairəsinin isə, məsələn Ford, Karnegi və Rokfeller fondları maliyyələşdirirlər.

Fondlar lazımi dərəcədə siyasi planlaşdırma və layihələşdirmə institutlarının gündəliyini formalaşdırır. Yardım göstərərək bunlar sosial problemləri eyniləşdirir, milli prioritetləri müəyyən edir, siyasi müdaxilə istiqamətlərini göstərirlər.

Öz növbəsində siyasi planlaşdırma və layihələşdirmə institutları (“fikir fabrikləri”, “beyin mərkəzləri”) siyasi qərarların dürüst ifadə edilməsi prosesinin koordinasiyasının əsas mexanizmi kimi çıxış edirlər. Məhz institutlarda dövlət siyasətinin müxtəlif sahələrində ən vacib təşəbbüs və prioritet istiqamətlərin dəstəklənməsini təmin edən konkret siyasi tövsiyələr və tədqiqatlar hazırlanır. Yenə də burada əvvəlki mərhələdə üzə çıxarılan problemlərin dəqiqləşdirilməsi və hərtərəfli müəyyənləşdirilməsi, onların konkret həllinin tapılması baş verir.

Bir qayda olaraq, belə təşkilatların fəaliyyətini arzu olunan sosial-iqtisadi və siyasi nəticələr barədə müəyyən təsəvvürlərə əsaslanan strateji məqsədə yönümlülük fərqləndirir. Bu isə siyasətçilərə və cəmiyyətə həmin institutlar tərəfindən təqdim edilən informasiya əsasında qərarlar qəbul etməyə imkan verir. Bu da “beyin mərkəzlərinin” məhsullarının akademik tədqiqatlardan fərqləndirən başlıca xüsusiyyətidir.

“Beyin mərkəzləri” siyasi qərarların işlənib hazırlanması prosesində müəyyənləşdirici yer tutur. Onlar özəl fondların və dövlət qrantlarının pullarını siyasi alternativlərə konvertasiya edir. İlk dəfə XX əsrin əvvəllərində ABŞ-da hökumət proqramlarını işləyib hazırlayan universitet strukturları kimi meydana gələrək hazırda beyin mərkəzləri analitik mərkəz, seçki texnologiyaları mərkəzi, publik siyasət mərkəzi və digər nəhəng sayda növ və formaya malikdirlər. Belə təşkilatlardan bəziləri, məsələn Brookings İnstitute, American Enterprise İnstitute, yaxud Heritage Foundation siyasi sahələrin geniş spektrini əhatə edərək öz təsirlərini həyata keçirirlər. Digərləri, məsələn Council on Foreign Relations və onun çoxmilli qolları, Üçtərəfli Komissiya bütün qərb ölkələrinin siyasətinə təsir göstərərək özünəxas qlobal beyin mərkəzlərinə çevrilmişlər. Belə növ strukturların əksəriyyəti isə dövlət siyasətinin müəyyən sahəsi, məsələn Urban İnstitute şəhər planlaşdırılması məsələləri, Population Council dünyada doğum sayının kontrolu məsələləri üzrə ixtisaslaşırlar.

Bir daha vurğulanmalıdır ki, bu gün dünyada ən tanınmış ekspert mərkəzi “Rend” korporasiyadır. Bu təşkilat, məlum olduğu kimi, 1946-cı ildə ABŞ-ın Hərbi hava qüvvələrinin sifarişlərini yerinə yetirmək üçün yaradılmışdır. İlkin olaraq həmin korporasiyanın mütəxəssisləri sırf texniki məsələlərin işlənib hazırlanmasına diqqət yetirirdilər. 60-cı illərdən başlayaraq onların prioritetləri sırasına ictimai siyasətin mülki məsələləri də daxil edildi. Çünki aydın oldu ki, milli təhlükəsizlik məsələlərinin obyektiv baxılması və tədqiqi təkcə hərbi-texniki aspektlə məhdudlaşdırıla bilməz. Hazırda özünün əsas məqsədi kimi “Rend” obyektiv informasiyanın və elmi tövsiyələrin təqdimatının köməkliyi ilə publik siyasətin keyfiyyətinin yaxşılaşdırılmasını bəyan edir. Korporasiya 80% doktorluq dərəcəsi almış 500-dən artıq yüksək səviyyəli peşəkar tədqiqatçı xidmətindən yararlanır. Əsas tədqiqat sahələri iqtisadiyyat, təhsil, səhiyyə, informasiya texnologiyaları, beynəlxalq siyasət, idarəçilik, milli təhlükəsizlik və hərbi tədqiqatlardır.

Əgər ekspert mərkəzlərinin ilk dalğası XX əsrin birinci yarısında yaranırdısa, məsələn Karnegi Fondu (ABŞ, 1914), Dünya iqtisadiyyatı institutu (Almaniya, 1914), Brukinqs institutu (ABŞ, 1916), Kral beynəlxalq münasibətlər institutu (Böyük Britaniya, 1920) və burada əsasən iki dünya müharibəsinin kataklizmlərindən şıxış yolunu tapmaq cəhdləri ilə bağlı müxtəlif, o cümlədən iqtisadi, humanitar, hüquqi problemlər işlənib hazırlanırdısa, ekspert mərkəzlərinin yeni (ikinci) dalğası keçən əsrin 60-cı illərinə aiddir. Bu zaman meydana çıxan "fikir fabriklərinin" ən məşhurları Roma klubu (1968), Siyasi tədqiqatlar bürosu D-66 (Niderland, 1966) və İnkişaf edən iqtisadiyyatlar institutu (Yaponiya, 1960) hesab edilir. Bu analitik mərkəzlər Rend korporasiyası kimi müasir dünyanın bütün problemlərini əhatə etməyi qarşılarına məqsəd qoymur. Onlar daha dar tədqiqat sahələrində (ekologiya, inkişaf edən ölkələrin iqtisadiyyatı və s.) ixtisaslaşırlar.

XX əsrin 70-ci illərində fikir fabriklərinin ideologizasiyası prosesi güclənir. Bu illərdə baş verən iqtisadi böhran iqtisadiyyatın keynsian idarəetmə metodlarına dair keçmiş konsensusa son qoyur. "İrs" fondu (ABŞ, 1973) və Adam Smit  institutu (Böyük Britaniya, 1977) kimi fikir fabrikləri həmin böhranın aradan qaldırılmasının neoklassik monetarist reseptlərini işləyib hazırlamağa başlayırlar. Sosialist istiqamətli analoji təsisatlar da yaradılır. Əgər ABŞ-da 70-ci illərdə ekspert mərkəzlərinin təxminən dörddə biri ideoloji istiqaməti ilə seçilirdisə, artıq 90-cı illərdə onların əksəriyyəti müəyyən ideoloji paradiqma çərçivəsində fəaliyyət göstərirdi. Hərdən belə növ analitik mərkəzlərə dair "advokat fikir fabrikləri" termini işlədilir. Lakin XX əsrin sonlarında "advokat" analitik mərkəzlərinin yeni növü əmələ gəlir. Bunlar iri korporasiya, yaxud sənaye birlikləri tərəfindən yaradılaraq yalnız onların sifarişlərini yerinə yetirir və lobbist xarakterli təşkilatlara daha çox yaxınlaşırlar.

Öz fəaliyyətlərində fikir mərkəzləri iki sahədə: maliyyə mənbələri bazarında və publik siyasətə öz işləmələrini irəli çəkmə sferasında rəqabət aparırlar. Hərdən bu sahələr bir-birinə qarışır. Məsələn, milli hökumətlər ya beynəlxalq təşkilatlar bu fikir fabriklərini hansısa konkret sosial, yaxud iqtisadi sferada tövsiyələri və fəaliyyət proqramlarını işləyib hazırlamaq üçün dəvət edəndə belə vəziyyət yaranır.

Elmi ədəbiyyatda ekspert mərkəzləri olan "fikir fabrikləri" kateqoriyası müxtəlif cür başa düşülür. Bəzi müəlliflər onları dövlət analitik xidmətləri kimi dəyərləndirir. Başqaları universitetlərlə affilyasiya olunan tədqiqat mərkəzləri və institutları ilə eyniləşdirir. Üçüncülər bu kateqoriyaya təşkilatlanmış maraq qrupları və lobbist təsisatları nəzdində analitik strukturları aid edir.

Nəhayət tədqiqatçıların böyük bir hissəsi bu kateqoriya kimi yalnız təşkilatlanmış maraqlar ilə əlaqəli olmayan, siyasi qərarların qəbulu prosesinə təsir göstərmək məqsədi ilə öz fəaliyyətində ekspert biliyinə və ideyalarına arxalanan müstəqil, qeyri-kommersiya təsisatlarını qəbul edir.

"Fikir fabriklərinin" əsas funksiyalarını səciyyələndirərək ayrı-ayrı müəlliflər siyasi alternativlərin istehsalını (Kingdon), partiyaların siyasətinin dəstəklənməsini (Gellner), siyasi debatların həddinin müəyyənləşdirilməsini (Smit), həm də dövlət siyasətinin işlənib hazırlanması və qərarların qəbul edilməsi proseslərində bir çox mümkün mövqedən hər hansının aydınlaşdırılmasını (Polsbi) seçirlər. Yuxarıda göstərilənləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, beyin mərkəzlərinin differensiasiyasının meyarı kimi onların istehsal etdiyi məhsul və qarşılarında qoyduqları məqsəd qəbul edilməlidir.

Keçən əsrin sonunda "fikir fabriklərinin" şaxələnməsi prosesi nəzərə çarpan dərəcə sürətlənir. Belə ki, Ceyms MakQann müasir ekspert mərkəzlərinin aşağıdakı təsnifatını təklif edir:

1. Bir qayda olaraq, böyük universitetlərlə affilyasiya olunmuş akademik ekspert mərkəzləri. Bunların əksəriyyəti öz bitərəfliyini vurğulayaraq siyasi diskussiyalarda dəqiq mövqe nümayiş etdirmirlər.

2. Dövlət orqanlarının sifarişlərinin həyata keçirilməsi üzrə ixtisaslaşan ekspert mərkəzləri, tez-tez hərbi sahə, yaxud dövlətin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı "strateji tədqiqatlar" sahəsində çalışırlar.
3. Əsasən tədqiqatlarla deyil, bu, yaxud digər sahədə konkret qərarların qəbuluna kömək edən informasiyanın yayılması ilə məşğul olan "advokat" ekspert mərkəzləri. Onlar analoji baxışları bölüşən siyasi partiyalar, yaxud ictimai təşkilatlarla sıx əlaqədə çalışırlar [10].

Dünyada inkişafın əsas trendi olan qloballaşma fikir fabriklərinin fəaliyyətinə ciddi surətdə təsir edir. Hazırda analitik siyasi məsləhətləşmənin bu proseslə bağlı bəzi aparıcı tendensiyaları formalaşır. Belə ki:

1. Ekspert mərkəzlərinin sayı əvvəllər görünməyən templə artır.
2. Maliyyə mənbələri uğrunda gedən rəqabət ciddi surətdə kəskinləşir.
3. Müasir ekspert mərkəzləri yarım əsr bundan əvvəl yaranan sələflərindən fərqli olaraq daha az sayda problem üzrə ixtisaslaşır.
4. "Advokat" ekspert mərkəzləri ideyalar bazarında sırf elm istiqamətli təşkilatları sıxışdırır.

Maraqlıdır ki, ABŞ-da və Avropa Birliyində siyasi ekspertiza mərkəzləri bilavasitə elektoral menecmentlə məşğul olmurlar. Bu ilk növbədə oradakı qanunvericiliklə bağlıdır. Latın Amerikasında və bir sıra postkommunist ölkəsində, o cümlədən Rusiyada siyasi ekspertiza və elektoral siyasi menecment funksiyalarının birləşdirilməsi adi haldır. Amma nəzərə alınmalıdır ki, Rusiyada 2004-cü ildə aparılan siyasi reformalar siyasi məsləhətləşmənin bir fəaliyyət növü kimi cəlbediciliyini kifayət qədər azaltmışdır.

Normativ-hüquqi cəhətdən beyin mərkəzləri əsasən dövlət siyasətinin aktual problemləri üzrə analitik tədqiqatların və ideyaların istehsalı və yayılması ilə məşğul olan qeyri-kommersiya təşkilatlarıdır. Siyasi cəhətdən isə onlar ekspert biliyi və ideyaları vasitəsi ilə öz publik reputasiyasını və dövlət qərarlarının qəbul edilməsi prosesinə dair çıxış imkanlarını artırmağa can atan institutlardır. Klassik beyin mərkəzləri-hətta onların ideoloji inam və dəyərlərini bölüşən vətəndaşlar tərəfindən dəstəklənən beyin mərkəzləri-həlledici dərəcə öz reputasiyası və istehsal etdikləri analitik məhsullara inam səviyyəsindən asılıdırlar.

Publik reputasiyalarını yüksəldərək beyin mərkəzləri öz müstəqilliklərini də maksimallaşdırmağa çalışırlar. Eyni zamanda onlar siyasi prosesə dair çıxışı da maksimallaşdırmağa səy göstərirlər. Siyasi qərarların dürüst ifadə edilməsi prosesində qlobal beyin mərkəzləri xüsusi rol oynayırlar. Beynəlxalq münasibətlər üzrə Amerika Şurası-BMŞ (Council on Foreign Relaitons) və onun multimilli qolu – Üçtərəfli Komissiya (Trilateral Commision) əsl "qlobal beyin mərkəzlərinə" çevrilərək qlobal siyasi qərarlar işləyib hazırlayır və qlobal siyasi elitaların qarşılıqlı əlaqəsinə imkan yaradırlar. Beynəlxalq Münasibətlər üzrə Şura (BMŞ) uzun müddət ABŞ-ın xarici siyasi kursunun işlənib hazırlanması mexanizmində aparıcı mövqe tutur. Öz növbəsində, Üçtərəfli Komissiya Şimali Amerika, Avropa və Asiya-Sakit okean regionu elitalarının nümayəndələrini özünə daxil edən dünyada ilk qlobal siyasi planlaşdırma təşkilatıdır.

BMŞ-ın missiyası xarici siyasətlə bağlı tövsiyələrin işlənib hazırlanması və siyasi elitalar arasında konsensusun formalaşdırılmasıdır. Onun fəaliyyətinin alqoritmi fondların maddi dəstəyi ilə xarici siyasət məsələləri üzrə dərinləşdirilmiş tədqiqatların aparılmasını nəzərdə tutur. Tədqiqatların başa çatdırılmasından sonra BMŞ öz üzvləri üçün dövlətin yüksək vəzifəli şəxslərinin iştirakı ilə seminar və diskussiyalar keçirir. Bu qlobal beyin mərkəzi dünyada Amerika xarici siyasətinin qeyri-rəsmi carçısı kimi qəbul olunan Foreign Affairs jurnalını dərc edir. Çox önəmlidir ki, əvvəlcə həmin jurnalın məqalələrində şərh edilməyən ABŞ xarici siyasi təşəbbüslərini göstərmək belə olduqca çətindir.

Həmin Şuranın fəaliyyətində bugünkü üstünlüklər kimi ilk növbədə ABŞ-ın dünyada qlobal liderlik strategiyasını, dəyişən dünyada

ABŞ milli təhlükəsizlik konsepsiyasının yenidən qiymətləndirilməsini, qlobal dünya ticarətinin stimullaşdırılmasını qeyd etmək lazımdır.

Üçtərəfli Komissiya sənaye baxımdan inkişaf etmiş demokratik dünyanın əsas mərkəzləri (Şimali Amerika, Qərbi Avropa və Yaponiya) arasında daha sıx əməkdaşlığa kömək etmək məqsədi ilə 1973-cü ildə yaradılmışdır. Üçtərəfli Komissiya qeyri-hökumət təşkilatı sayılır, onun tərkibində üç dünya mərkəzinin 390-dan artıq görkəmli şəxsi fəaliyyət göstərir. Hazırda Komissiyanın üç həmsədri Şimali Amerikadan kiçik C.Nay, Avropa Birliyindən Jan-Klod Trişe və Asiya-Sakit Okean regionundan Y.Xaşeqavadır. Tədqiqatların əsas istiqamətlərini enerji təhlükəsizliyi, iqlim dəyişiklikləri, nüvə silahının yayılmasına əks-təsir, səhhətin qorunması sahəsində qlobal çağırışlar, Rusiya ilə münasibətlərin yeni vəziyyəti təşkil edir.

Siyasi planlaşdırma və layihələşdirmə institutları yalnız ölkənin ən əsas problemləri və onların həlli yollarının tapılması ilə məşğul olmur, eyni zamanda hakim elitalar, KİV, maraq qrupları, dövlət xadimləri və siyasi liderlər arasında konsensusun əldə edilməsi sahəsində də böyük uğurlar qazanırlar. Onlar öz təkliflərinin prezentasiyasını keçirərək KİV, icra və qanunverici orqanlarının nümayəndələri ilə görüşür, parlament komitələri tərəfindən təşkil olunan publik və qapalı dinləmələrdə və dəyirmi masalarda iştirak edir, maraq qruplarını toplayır və hökumət həmfikirləri ilə birbaşa əlaqələr qururlar. Beyin mərkəzlərinin tövsiyələri press-reliz vasitəsi ilə KİV-də, həm də icra və qanunverici orqan strukturlarına birbaşa göndəriş formasında yayılır.

Yuxarıda deyilənlərdən aydın olur ki, Qərb dövlətləri öz siyasətlərini əksərən beyin mərkəzlərinin araşdırmaları əsasında qurur. Bu isə o deməkdir ki, dövlət siyasətinin ekspert müşahidəsində aparıcı rolu beyin mərkəzləri oynayır. Mərkəzlər siyasi məsələlərdə dövlətin inkişafına dəstək olan xüsusi sifarişlər əsasında analiz aparır və hesabatlar hazırlayır. Dövlət isə bu hesabatlara müvafiq olaraq, müəyyən məsələlər üzrə atacağı addımları müəyyənləşdirir. Beyin mərkəzləri akademik dairələr və hakimiyyət, vətəndaş cəmiyyəti və hökumət arasında vasitəçi rolunu oynayır. Bu isə dövlət orqanları və elmin sıx əməkdaşlığına, dövlət siyasətinin elmi əsaslarının möhkəmlənməsinə və nəticə etibarı ilə milli maraqların təmin olunmasına söykənən daha səmərəli, düşünülmüş siyasi qərarların qəbul edilməsinə gətirib çıxarır. Qərb ölkələrində dövlət siyasətinin ekspert müşahidəsi problemini tamamlayaraq qeyd edək ki, ABŞ-ın Pensilvaniya Universitetinin 2020-ci ildə hazırladığı Global go to think tank hesabatına əsasən dünyada 11 min 175 beyin mərkəzi fəaliyyət göstərir. Dünya üzrə siyahıya ABŞ başçılıq edir. Burada 2 minə yaxın beyin mərkəzi gərgin iş aparır.

## Azərbaycanda araşdırma və beyin mərkəzləri

Azərbaycanda araşdırma və beyin mərkəzlərinin (ABM) yaranması və inkişafı məsələlərinin tədqiqi bu sahənin böyük perspektivləri barədə danışmağa imkan verir. Elmi və ekspert biliklərinin bu növ mərkəzlər formasında institusionallaşması onların siyasətin subyekti kimi formalaşması və biliyə əsaslanan cəmiyyətin qurulması və təkamülü prosesində getdikcə rolunun artmasına gətirib çıxarır.

Retrospektiv təhlil göstərir ki, əgər bu sahənin öncülü olan ABŞ-da ilk beyin mərkəzləri (BM-lər) bu dövlətin yaranmasından 3-4 əsr sonra təşəkkül tapmışdırsa, ilk dövlətyönlü beyin mərkəzinin əsası prezident Franklin Ruzvelt tərəfindən qoyulmuşdursa və bu hadisə yeni ənənənin başlanğıcı kimi müvafiq qurumların inkişafında təkanverici amil qismində çıxış etmişdirsə, Azərbaycanda analoji strukturlar müstəqil dövlətin yaranmasının ilk onilliyində peyda olmuşdur. “Tarixi paralel aparılarsa, Azərbaycanda da ABM-lərin yaranmasına ölkədə ilk belə mərkəzin (Strateji Araşdırmalar Mərkəzinin (SAM)) dövlətimizin siyasi lideri, Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmasının həlledici təsir göstərdiyi obyektiv reallıqdır. Bununla da “beyin mərkəzi” anlayışının rəsmi dövlət dilinə və milli leksikona daxil edilməsi, eləcə

də ümumişlək söz kimi geniş tətbiq edilməsi başlanğıcını götürmüş, özlərini ABM kimi identikləşdirən qurumların sayı artmağa, ölkəmizdə "analitik düşüncə mədəniyyəti" formalaşmağa başlamışdır.

Dövlətin ictimai siyasi institutların inkişafına himayəsi xüsusilə "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında" 2007-ci il 27 iyul tarixli Prezident Sərəncamı ilə keyfiyyət mərhələsinə keçmişdir. Növbəti addım Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının yaradılması olmuşdur.

Bu proseslərə paralel olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev elmi cəmiyyətin formalaşması, təhsilin modernləşməsi, milli potensialın və insan kapitalının reallaşmasına yönələn tarixi əhəmiyyətli sənədlər: 4 may 2009-cu il tarixli "2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın və həmin Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının, 22 may 2009-cu il tarixli "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiqi haqqında, 21 oktyabr 2009-cu il tarixli "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında" sərəncamlar imzalanmışdır. Bütün bunlar intellektual mərkəzlərin inkişafı və təkmilləşdirilməsinə təkan verməyə bilməzdi.

Müstəqilliyin ilk illərində ölkədə əsasən xarici mənbələrdən maliyyələşən və yad dövlətlərin strategiyasının və beynəlxalq qruplaşmaların maraqlarının reallaşmasına xidmət edən, BM statusuna tam uyğun olmasa da, onun müəyyən funksiyalarını yerinə yetirən araşdırma mərkəzlərinin yaranması üstünlük təşkil etmişdir. Xüsusi vurğulamaq lazımdır ki, bu cəhət dünyada "beyin mərkəzi" fenomeninin və missiyasının mahiyyətinə adekvat olmamışdır. Çünki BM institutu təmsil etdiyi ölkənin milli maraqlarının və dövlətçiliyinin möhkəmlənməsinə yönələn fəaliyyətlə məşğul olur. Bunun əksi olan nümunə mövcud deyil.

İnkişafın yeni mərhələsindən başlayaraq dövlətin elmi və intellektual potensialının insan kapitalının inkişafına göstərdiyi diqqət sayəsində bu meyil əks istiqamətdə dəyişməyə başlamışdır və bu özü mühüm nailiyyət hesab edilməlidir.

Yaranmasının ilk dövründə, 1993-2003-cü illərdə yerli ABM-lərin təşəkkülündə xarici amillər – donor təşkilatların geosiyasi rəqabət və mübarizə amilinin təsir etdiyi qrant vəsaitləri (siyasəti) üstünlük təşkil etmişdir. Bu illərdə ABM-lər akademik elmlə cəmiyyət arasında formalaşan boşluğu dolduran ilk qurumlar kimi çıxış etmiş, bir çox mövzu və problemləri ictimai müzakirəyə çıxarmış, təhlil etmişdir. Eyni zamanda, yarandıqları ilk dövrlərdə bəzi ABM-lər Azərbaycan dövlətçiliyinin təməl dəyərlərinə və milli maraqlarına zidd olan neoliberal ideoloji mövqelərində durmuş, xarici maliyyə mənbələrini məmnun salmaq üçün "qrantdan qranta" prinsipi ilə işləmişdir. Hazırda bu cür mərkəzlər cüzi saydadır və onları özlərindən başqa "BM kimi" tanıyan yoxdur.

İnkişafın yeni mərhələsindən, 2003-cü ildən sonra ABM-lərin yaranmasına daxili amillər, dövlət siyasəti təkan verməyə başladı. Azərbaycanda iqtisadiyyatda keçid dövrü başa çatdıqdan bəzi ABM-lərin fəaliyyəti növbəti intensiv inkişaf mərhələsinə qədəm qoymuşdur" [2].

Araşdırma və beyin mərkəzləri ilə vətəndaş cəmiyyətinin oxşar və fərqli cəhətləri məsələsinə gəldikdə aşağıdakılar qeyd olunmalıdır:

1. Vətəndaş cəmiyyəti yalnız qeyri-dövlət təşkilatı (QHT) ola bilərsə, ABM-lər həm qeyri-dövlət, həm də dövlət təşkilatları ola bilər. Dövlət QHT-lərə vəsait ayırsa da, onlar fəaliyyətlərində siyasi funksiyalara malik deyillər. ABM-lər isə bu funksiyaya malikdirlər.
2. Vətəndaş cəmiyyəti institutu həm yerli, həm də xarici donordan qrant ala bildiyi halda, ABM-lər yalnız milli maraqlara cavab verdiyi halda özəl və ya xarici mənbələrdən maliyyə dəstəyi ala bilirlər. Hər halda dünya təcrübəsi bunu sübut edir. Dövlətçiliyin möhkəmləndirilməsinin optimal və strateji yollarına dair ideyalar yalnız milli maraqlar baxımından, milli

məkan və milli siyasi subyektlər üçün prioritet ola bilər. Xarici ölkədən autsorsinqin (kənardan ekspert və mütəxəssis cəlb edilməklə layihələrin həyata keçirilməsi) tətbiqinin qeyri-mümkünlüyü də bununla bağlıdır. ABM-lər xarici ölkələrdə yalnız dövlətin maraqları çərçivəsində birgə layihələr icra edə və bu layihələr çərçivəsində qismən maliyyələşə bilərlər.

3. Vətəndaş cəmiyyəti institutunun fəaliyyəti bütün istiqamətlərdə açıq, şəffaf olduğu halda ABM-lərin qapalı olan, ictimai rəyə açıqlanmayan analitik fəaliyyəti də olur. Hətta fəaliyyətinin əhəmiyyətli qismi tamamilə qapalı olan BM-lər də var.
4. Vətəndaş cəmiyyəti qurumlarının sosial funksiyası onların məhsulunun əsasən sosial təbəqələrə ünvanlanmasını şərtləndirirsə, BM-lərin analitik məhsulu bütövlükdə milli elitalara, xüsusilə də siyasi elitaya hesablanmışdır [2].

Bundan başqa, analitik mərkəzlər açıq şəkildə olmasa da, müxtəlif siyasi, ideoloji, yaxud metodoloji yönlü ola bilər və bu xüsusiyyət onları vətəndaş cəmiyyəti qurumlarından fərqləndirir.

Azərbaycanda Araşdırma və Beyin Mərkəzlərinin tipologiyası və təsnifatı məsələsi ilə bağlı qeyd edilməlidir ki, "milli məkanda ABM-ləri klassik (Amerikada tətbiq edilən) təsnifatla aşağıdakı kimi sistemləşdirmək olar:

1. dövlət strukturlarında fəaliyyət göstərən analitik qurumlar;
2. qeyri-dövlət ictimai siyasət institutları;
3. akademik və universitet əsaslı tədqiqat institutları.

Bir neçə azsaylı partiyayönlü mərkəzin analitik qurumları özlərini bu mərkəzlərlə identikləşdirmədiyi və fəallığı hiss olunmadığı üçün təsnifatda yer almamışdır.

Eyni zamanda bu mərkəzlərin özlərini də:

1. məqsədyönlü (özlərini BM adlandıran və BM ilə identikləşdirən) strateji mərkəzlər;
2. araşdırma layihələrini həyata keçirən BM-lər;
3. intellektual birliklər kimi qruplaşdırmaq olar.

Xarici təcrübədən (məsələn ABŞ) fərqli olaraq, Azərbaycanda hələlik ABM-lər və hakimiyyət institutları arasında "fırlanan qapılar" ("revolving doors") adlanan mexanizm yoxdur. "Fırlanan qapı"– unikal bir təcrübə olub, bilavasitə ABŞ-da inkişaf etmişdir. Burada dövlət orqanları və strukturlarında çalışan yüksək vəzifəli şəxslər vəzifələrindən getdikdən sonra ABM-lərdə çalışmağa üstünlük verirlər. Bu, bir ənənəyə çevrilmişdir və həmin ənənə "beyin mərkəzləri"nə idarəçilik orqanlarından və Konqresdən sabiq peşəkar siyasətçilərin, ekspertlərin davamlı axınını təmin edir. Onlar mütəxəssis və məmur kimi topladıqları təcrübə və ideyaları bölüşə, aktual daxili və xarici siyasi müzakirələrdə iştirak edə, beynəlxalq işlərlə bağlı qeyri-formal münasibətlərin yaradılmasına töhfə verə bilərlər.

Dünyanın digər ölkələrində də dövlət məmurları olmuş kadrlarla qeyri-dövlət strukturuna aid olan BM-lər arasında sıx əməkdaşlıq müşahidə olunur. Xarici təcrübəni öyrənməklə bu ənənənin tətbiqinin mühüm olduğuna diqqətin cəlb edilməsi öz növbəsində yeni imkanların reallaşmasına şərait yarada bilər" [2].

Beləliklə, bir daha qeyd edək ki, digər postsovet ölkələrində olduğu kimi vətən analitik, yaxud araşdırma və beyin mərkəzləri Sovet İttifaqının dağılmasından sonra formalaşmağa başlamışlar. 2020-ci ilin Global go to think tank hesabatına əsasən ölkəmizdə 20 beyin mərkəzi statusunda təşkilat mövcuddur. Xatırlatmaq yerinə düşər ki, 2008-ci ilin hesabatında 13 beyin mərkəzi qeyd olunurdu. Deməli bu müddət ərzində onların sayı artmışdır. Hazırda Azərbaycanda fəaliyyət göstərən beyin mərkəzlərinin sırasında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM), Sosial Tədqiqatlar Mərkəzi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzi, Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Topçubaşov Mərkəzi, STEM Mərkəzi və başqaları öz

güclü potensialı ilə seçilir. Eyni zamanda beyin mərkəzləri qismində fəaliyyət göstərməyə can atan QHT-lərin də sayı artmaqdadır və hazırda 30-a yaxındır. Bunlardan 20-si dövlətlə sıx əməkdaşlıq edir, qalanları tam müstəqildir, yaxud siyasi qüvvələrlə bağlıdırlar. Onları daxili və xarici siyasətlə məşğul olmaqla iki yerə bölmək olar. Amma bu, şərtidir. Çünki müasir dünyada xarici və daxili siyasət bir-biri ilə sıx bağlıdır. Bütövlükdə beyin mərkəzlərinin sayına görə Azərbaycan Asiya regionu üzrə 15-ci pillədə qərarlaşır.

Son illər ölkəmizdə beyin mərkəzlərinin inkişafına xüsusi diqqət göstərilir. 2022-ci ilin 28 sentyabr tarixində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə baş tutan Azərbaycan Beyin Mərkəzlərinin Birinci Forumu bu sahədə əldə olunan inkişaf nümunələrindən biri kimi dəyərləndirilə bilər [4].

Forumun keçirilməsində əsas məqsəd ölkə beyin mərkəzlərinin fəaliyyətinin stimullaşdırılması və dövrün tələblərinə uyğun təşkil edilməsi, dövlət qurumları və beyin mərkəzləri arasında mütəmadi kommunikasiyanın və əməkdaşlığın qurulmasının təmin edilməsi idi. Forum, eyni zamanda, beyin mərkəzlərinin cəmiyyətdə təbliği baxımından mühüm əhəmiyyət daşıyırdı.

Burada dövlət siyasətinin ekspert müşahidəsi məsələlərinə geniş yer ayrılmışdı. Bildirilmişdir ki, beyin mərkəzləri dövlətin gələcəkdə idarə edilməsi strategiyasının olduqca vacib tərkib hissəsidir. Onlar proqnozlar verir, gələcəyin mümkün ssenarilərini ayırır. Analitik mərkəzlərin ölkəmizdə həm sayının, həm də rolunun artması dövlət siyasətinin müxtəlif istiqamətləri ilə bağlı müstəqil ekspertizaya, obyektiv qiymətləndirməyə, proqnozlaşdırmaya və müvafiq qərarların təklif olunmasına tələbatın güclənməsindən xəbər verir. Beyin mərkəzləri üçün yeni çağırışlar sırasında, əvvəla ayrı-ayrı regionlarda xəritələrin yenidən cızılması xüsusi vurğulanmış və belə nəticəyə gəlinmişdir ki, analitik mərkəzlər mütləq qeyri-müəyyən gələcəyə hazır olmalıdırlar.

Daha bir mühüm əhəmiyyətli çağırış kimi informasiyanın hazırki olduqca yüksək sürəti göstərilmiş və bu sürətə uyğunlaşmaq tələbatının təmin edilməsi məsələsi önə çəkilmişdir. Bütövlükdə vətən ekspert-analitik strukturlarının fəaliyyətinin təhlili belə nəticəyə gəlməyə imkan verir ki, Azərbaycan elmi, iqtisadi və siyasi fikrin ən vacib sahələrində peşəkar biliklərin aparıcı tədarükçüsü qismində çıxış edən elmi-ekspert mərkəzlərinin təşkilinin dünya təcrübəsini diqqətlə izləyir və ondan müəyyən dərəcə səmərəli şəkildə faydalanır. Ümumiyyətlə, Azərbaycanda son zamanlar baş verən əsl texnoloji inqilab və informasiya təhlükəsizliyinin aktuallığının möhkəmlənməsi şəraitində müasir tendensiyalara uyğun olaraq beyin mərkəzlərinin sayı və keyfiyyətinin artması çox sevindirici haldır.

Xüsusi vurğulanmalıdır ki, vətən ekspert-analitik fikrinin yeni səhifəsi ölkəmizdə bu yaxınlarda keçirilən üç möhtəşəm tədbir: "COP 29 və Azərbaycan üçün Yaşıl baxış" Beynəlxalq forum, "Cənubi Qafqaza yeni baxış: postmünaqişə inkişafı və əməkdaşlıq" və "Cənubi Qafqaz: inkişaf və əməkdaşlıq" Beynəlxalq konfranslar çərçivəsində açılmışdır. Həmin tədbirlərin hər biri müxtəlif ölkələrin sanballı beyin mərkəzləri və akademik təşkilatlarının çoxsaylı ekspertlərini respublikamızda bir araya gətirmiş və dayanıqlı inkişaf sahəsində beynəlxalq təcrübənin Azərbaycanın tələbatlarına adaptasiyası məsələsinin elmi-praktiki müzakirəsinin platforması olmuşdur. Eyni zamanda bu tədbirlər cari ilin noyabr ayında Azərbaycanda keçirilməsi nəzərdə tutulmuş qlobal əhəmiyyətli COP 29-da müzakirə predmeti olunacaq iqlim dəyişmələri, bərpa olunan energetika, rəqəmsallaşma, kibertəhlükəsizlik problemləri, həm də süni intellekt sahəsində Azərbaycanın Milli strategiyasının "yol xəritəsinin" gerçəkləşməsi nöqteyi-nəzərindən son dərəcə vacibdir.

Çox önəmlidir ki, Azərbaycan müsbət nümunəsi və "yaşıl gündəliyi" ilə iqlim dəyişmələri proseslərinə və iqlim fəaliyyətinə öz töhfəsini verir. Burada "yaşıl keçid" qarşıya hədəf kimi qoyulub və ölkəmizdə beynəlxalq tərəfdaşlar da cəlb olunmaqla ciddi "yaşıl enerji" ixrac potensialı yaradılır.

İqlim dəyişmələri, "yaşıl enerji" və "yaşıl keçid" problemlərinin qoyulması və uğurlu həlli istiqamətində aparılan işlərdə Azərbaycanın "beyin mərkəzləri" də fəal iştirak etməkdədir.

Beləliklə, qeyd olunan əsas gündəliyin genişlənməsi ilə birgə ölkə beyin mərkəzlərinin sayı, keyfiyyəti və aparılan işlərin həcmi artmaqda davam edir ki, bu da onların müasir qlobal, regional və yerli çağırışlara uyğunluğu məsələsini bir qədər də aktuallaşdırır.

Lakin "beyin mərkəzləri" və peşəkar siyasi ekspertiza, o cümlədən dövlət siyasətinin ekspert müşahidəsi sahəsində nailiyyətlərlə yanaşı müəyyən çatışmazlıqlar da mövcuddur. Əvvəla, dövlət siyasətinin işlənib hazırlanması sahəsində ekspert müşahidəçisi qismində çıxış edən (yaxud bu statusa iddialı olan) beyin mərkəzləri ilə hakimiyyət arasında Qərbdə olduğu kimi möhkəm qarşılıqlı əlaqə ənənəsi, dayanıqlı sistem hələ tam formalaşmayıb. Bu istiqamətdə işlər başlayıb və get-gedə qaydaya salınmaqdadır. İkincisi, dövlət tərəfindən strateji qərarların hazırlanması zamanı ekspert strukturlarından (xüsusən "beyin mərkəzlərindən") seçim etmək üçün elmi baxımdan əsaslandırılmış ciddi intellektual məhsul, orijinal və effektiv təklif, yüksək keyfiyyətli analitika qıtlığı aradan qaldırılmayıb. Ümid edirik ki, qərb ölkələrində müstəqil siyasi mərkəzlər, elm aləmi və hakimiyyət arasında mövcud olan həmahəng ideya və kadr arxitekturası burada da tezliklə qurulacaqdır. Azərbaycanda siyasi sistemin demokratikləşməsi və optimallaşması vektorunun saxlanılması, demokratik prosedur və praktikaların təkmilləşməsi, demokratik institutların (parlament, qeyri-hökumət təşkilatları, siyasi partiyalar, biznesin təzyiq qrupları, həmkarlar təşkilatları və s.) get-gedə daha da güclənməsi ölkə beyin mərkəzlərinin tədricən müstəqilliyinin artmasına, onların siyasi və intellektual təsirinin möhkəmlənməsinə, bütövlükdə dövlət siyasətinin ekspert müşahidəsinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasına səbəb olacaq deməyə imkan verir.

**Ədəbiyyat:**


1. Ələkbərova Nigar. Siyasi konsaltinq. Bakı, "Elm və təhsil", 2024.
2. Məmmədov Fərhad, Allahyarova Tahirə. Azərbaycanda araşdırma və beyin mərkəzləri (yaranması, inkişafı və perspektivləri). Bakı, 2013, s.109-111
3. Березной А. Мировая индустрия управленческого консалтинга на пороге XXI века.// Мировая экономика и международные отношения, 2001, №9, с.3-17.
4. Ведущий компонент системы управления. Бакинский рабочий. 29 сентября 2022 года
5. Горный М.Б. Фабрики мысли и центры публичной политики в конце XX–начале XXI веков./ Публичная политика–2005. Сборник статей./ Под ред. М.Б. Горного и А.Ю. Сунгурова. СПБ.: Норма, 2006, с.62-75.
6. Рич Э., Уивер К. Пропагандисты и аналитики: "мозговые центры" и политизация экспертов // Pro et Contra, Весна, 2003, с.64-89.
7. Association of Professional Political Consultants. URL: http://www.appc.org.uk
8. Domhoff W.G. Who rules America? Power and politics in the year 2000. Mountain Wiew, Calif: Mayfield, 1998, p.127
9. European association of political consultants. URL: http://www.eaps.eu
10. McGann J. How think tanks are coping with the future.// Futurist, Nov /dec 2000, vol 34, issue 6, p. 16-24
11. Siefken S.T. Shulz M. The governance of policy advice: Regulation of advisory commissions and councils in Germany and the Netherlands // Paper for the İst İnternational Confrerence on public policy. Grenoble, France 2013. June 26-28

***Açar sözlər:*** *dövlət siyasətinin ekspert müşahidəsi, konsaltinq, araşdırma və beyin mərkəzləri, peşəkar siyasi ekspertiza*

**Nigar Alakbarova**

*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Head of the Department of Political Science and Political Management*
*Professor, Doctor of Philosophy*

## EXPERT SUPPORT OF STATE POLICY AS A THEORETICAL AND PRACTICAL PHENOMENON

### ABSTRACT

The article considers the history of the formation and evolution of politically significant expert activity. The significance and specific features of expert support of state policy are revealed. The activity of "think tanks," which have a huge influence on making both strategic and tactical political decisions, is analyzed. The process of formation of scientific and expert knowledge in the form of analytical and brain centers in the Republic of Azerbaijan is shown. Their current status and prospects for further development are clarified.

***Keywords:*** *expert support of state policy, consulting, analytical and think tanks, professional political expertise*

**Нигяр Алекперова**

*Заведующая кафедрой «Политологии и политического управления»*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философских наук, профессор*

## ЭКСПЕРТНОЕ СОПРОВОЖДЕНИЕ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ КАК ТЕОРЕТИЧЕСКИЙ И ПРАКТИЧЕСКИЙ ФЕНОМЕН

### РЕЗЮМЕ

В статье рассматривается история формирования и эволюции политически значимой экспертной деятельности. Выявляются значение и специфические особенности экспертного сопровождения государственной политики. Анализируется деятельность «мозговых» центров, оказывающих огромное влияние на принятие как стратегических, так и тактических политических решений. Показывается процесс становления научного и экспертного знания в форме аналитических и мозговых центров в Азербайджанской Республике. Уясняется их нынешнее состояние и перспективы дальнейшего развития.

***Ключевые слова:*** *экспертное сопровождение государственной политики, консалтинг, аналитические и мозговые центры, профессиональная политическая экспертиза*

DOI: https://doi.org/10.30546/2309-1347.2024.3.87.207

**S İ Y A S Ə T**
**P O L I T I C S**

UOT 327 140.8;
UOT 327 5, 56

**ELÇİN ƏHMƏDOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professoru, siyasi elmlər doktoru, "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri**

*e-mail: elchin_ahmedov@yahoo.com*

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ: AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ VƏ SUVERENLİYİNİN BƏRPASI

## Giriş

2003-cü ildən keçən 20 ildən artıq müddət ərzində Ümummilli lider Heydər Əliyevin siyasi kursunu dinamik şəkildə və uğurla inkişaf etdirən Prezident İlham Əliyev tərəfindən milli maraqlara əsaslanaraq həyata keçirilən xarici siyasət nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin etmişdir.

Hazırda Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlətimizin başçısının qeyd etdiyi kimi, regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz. Eləcə də ölkəmiz Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycanın təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP, TAP və digər layihələr Azərbaycanı qlobal iqtisadiyyatda özünəməxsus iqtisadi modelə malik ölkə kimi səciyyələndirir. Bu layihələr Azərbaycanın, Türkiyənin, eləcə də digər ölkələrin enerji təhlükəsizliyi üçün böyük təminat verməklə yanaşı, iki qardaş dövlətin birliyi və strateji tərəfdaşlığı regional təhlükəsizlik baxımından da mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın enerji diplomatiyası regional təhlükəsizliyə, beynəlxalq əməkdaşlığa və milli maraqlara xidmət edir.

Nəticədə, Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərdə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Ona görə də bu gün dünyanı narahat edən və həyati əhəmiyyətli bir sıra problemlərdə aparıcı dövlətlərin başçıları Azərbaycan rəhbərinin mövqeyi ilə hesablaşırlar.

## Azərbaycanın milli maraqlara əsaslanan xarici siyasəti

Qeyd etmək lazımdır ki, 2020-ci ilin yanvar ayında 14-cü dəfə Dünya İqtisadi Forumu çərçivəsində “Strateji baxış: Avrasiya” mövzusunda keçirilən panel iclasında moderatorun “Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz birinci növbədə kimə zəng edərsiniz – Moskvaya, yoxsa Pekinə?” sualına cavab olaraq Prezident İlham Əliyevin “Bakıya” cavabı böyük önəm kəsb edir. Dövlət başçısının bu cavabı Azərbaycanın müstəqil, heç kimdən asılı olmayan, milli maraqların hər zaman uca tutulduğu siyasət yürütdüyünün bariz nümunəsidir. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın qonşu ölkələrlə münasibətləri dostluq, qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsiplərinə əsaslanır. Eyni zamanda, dövlət başçısı vurğuladı ki, Azərbaycan üçün onun milli maraqları həmişə birinci yerdədir və buna görə də müstəqillik illəri ərzində qazandığımız bütün nailiyyətlər xalqımızın müstəqilliyimizə sadiq olmasına, siyasi və iqtisadi sahələrdə çox ciddi islahatlar həyata keçirdiyimizə görə əldə olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 20 il ərzində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirilmişdir. Azərbaycan 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155-nin dəstəyi ilə inamlı qələbə qazanmışdır (1). BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması müstəqillik tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla, Azərbaycanın son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu kimi qəbul edilir.

Bu illərdə Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişlənmişdir. 2018-ci ilin iyul ayında Avropa İttifaqı ilə Azərbaycan arasında qəbul olunmuş “Tərəfdaşlıq prioritetləri” adlı mühüm sənəddə bir çox məsələlər öz əksini tapmaqla yanaşı, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olunmuşdu. Həmçinin 2018-ci il iyulun 11-12-də Brüsseldə keçirilmiş NATO Zirvə görüşünün Yekun Bəyannaməsində də Alyans üzvlərinin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək və hörməti öz əksini tapmışdır (52). Onlar regiondakı mövcud münaqişələrin məhz bu prinsiplər əsasında həll olunmasının zəruriliyini bildirmişdilər.

Bununla yanaşı, Türk Dövlətləri Təşkilatının güclənməsi və nüfuzunun artmasında da Azərbaycan Prezidenti İlham Əliyevin böyük rolu olmuşdur. 2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçirildi və Azərbaycan bu təşkilatda sədrliyə başladı (2). Bunun davamı olaraq, oktyabrın 25-26-da Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçısı, həmçinin beynəlxalq təşkilatların rəhbərləri, ümumilikdə isə 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri iştirak etdilər (3). Zirvə görüşü iki gün ərzində beynəlxalq münasibətlər sistemində ən mühüm hadisə idi.

Ümumilikdə, özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünün Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizin böyük diplomatik uğuru oldu. Bununla yanaşı, son illərdə Azərbaycanın ev sahibliyi etdiyi, eləcə də Prezident İlham Əliyevin təşəbbüsü ilə

keçirilən bir sıra mühüm əhəmiyyət kəsb edən qlobal tədbirlər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəltdi.

## Aprel döyüşləri – böyük hərbi Qələbənin başlanğıcı

Son 20 il ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrində aparılan islahatlar ordumuzun istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığının güclənməsinə zəmin yaratdı. Azərbaycan ordusu ən müasir silahlar və texnika ilə təchiz olundu. Qeyd etmək lazımdır ki, 2003-cü ildən keçən dövr ərzində hərbi xərclər 15 dəfədən çox artırılmışdır.

2016-cı ilin Aprel döyüşləri – Azərbaycanın Vətən müharibəsindəki böyük hərbi Qələbəsinin başlanğıcı və Ermənistanın "qüdrətli ordusu"nun yalnız mif olduğunun təsdiqi kimi tarixə düşdü. 2016-cı il aprelin 2-dən 5-dək davam edən Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları ölkəmizə hərbi-strateji nöqteyi-nəzərindən çox böyük üstünlüklər verdi. İlk növbədə, Azərbaycan çox mühüm psixoloji qələbə qazandı. Azərbaycan Ordusu Qarabağın şimal və cənub hissələrində çox böyük strateji əhəmiyyətə malik yüksəklikləri azad etdi. Bununla da Azərbaycan öz torpaqlarını azad etmək bacarığını, potensialını, döyüş əzmini nümayiş etdirdi. Nəticədə 4 günlük döyüşlərin beynəlxalq əks-sədası da dərhal eşidildi və Ermənistanın Azərbaycan torpaqlarının 20%-ni işğal altında saxlaması bir daha bütün dünyaya xatırladıldı.

2003-cü ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün Azərbaycan Ordusunun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaratdı.

Qeyd etmək vacibdir ki, 2016-cı il aprel ayının əvvəlində cəbhə xəttində Ermənistanın növbəti hərbi təxribatı ilə üzləşən ordumuz əks-hücuma keçərək işğalçılara güclü zərbələr endirmiş və qısa müddətdə Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında 2 min hektar ərazini düşməndən azad etmiş, işğal altında qalan torpaqlara nəzarət etmək imkanını artırdı. Bunun davamı olaraq, 2018-ci ilin may ayının 20-dən 27-dək Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi, Yerevan–Gorus–Laçın yolu nəzarətə götürüldü. Nəticədə minlərlə hektar torpaq işğalçılardan azad edildi, on minlərlə hektar ərazi Azərbaycanın nəzarətinə keçdi (4, s.132). Qeyd etmək vacibdir ki, 2016-cı ilin Aprel döyüşləri Azərbaycanın Vətən müharibəsindəki böyük hərbi Qələbəsinin başlanğıcı və Ermənistanın "qüdrətli ordusu"nun yalnız mif olduğunun təsdiqi kimi tarixə düşdü.

## İkinci Qarabağ müharibəsini şərtləndirən tarixi, siyasi və hüquqi amillər

Azərbaycan Prezidenti İlham Əliyev mühüm beynəlxalq tədbirlərdə dəfələrlə Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan etmiş, xüsusilə, son 17 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratmışdı.

Son illər ərzində beynəlxalq təşkilatlar Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər. Bu, Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün əsas amillərdən biri oldu. İlk növbədə, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə

qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 4 qətnamə (822, 853, 874, 884) icra edilməli idi. 2021-ci il iyunun 26-da Prezident, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə bildirdi ki, Azərbaycan Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu sübut etməli idi: "Nə üçün sübut etməli idik? Çünki Ermənistan, onun xaricdəki havadarları, erməni lobbisi vəziyyətlə bağlı tam təhrif edilmiş mənzərə ortaya qoyurdular. Əfsuslar olsun ki, ermənipərəst qüvvələr, Ermənistanın xaricdəki havadarları bu saxta reallığı gerçəyə çevirməyə çalışırdılar. Bizim isə imkanlarımız çox məhdud idi. Ona görə beynəlxalq müstəvidə real həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, mötəbər beynəlxalq təşkilatların qərarlarını qəbul etdirmək bizim üçün başlıca vəzifə idi. Belə də oldu. Aparıcı beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, hətta daim bizə qarşı ədalətsiz mövqe sərgiləyən Avropa Parlamenti, Avropa Şurası məcbur olub həqiqəti əks etdirən, bizim maraqlarımıza cavab verən qərar və qətnamələr qəbul etmişlər. Bu, məsələnin beynəlxalq tərəfi idi" (5).

Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmirdi. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında (6) və həmin il oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında (7), oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə çıxışları zamanı tutarlı faktlarla sübut etdi (8). 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı panel müzakirələr zamanı (9), eləcə də iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində (10) Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən Prezident İlham Əliyev Ermənistanın baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi.

Mühüm beynəlxalq toplantılarda "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirdi ki, bizim mövqeyimiz həm tarixi ədalətə, eyni zamanda beynəlxalq hüquqa əsaslanır və heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Münhen Təhlükəsizlik Konfransı çərçivəsində diqqətə çatdırıldı ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları əsassızdır, tarixi faktların və beynəlxalq hüquq prinsiplərinin ermənisayaq təfsirindən başqa bir şey deyil. Bu baxımdan Azərbaycan Prezidenti Ermənistanın baş nazirinin diqqətinə çatdırdı ki, erməni xalqı öz müqəddəratını artıq təyin edib, onların erməni dövləti var: "Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!" (9).

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan münaqişəsi həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca, bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, Azərbaycanın öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını dünyaya bəyan etdi. Azərbaycan Prezidenti bildirmişdir ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə

məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, – biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər" (11).

Nəticədə, Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, xüsusilə 44 gün ərzində reallığa çevrildi.

## Azərbaycanın hərbi-diplomatik uğurları

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarını azad etmək üçün Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu (12; 13).

2020-ci il noyabrın 8-i isə Azərbaycan tarixinə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi (12; 13). Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Azərbaycan Vətən müharibəsinin 44 günü ərzində beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Nəticədə, Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi (12; 13).

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi (52).

Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi (14). Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir.

### Azərbaycan Prezidentinin prinsipial mövqeyi və informasiya müharibəsində qazanılan uğurlar

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasına son qoydu. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələr 30 ildən artıqdır ki, davam edən Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, hərbi təcavüzü, yürütdüyü işğalçılıq siyasəti, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açmaqla bunun bütün region üçün yaratdığı ciddi təhdidləri, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, Azərbaycanın haqlı mövqeyinin konkret faktlarla dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Hərbi-diplomatik uğurlarla yanaşı, Azərbaycan Prezidentinin İkinci Qarabağ müharibəsi dövründə 30-a qədər xarici KİV təmsilçilərinə, xüsusilə Türkiyənin "TRT Haber", "CNN Türk", "Haber Global", "Habertürk", "NTV", "A Haber" televiziya kanalları, Rusiyanın "Rossiya-1", "Pervıy Kanal", "RBK" televiziya kanalları, TASS, "İnterfax, "Ria Novosti" agentlikləri, Almaniyanın "ARD", Böyük Britaniyanın "Sky News", ABŞ-ın "Fox News", İspaniyanın EFE televiziya kanallarının, İtaliyanın "Rai1" televiziya kanalı və "la Repubblica" qəzeti, Fransanın "France 24" televiziya kanalı və "Le Figaro" qəzeti, Yaponiyanın "Nikkei" qəzeti, o cümlədən nüfuzlu "Euronews", "CNN", "BBC News", "Al Jazeera", "Al Arabiya" televiziya kanallarının müxbirlərinə verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, cəbhə zonasında son hərbi əməliyyatlarla bağlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, bütün suallara konkret faktlarla cavabları Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb edir (4, s.253).

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 26-da mətbuat konfransında Dağlıq Qarabağın statusu məsələsinə də "nida" işarəsi qoyaraq bildirdi ki, Ermənistana və erməni xalqına yanlış vədlər vermək lazım deyil, onları bu günə salan səbəblərdən biri də məhz o idi, xülya idi, iddia idi, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynadılar: "Status haradadır, onu hər kəs bilir. Hesab edirəm ki, Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Ona görə status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Ona görə statusla bağlı hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, qarşıdurmaya daha çox xidmət göstərir" (15).

Hər zaman, xüsusilə, Münhen Təhlükəsizlik Konfransında bəyan etdiyi kimi Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu diqqətə çatdıran dövlət başçısı vurğuladı ki, faktiki olaraq, biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik və Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir.

Nəticədə, bu, informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət

terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin Zəfər çalmasını şərtləndirdi.

Azərbaycanın hərb meydanında tarixi Qələbəsini yüksək dəyərləndirən dünyanın bir sıra hərbi-siyasi ekspertlərinin fikirlərini Ukraynanın "İnter" telekanalının müxbiri də təsdiq etdi: "Azərbaycanın işğal olunmuş rayonlarının azad edilməsi üçün xüsusi əməliyyat, mənim fikrimcə, həm hərbi texnologiyaların tətbiqi baxımından, ən başlıcası, dinc əhali və hərbçilər arasında tələfatın minimuma endirilməsi, həm də yeni hərbi texnologiyaların tətbiqi baxımından nümunəvi əməliyyat idi. Azərbaycan bütün dünyaya göstərdi ki, səngər müharibəsi artıq keçmişdə qalıb və mən əminəm ki, bu, bir çox hərbi məktəblərin dərsliklərinə daxil ediləcək" (15).

Bu baxımdan, bir sıra aparıcı beynəlxalq KİV-lərə müsahibələrində Prezident İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər Azərbaycanın bu haqlı mübarizəsinə dəstək verən bir sıra ölkələrin, nüfuzlu xadimlərin, beynəlxalq ekspert və siyasətçilərin sayını daha da artırıb, Ermənistanın təcavüzkar siyasətinin ifşa olunması prosesini genişləndirərək informasiya müharibəsində də tarixi ədalətin Zəfər çaldığını göstərdi.

Prezident İlham Əliyevin həm Vətən müharibəsinin gedişi dövründə, həm də 2021-ci il fevralın 26-da keçirilən geniş mətbuat konfransında tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanan məntiqli fikirləri dünyanın aparıcı KİV-də yayılaraq Azərbaycan, xüsusilə Qarabağ həqiqətlərini tutarlı faktlarla bütün dünyaya çatdırdı.

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında bildirmişdir ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir, xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək və biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycanın milli maraqlarını uca tutan, Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb, diplomatiya meydanında olduğu kimi, informasiya savaşında da uğurlarımızı şərtləndirirdi və tarixi Qələbəmizin əsasını qoydu. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, biz döyüş meydanında, informasiya məkanında və siyasi müstəvidə də Qələbə qazandıq.

Azərbaycan Prezidenti diqqətə çatdırmışdır ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Ermənistanda revanş haqqında düşünənlər Azərbaycanın dünyaya nümayiş etdirdiyi XXI əsrin müharibə nümunəsini unutmasınlar. Prezident İlham Əliyev birmənalı olaraq bildirib ki, Azərbaycanın işi haqq işidir və Qarabağ Azərbaycandır!

**Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və tarixi ədalətin bərpası**

2023-cü il sentyabrın 19-20-də Azərbaycan apardığı lokal antiterror tədbirləri nəticəsində həm ərazi bütövlüyünü, həm də suverenliyini bərpa edərək Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün əsaslı zəmin yaratdı. 2023-cü il oktyabrın 15-i daha bir şərəfli gün kimi tarixə düşdü. Ali Baş Komandan, Prezident İlham Əliyev Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə və Xankəndidə Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı (16).

Ali Baş Komandan, Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldarkən çıxışında demişdir: "Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl – 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün, bu 100 il

ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir" (16).

Qeyd etmək lazımdır ki, Azərbaycan dövləti İkinci Qarabağ müharibəsindən sonra əzəli torpaqlarını işğaldan azad etməklə yanaşı, 100 il əvvəl – 1923-cü ildə Qarabağda məqsədli şəkildə pozulmuş inzibati-ərazi bölgüsünü də yenidən təmin etdi. Azərbaycan Prezidentinin 2021-ci il iyulun 7-də imzaladığı Fərman əsasən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması ilə tarixi ədalət bərpa edilmiş oldu (17).

Nəticədə İkinci Qarabağ müharibəsi son yüz ildə şərəf və qəhrəmanlıq salnaməsi kimi Azərbaycan tarixinə yazıldı. Bu gün üçrəngli müqəddəs bayrağımız Azərbaycanın bütün işğaldan azad edilmiş ərazilərində – Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Ağdamda, Şuşada, Xocavənddə, Hadrutda, Ağdərədə, Xocalıda və Xankəndidə qürurla dalğalanır.

Bununla yanaşı,1919-cu ildən 104 il sonra - 2023-cü il noyabrın 8-də Xankəndi şəhərində keçirilən və Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad Azərbaycanın hərb tarixinə də şərəfli bir gün kimi yazıldı. Əziz şəhidlərimizin xatirəsinin bizim qəlbimizdə əbədi yaşayacağını və bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərdiyimizi vurğulayan Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi paradda çıxışı zamanı demişdir: "XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin" (18).

Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başladığımızı xüsusi qeyd etdi və müasir tariximizin yeni dövrünün də məhz sentyabrın 20-dən (2023-cü il – E.Ə.) sonra başladığını diqqətə çatdıraraq vurğuladı ki, istər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi (19).

Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il sentyabrın 19-da Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında imzaladığı Sərəncamda vurğulanır ki, cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir: "Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir" (49).

## Şuşanın işğaldan azad edilməsi Zəfər günü kimi tarixə yazıldı

Azərbaycan Prezidenti İlham Əliyev hələ 2020-ci il oktyabrın 16-da, 44 günlük İkinci Qarabağ müharibəsinin 20-ci günündə Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində demişdi: "Şuşanın Azərbaycan

xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq" (20).

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsinin taleyində həlledici gün məhz 2020-ci il noyabrın 8-i oldu. Şuşa şəhərinin işğalçılardan azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və Azərbaycanın hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və Azərbaycanın İkinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi.

Azərbaycan Prezidenti İlham Əliyev hər zaman bildirib ki, Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!" (21)

Azərbaycan Prezidentinin dekabrın 3-də imzaladığı Sərəncama əsasən, noyabrın 8-i bayram günləri sırasına daxil edildi və hər il Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Prezidentin Sərəncamında vurğulanır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi (22).

## Şuşa Bəyannaməsinin tarixi və siyasi əhəmiyyəti

2021-ci il iyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ermənistan işğalından azad edilən, Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşa şəhərinə səfər etməsi və iki dost, qardaş dövlət arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması mühüm tarixi hadisədir.

Müttəfiqlik münasibətləri haqqında Bəyannamənin əvvəlində Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində iki qardaş dövlətin prezidentlərinin görüşünün mühüm əhəmiyyəti vurğulanır, 100 il bundan əvvəl imzalanmış tarixi Qars müqaviləsinə istinad edilir. Həmçinin bu tarixi sənəddə 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə

Müqavilə"nin və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"un, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"nin rəhbər tutulduğu bildirilir (23).

Bununla yanaşı, işğaldan azad edilmiş Şuşa şəhərində 100 ildən sonra imzalanan müttəfiqlik haqqında birgə Bəyannamədə iki qardaş və dost dövlətin gələcək çoxşaxəli, birgə fəaliyyət istiqamətləri göstərilir. Bu tarixi sənəddə bir çox mühüm məsələlər, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, xüsusilə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapmışdır. Tərəflər xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edərək bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyətini vurğuladılar.

Sənəddə göstərilir ki, Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər. Bununla yanaşı, sənəddə xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyi qeyd edilir və bu istiqamətdə iki dövlət arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyəti vurğulanır (23).

Bununla yanaşı, bildirilir ki, hər iki dövlət müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər. Eyni zamanda, göstərilir ki, tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Sənəddə Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğu vurğulanaraq, bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səyləri qətiyyətlə dəstəklənir (23). Həmçinin Şuşa Bəyannaməsində siyasi, iqtisadi-ticarət, mədəniyyət və digər bütün sahələri əhatə edən birgə əməkdaşlıq məsələləri öz əksini tapmışdır. Sənəddə tarixi, siyasi, həm də hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş şəkildə birgə fəaliyyətin əks olunması hər iki dövlətin milli maraqları baxımından müstəsna əhəmiyyət kəsb edir.

Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxışlarında bildirdilər ki, Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaqdır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin "Rəsmi Qəzet"də dərc edilərək qüvvəyə minməsi haqqında qərarı imzaladı. Eyni zamanda, Bəyannamə 2022-ci il fevralın 3-də Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiqləndi (24).

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 12-də "Azərbaycan Respublikası ilə

Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında” Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununu imzaladı (25).

Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra dünyaya nümunə olan Azərbaycan-Türkiyə həmrəyliyi və strateji tərəfdaşlığı daha da yüksək səviyyəyə qalxdı, xüsusilə regional təhlükəsizlik baxımından müstəsna əhəmiyyət kəsb edən müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması mühüm hadisə kimi tarixə yazıldı.

**Şuşanın çoxəsrlik, zəngin şəhərsalma mədəniyyətinin nadir incisi kimi bərpası**

Qarabağın tacı Şuşanın əsl tarixi simasının, ənənələrinin və qədim mədəni abidələrinin çoxəsrlik, zəngin şəhərsalma mədəniyyətinin nadir incisi kimi bərpası mühüm əhəmiyyət kəsb edir. 2021-ci il avqustun 29-30-da Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Şuşada bir sıra tədbirlər keçirildi və Şuşa şəhərinin baş planı təqdim olundu.

Qeyd etmək vacibdir ki, 1982-ci il yanvarın 14-də ümummilli lider Heydər Əliyevin iştirakı ilə böyük təntənə ilə açılmış dahi Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin məqbərəsi, Şuşa şəhəri 1992-ci il mayın 8-də işğal edildikdən sonra ermənilər tərəfindən dağıdılmışdı. Avqustun 29-da Şuşada muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı oldu, həmçinin erməni vandalizminə məruz qalmış şairin öz evinin yerindəki büstü də yenidən ucaldıldı (26-27).

Eyni zamanda, Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional musiqi sənətinin banisi, görkəmli bəstəkar, ictimai xadim Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanışlıq, həmçinin dağıdılmış heykəlinin, eləcə də vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış dahi Bülbülün Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılışı oldu (28-29). Eyni gündə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan XX əsrin 70-ci illərində tikilmiş “Qarabağ” mehmanxanasının da fəaliyyəti bərpa olundu.

2021-ci il avqustun 30-da isə 39 il əvvəl – 1982-ci ildə ilk dəfə keçirilmiş Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə yenidən təşkil olundu (30). Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində “Qarabağ Azərbaycan mədəniyyətinin incisidir”, eləcə də bərpa və təmir olunaraq yaradılan Şuşadakı Xalçaçılıq Qalereyasında Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycan Milli Xalça Muzeyinin təqdim etdiyi “Yenidən doğma diyarda. Qarabağın sənət inciləri” sərgiləri ilə tanış oldular (31).

Bununla yanaşı, Vaqif Poeziya Günləri çərçivəsində Şuşada Azərbaycanın qədim tarixini, zəngin mədəniyyətini, gözəl təbiətini, ənənələrini təcəssüm etdirən “Yaddaş. Fotoqrafik tarix” adlı fotosərgidə, Ermənistanın vaxtilə işğal altında saxladığı ərazilərdə mədəni irsimizə, tarixi-memarlıq nümunələrimizə qarşı vandalizm aktları, düşmən tərəfindən tarixi-mədəni obyektlər, dini ocaqların məhv edilərək, bir sıra rayon və şəhərlərin yerlə-yeksan olunduğu, həmçinin işğaldan azad olunmuş rayon və şəhərlərdə ermənilərin törətdiyi vəhşiliklərə, dağıntılara dair fotolar da təqdim edildi. Sərgidə Vətən müharibəsi zamanı Ermənistan tərəfindən mülki əhaliyə qarşı törədilmiş cinayətləri əks etdirən fotolar da nümayiş olundu (31).

2021-ci il sentyabrın 18-də ilk dəfə Şuşada Milli Musiqi Günü çərçivəsində Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti keçirildi (32). Hər il dahi

Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin ad günündə qeyd olunan bu tədbir Şuşada, onun heykəlinin ucaldığı parkda təşkil edildi. Xatırladaq ki, 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada ucaldılmış bəstəkarın heykəli 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilmişdi. Artıq işğaldan azad edilmiş Şuşa şəhərində görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəli Azərbaycanın mədəniyyət paytaxtında öz əvvəlki yerində ucaldıldı.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-8-də Şuşa şəhərinə səfəri zamanı əvvəlcə Füzuli rayonunda Zəfər yolunun açılışında iştirak etdikdən sonra Daşaltı kəndində məscidin, Şuşa Radio-Televiziya yayım qülləsinin, Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməllərini qoydular. Eyni zamanda, Şuşada Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhər Ağa məscidində və Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış olduqdan sonra VIII Qlobal Bakı Forumunun iştirakçıları ilə görüşərək söhbət etdilər və Cıdır düzündə oldular (33).

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxış edərək diqqətə çatdırdı ki, Zəfər Günü bizim bayramımızdır, bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır.

## Şuşa Türk dünyasının ictimai fikir, milli-ideoloji düşüncə mərkəzinə çevrilir

Bununla yanaşı, 2022-ci il martın 31-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçildi (34).

Qeyd etmək lazımdır ki, 2022-ci il aprelin 22-23-də dünyanın 65 ölkəsindən 400-dən çox soydaşımızı bir araya gətirən Dünya Azərbaycanlılarının Zəfər Qurultayının məhz Qarabağın tacı, mədəniyyət paytaxtı Şuşada keçirilməsi böyük rəmzi, həmçinin siyasi məna daşıyır. Qeyd etmək lazımdır ki, Zəfər Qurultayında 230-a yaxın xarici ölkə vətəndaşı olan azərbaycanlı, o cümlədən 36 alim və 36 iş adamı iştirak etmişdir (35).

Prezident İlham Əliyevin Zəfər Qurultayının açılışında çıxışı zamanı qeyd etdiyi kimi, Azərbaycan postmüharibə dövrünə tam hazırdır və öz sülh gündəliyini təqdim edir. Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə biz bir daha xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk. Ermənistanda baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq (35).

Artıq işğaldan azad edilmiş Şuşada keçirilən mühüm tədbirlər – "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri, Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantı, Dünya Azərbaycanlılarının V Qurultayı, "Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq" adlı beynəlxalq forum, Beynəlxalq Kulinariya Festivalı, "Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfrans və digər tədbirlər dünya ictimaiyyəti tərəfindən də böyük maraqla izlənilir.

Bununla yanaşı, Şuşada keçirilən tədbirlər ermənilərin işğal vaxtı törətdikləri vandalizm aktları, xüsusilə tarixi memarlıq abidələrimizin vəhşicəsinə dağıdılması, eləcə də işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri ilə beynəlxalq ictimaiyyətin daha yaxından tanış olması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu mənada, 2022-ci il martın 18-də Şuşa şəhərində keçirilən Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantıda postmünaqişə reallıqlarında Azərbaycanın yeni prioritetləri və imkanları müzakirə obyekti oldu. Bununla yanaşı, aprelin 28-də Şuşada keçirilən "Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq" adlı beynəlxalq forumda dünyanın 20-dən çox ölkəsindən 50-yə yaxın xarici beyin mərkəzlərinin ekspertləri, tədqiqatçı-alimləri və media nümayəndələri iştirak etdilər. Vacib platforma kimi mühüm əhəmiyyət kəsb edən forumda Şuşada quruculuq və bərpa məsələlərinə dair "Şuşa - dirçəlişə gedən yol", postmünaqişə dövrünə dair isə "Əməkdaşlıq, imkanlar və çağırışlar" mövzularında geniş panel müzakirələri keçirildi (36).

2022-ci il mayın 12-15-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının "Şuşa İli"ndə keçirilən, eləcə də Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil olunmuş, həmçinin üç gün davam edən və xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilərin, rəqs kollektivlərinin, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivlərinin qatılması Şuşa şəhərinin işğaldan azad ediləndən sonra festivalın beynəlxalq səviyyədə keçirildiyinin əsas göstəricisi idi (37).

Eyni zamanda, 2022-ci il mayın 19-21-də isə Şuşada "Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfrans keçirildi (38). "Mədəniyyət naminə sülh" qlobal çağırışının əsas istiqaməti post münaqişə dövründə olan ölkələrin işğaldan azad olunmuş ərazilərində mədəni infrastrukturu dirçəltmək, milli-mənəvi dəyərləri yenidən həmin torpaqlara qaytarmaq üçün davamlı sülhün təmin edilməsidir. 2022-ci il iyulun 9-da Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının rəhbərlərinin müşavirəsi, iyulunn 22-də isə Şuşada Milli Mətbuat Günü münasibətilə "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda Beynəlxalq Media Forumu keçirildi (39).

Prezident İlham Əliyevin Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq, 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında imzaladığı Sərəncamda deyilir ki, bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır (40).

2022-ci il, noyabrın 8-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxışında bir daha diqqətə çatdırdı ki, Şuşaya gedən yol 27 sentyabr tarixində başlamışdır: "...Azərbaycan xalqı yaxşı anladı ki, bizim son məqsədimiz, müharibənin son məqsədi Şuşanı işğaldan azad etməkdir. Təkcə ona görə yox ki, Şuşa Qarabağın tacıdır. Ona görə yox ki, Şuşanın strateji yerləşməsi faktiki olaraq onun azad olunmasından sonra müharibənin taleyini həll edirdi. O cümlədən ona görə ki, Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir" (41).

Bu baxımdan, maarifçilik beşiyi və tarixi mədəniyyət mərkəzi Şuşa - Qarabağın tacı, Qafqazın sənət məbədi, Şərqin konservatoriyası, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm xidmətləri olan görkəmli xadimlərin vətəni, doğma şəhər, əziz bir

torpaq, hərbi-strateji əhəmiyyətli qala və müqəddəs abidədir. Azərbaycanın tarixən mədəni mərkəzi olmuiş bu abidəni dünyanın ən gözəl şəhərlərindən birinə çevirməli və göz bəbəyimiz kimi qorumalıyıq ki, bizim Şuşaya, əziz və doğma şəhərə bir daha kimsə yad gözlə belə baxa bilməsin.

2023-cü il aprelin 7-də Bakıda TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu İclasının açılış mərasimi keçirildi. Açılış zamanı TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu dövr üçün sədrlk Türkiyə Respublikasının UNESCO üzrə Milli Komissiyasından Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasına keçdi. Aprelin 8-də isə Şuşa şəhərində TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu iclasının bağlanış mərasimi keçirildi (42). 2023-cü il üçün Türk dünyasının mədəniyyət paytaxtı, Şuşa şəhərində keçirilən iclasın yekun bağlanış mərasimində Maddi və qeyri-maddi mədəni irs, təbii irsin qorunması və təhsil məsələlərini əhatə edən seminarlarda mütəxəssis rəyləri dinlənildikdən sonra TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının Azərbaycanda keçirilən 9-cu İclasının yekun bəyanat qəbul edildi (43).

Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il mayın 10-da, görkəmli dövlət xadimi, dahi şəxsiyyət, Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyi gün Şuşadan geniş təbrik  müraciəti etdi (44).

2023-cü il mayın 12-də Şuşa şəhərində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə “Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı – 2023” ilinin rəsmi açılış mərasimi oldu (45). 2023-cü il oktyabrın 13-14-də I Türk Dünyası Mədəniyyət Forumunun Şuşada keçirilməsi qədim tarixiə malik Azərbaycan şəhərinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, 44 günlük İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan torpaqlarının işğaldan azad edilməsi nəinki Azərbaycan, bütövlükdə Türk dövlətləri və xalqları üçün qürur mənbəyinə çevrilmiş, eyni zamanda, Türk birliyinin daha da güclənməsinə təkan vermişdir.

Bununla yanaşı, 2023-cü il sentyabrın 25-də Qətərin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın qədim Şuşa şəhərinin 2024-cü il üçün ICESCO-nun “İslam dünyasının mədəniyyət paytaxtı” proqramı üzrə namizədliyi irəli sürülmüş və “Şuşa – 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı” elan olunmuşdur (46).

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsindən sonra qazanılan tarixi Qələbə, xüsusilə Azərbaycanın hərbi, diplomatik və informasiya məkanındakı uğurları nəticəsində yaranmış reallıqların beynəlxalq ictimaiyyətə çatdırılmasında yeni yanaşmalar tələb edir. Bu baxımdan İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra Qarabağda, o cümlədən Şuşada keçirilən beynəlxalq tədbirlər müstəsna əhəmiyyət daşıyır. Həmçinin, işğaldan azad edilmiş ərazilərə səfər edən xarici ekspertlərin, tədqiqatçıların, ictimai xadimlərin ermənilər tərəfindən işğal vaxtı törətdilən vandalizm aktlarının, xüsusilə Azərbaycanın tarixi memarlıq abidələrinin vəhşicəsinə dağıdılmasının şahidi olması çox zəruridir. Bununla yanaşı, keçirilən beynəlxalq tədbirlər işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Şuşada aparılan genişmiqyaslı bərpa-quruculuq işləri ilə beynəlxalq ictimaiyyətin daha yaxından tanış olması, həmçinin Azərbaycanın mədəni irsinin dünyaya çatdırılması baxımından da çox mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan, Prezident İlham Əliyevin iştirakı ilə 2023-cü il 21-23 iyul tarixlərində 49 ölkədən 150 xarici qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya

Digər bir məsələ, heyvanlara qarşı qəddar və ya rəhmsiz davranış ilə əlaqədardır. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin "Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar" adlanan 25-ci fəslində 274-cü maddədə qeyd edilir ki, heyvanlarla rəhmsiz davranmaqla onların şikəst və ya tələf edilməsinə görə beş yüz manat məbləğində cərimə edilir (4). Bu məsələnin inzibati xətalar haqqında qanunvericilikdən çıxardılaraq cinayət-hüquqi aspektdə kriminallaşdırılmasının lehinəyik. Əvvəla tərkibin qeyd olunan fəsildə təsbiti obyekt uyğunsuzluğunu yaradır. Belə ki, subyekt tərəfindən hər hansı heyvana qarşı rəhmsiz davranış həyata keçirilirsə, ilk növbədə ictimai mənəviyyat ziyan çəkmiş olur. Təsadüfi deyildir ki, tez-tez sosial şəbəkələrdə bu kimi halların nümayişini görürük və bu zaman, insanların haqlı hiddətinin şahidi oluruq. Eyni zamanda, heyvanlara qarşı qəddarlıq törədən şəxslərin mənəvi keyfiyyətləri müzakirə olunur. Bir çox ölkələrin cinayət qanununda (məs. Qırğızıstan Respublikasının Cinayət Məcəlləsinin "İnsanların ruhi-əxlaqi sağlamlığı əleyhinə cinayətlər" fəslində 163-cü maddə) heyvanlara qarşı qəddar davranılması ilə əlaqədar əməl kriminallaşdırılmışdır. Fikrimizcə, Azərbaycan Respublikasının CM-nin "İctimai mənəviyyat əleyhinə cinayətlər" fəslinə 246-1-ci maddə əlavə olunmaqla heyvanlara qarşı törədilən cinayətlərə hüquqi qiymət verilməlidir.

Azərbaycan Respublikasının CM-nin "İctimai mənəviyyat əleyhinə cinayətlər" fəslinə aşağıdakı məzmunda yeni maddənin əlavə olunmasını təklif edirik:

**Maddə 246-1. Heyvanlarla qəddar rəftar edilməsi**

Heyvanlarla qəddar davranmaqla onlara əzab, işgəncə verilməsi, yaxud şikəst və ya tələf edilməsinə görə

– altı yüz manatdan min manatadək miqdarda cərimə, iki ilədək müddətə islah işləri və ya üç yüz altmış saatadək ictimai işlər ilə cəzalandırılır.

Dövlət öz cəza siyasətini ali qanunverici orqan olan Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi Cinayət Məcəlləsi vasitəsilə təmin edir. Olduqca əhəmiyyətli bir məqam da ondadır ki, cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar yalnız Cinayət Məcəlləsinə daxil olunduqdan sonra tətbiq edilə bilər. Əks halda baş vermiş əməl hətta ictimai əxlaqla pislənilsə belə, onunla cinayət-hüquqi mübarizə aparılması mümkün olmur.

Məqalənin davamı olaraq, cəzanın fərdiləşdirilməsi məqamlarına diqqət yetirək. Cəzanın fərdiləşdirilməsi cinayət qanununun ümumi və xüsusi hissəsində əks olunmuş müddəaların vəhdət şəklində şəxsə tətbiq olunması prosesidir.

İlk növbədə, respublikamızın cinayət və cinayət-prosessual qanunvericiliyində yüngülləşdirici və ağırlaşdırıcı halların adlandırılması ilə əlaqədar fərqli terminologiyadan istifadə olunduğunun şahidi oluruq. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar", Cinayət-Prosessual Məcəllədə isə "məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar" ifadəsindən istifadə olunur (CPM m.28.4.2; 28.4.3; 32.2.4; 289.3.6; 353.2.3 və s.) (3). Nəzərə alsaq ki, həm CM-də, həm də CPM-də istifadə olunan anlayışlar mahiyyət etibarilə eyni mənanı ifadə edirlər, fikrimizcə, burada bu halların ayrı-ayrı terminlərlə ifadə olunması yolverilməzdir. Cinayət hüquq ədəbiyyatında bu məsələ ətrafında kifayət qədər müzakirələr aparılmışdır. Əksər müəlliflərin fikrincə, haqqında danışılan hallar "cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar" kimi adlandırılmalıdır. Fikrimizcə, "cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar" termini daha doğru hesab edilməlidir. Çünki, cəza təyini zamanı nəzərə alınan yüngülləşdirici və ağırlaşdırıcı hallar məsuliy-

yətə deyil, məhz cəzaya təsir göstərir. Məsuliyyət şəxsin öz əməlinə görə dövlət qarşısında cavab vermək vəzifəsidir. Hər hansı bir şəxs cinayəti törətdikdən dərhal sonra onun cinayət məsuliyyəti, başqa sözlə desək, törətdiyi əmələ görə cavab vermək öhdəçiliyi yaranır. Bu mənada, məsuliyyəti deyil, cəzanı yüngülləşdirmək (yaxud ağırlaşdırmaq), yəni onun müddətini və ya ölçülərini yüngülləşdirmək (yaxud ağırlaşdırmaq) mümkündür.

Buna görə də, cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar anlayışı daha düzgündür və fikrimizcə, daha dəqiqdir. Həm də belə adlandırma məhkəmələrin həmin halları bilavasitə cəza təyini zamanı nəzərə almasını müəyyən edir.

Cinayət qanununun təkmilləşdirilməsi işinin daha da səmərəli həyata keçirilməsi üçün xarici ölkələrin cinayət qanunvericiliyinin öyrənilməsi və müqayisəli şəkildə təhlili olduqca əhəmiyyətli bir işdir. Bu baxımdan, xarici ölkələrin cinayət qanunvericiliyinin təhlili əsasında cəzanın fərdiləşdirilməsinin ən əsas göstəricilərindən olan cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar institutu ətrafında mövcud olan elmi biliklərin müqayisəli şəkildə öyrənilməsinə diqqət yetirək. Belə təhlillər respublikamızın qüvvədə olan cinayət qanunvericiliyinin təkmilləşdirilməsi üçün həmin ölkələrin bu sahədəki təcrübəsindən istifadə etməyə kömək edir.

Azərbaycan Respublikasının 1999-cu il 30 dekabr tarixli Cinayət Məcəlləsinin ağırlaşdırıcı hallarla bağlı müddəalarından fərqli cəhətləri olan bəzi xarici ölkələrin Cinayət Məcəllələrinin müvafiq normalarının müqayisəli təhlilinə nəzər yetirək.

Almaniya Federativ Respublikasının 13 noyabr 1998-ci il Cinayət Məcəlləsinin 49-cu paraqrafı cəzanı xüsusilə yüngülləşdirici hallar adlanır. Bu paraqrafda qeyd olunur ki, yüngülləşdirici hallar aşağıdakı formalarda tətbiq oluna bilər:

1. Ömürlük azadlıqdan məhrum etmə cəzası 3 ildən az olmayan müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz oluna bilər.

2. Müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının müddəti, əgər iş üzrə yüngülləşdirici hallar müəyyən olunmuşdursa, cinayət qanununun normasında nəzərdə tutulmuş cəzanın yuxarı həddinin ¾-dən artıq ola bilməz. Bu qayda cərimə növündə cəza nəzərdə tutulmuş sanksiyalar üzrə də nəzərə alınır. Azadlıqdan məhrum etmə cəzasının müddəti sanksiyada əgər 5 və 10 il arasında nəzərdə tutulmuşdursa, 2 ilə qədər azaldıla bilər, 2-3 il azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuş sanksiyalar 6 aya qədər, 1 il azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuş sanksiyalar isə 3 aya qədər azaldıla bilər. Digər hallarda isə, cinayət qanununda nəzərdə tutulmuş həddin ən aşağı dərəcəsi nəzərə alına bilər. Qeyd olunan paraqrafda göstərilir ki, məhkəmə tərəfindən cəzanın yüngülləşməsinə dair birbaşa göstərişin Cinayət Məcəlləsinin konkret maddəsində nəzərdə tutulduğu halda bu normadan istifadə edilir.

Almaniya Cinayət Məcəlləsinin 21-ci paraqrafında az anlaqlılıq vəziyyətində cinayət törətmiş şəxsin cəzasının yüngülləşdirilməsi ilə əlaqədar norma nəzərdə tutulmuşdur. Bu zaman cinayət törətmiş şəxsə cəza ilə yanaşı tibbi xarakterli məcburi tədbirlər də tətbiq olunur.

Almaniya Federativ Respublikasının Cinayət Məcəlləsində ağırlaşdırıcı hallara həsr olunmuş ayrıca maddə nəzərdə tutulmur. Məcəllənin 46-cı paraqrafında cəza təyinetmənin əsasları adlanan maddədə qeyd olunur ki, cəza təyini zamanı məhkəmə törədilmiş əməllə əlaqədar cəzanı həm yüngülləşdirən, həm də ağırlaşdıran halları nəzərə almalıdır (8). Bu zaman aşağıdakı hallara diqqət yetirilir:

– əməli törətməyə səbəb olan motiv və məqsəd;
– törədilmiş əməlin səbəbləri və iradənin ifadə olunma forması;
– vəzifələrin pozulmasının dərəcəsi;
– əməlin törədilmə üsulu və nəticəsinin dərəcəsi;
– cinayət törətmiş şəxsin əvvəlki həyat tərzi, şəxsi həyatı və maddi vəziyyəti, həmçinin

onun cinayət törətməkdən sonrakı davranışları, onun cinayətin nəticələrinin aradan qaldırılması və zərərçəkmişə dəymiş ziyanın ödənilməsi ilə əlaqədar hərəkətləri.

Almaniyanın Cinayət Məcəlləsində cəzanı ağırlaşdıran hallar Məcəllənin Xüsusi hissəsində ayrı-ayrı cinayət tərkiblərində nəzərdə tutulmuş qaydalara uyğun olaraq hesablanır. Bu Məcəllədə o da qeyd olunur ki, cinayətin tərkib əlaməti kimi nəzərdə tutulmuş hallar cəza təyini zamanı təkrarən cəzanı ağırlaşdıran hallar kimi nəzərə alına bilməz. Qeyd olunan müddəa Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 61.3-cü maddəsində də müəyyən olunmuşdur. Fikrimizcə, cəzanı ağırlaşdıran halların ayrıca bir maddədə sistemləşdirilmiş şəkildə nəzərdə tutulması Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müsbət xüsusiyyətlərindən biri kimi vurğulanmalıdır. Məlumdur ki, cinayət qanunvericiliyimizdə cəzanı ağırlaşdıran halların dairəsi qapalı xarakter daşıyır və cinayət qanununda nəzərdə tutulmayan hər hansı bir ağırlaşdırıcı halın məhkəmələr tərəfindən nəzərə alınmasına yol verilmir. Ağırlaşdıran halların bu formada tənzimi onların tətbiqi zamanı sui-istifadə hallarının qarşısını almağa və onların təcrübədə tətbiqini asanlaşdırmağa xidmət edir.

Belarus Respublikasının 2 iyun 1999-cu il tarıxli Cinayət Məcəlləsinin 63-cü və 64-cü maddəsində təhlil edilən hallar məsuliyyəti yüngülləşdirən və agırlaşdıran hallar adı altında təsbit edilir. Fikrimizcə, Belarus Respublikası CM-də yüngülləşdirici və ağırlaşdırıcı halların adı dəqiq ifadə edilməmişdir. Çünki, bu hallar bilavasitə cəza təyini ilə bağlı məsələləri tənzimləyən fəsildə əks olunmasına baxmayaraq, onların adı fəslin məzmununa uyğun gəlmir. Cinayət qanunvericiliyi bu halları məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar termini ilə ifadə etsə də, onları cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar kimi nəzərdə tutur. Bu mənada, yüngülləşdirici və ağırlaşdırıcı halların adlandırılması ilə bağlı respublikamızın cinayət qanunvericiliyinin mövqeyini doğru hesab edirik.

Belarus Respublikasının CM-nin müddəalarına əsasən, cinayətin xüsusi tapşırıq üzrə cinayətkar dəstənin tərkibində olmaqla törədilməsi, cinayətin qoca şəxs tərəfindən törədilməsi Azərbaycan qanunvericiliyindən fərqli məqamlar kimi özünü göstərir (14).

Belarus Cinayət Məcəlləsinin 63.2-ci maddəsinə görə, məhkəmə qanunda göstərilməyən halları cəzanı yüngülləşdirən hallar qismində nəzərə ala bilər. Belarus Respublikasının Cinayət Məcəlləsində 63-cü maddənin 11-ci bəndində təqsirləndirilən şəxsin qoca yaşda olması yüngülləşdirici hal kimi nəzərdə tutulmuşdur. Ancaq qoca yaş kriteriyası altında hansı yaş hüdudundakı şəxslərin nəzərdə tutulması məsələsinə məcəllədə münasibət bildirilməmişdir.

Bu Məcəllənin 64-cü maddəsində əks olunmuş məsuliyyəti ağırlaşdırıcı hallarla bağlı müddəaları demək olar ki, Azərbaycan Respublikasının CM-nin cəzanı ağırlaşdıran hallar adlanan 61-ci maddəsinin müddəaları ilə eynilik təşkil edir. Lakin bir sıra fərqli məqamların olduğunu da görmək mümkündür. Məsələn: xidməti andı pozmaqla cinayətin törədilməsi; qəsdən təhlükəsizlik qaydalarını pozaraq ehtiyatsızlıqdan cinayətin törədilməsi; cinayətin alkoqollu içkilərdən, psixotrop maddələrdən istifadə etməklə törədilməsi; cinayətin əvvəllər cinayət törətmiş şəxs tərəfindən törədilməsi. Belarus Respublikasının CM-də o da qeyd olunur ki, cinayətin alkoqollu içkilərdən, psixotrop maddələrdən istifadə etməklə törədilməsi və cinayətin əvvəllər cinayət törətmiş şəxs tərəfindən törədilməsi halını məhkəmə işin xüsusiyyətlərindən asılı olaraq ağırlaşdırıcı hal kimi nəzərə almaya bilər. Belə bir müddəa Azərbaycan Respublikasının 1960-cı il CM-in 37-ci maddəsi ilə müəyyən olunurdu (7). Hesab olunurdu ki, cinayətin xarakterindən asılı olaraq, məhkəmə sərxoş vəziyyətdə cinayət törədilməsi halını məsuliyyəti ağırlaşdıran hal hesab etməyə bilər. 1960-ci il CM-dən fərqli olaraq 1999-cu il CM-də bir sıra dəyişikliklər nəzərdə tutulur.

Belə ki, 1960-ci il CM-in 37-ci maddəsində əksini tapmış "cinayətin sərxoş halda olan şəxs tərəfindən törədilməsi" ağırlaşdırıcı hal kimi 1999-cu il CM-də qeyd olunmur. "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 25 iyun 2003-cü il tarixli 4 №li Qərarının 2-ci hissəsində qeyd olunur ki, cəzaların tətbiqi məsələsi müzakirə edilərkən cəzanın növü və miqdarının seçilməsinin mühüm əhəmiyyəti vardır. Cəza birinci növbədə təqsirləndirilən şəxsin islah olunmasına xidmət etməlidir. Cəzaların tətbiqi məsələləri müzakirə edilərkən eyni zamanda təqsirli şəxsin ailədə mənfi davranışını təsdiq edən məlumatların olub-olmaması (məsələn, sərxoşluğa qurşanması, ailə üzvlərinə qəddar münasibət göstərməsi, uşaqların tərbiyəsinə mənfi təsir göstərən hərəkətlərə yol verməsi və s.) kimi hallara da diqqət yetirilməlidir (5).

Eyni zamanda, 1999-cu il CM-in 23-cü maddəsində qeyd olunur ki, səbəbindən asılı olmayaraq (alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən və ya psixotrop maddələrdən istifadə nəticəsində) sərxoş halda cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad olunmur (2). Həmçinin, yuxarıda adı çəkilən plenum qərarının 6-ci bəndində bununla bağlı xüsusi qeydlər mövcuddur. Göstərilir ki, cinayətin alkoqollu içkilərdən, narkotik, psixotrop və ya digər güclü təsir edən maddələrdən istifadə nəticəsində törədilməsi qanunla cəzanı ağırlaşdıran hallara aid edilməmişdir. Lakin belə məlumatlar CM-in 58.3-cü maddəsinə uyğun olaraq, müvafiq əsaslar olduqda şəxsiyyəti səciyyələndirən məlumatların qiymətləndirilməsi zamanı nəzərə alına bilər (5).

Təcrübədə müəyyən olunur ki, heç də hər bir halda sərxoşluq ağırlaşdırıcı hal kimi çıxış edə bilməz. Fikrimizcə, düzgün olaraq qanunverici "sərxoş halda cinayət törədilməsi" halını ağırlaşdırıcı hal kimi hesab etmir. Çünki, burada ciddi müəyyən olunmuş istiqamətlilik yoxdur, yəni bu hal heç də hər zaman əməlin və onu törətmiş şəxsin yüksək ictimai təhlükəliliyinin göstəricisi kimi çıxış etmir.

Qazaxıstan Respublikasının CM-də yüngülləşdirici halları tənzim edən müddəalar "cinayət məsuliyyətini və cəzanı yüngülləşdirən hallar" adı altında 53-cü maddədə təsbit edilir. Bu Məcəllənin 53-cü maddəsinin 1-ci hissəsinin "k" bəndində səmimi peşmançılıq yüngülləşdirici halların siyahısında göstərilir. Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin 59.1-ci maddəsində adı çəkilən hal nəzərdə tutulmur. Səmimi peşmançılıq CM-nin 59.1.9-cu maddəsində göstərilən fəal peşmançılıq hərəkətləri ilə bağlı olmalıdır. Fikrimizcə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 59.1.9-cu maddəsinin mövqeyi daha düzgündür.

Qazaxıstan Respublikasının CM-nin 54-cü maddəsində ağırlaşdırıcı hallar "cinayət məsuliyyətini və cəzanı ağırlaşdıran hallar" adı altında nəzərdə tutulmuşdur (11). Bu Cinayət Məcəlləsinin ağırlaşdırıcı halları nəzərdə tutan maddələri MDB ölkələrinin Model Cinayət Məcəlləsinin müddəaları əsasında qurulmuşdur və Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin maddələrinə uyğundur. Belorusiya Respublikasının Cinayət Məcəlləsində olduğu kimi Qazaxıstan Respublikasının Cinayət Məcəlləsində də Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən fərqli olaraq xidməti andı pozmaqla cinayətin törədilməsi; cinayətin alkoqollu içkilərdən, psixotrop maddələrdən istifadə etməklə törədilməsi halları ağırlaşdırıcı hallar kimi göstərilmişdir. Qazaxıstanın CM-də də qeyd olunur ki, işin faktiki hallarından asılı olaraq, məhkəmə sərxoş vəziyyətdə cinayət törədilməsi halını məsuliyyəti ağırlaşdıran hal hesab etməyə bilər.

Qırğızıstan Respublikasının 18 sentyabr 1997-ci il tarixli CM-də təklil edilən hallar məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar kimi təsbit edilir. Məcəllənin 54-cü maddəsində məsuliyyəti yüngülləşdirən 8 hal öz əksini tapmışdır. Bu hallar milli qanunvericiliyimizə uyğunluq təşkil edir

Qırğızıstan Respublikasının CM-də "cəzanı yüngülləşdirən hallar olduqda cəzanın təyin edilməsi" məsələsini nizama salan ayrıca maddə nəzərdə tutulmur. Həmin məsələ cəzanı

yüngülləşdirən halların siyahısını nəzərdə tutan CM-nin 54-cü maddəsi ilə tənzimlənir (12).

Milli qanunvericiliyimizə uyğunluq vardır, lakin Qırğızıstan Respublikasının CM-də qeyd olunur ki, məhkəmə cinayətin xarakterindən asılı olaraq məcəllədə sadalanan hər hansı halı ağırlaşdırıcı hal kimi nəzərə almaya bilər. Həmçinin, cəza təyini zamanı məhkəmə Cinayət Məcəlləsinin qeyd olunan maddəsində əksini tapmayan hər hansı bir ağırlaşdırıcı halı nəzərə ala bilməz. Göründüyü kimi, qeyd olunan maddədə nəzərdə tutulan göstəriş ağırlaşdırıcı halların nəzərə alınması ilə əlaqədar məhkəmələrə müəyyən mənada sərbəstlik verir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən fərqli olaraq Qırğızıstan Respublikasının Cinayət Məcəlləsində ağırlaşdırıcı halların tətbiqi məhkəmənin vəzifəsini deyil, hüququnu təşkil edir. Fikrimizcə, Respublikamızın cinayət qanunundakı göstəriş ədalətlilik prinsipi nöqteyi nəzərindən daha düzgündür. Məcəllədə əksini tapan ağırlaşdırıcı halların nəzərə alınması məhkəmənin hüququnu deyil, vəzifəsini təşkil etməlidir. Çünki, əks mövqe adı çəkilən halların tətbiqi ilə bağlı məhkəmələrdə sui-istifadə hallarının baş verməsinə gətirib çıxara bilər.

Litva Respublikasının 26 sentyabr 2000-ci il Cinayət Məcəlləsində 59-cu, 60-cı və 61-ci maddələr məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar institutuna həsr olunmuşdur. CM-nin 59-cu maddəsində məsuliyyəti yüngülləşdirən hallar qeyd olunmuşdur:

Milli qanunvericiliyimizdən fərqli məqamlar kimi, cinayətin zərərçəkmişin təhrikedici və riskli davranışları nəticəsində törədilməsi; cinayətin ümidsiz vəziyyətdə olan zərərçəkmişin xahişi ilə törədilməsi; cinayətin müqəssir şəxsin iradəsi ziddinə olaraq sərxoş vəziyyətə gətirilməsi nəticəsində törədilməsi; müqəssirin cinayət törətməyə etiraz edə bilməməsi nəticəsində törədilməsini göstərmək olar (13).

Ağırlaşdırıcı hallar qismində isə Litva Respublikasının CM-nin 60-cı maddəsində aşağıdakılar nəzərdə tutulur. Azərbaycan Respublikasının cinayət qanunundan fərqli məqamlara aiddir: cinayətin zərərçəkmiş üzərində sınaq məqsədilə və ya təhqiredici hərəkətlərlə törədilməsi; cinayətin alkoqollu, narkotik və ya insan psixikasına təsir edən digər vasitələrin təsiri nəticəsində törədilməsi.

Litva Respublikasının Cinayət Məcəlləsinin 61-ci maddəsində yüngülləşdirici və ağırlaşdırıcı hallar olduqda cəza təyin edilməsi məsələləri tənzimlənir.

İspaniyanın 1995-ci il Cinayət Məcəlləsinin III və IV fəsli (maddə 22 və 23) məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallara həsr olunmuşdur. Məcəllənin 22-ci maddəsində yüngülləşdirici hallar qismində milli qanunvericiliyimizdən fərqli aşağıdakı hallar nəzərdə tutulur: əgər müqəssir şəxs alkoqollu içkilərin toksikoloji və digər uyuşdurucu narkotik vasitələrin, psixotrop maddələrin təsiri altında cinayət törətmişsə.

İspaniyanın 1995-ci il Cinayət Məcəlləsinin IV fəsli (maddə 23) məsuliyyəti ağırlaşdıran hallara həsr edilmişdir. Azərbaycan Respublikasının cinayət qanunundan fərqli məqamlar aşağıdakılardır:

1) cinayətin xəyanət etməklə törədilməsi;
2) cinayətin aldatmaqla, hakimiyyətdən sui-istifadə etməklə, zərərçəkmiş şəxsin müdafiə olunmasına mane olan şəraitdən, zamandan istifadə etməklə və digər şəxslərin köməyindən istifadə etməklə törədilməsi;
3) cinayətin göstərilmiş etimaddan sui-istifadə etməklə törədilməsi; (10)

Göründüyü kimi, İspaniyanın CM-də yüngülləşdirici və ağırlaşdırıcı halları ifadə edən müddəalar qeyri dəqiq xarakter daşıyır və onların təcrübədə tətbiqi bir sıra çətinliklərə gətirib çıxara bilər. Cəza təyini ilə əlaqədar diqqət çəkən məqamlardan biri də odur ki, İspaniyanın Cinayət Məcəlləsi cinayətə cəhdə görə təyin olunan cəzanı bitmiş cinayətə görə təyin olunan cəzadan 2 dəfə və ya daha az həcmdə nəzərdə tutur. İştirakçılıqla törədilən cinayətlərdə isə digər iştirakçıların məsuliyyəti icraçının məsuliyyətindən iki dəfə az nəzərdə tutulur.

1992-ci il Fransanın yeni CM-də cinayətlərin residivinə görə daha ağır qaydalar

nəzərdə tutulur. Lakin cəzanın yüngülləşdirilməsi ilə əlaqədar məhkəməyə daha geniş səlahiyyətlər verilir. CM-in Xüsusi hissəsinin maddələrinin sanksiyasında əksər hallarda cəzanın son həddinin həcmi (müddəti) əksini tapır ki, bu da yüngülləşdirici halların nəzərə alınmasında hərəkət sərbəstliyinə imkan verir.

Hollandiyanın hazırda qüvvədə olan 3 mart 1881-ci il CM-də yüngülləşdirici və ağırlaşdırıcı halların ümumiyyətlə siyahısı göstərilmir. Hollandıyanın cinayət qanunvericiliyi hər bir konkret halda bu məsələnin həllını məhkəmənin öhdəsinə buraxıb (9).

Xarici ölkələrdən İsrailin Cinayət Qanununda da cəzanı ağırlaşdıran hallara həsr olunmuş ayrıca maddə yoxdur. Cəzanı ağırlaşdıran hallar müxtəlif cinayət tərkiblərində nəzərdə tutulur.

İngiltərənin cinayət qanunvericiliyində cəzanın anlayışı və məqsədi, təyin edilən cəzanın həcminə və müddətinə təsir göstərən hallar haqqında göstərişlər nəzərdə tutulmur. Bu ölkənin hakimləri cəza təyini zamanı geniş hüquqlara malikdirlər. İngiltərənin cinayət qanununda istisna təşkil edən bir sıra cinayətlər mövcuddur ki, onların törədilməsinə görə sanksiyalar qəti müəyyən olunmuşdur. Qanunverici statutlarda konkret cinayətə görə adətən, cəzanın yuxarı həddini müəyyən edir. Qanunda cəzanın aşağı həddi çox az hallarda göstərilir. Qeyd edilir ki, məhkəmə cəza təyini zamanı cinayətlə və təqsirləndirilən şəxslə bağlı olan halları nəzərə almalıdır. Əgər cinayətlə və təqsirləndirilən şəxslə bağlı müstəsna hallar yoxdursa, məhkəmə qanuna istinad etməklə ömürlük azadlıqdan məhrum etmə cəzasını təyin edə bilər. Əgər məhkəmə ömürlük azadlıqdan məhrum etmə cəzasını təyin etmirsə, onda gəldiyi nəticəni və müstəsna halları açıq məhkəmə iclasında göstərməlidir. İngiltərə qanunvericiliyinin bu müddəaları müəyyən hallar mövcud olduqda cəzanın yüngülləşdirilməsinin mümkünlüyünü göstərir.

İtaliyanın Cinayət Məcəlləsinə nəzər salsaq, müəllíminə qarşı, valideyninə qarşı cinayətin törədilməsi hallarının cəzanı ağırlaşdıran halların siyahısında nəzərdə tutulduğunu görürük. Hesab olunur ki, valideyninə və ya müəllíminə qarşı cinayətin törədilməsi təqsirləndirilənin mənəvi-əxlaqi keyfiyyətlərinin aşağı olmasından, onda insanlıq duyğularının olmamasından xəbər verir. Bütün bunlar da onun şəxsiyyətinin ictimai təhlükəliliyini xarakterizə edən xüsusiyyətlər kimi özünü biruzə verir.

Göründüyü kimi, cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar əksər xarici ölkələrin cinayət qanunvericiliyində nəzərdə tutulur. Lakin hər bir konkret ölkənin Cinayət Məcəlləsində onların ifadə forması və tətbiqi xüsusiyyətləri fərqlidir.

Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, xarici ölkələrin cinayət qanunvericiliyinin müqayisəli şəkildə tədqiqatının aparılması ağırlaşdırıcı və yüngülləşdirici halların, daha ümumiləşmiş ifadə etsək cəzanın fərdiləşdirilməsi institutunun hərtərəfli təhlilinə yol açır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. https://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. https://www.e-qanun.az/framework/46947
3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. https://e-qanun.az/framework/46950
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. https://e-qanun.az/framework/46960
5. "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 25 iyun 2003-cü il tarixli 4 №li Qərarı. https://e-qanun.az/framework/16741
6. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin

presedentlərinin tətbiqi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli 5№ li qərarı. https://e-qanun.az/framework/16701
7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (1960). Bakı: Hüquq ədəbiyyatı, 1999, 279 s.
8. Уголовный кодекс Федеративной Республики Германии. Санкт-Петербург: Юридический центр Пресс, 2023, 522 с.
9. Уголовный кодекс Голландии. Санкт-Петербург: Юридический центр Пресс, 2022, 509 с.
10. Уголовный кодекс Испании. Под. ред. док. юрид. наук профессора Н.Ф.Кузнецовой и док. юрид наук профессора Ф.М.Решетникова. М.: Зерцало, 1998, 342 с.
11. Уголовный кодекс Республики Казахстан. Санкт-Петербург: Юридический центр Пресс, 2023, 464 с.
12. Уголовный кодекс Кыргызской Республики. Санкт-Петербург: Юридический центр Пресс, 2021, 350 с.
13. Уголовный кодекс Литовской Республики. Санкт-Петербург: Юридический центр Пресс, 2022, 468 с.
14. Уголовный кодекс Республики Беларусь. СПб.: Юридический центр Пресс, 2021, 298 с.

***Açar sözlər:*** *insan hüquq və azdlıqlarının təmini, məsuliyyətin və cəzanın fərdiləşdirilməsi, cinayət qanununun təkmilləşdirilməsi*

**Samira Babayeva**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Department of Law*
*Ph.D. in Law, Associate Professor*

# INDIVIDUALIZATION OF CRIMINAL RESPONSIBILITY AND PUNISHMENT AS A CRITERION FOR ENSURING HUMAN RIGHTS AND FREEDOMS: A COMPARATIVE LEGAL ANALYSIS

## ABSTRACT

Taking into account all the guiding principles, the application of the provisions of the criminal law to the person who committed the crime directly concludes with the process of individualization of criminal responsibility and punishment, which is the point that acts as a criterion for ensuring human rights and freedoms. The process of individualization is carried out in two directions: individualization of criminal liability and individualization of punishment. While the individualization of criminal liability is carried out by the legislator (Milli Majlis of the Republic of Azerbaijan), the individualization of punishment is carried out by law enforcement bodies and finally ends with the judge's sentencing process. The process of individualization of criminal responsibility is directly related to law-making activity. For this reason, the criminal law is constantly being improved in accordance with the development directions of the existing legal, political, cultural, and economic processes; certain elements that are incompatible with the requirements of the time are removed from the criminal law, and new elements are added. This process is referred to as the institution of criminalization and decriminalization in criminal law.

A crime is a socially dangerous act. Precise regulation of criminal acts in the criminal law ensures the differentiation of criminal responsibility. In our opinion, it is necessary to make a number of changes in the criminal law in connection with the more advanced organization of the case of differentiation of criminal liability.

***Keywords:*** *provision of human rights and freedoms, individualization of responsibility and punishment, improvement of the criminal law*

**Самира Бабаева**

*Доцент кафедры Права Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по праву*

## ИНДИВИДУАЛИЗАЦИЯ УГОЛОВНОЙ ОТВЕТСТВЕННОСТИ И НАКАЗАНИЯ КАК КРИТЕРИЙ ОБЕСПЕЧЕНИЯ ПРАВ И СВОБОД ЧЕЛОВЕКА: СРАВНИТЕЛЬНО-ПРАВОВОЙ АНАЛИЗ

### РЕЗЮМЕ

С учетом всех руководящих принципов применение положений уголовного закона к лицу, совершившему преступление, непосредственно завершается процессом индивидуализации уголовной ответственности и наказания, что является моментом, выступающим критерием обеспечения прав и свобод человека. Процесс индивидуализации осуществляется по двум направлениям: индивидуализация уголовной ответственности и индивидуализация наказания. Если индивидуализация уголовной ответственности осуществляется законодателем (Милли Меджлисом Азербайджанской Республики), то индивидуализация наказания осуществляется правоохранительными органами и завершается вынесением приговора судьей. По этой причине уголовное право постоянно совершенствуется в соответствии с направлениями развития существующих правовых, политических, культурных и экономических процессов, из уголовного закона удаляются отдельные элементы, несовместимые с требованиями времени, добавляются новые элементы. Этот процесс именуется институтом криминализации и декриминализации в уголовном праве. Преступление – это общественно опасное деяние. Четкая регламентация преступных деяний в уголовном законе обеспечивает дифференциацию уголовной ответственности. На наш взгляд, необходимо внести ряд изменений в уголовное законодательство в связи с более совершенной организацией дела о дифференциации уголовной ответственности.

***Ключевые слова:*** *обеспечение прав и свобод человека, индивидуализация ответственности и наказания, совершенствование уголовного законодательства*

DOI: https://doi.org/10.30546/2309-1347.2024.3.87.223

# RƏQƏMSAL DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR
# DIGITAL PUBLIC ADMINISTRATION AND INTELLIGENT SYSTEMS

UOT 354

**ELÇİN ABASOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət idarəçiliyində informasiya texnologiyaları kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent**

*e-mail: abasov_e@mail.ru*

**ƏDALƏT MAHMUDOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət idarəçiliyində informasiya texnologiyaları kafedrasının müəllimi**

*e-mail: adalet_mahmudov@mail.ru*

## DÖVLƏT İNFORMASİYA SİSTEMİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ PROBLEMLƏRİ

Rəqəmsallaşma və qloballaşma prosesləri dövlətin informasiya təhlükəsizliyi problemlərini aktuallaşdırır. Məlumatların həcminin inanılmaz sürətlə artdığı vahid qlobal informasiya məkanı olan internet, innovasiyalar dünyasında təhdidlərə qarşı durmaq və daxili siyasi sabitliyi qorumaq üçün hər il onların massivlərinə nəzarət etmək və idarə etmək getdikcə çətinləşir, və ölkədəki sosial vəziyyət hazırkı şəraitdə düşmən müdaxiləsindən qoruyan texnologiyaların inkişafı qəti əhəmiyyət kəsb edir. Beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əsas narahatlıq informasiya-kommunikasiya texnologiyalarından beynəlxalq sabitliyin və təhlükəsizliyin təmin edilməsi vəzifələrinə uyğun gəlməyən məqsədlər üçün istifadənin mümkünlüyü ilə bağlıdır.

Beynəlxalq elmi ictimaiyyət hələ də “dövlətin informasiya təhlükəsizliyi” termininin istifadəsində uzun illər təcrübəyə baxmayaraq, bu konsepsiyanın mahiyyəti haqqında ümumi bir anlayışa gəlməmişdir. İki əsas yanaşma var: birincisi, informasiya təhlükəsizliyi informasiya-texniki və informasiya-psixoloji aspektlər kimi başa düşülür, xüsusən də Rusiya Federasiyası, Çin və bir sıra digər ölkələrdə onlar aşağıdakı tərifə əməl edirlər: “dövlətin informasiya təhlükəsizliyi. şəxsiyyətin, cəmiyyətin və dövlətin, onların maraqlarının informasiya məkanında təhdidlərdən, dağıdıcı və digər neqativ təsirlərdən təhlükəsizliyinin vəziyyətidir”.

Bununla belə, Birləşmiş Ştatlarda bu terminin təfsiri yalnız texnoloji aspektlərlə məhdudlaşır və “informasiya və informasiya

sistemlərinin və şəbəkələrinin bütövlüyünü təmin etmək məqsədilə icazəsiz daxil olmaqdan, istifadədən, açıqlamadan, zədələnmədən, dəyişdirilməkdən və ya məhv olmaqdan qorunması" kimi müəyyən edilir".

Dövlət üçün informasiya, ilk növbədə, müxtəlif sahələrin fəaliyyətini müəyyən edən, indiki şəraitdə aşkarlıq statusu almış, aşağıdakı sahələrdən hər hansı hadisənin ictimailəşdirilməli olduğu strateji resursdur:

- **iqtisadi sfera** – müasir iqtisadiyyat təkcə faktiki istehsalın səviyyəsi ilə deyil, həm də ölkənin dünya ticarət arenasında nüfuzu, daxili iqtisadi institutlara inamı ilə xarakterizə olunur, bu, bir növ marketinqdir, burada obyekt dövlət iqtisadiyyatıdır. brend kimi ("made in");
- **beynəlxalq siyasət sferası** – beynəlxalq münasibətlər fiziki qarşıdurmadan informasiya mübarizəsinə keçib, burada diplomatiya və media əsas rol oynayır;
- **KİV sferası** – konkret məsələyə müsbət nöqteyi-nəzəri formalaşdırmaq və ya siyasi institutlara birbaşa təzyiq göstərmək üçün mediadan istifadə;
- **daxili siyasət sferası** – dövlət hakimiyyətinin seçilməsi informasiya qarşıdurması üçün ərazidir, burada informasiya siyasi karyeranı yüksəldə və ya məhv edə bilər, həmçinin ölkədə siyasi vəziyyətin trayektoriyasını ümumilikdə dəyişdirə bilər;
- **müdafiə sektoru** – innovativ və yüksək texnoloji sənaye kimi o, birbaşa məlumatların bütövlüyü, məhdudiyyətləri, məxfiliyi və təhlükəsizliyindən, həmçinin informasiya axınlarına nəzarətdən asılıdır.

Texnologiyanın və proqram təminatının inkişafı, demək olar ki, bütün məlumatların rəqəmsal daşıyıcılarda saxlanması, çoxlu kommunikasiya kanallarının və vasitələrinin yaranması, informasiyanın ötürülməsinin yüksək sürəti, onun qeyri-məhdudluğu, idarəolunmazlığı, hər yerdə olması, şərhlərin dəyişkənliyi, həmçinin azalma keyfiyyət və etibarlılıq baxımından dövlətin sistemləri və maraqları üçün bir çox təhlükələr yaradır. Dağıdıcı hərəkətlərin subyekti kimi digər dövlətlər, kəşfiyyat xidmətləri, biznes strukturları, insayderlər, cinayətkar qruplar, casuslar, fəallar, spamerlər, hakerlər və terrorçular çıxış edə bilər.

İnformasiya təhlükəsizliyinə təhdidlər ölkənin informasiya infrastrukturunun obyektlərinə, yəni dövlətin mühüm sahələrinin funksionallığını dəstəkləyən proqram təminatına, texniki vasitələrinə, şəbəkə və informasiya komponentlərinə: İnternet, informasiya məkanı, telekommunikasiya şəbəkələri, kompüter sistemlər və proqramlar, prosessorlar və idarəetmə sistemləri zəifliyinə görə.

Müxtəlif mənbələrdən alınan məlumatları ümumiləşdirərək, dövlətin informasiya təhlükəsizliyinə əsas təhdidləri qeyd edəcəyik: informasiya müharibələri, kiberhücumlar, kibercasusluq, kibercinayətkarlıq, kiberterrorizm, məxfi məlumatların yayılması (insayderlərin hərəkətləri):

- **informasiya müharibələri** – məqsədi informasiya üstünlüyü yaratmaq, informasiya proseslərinə, yerli KİV-lərin fəaliyyətinə, sosial şəbəkələrdə psixoloji kampaniyalara müdaxilə etməklə, əlverişli ictimai rəyin formalaşdırılması yolu ilə düşmənə təsir göstərmək olan hərəkətlər, informasiya əlamətlərinin kütlələrə təsir etdiyi, o cümlədən müasir kommunikasiya metodlarının köməyi ilə;
- **kiberhücumlar** – informasiya və ya informasiya texnologiyaları infrastrukturuna fiziki təsirə (məhv, təhrif, saxtalaşdırma) yönəlmiş hücum xarakterli xüsusi əməliyyatlardır ki, bunlar şəbəkələrin bağlanması və "girişin rədd edilməsi"ndən tutmuş əsas sistemlərə və şəbəkələrə hücumlara, onların aradan qaldırılmasına qədər dəyişə bilər. binanın (məsələn, Britaniya Parlamentinə kiberhücum, məqsədi parlamentarilərin və işçilərin elektron poçtlarına daxil olmaq idi);
- **kibercasusluq** – hərbi, müdafiə, diplomatik və ya iqtisadi məlumatlara çıxış əldə etmək üçün proqramlara, sistemlərə və

**Cədvəl**

**Dövlətin informasiya təhlükəsizliyinə təhdidlər**

| Təhdidlər | Təhdid edənlər | Motivlər | Hücum obyektləri | Üsulları |
|---|---|---|---|---|
| İnformasiya müharibələri | Dövlətlər | İnformasiya üstünlüyü və proseslərinə müdaxilə, hərbi - siyasi məqsədlər | Media, İnternet, sosial şəbəkələr, e-poçt | Gizli, konseptual kənarlaşma, diqqəti yayındırma, dezinformasiya "feyk(yanlış) xəbər", şayiələr, spam |
| Kiberhücumlar və Kibercasusluq | Dövlətlər, kəşfiyyat agentlikləri, casuslar, aktivistlər, insayderlər, spamerlər, hakerlər göndərənlər, hakerlər | Hərbi, müdafiə, diplomatik və ya iqtisadi məlumatlara, ideologiyaya, şəxsi üstünlüklərə çıxış | Dövlət, korporativ və özəl informasiya şəbəkələri və sistemləri, e-poçt | DoS hücumları, viruslar, fişinq, məntiq bombaları, troyanlar. |
| Kibercinayətkarlıq | Dövlətlər, kəşfiyyat agentlikləri, casuslar, fəallar, insayderlər, spamerlər, hakerlər, kommersiya strukturları | Siyasi, şəxsi və maliyyə mənfəəti əldə etmək, şəxsi məlumatların və əqli mülkiyyətin oğurlanması və fırıldaqçılıq | Dövlət, korporativ və özəl informasiya şəbəkələri və sistemləri, e-poçt | DoS hücumları, viruslar, qurdlar, kəsicilər, fişinq, vişinq, sniffer, məntiq bombaları, troyanlar, spam, botnetlər |
| Kiberterrorizm | Terror qrupları, ayrı-ayrı şəxslər | Siyasi və ya sosial dəyişikliklər, ekstremist davranışın təbliği, işə götürülmə | Hökumətin informasiya proqramları və sistemləri, İnternet, e-poçt | DoS hücumları, viruslar, qurdlar, ələ keçirənlər, fişinq, bombalar, troyanlar, uzaqdan idarəetmə, məlumatsızlıq |
| Məxfi məlumatların yayılması | İnsayderlər | Öz motivləri və inancları, məcburiyyət, işə götürmə | Dövlət, korporativ və özəl məlumat şəbəkələri, e-poçt, poçt | Sizin çıxışınız olan məxfi məlumatların toplusu |

kompüter şəbəkələrinə təsir göstərmək (məsələn, Stuxnet kompüter virusundan istifadə etməklə İranda minə yaxın nüvə sentrifuqunun sıradan çıxarılması);

- **kibercinayətkarlıq** – şəxsi məlumatların, əqli mülkiyyətin oğurlanması və fırıldaqçılıq da daxil olmaqla şəxsi və maliyyə mənfəəti (mənfəəti) əldə etmək məqsədilə kompüter sistemlərindən istifadə ilə bağlı qanunsuz hərəkətlər (məsələn, 150 ölkəyə təsir edən WannaCry virusu, o cümlədən və Şimali Koreya kəşfiyyatının kiber bölməsi tərəfindən yaradıldığı iddia edilən Rusiya Federasiyası);
- **kiberterrorizm** – (hökuməti və ya vətəndaşları) qorxutmaq və müəyyən siyasi hərəkətləri etməyə məcbur etmək məqsədi daşıyan kompüter hücumu (məsələn, qadağan olunmuş terrorçu qruplar öz qanunsuz hərəkətlərində, o cümlədən hücumlar və ekstremist ideyaların təbliği üçün internetdən fəal istifadə edirlər);




**Şəkil 1.** Texnologiyanın və proqram təminatının inkişafı

- **məxfi məlumatların yayılması** – məxfi məlumatlara çıxış imkanlarından istifadə edən və onları əks tərəfə, hakerlərə, terrorçulara və ya digər şəxslərə öz motivləri və inancları əsasında ötürən insayderlərin hərəkətləri (məsələn, hərbi personal tərəfindən verilən məxfi məlumatlarının sızması).

Belə ki, informasiya mühitində dağıdıcı hərəkətlərin həyata keçirilməsi milli təhlükəsizliyə, suverenliyə və müstəqilliyə təhdid yaradır, sabitliyə və daxili asayişə xələl gətirir, vahid informasiya-hüquqi məkanın bulanıqlığı yaradır, media və informasiya agentliklərini daxili bazardan sıxışdırır və tez-tez informasiya-hüquqi məkana çevrilir. Ksenofobiyanın səbəbi, müstəsna millət ideyalarının təbliği, dözümsüzlük və ekstremist davranışın təbliği. Aydınlıq üçün dövlətin informasiya təhlükəsizliyinə təhdidləri cədvəl 1-də təqdim edirik.

Qeyd etmək lazımdır ki, informasiya təhlükəsizliyi müvafiq dövlət idarə və idarələrinin peşəkar fəaliyyətini nəzərdə tutur, xüsusən də ölkəmizdə bu, Təhlükəsizlik Şurası, Təhlükəsizlik Xidməti və onun xidmət strukturları tərəfindən həyata keçirilir. Bundan əlavə, ölkənin milli təhlükəsizliyini təmin etmək üçün nəzərdə tutulmuş normativ sənədlər.

Beləliklə, dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətləri aşağıdakılardır:

- informasiya infrastrukturunun etibarlı fəaliyyətinin təşkili;
- informasiya təhlükəsizliyinə zərər vuran qanunsuz hərəkətlərin qarşısının alınması;
- dövlətin informasiya infrastrukturu obyektlərinin təhlükəsizlik səviyyəsinin artırılması;
- hökumət siyasəti və ölkədə baş verən hadisələr haqqında rəsmi məlumatların daxili və xarici ictimaiyyətə çatdırılması yolu ilə informasiya sahəsinin təhlükəsizlik səviyyəsinin artırılması;
- innovativ və informasiya texnologiyaları sənayesinin, eləcə də elektronika sənayesinin inkişafı, xarici texnologiyalardan asılılığın aradan qaldırılması;
- beynəlxalq hüquqi mexanizmlərin və informasiya təhlükəsizliyi sisteminin formalaşmasına köməklik və s.

Beləliklə, dövlətin informasiya təhlükəsizliyi onun maraqlarının, müstəqilliyinin və ərazi bütövlüyünün informasiya məkanında sabitliyin pozulmasından – informasiya-texniki və psixoloji xarakterli təhlükələrdən qorunmasıdır. Burada əsas qanunsuz hərəkətlər informasiya müharibəsi, kiberhücumlar: casusluq, cinayətkarlıq, terrorizm və məxfi məlumatların yayılmasıdır.

**Ədəbiyyat:**


1. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin nümunəvi əsasnaməsi. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli fərmanı.
2. Арчибальд, Р. Управление высокотехнологичными программами и проектами / Р. Арчибальд. – Москва: ДМК Пресс, 2017.
3. Камолов, С. Г. Информационные технологии для государственных служащих / С. Г. Камолов, П. В. Артемова – Москва:МГИМО-Университет, 2017.
4. Камолов С.Г. Цифровое государственное управление. Москва – Юрайт – 2024.
5. Василенко, И. «Умный город» XXl века: возможности и риски смарт-технологий в городском ребрендинге / И.Василиенко, Е. Василиенко, А.Люлько; под редакцией И.Василенко, - Москва: Международные отношения, 2018.


***Açar sözlər:*** *idarəetmə, informasiya sistemləri, informasiya təhlükəsizliyi, avtomatlaşdırma, proqram təminatının, elmi-texniki tərəqqi (ETT)*

**Elchin Abasov**
*Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Head of the Department of Information Technologies,*
*Associate Professor, Ph.D. in Economics*

**Adalet Mahmudov**
*Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Department of Information Technologies, Teacher*

## PROVIDING INFORMATION SECURITY OF THE STATE


## ABSTRACT

The Internet, a single global information space in which data volumes are growing at an incredible pace, is becoming increasingly difficult every year to control and manage its arrays in order to counter threats in the world of innovation and maintain internal political stability.

Despite many years of experience in using the term "state information security," the international scientific community has not yet come to a common understanding of the essence of this concept. There are two main approaches: firstly, information security is understood as information-technical and information-psychological aspects, especially in Russia, China and a number of other countries they follow the following definition: "information security of the state." this is a state of protection of the individual, society and state, their interests from threats, destructive and other negative influences in the information space."

The development of technology and software, the storage of almost all information on digital media, the emergence of many channels and means of communication, the high speed of information transfer, its unlimited, uncontrolled and ubiquity features, variability of interpretations, as well as a decrease in the quality and reliability possess numerous threats for government systems and their interests. The subjects of destructive actions can be other states, intelligence services, business structures, insiders, criminal groups, spies, activists, spammers, hackers and terrorists.


***Keywords:*** *management, information systems, information security, automation, software, scientific and technological progress (STP)*

**Эльчин Абасов**

*Заведующий кафедрой Информационных технологий в государственном управлении Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии, доцент*

**Адалят Махмудов**

*Преподаватель кафедры Информационных технологий в государственном управлении Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ОБЕСПЕЧЕНИЕ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ ГОСУДАРСТВА

### РЕЗЮМЕ

Интернет, единое глобальное информационное пространство, в котором объемы данных растут невероятными темпами, с каждым годом становится все сложнее контролировать и управлять своими массивами в целях противодействия угрозам в мире инноваций.

Несмотря на многолетний опыт использования термина «информационная безопасность государства», международное научное сообщество до сих пор не пришло к единому пониманию сущности этого понятия. Существует два основных подхода: во-первых, под информационной безопасностью понимают информационно-технический и информационно-психологический аспекты, особенно в России, Китае и ряде других стран следуют такому определению, что «информационная безопасность государства» – это состояние защищенности личности, общества и государства, их интересов от угроз, деструктивных и других негативных воздействий в информационном пространстве».

Развитие технологий и программного обеспечения, хранение практически всей информации на цифровых носителях, появление множества каналов и средств связи, высокая скорость передачи информации, ее неограниченная, неконтролируемая, повсеместность, вариативность интерпретаций, а также снижение качества и надежность государственных систем и представляет множество угроз их интересам. Субъектами деструктивных действий могут выступать другие государства, спецслужбы, бизнес-структуры, инсайдеры, преступные группировки, шпионы, активисты, спамеры, хакеры и террористы.

***Ключевые слова:*** *управление, информационные системы, информационная безопасность, автоматизация, программное обеспечение, научно-технический прогресс (НТП)*

DOI: https://doi.org/10.30546/2309-1347.2024.3.87.226

# RƏQƏMSAL DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR
# DIGITAL PUBLIC ADMINISTRATION AND INTELLIGENT SYSTEMS

UOT 354

**ŞƏFƏQ MUSTAFAYEVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının
Dövlət İdarəçiliyində İnformasiya
Texnologiyaları kafedrasının baş müəllimi**

*e-mail: shemus26@yandex.ru*

**AYDIN KAZIMZADƏ**

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin
İnformasiya texnologiyaları və sistemləri kafedrasının dosenti,
texnika üzrə fəlsəfə doktoru**

*e-mail: aydin91@mail.ru*

## STRUKTURLAŞDIRILMIŞ VƏ STRUKTURLAŞDIRILMAMIŞ VERİLƏNLƏR BAZALARININ SƏCİYYƏVİ MÜQAYİSƏSİ

### Giriş

Müasir dövrdə insan fəaliyyətinin müxtəlif sahələrində informasiya sistemlərindən istifadə olunur. Bu sistemlər saxlanılma, ilkin emal, yenilənmə, silinmə, hesablama tələb olunan böyük həcmli informasiya ilə işləyir. Müəssisə və təşkilatların informasiya sistemlərində böyük və müxtəlif formatlı informasiya massivini saxlamaq, idarə etmək üçün məhz verilənlər bazasından istifadə edilir. Verilənlər bazası strukturuna görə strukturlaşdırılmış (SQL – Structured Query Language – Strukturlaşdırılmış sorğu dili) və strukturlaşdırılmamış (NoSQL – Not only Structured Query Language – Strukturlaşdırılmamış sorğu dili) olmaqla iki əsas sinifdə birləşir.

SQL verilənlər bazaları məlumatların təkrarlanmasının azaldılmasına və məlumatların bütövlüyünün təmin edilməsinə diqqət yetirməklə hazırlanmışdır. Bunu yerinə yetirmək üçün məlumatlar cədvəllər arasında təşkil edilir və bu cədvəllər arasında əlaqələr olur. Ənənəvi olaraq bu növ bazada həcmi o qədər də böyük olmayan və vahid struktura malik olan verilənlərin saxlanılması nəzərdə tutulmuşdur.

IBM-in araşdırmasına görə, hər gün 2,5 kvintilyon baytdan çox məlumat yaradılır. Və bütün məlumatlar strukturlaşdırılmış verilənlər bazalarına nizamlı şəkildə uyğun gələn strukturlaşdırılmış məlumat deyil. Əvəzində əvvəlcədən müəyyən edilmiş sxemə əməl etməyən yarı strukturlu və ya polimorfik məlumatlar getdikcə daha çox yayılmışdır. Ənənəvi SQL verilənlər bazaları belə böyük həcmləri və məlumat növlərini idarə etmək üçün uyğun deyildi. Beləliklə, məlumatları idarə etmək üçün fərqli bir üsula ehtiyac yarandı. Bu üsul

da strukturlu bir sxemə malik olmayan böyük həcmli verilənləri idarə etmək üçün başqa növ SQL olmayan – NoSQL yaradıldı. Yaşadığımız aləmin bir hissəsi olan hər hansı predmet sahəsinə aid verilənlər bazasının qurulması bir layihə olaraq qarşıya qoyulduqda bu struktur modellərindən hansının daha uyğun olub-olmadığını başa düşmək üçün onların fərqlərini, üstünlüklərini və mənfi cəhətlərini seçməliyik.

### Strukturlaşdırılmış verilənlər bazası – SQL

Strukturlaşdırılmış və ya relyasiyalı verilənlər bazasını idarə etmək üçün standart olaraq SQL(Structured Query Language – Strukturlaşdırılmış sorğu dili) dilindən istifadə olunur. Deməli, bu dil əlaqəli verilənlər bazasını idarə etmək və manipulyasiya əməliyyatları aparmaq üçün istifadə edilən strukturlaşdırılmış sorğu dilidir. Bəzən strukturlaşdırılmış verilənlər bazasını elə SQL verilənlər bazası kimi də adlandırırlar. Strukturlaşdırılmış xarakterli məlumatların, məsələn, ixtisas, qrup, tələbə kimi məlumatların saxlanması və idarə edilməsi lazım olduğu yerlərdə istifadə olunur.

SQL verilənlər bazalarını etiketləri və aralarındakı əlaqələri olan qutularda saxlanılan böyük fayl anbarı ilə müqayisə etmək olar. Hər qutuda xüsusi məlumatlar olan ayrıca fayl var. İstənilən fayla daxil olmaq üçün məlumatın tam təsvirini əldə etmək üçün onun saxlandığı qutunun etiketini və digər qutularla əlaqəni bilmək lazımdır. Bu, SQL verilənlər bazasında cədvəllər və əlaqələrlə işləməyə bənzəyir. Burada hər bir cədvəl xüsusi sorğulardan istifadə etməklə asanlıqla tapıla və birləşdirilə bilən müəyyən edilmiş məlumatı olan ayrıca qutudur. Eyni zamanda hər biri qutunun da birmənalı olaraq bir dənə açarı - ilkin açarı (Primary key) olmalıdır. Qutuları bir-birilə əlaqələndirmək üçün də növbəti bir açara – xarici açara (Foreign key) ehtiyac var. Deməli, əlaqələndirməni həyata keçirmək üçün əsas qutuda ilkin açar kimi təyin olunan obyekt digər qutuda xarici açar rolu oynayacaq.

Layihələndirilən verilənlər bazasının cədvəlləri arasında əlaqə qurulduqdan sonra məqsədyönlü olaraq uyğun tətbiqdən istifadə edərək əlavə obyektlər, məlumatların manipulyasiyası, tranzaksiya prosesləri, məlumatların təhlükəsizliyinin təmin olunması və s. əməliyyatlar aparılır [1].

### Strukturlaşdırılmamış verilənlər bazası – NoSQL

Strukturlaşdırılmamış (müxtəlif strukturlu) və ya natamam strukturlaşdırılmış verilənlər bazasında məlumatları saxlamaq və idarə etmək üçün NoSQL (Not only Structured Query Language – Yalnız SQL deyil) dilinə əsaslanan qeyri-relyasiyalı verilənlər bazası modellərindən istifadə olunur. Bu modellər sənəd, açar-dəyər, sütunlu və qrafik verilənlər bazalarına istinad edən geniş bir termindir. NoSQL verilənlər bazası strukturlaşdırılmamış müxtəlif xarakterli məlumatların, məsələn, böyük həcmdə mətn məlumatlarının, şəkillərin, audioların və videoların saxlanması lazım olduqda istifadə olunur.

NoSQL, adından da göründüyü kimi, sorğuları təqdim etmək üçün Strukturlaşdırılmış Sorğu Dilindən (SQL) istifadə etməyən verilənlər bazası sistemidir. NoSQL verilənlər bazalarından istifadə etməklə strukturlaşdırılmamış böyük həcmli verilənləri saxlamaq olar.

Значительное место в статье уделяется перспективам дальнейшего развития туристического комплекса в Азербайджанской Республике предлагаются конкретные мероприятия и направления по его будущему развитию.

Сегодня развитие туризма в Азербайджане является приоритетной отраслью в становлении ненефтяного сектора республики.

***Ключевые слова:*** *туризм, региональный туризм, политика туризма, стратегия туризма, туристические отрасли*

DOI: https://doi.org/10.30546/2309-1347.2024.3.87.229

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L R E L A T I O N S

UOT 327; 930.22

**AYTAJ BAGHIRLI**

**The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of International Relations and Foreign Policy, Ph.D. Student**

*e-mail: b.aytach@gmail.com*

# POSITION OF INTERNATIONAL ORGANIZATIONS IN AZERBAIJAN'S FOREIGN POLICY

## Introduction

International entities wield considerable influence in molding the foreign policy goals of Azerbaijan, facilitating diplomatic interactions, and nurturing socio-economic progress. This part of our research undertakes an exploration of the pivotal role international organizations assume in Azerbaijan's foreign affairs, scrutinizing essential partnerships, diplomatic endeavors, and socio-economic collaborations. Through a comprehensive analysis, it aims to elucidate the multifaceted contributions of international organizations to Azerbaijan's foreign relations landscape.

The relationship between the European Union (EU) and Azerbaijan stands as a testament to the evolving dynamics of regional cooperation and shared interests. Anchored in a robust framework of partnership and cooperation, their engagement spans various spheres, including trade, investment, policy alignment, and peace initiatives. The cornerstone of EU-Azerbaijan relations is the Partnership and Cooperation Agreement (PCA), which has been in effect since 1999 [5]. This agreement serves as the foundation for bilateral cooperation, encompassing a wide array of areas ranging from trade and investment to legislative harmonization and cultural exchange. Over the years, the PCA has facilitated a deeper engagement between the EU and Azerbaijan, fostering mutual understanding and collaboration.

Economic ties form a significant pillar of EU-Azerbaijan relations, with the EU emerging as Azerbaijan's foremost trading partner and largest source of investment. The EU accounts for a substantial share of Azerbaijan's exports and imports, underscoring the importance of economic integration in strengthening bilateral ties. Moreover, the substantial influx of EU investment, amounting to nearly €7 billion, underscores the mutual commitment to fostering economic prosperity and sustainable development [6].

Besides, the partnership between NATO and the Republic of Azerbaijan serves as a cornerstone in fostering regional security, stability, and cooperation. Anchored within the Partnership for Peace (PfP) program, their collaboration spans various strategic domains, including security cooperation, defense reforms, counterterrorism efforts, and regional conflict resolution. The Partnership for Peace program, initiated by NATO, provides a framework for cooperation between NATO member states and non-member countries. Since joining PfP in 1994, Azerbaijan has actively participated in this initiative, underscoring its commitment to promoting peace and security in Europe and beyond. PfP serves as a platform for dialogue, collaboration, and capacity-building, facilitating mutual understanding and trust between NATO and Azerbaijan [11]. The table below shows cooperation between the two sides in strategic areas.

Apart form NATO, since its accession to the Organization of the Petroleum Exporting Countries (OPEC) in 1992, Azerbaijan has emerged as a significant player in the global energy arena. Its membership in OPEC signifies a strategic partnership aimed at managing oil production, stabilizing prices, and addressing energy-related challenges. Azerbaijan's entry into OPEC marked a pivotal moment in its energy diplomacy. As a full member, Azerbaijan aligns itself with the objectives of OPEC, collaborating with other oil-producing nations to ensure a stable and

**Table**

**Strategic Partnership Areas Between NATO and Azerbaijan**

| **Strategic Partnership Areas** | |
|---|---|
| Security Cooperation | Azerbaijan's strategic partnership with NATO involves robust dialogue and joint activities aimed at enhancing security. Through information sharing, participation in exercises, and cooperation in crisis management, Azerbaijan strengthens its security capabilities and fosters interoperability with NATO forces. |
| Defense Reforms | NATO's assistance and expertise support Azerbaijan in modernizing its defense structures, improving military capabilities, and aligning with Euro-Atlantic standards. These defense reforms contribute to bolstering Azerbaijan's armed forces, enhancing national security, and promoting regional stability. |
| Counterterrorism Efforts | Azerbaijan collaborates closely with NATO in countering terrorism and addressing security threats. Joint efforts encompass intelligence sharing, capacity building, and conducting joint training exercises to enhance counterterrorism capabilities and resilience. |

Source: Cooperation with NATO [4].

sustainable supply of oil while maintaining fair prices for both producers and consumers. This membership underscores Azerbaijan's commitment to collective action in managing global oil markets and promoting stability. Azerbaijan actively engages in discussions within OPEC to coordinate oil production policies. Participating in OPEC meetings provides Azerbaijan with a platform to contribute to decisions regarding production quotas, aiming to prevent market disruptions caused by oversupply or undersupply situations. By adhering to agreed-upon production limits, Azerbaijan plays a crucial role in maintaining market equilibrium [10].

OPEC's actions have a direct impact on oil prices and market stability, with repercussions felt globally. Azerbaijan's collaboration with OPEC in managing production levels contributes to stabilizing prices, minimizing volatility, and promoting a balanced market. This stability is essential for ensuring the economic well-being of nations, industries, and consumers reliant on oil. OPEC membership enhances Azerbaijan's energy security by facilitating cooperation with other oil-exporting countries. Through collaboration within OPEC, Azerbaijan ensures a reliable supply of oil for its domestic needs and export markets. Moreover, the organization fosters cooperation among member states, enabling them to share best practices, technology, and expertise in the energy sector, thereby bolstering Azerbaijan's energy resilience.

Azerbaijan's participation in OPEC amplifies its influence on global energy policies and strategies. As a member, Azerbaijan engages in diplomatic negotiations, advocates for its interests, and contributes to shaping international energy agendas. OPEC provides Azerbaijan with a platform to assert its voice on market dynamics, investment opportunities, and sustainable energy practices, enhancing its diplomatic standing in the global arena [3].

Amidst the complexities of OPEC-Azerbaijan relations, Azerbaijan is poised to demonstrate its unwavering commitment to sustainable development and environmental stewardship by hosting the 29th Conference of the Parties (COP29). This milestone event, scheduled for November 2024, underscores Azerbaijan's determination to play a leading role in addressing global environmental challenges. Azerbaijan has prioritized environmental sustainability and cleanliness as integral components of its national development agenda. Over the years, the country has implemented various initiatives aimed at mitigating climate change, conserving natural resources, and promoting eco-friendly practices. Hosting COP29 provides Azerbaijan with a unique opportunity to showcase its achievements in environmental protection and to contribute actively to global efforts in this regard.

As the host of COP29, Azerbaijan assumes a significant role in facilitating global collaboration on climate action and sustainability. The conference serves as a forum for policymakers, experts, and stakeholders from around the world to exchange ideas, share best practices, and negotiate solutions to pressing environmental challenges. Azerbaijan's commitment to hosting COP29 demonstrates its willingness to engage constructively with the international community to address shared environmental concerns. Hosting COP29 enables Azerbaijan to showcase its innovative approaches to sustainable development and environmental management. From renewable energy projects to biodiversity conservation initiatives, Azerbaijan can highlight its efforts to promote green growth and resilience in the face of climate change. By sharing its experiences and success stories, Azerbaijan can inspire other nations to adopt similar measures for a more sustainable future. COP29 provides Azerbaijan with a platform to promote regional cooperation on environmental issues [7]. As a crossroads between Europe and Asia, Azerbaijan can foster dialogue and collaboration among neighboring countries to

address common environmental challenges, such as air and water pollution, deforestation, and biodiversity loss. Through COP29, Azerbaijan can spearhead regional initiatives that promote environmental sustainability and resilience. Hosting COP29 allows Azerbaijan to strengthen its partnerships with international organizations, NGOs, and donor agencies working in the field of sustainable development. By forging alliances and mobilizing resources, Azerbaijan can leverage COP29 to accelerate progress towards achieving the Sustainable Development Goals (SDGs) and fulfilling its international commitments under the Paris Agreement [8].

There is another important organization in Azerbaijan's foreign policy. The Organization for Security and Co-operation in Europe (OSCE) has played a significant role in Azerbaijan's pursuit of peace, stability, and territorial integrity, particularly in the context of the Nagorno-Karabakh conflict. However, the OSCE's mediation efforts have been marred by allegations of double standards, geopolitical interests, and ultimately, a failure to resolve the conflict. The Nagorno-Karabakh conflict, stemming from territorial disputes between Azerbaijan and Armenia, has been a focal point of OSCE mediation efforts. The OSCE Minsk Group, co-chaired by Russia, France, and the United States, has been tasked with facilitating negotiations and finding a peaceful resolution to the conflict. The Madrid principles, proposed by the Minsk Group, served as a framework for negotiations, emphasizing territorial integrity, self-determination, and the non-use of force. Despite the OSCE's mandate for impartial mediation, accusations of double standards have been leveled against the organization, particularly concerning its approach to the Nagorno-Karabakh conflict. Some critics argue that Russia, France, and the USA, as co-chairs of the Minsk Group, have demonstrated bias in favor of Armenia, overlooking Azerbaijan's grievances and concerns. This perceived favoritism has hindered progress in negotiations and eroded Azerbaijan's trust in the OSCE mediation process [9].

The United Nations Development Programme (UNDP) has emerged as a crucial ally for Azerbaijan in the pursuit of sustainable development objectives. Through concerted efforts with the UNDP, Azerbaijan has initiated various programs targeting poverty alleviation, environmental preservation, and societal integration. Initiatives like the Socio-Economic Development Program for the Regions of Azerbaijan have played a pivotal role in ameliorating living standards and bolstering community resilience throughout the nation. The Ministry of Ecology and Natural Resources in Azerbaijan has partnered with the UNDP on various initiatives addressing climate change adaptation, emphasizing improved land management, forest conservation, and biodiversity preservation. UNDP's assistance extends to supporting Azerbaijan's National Adaptation Plan efforts for enhancing resilience to climate change impacts. Furthermore, UNDP's active involvement in COP28 underscores its dedication to advancing the objectives outlined in the Paris Agreement and the UN's Sustainable Development Agenda for 2030. UNDP contributes to the modernization of Azerbaijan's ICT sector, particularly in enhancing government efficiency in border and customs operations through the implementation of integrated management tools. Additionally, UNDP provides technical and financial support for nationwide mine clearance efforts. In collaboration with the European Union, UNDP has initiated a grant competition aimed at fostering collaboration and competitiveness within the Lankaran-Astara Economic Region. This initiative targets modernization and enhancement of the fruit and vegetable sector in the region [12].

Azerbaijan's collaboration with the United Nations Educational, Scientific and Cultural Organization (UNESCO) signifies its dedication to conserving cultural heritage and fostering cross-cultural communication.

UNESCO's recognition of several Azerbaijani sites, such as the Historic Centre of Sheki with the Khan's Palace and the Gobustan Rock Art Cultural Landscape, as World Heritage Sites, underscores Azerbaijan's rich cultural legacy and its commitment to its preservation. However, in 2022, Mehriban Aliyeva declined the opportunity to serve as UNESCO's goodwill ambassador as a diplomatic and political gesture. This decision was made in protest against what Azerbaijan perceived as UNESCO's disregard for persistent calls to evaluate Armenian destruction in the reclaimed territories following Azerbaijan's restoration of international legality and justice between 2020 and 2022 [1].

Azerbaijan engages with the World Bank and the International Monetary Fund (IMF) to enact economic reforms, foster sustainable development, and tackle socio-economic obstacles. Technical aid, monetary backing, and policy guidance from these institutions bolster Azerbaijan's economic resilience and expansion. Additionally, Azerbaijan collaborates with the European Bank for Reconstruction and Development (EBRD) to fund infrastructure initiatives, catalyze private sector growth, and bolster regional connections. Investments from the EBRD aid Azerbaijan's socio-economic evolution and bolster endeavors for regional cohesion. Azerbaijan also collaborates with the Asian Development Bank (ADB) to address its developmental needs and foster economic growth. The partnership with ADB involves financing various infrastructure projects, implementing policy reforms, and promoting sustainable development practices. By working closely with ADB, Azerbaijan aims to enhance its economic resilience, improve living standards, and contribute to regional development efforts in Central Asia and beyond.

The Non-Aligned Movement (NAM), originally established during the Cold War to navigate between the two political-military poles, has evolved into a significant multilateral mechanism for regulating international relations. With its core principles centered on peace, security, and development, NAM serves as a forum for cooperation among its diverse member states. Azerbaijan's active engagement and leadership within NAM reflect its commitment to a non-aligned foreign policy and its dedication to promoting global peace and stability.

The Republic of Azerbaijan, adhering to a non-aligned foreign policy, joined the Non-Aligned Movement on May 26, 2011, during the NAM Summit held in Bali, Indonesia. This decision was made with unanimous support from member states, underscoring Azerbaijan's commitment to maintaining neutrality and independence in international affairs. Azerbaijan assumed the Chairmanship of the Non-Aligned Movement for the period of 2019-2022, marking a significant milestone in its diplomatic engagement within the international community. During its tenure, Azerbaijan hosted the NAM Summit in Baku, showcasing its diplomatic prowess and commitment to advancing NAM's objectives of peace, security, and development. Following Uganda's willingness to delay assuming the chairmanship of NAM by one year, member states of the United Nations acknowledged Azerbaijan's successful leadership and requested an extension of its chairmanship until 2023. Recognizing Azerbaijan's valuable experience and effective leadership during a challenging period, the country graciously accepted the request, demonstrating its continued dedication to steering NAM towards its goals [2].

## Conclusion

International organizations play a significant role in shaping the foreign relations of the Republic of Azerbaijan, facilitating crucial partnerships, energy diplomacy, conflict mediation, and socio-economic development initiatives. By actively participating in diverse international platforms,

Azerbaijan promotes its national interests, encourages regional collaboration, and contributes to global peace and prosperity. As Azerbaijan grapples with intricate geopolitical challenges, its collaborations with international organizations will continue to be essential in defining its foreign policy goals and promoting diplomatic interactions on the global arena. Azerbaijan's balanced regional policy is essential for navigating the complexities of the Eurasian space and safeguarding its national interests. By pursuing constructive engagement with neighboring countries, strengthening alliances with strategic partners, and navigating geopolitical dynamics with prudence, Azerbaijan aims to promote regional integration, enhance security, and foster stability in the region. As Azerbaijan continues to play a proactive role in regional affairs, its commitment to a balanced foreign policy remains instrumental in shaping the future trajectory of the country and the broader Eurasian region.

**References:**


1. Abdullayev, V. İtirən YUNESKO olacaq. URL: https://www.cumhuriyyet.net/sonxeber/185139-itir%C9%99n-yunesko-olacaq.html
2. AZƏRBAYCAN — QOŞULMAMA HƏRƏKATI. URL: https://azerbaijan.az/related-information/196
3. Bayramov, V. Azərbaycan qlobal enerji dialoqlarında fəal rol oynayır. URL: https://xalqqazeti.az/az/iqtisadiyyat/131044-azerbaycan-qlobal-enerji-dialoqlarinda-feal-rol-oynayir
4. Cooperation with NATO. URL: https://mod.gov.az/en/cooperation-with-nato-028/
5. Delegation of the European Union to the Republic of Azerbaijan. The European Union and Azerbaijan. URL: https://www.eeas.europa.eu/azerbaijan/european-union-and-azerbaijan_en?s=217
6. European Council. EU relations with Azerbaijan. URL: https://www.consilium.europa.eu/en/policies/eastern-partnership/azerbaijan/
7. Həbibova, Z. COP29 Azərbaycanın artan nüfuzunun göstəricisidir. URL: https://xalqqazeti.az/az/ekologiya/177234-cop29-azerbaycanin-artan-nufuzunun-gostericisidir
8. Hikmət Hacıyev: COP29 Azərbaycan üçün həm çağırış, həm də fürsətdir. URL: https://report.az/xarici-siyaset/hikmet-haciyev-cop29-azerbaycan-ucun-hem-cagiris-hem-de-fursetdir/
9. Quliyev, N. Azərbaycan XİN: İkili standartlara yol verilməsi ATƏT məkanında qeyri-sabitliyin yaranmasına səbəb olur. URL: https://apa.az/az/xeber/xarici-siyaset/xeber_azerbaycan_xin___ikili_standartlara_yol__-390403
10. Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC). URL: https://minenergy.gov.az/az/beynelxalq-teskilatlarla-elaqeler/neft-ixrac-eden-olkeler-teskilati-opec-ile-emekdasliq
11. Overview of Azerbaijan-NATO Partnership. URL: https://nato-pfp.mfa.gov.az/en/content/18/overview-of-azerbaijan-nato-partnership
12. Relations between Azerbaijan and UNDP. URL: https://mfa.gov.az/en/category/international-organisations/relations-between-azerbaijan-and-undp


***Keywords:*** *International organizations, Azerbaijan, foreign policy, South Caucasus*

**Aytac Bağırlı**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının doktorantı*

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN MÖVQEYİ

## XÜLASƏ

Məqalədə beynəlxalq təşkilatların mühüm tərəfdaşlıqları, diplomatik səyləri və sosial-iqtisadi əməkdaşlığı təhlil edərək Azərbaycanın xarici siyasətində oynadığı rol araşdırılır. Beynəlxalq təşkilatlar Azərbaycanın xarici siyasət məqsədlərinin formalaşmasına mühüm təsir göstərir, diplomatik qarşılıqlı fəaliyyətə və sosial-iqtisadi tərəqqiyə kömək edir.

Hərtərəfli təhlilin məqsədi beynəlxalq təşkilatların Azərbaycanın beynəlxalq münasibətlər sferasına çoxşaxəli töhfəsini vurğulamaqdır.

Qonşu ölkələrlə konstruktiv əlaqələri davam etdirmək, strateji tərəfdaşlarla müttəfiqləri gücləndirmək və geosiyasi dinamikanı ehtiyatla idarə etməklə, Azərbaycan regional inteqrasiyanı təşviq etməyə, təhlükəsizliyi gücləndirməyə və regionda sabitliyi gücləndirməyə çalışır. Azərbaycan regional məsələlərdə fəal rol oynamağa davam etdikcə, onun balanslaşdırılmış xarici siyasətə sadiqliyi ölkənin və bütün Avrasiya regionunun gələcək inkişaf strategiyasının formalaşmasında mühüm rol oynamaqda davam edir.

***Açar sözlər:*** *Beynəlxalq təşkilatlar, Azərbaycan, xarici siyasət, Cənubi Qafqaz*

**Айтадж Багирли**

*Докторант кафедры Международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

# ПОЗИЦИЯ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Статья посвящена изучению роли, которую международные организации, тщательно изучая важные партнерские отношения, дипломатические усилия и социально-экономическое сотрудничество, играют во внешней политике Азербайджана. Международные организации оказывают значительное влияние на формирование внешнеполитических целей Азербайджана и содействуют его дипломатическому взаимодействию и социально-экономическому прогрессу.

Целью всестороннего анализа является освещение многогранного вклада международных организаций в сферу международных отношений Азербайджана.

Продолжая конструктивное взаимодействие с соседними странами, укрепляя союзы со стратегическими партнерами и осмотрительно управляя геополитической динамикой, Азербайджан стремится способствовать региональной интеграции, укреплению безопасности и стабильности в регионе. Поскольку Азербайджан продолжает играть активную роль в региональных вопросах, его приверженность сбалансированной внешней политике по-прежнему продолжает играть важную роль в формировании стратегии дальнейшего развития страны и всего Евразийского региона.

***Ключевые слова:*** *международные организации, Азербайджан, внешняя политика, Южный Кавказ*

DOI: https://doi.org/10.30546/2309-1347.2024.3.87.231

**G Ə N C T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G R E S E A R C H E R S**

**B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L R E L A T I O N S**

UOT 327(091)

**FƏXRİ QURBANZADƏ**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**“Beynəlxalq münasibətlər və xarici siyasət” kafedrasının doktorantı**

*email: fexri.qurbanzade@gmail.com*

# MÜASİR DÖVRDƏ BÖYÜK BRİTANİYADA MİQRASİYA PROSESLƏRİ

Miqrasiya prosesi müasir dövrün aktual məsələlərindən biridir. İnsanların bir yerdən başqa yerə hərəkəti kimi başa düşülən miqrasiya özündə sosial, iqtisadi, siyasi məsələləri birləşdirən qarşısıalınmaz bir prosesdir. Beynəlxalq Miqrasiya təşkilatının məlumatına əsasən hal-hazırda dünyada 283 milyon miqrant mövcuddur. Bu da dünya əhalisinin 3.6%-i deməkdir [1, s.4].

Miqrasiya prosesi tarixin bütün dövrlərində mövcud olmuşdur. Dünyanın hər bir ölkəsində bu proses baş verir. Bəzi ölkələrdə bu proses daha geniş miqyasda bəzilərində isə lokal çərçivədə həyata keçir. Bu baxımdan dünyanın bəzi regionları və ölkələri emmiqrasiya mərkəzi olarkən, bəzi regionlar isə əsas immiqrasiya mərkəzi kimi çıxış edir. Xüsusilə, Şimali Amerika və Avropa regionu dünyanın əsas immiqrasiya mərkəzləri hesab olunur.

Avropa regionu tarixən emmiqrasiya mərkəzi kimi çıxış etsə də İkinci Dünya müharibəsindən sonra dünyanın əsas immiqrasiya mərkəzinə çevrilmişdir. Hal-hazırda Avropada 40 milyondan artıq beynəlxalq miqrant yaşayır ki bu göstəriciyə görə yalnız Şimali Amerika regionundan geri qalır [1, s.78]. Avropa regionuna immiqrasiyanın əsas səbəbi bu regiondakı ölkələrin yüksək inkişaf səviyyəsi, rifah və yaşam səviyyəsinin yüksək olması, təhsil, səhiyyə, sosial xidmətlərin keyfiyyətli və əlçatan olması, nəqliyyat infrastrukturunun inkişaf etməsi kimi amillər göstərilə bilər. Eyni zamanda, humanitar dəstəyə ehtiyacı olan şəxslərə dövlət səviyyəsində yüksək qayğı göstərilməsi və onların beynəlxalq müdafiəsinin təşkil edilməsi kimi amillər, təkcə iqtisadi və sosial səbəblərdən deyil, həmçinin, siyasi səbəblər nəticəsində öz ölkəsini tərk edən insanların buraya axın etməsinə səbəb olur.

Avropa regionu daxilində isə miqrasiya axınlarının ən çox olduğu Qərbi Avropa ölkələridir. Bu ölkələrdə miqrant sayı ümumi əhali nisbətində olduqca çoxdur. Bura miqrasiya axınının əsas səbəbi yuxarıda qeyd olunan amillər ilə yanaşı, güclü iqtisadiyyata malik olmaları və artan işçi qüvvəsi ehtiyacını yerli əhali hesabına təmin edilməsinin qeyri mümkünlüyüdür. Bu baxımdan bu ölkələr miqrant axının gəlməsində maraqlıdırlar. Miqrasiya siyasətləri də bu istiqamətdə inkişaf etdirilir.

Bu ölkələrin miqrasiya siyasəti ümumilikdə Avropa regionunda miqrasiya proseslərinə təsir etdiyinə görə bu ölkələrdəki miqrasiya prosesinin xüsusiyyətlərinin araşdırılması vacibdir.

Bu baxımdan, Avropa regionunda miqrant sayına görə ilk yerlərdə dayanan Böyük Britaniyada miqrasiya proseslərinin, miqrasiya siyasətinin əsas hədəflərinin müəyyən edilməsi, miqrasiya prosesinin son dövrlərdə necə dəyişməsini və hansı xarakterik xüsusiyyətlərə malik olmasını araşdırılması önəmli rola malikdir.

Belə ki, Böyük Britaniya ən çox miqrantın yaşadığı ölkələrdən biridir. Bu göstəriciyə görə ABŞ, Almaniya, Səudiyyə Ərəbistanı, Rusiyadan sonra beşinci yerdə dayanır. Böyük Britaniyanın 66.9 milyon əhalisi var ki, bunun da 16%-i, yəni 10.7 milyonu Böyük Britaniyaya miqrasiya edən insanlardır. Bu göstərici xüsusilə son onillikdə daha çox artmışdır. Belə ki, Böyük Britaniyada əcnəbilərin sayında 2011-ci ildən etibarən 34% artım olmuşdur [9].

Böyük Britaniyada miqrasiya prosesləri tarixin bütün dövrlərində baş verib. Lakin İkinci Dünya müharibəsinə qədər bu proses olduqca kiçik həcmdə və demoqrafik baxımdan əhəmiyyət kəsb etməyəcək səviyyədə olub. 1851-ci ildən etibarən aparılan siyahıyaalma statistikası göstərir ki, Britaniyada əcnəbilərin sayı və artımı kifayət qədər az olub. Belə ki, 1850–1931-ci illər arasında əcnəbilərin sayı təxminən 1 milyon təşkil etmişdir. Bu göstərici İkinci Dünya müharibəsindən sonra 1951–1991-ci illər arasında iki dəfə artaraq 2 milyon təşkil etmişdir [9].

Müharibədən sonrakı dövrdə Böyük Britaniyaya iki əsas immiqrasiya axını baş vermişdir. Bu axınlardan birincisi Almaniyaya qarşı silahlı qüvvələrdə xidmət etmiş polşalı əsgər və ailələrinin Böyük Britaniyada məskunlaşması nəticəsində baş verib. Müharibədən sonra Polşa SSRİ-nin təsiri altında olduğuna görə Polşadan kənarda yaşayan bir çox polşalı öz ölkəsinə qayıda bilmirdi. Buna görə də, onlar demək olar dünyanın hər yerində ABŞ, Kanada, eləcə də, Böyük Britaniyada məskunlaşdılar. 1947-ci il Böyük Britaniyada qəbul edilmiş “Polşalıların köçürülməsi” Aktı polşalılara Böyük Britaniyanın bütün şəhərlərində yaşamaq və işləmək icazəsi verirdi. Bu dövrdə 160 mindən artıq polşalı Böyük Britaniyaya miqrasiya etmişdir. Həmçinin, polşalılar Böyük Britaniyanın sənaye sahəsində yaranan işçi ehtiyacının ödənilməsi üçün olduqca vacib rola malik idilər. Bu dövrdə gələn polşalılar ölkə üzrə tikinti, kömür hasilatı, tekstil, mehmanxana və ictimai iaşə, kənd təsərrüfatı və mühəndislik kimi ən çox işçi çatışmazlığı yaranan sənaye rayonlarında məskunlaşdırılmış və həmin sahələrdə işli təmin edilmişdilər [4].

İkinci miqrasiya axını isə 1948-ci ildə “Vətəndaşlıq Aktı”-nın qəbul edilməsi ilə baş verdi. Belə ki, bu Akt Britaniya İmperiyasına daxil olan ölkələrdə yaşayan insanlara heç bir məhdudiyyət olmadan Böyük Britaniyada yaşamağa və işləməyə icazə verirdi. Belə ki, keçmiş Böyük Britaniya imperiyasına daxil olan ölkələrdə yaşayan insanlar Britaniya vətəndaşı hesab olunurlar. Bu Aktın əsasən Böyük Britaniyanın səhiyyə və nəqliyyat sektorunda yaranan işçi çatışmazlığını aradan qaldırmaq üçün ixtisaslı və ixtisassız işçilərin ölkəyə gəlməsini təşviq edilməsi məqsədilə qəbul edilmişdir. 1961-ci ilə qədər 135 mindən artıq işçi miqrant Birlik ölkələrindən Böyük Britaniyaya miqrasiya etmişdir.

Lakin, 1962-ci ildə “Vətəndaşlıq Aktı” ləğv edilərək yeni immiqrasiya qanunu qəbul edildi. Bu qanun Birlik ölkələrindən gələn insanların axınının məhdudlaşdırılması məqsədilə qəbul edilmişdir. “Vətəndaşlıq Aktı”-nın dayandırılmasının başlıca səbəbi isə dünyanın dörd bir yanında yerləşən Birlik ölkələrində yaşayan 800 milyondan artıq insanın Böyük Britaniyaya heç bir maneə olmadan gəlməsinin böyük miqrasiya axını və problemlər yaradacağı düşüncəsi idi. Yeni qanun miqrantların gəlməmişdən qabaq iş tapmasını, xüsusi bacarıqlara malik olmasını və ölkə iqtisadiyyatının tələblərini ödəyəcək şəxslər olmasını tələb edirdi.

Daha sonrakı dövrdə Keniya və Uqandadan olan asiya əsilli Britaniya vətəndaşları həmin ölkələrdəki ayrı seçkilik səbəbindən Böyük Britaniyaya axın etdilər ki, onlar sonrakı məhdudlaşdırlmalar nəzərə alınmadan 1948-ci il Aktına əsasən ölkəyə qəbul edildilər. Onlar əsasən hind və pakistan əsilli miqrantlar idi. Həmin dövrdə Uqandada 30 mindən çox asiyalı Böyük Britaniyada məskunlaşmışdır [5].

Şərqi Afrika ölkələrindən olan bu axının qarşısını almaq məqsədilə 1968-ci ildə yeni İmmiqrasiya qanunu qəbul edildi. Bu qanuna əsasən isə Böyük Britaniya ilə əlaqəsi olan şəxslərin ölkəyə gəlməsinə icazə verildi [6]. Bununla da, 1972-ci ilə kimi yalnız işçi miqrantlar və valideynləri və ya əcdadları Böyük Britaniyada doğulan insanlar ölkəyə giriş edə bilərdilər.

1972-ci il "İmmiqrasiya qanunu" isə Birlik ölkələri ilə digər ölkə vətəndaşları arasında qoyulan fərqləri ləğv edərək eyni şərtlərlə ölkəyə gəlməsini təmin etdi. Bu dövrdə hər il təxminən 72 min miqrant Birlik ölkələrindən Böyük Britaniyaya miqrasiya etmişdir [7].

Böyük Britaniyaya digər bir axın irlandların gəlməsi ilə olmuşdur ki, irlandların miqrasiyası XX əsr boyu davam etmişdir. 1950-ci illərdəki iqtisadi böhran irlandları Böyük Britaniyanın tikinti sənayesində işləmək üçün miqrasiya etməsinə səbəb oldu. 1951-1971-ci illərdə irlandlar Böyük Britaniya əhalisinin 2%-ni təşkil edirdi. 1970-1980-ci illərdə irland millətçiliyinin artması bu miqrasiya axınında müəyyən azalmaya səbəb olsa da 2000-ci illərdə iqtisadi böhran səbəbi ilə yenidən artmağa başlamışdır [7].

Eyni zamanda, qeyd olunmalıdır ki, 1950-1980-ci illər arasında ABŞ və SSRİ arasındakı antaqonizm nəticəsində dünyanın bir çox yerlərində yaranan münaqişələr qaçqın axının yaranmasına səbəb olmuşdur. Bu dövrdə Böyük Britaniya Cənubi Afrika və Latın Amerikası ölkələrindən eləcə də, Macarıstan və Vyetnamda baş verən proseslərlə əlaqədar yaranan qaçqınları BMT-nin İnsan Hüquqları Bəyannaməsinə uyğun olaraq qəbul etmişdir [7].

1990-ci illərin sonundan etibarən isə miqrasiyanın tempi və miqyası artaraq ən yüksək həddə çatdı. Belə ki, 1980-1990-cı illərdə Somalidəki vətəndaş müharibəsi qaçqınların Böyük Britaniyaya axını ilə nəticələndi ki, onların əksəriyyətinə Böyük Britaniyada sığınacaq hüququ verilmişdir. Hal-hazırda Böyük Britaniyada yaşayan Somali əsilli insanların böyük əksəriyyəti həmin dövrdə ölkəyə gəlmiş insanlardır. Böyük Britaniyada 120 mindən artıq Somali əsilli insanın yaşadığı təxmin edilir [8].

Daha bir miqrasiya dalğası isə Böyük Britaniyanın Avropa İttifaqına üzv olduqdan sonra Aİ üzv ölkə vətəndaşlarının sərbəst hərəkəti nəticəsində ölkəyə gəlməsi ilə baş vermişdir. Bu axın xüsusilə 2004-cü ildə Aİ-nin şərqə doğru genişlənməsi nəticəsində yeni üzv olan Polşa, Malta, Kipr, Çexiya, Estoniya və s. kimi Mərkəzi və Şərqi Avropa ölkələrindən olmuşdur. Bu miqrantların əksəriyyətini iş məqsədilə gələnlər təşkil edirdi. Bu dövrdə Aİ üzv ölkələrindən təxminən 5 milyondan artıq insan Böyük Britaniyaya miqrasiya etmişdir.

Sonuncu miqrasiya axını kimi Ukrayna ərazilərinin Rusiya tərəfindən işğal edilməsi nəticəsində milyonlarla ukraynalının Avropa daxilində qaçqın və məcburi köçkünə çevrilməsi nəticəsində baş vermişdir. 2022-ci ildə müharibənin başladığı vaxtlardan etibarən Böyük Britaniya ukraynalı qaçqınları qəbul edən bir sıra proqramlar qəbul etmişdir. Bu proqramlar çərçivəsində 240 mindən artıq ukraynalı Böyük Britaniyaya gəlmişdir.

Qeyd edək ki, bu axının Böyük Britaniyanın nəzarətindən kənar olaraq baş verməsi onun Avropa İttifaqından ayrılmasının əsas səbəblərindən biridir. 2016-cı ildə referendumun keçirilməsi və 2020-ci ildə Böyük Britaniyanın Avropa İttifaqından tamamilə ayrılması ilə Aİ ölkələrindən olan miqrantların sayında da xeyli azalma olmuşdur. Ancaq Brexitdən sonrakı mərhələdə ümumi miqrasiya prosesi azalmamış əksinə qeyri Avropa ölkələri hesabına artmışdır.

Böyük Britaniyada miqrantların mənşə ölkəsinə görə tərkibinə baxdıqda miqrantlar

içərisində çoxluq təşkil edənlərin Aİ-yə üzv olmayan ölkələrdən gələn insanlar olduğunu görmək mümkündür. Onlar ümumi miqrantların 63%-ni təşkil edir. Bunun başlıca səbəbi də Brexit sonrası Aİ ölkələrindən gələn insanların geri qayıtması nəticəsində onların sayında azalmanın olmasıdır [9].

Mənşə ölkəsinə görə miqrantların ən çox gəldiyi ölkələr isə Hindistan, Polşa, Pakistan, Rumuniya və İrlandiyadır. Sonrakı yerləri isə Nigeriya, İtaliya, Almaniya, Banqladeş və Cənubi Afrika Respublikası tutur. Miqrantların Böyük Britaniyaya gəlmə səbəblərinə görə ilk yerdə ailə, daha sonra iş, təhsil, sığınacaq axtarmaq və digər səbəblər dayanır [9]. Ailə birləşməsi ailə üzvlərindən hər hansı biri Böyük Britaniyada yaşayan insanların ailə üzvlərinin yanına gəlməsini nəzərdə tutur.

İkinci yerdə iş məqsədilə gələn insanlar üstünlük təşkil edir ki, insanların iş üçün Böyük Britaniyanı seçməsinin də bir sıra səbəbləri vardır. İlk növbədə ölkədə olan iş imkanlarının çoxluğudur ki, xüsusilə sosial və səhiyyə sistemində işçi çatışmazlığı mövcuddur. Bu sahədə təcrübə və ixtisası olan miqrantlar asanlıqla iş tapa bilirlər. Həmçinin, gələn işçilərin 4 ildən sonra daimi yaşayış üçün müraciət etmək imkanları mövcuddur. Bundan əlavə, həyat səviyyəsinin, əmək haqqının yüksək olması, səhiyyə sisteminin yüksək inkişaf etməsi, işçilərin davamlı öyrənmə və inkişaf imkanlarının olması və Böyük Britaniyanın mədəni zəngin və multikultural bir ölkə olması miqrantların iş üçün buranın seçməsinin əsas səbəblərindən biridir [10]. Böyük Britaniyada hal-hazırda 6.8 milyon işçi miqrant mövcuddur. Bunların əksəriyyəti qeyri Avropa ölkələrindən gələn insanlardır [9].

Böyük Britaniyaya miqrasiyanın digər bir səbəbi isə təhsildir. Böyük Britaniyada illik 650 mindən çox əcnəbi tələbə təhsil alır [11]. Təhsil məqsədi ilə Böyük Britaniyanın seçilməsinin də bir neçə səbəbi vardır. İlk növbədə Böyük Britaniya yüksək inkişaf etmiş təhsil sisteminə malikdir, ölkə universitetlərinin verdiyi diplomlar bütün dünyada tanınır və dünya üzrə ən reytinqli universitetlərdən hesab olunurlar. Bundan əlavə, təhsil müddətinin qısa olması tələbələrə ixtisas dərəcələrini daha tez əldə etməyə imkan verir. Belə ki, bakalavr dərəcəsini 3 ilə, magistr dərəcəsini isə 1 ilə almaq mümkündür. Eyni zamanda, tələbələrin oxuduğu müddət ərzində işləmək imkanları da mövcuddur. Bu da təhsil müddətində təcrübə qazanmağa kömək edir. Dünyanın müxtəlif ölkələrindən tələbələrin mövcud olması multikultural mühitin formalaşmasına bu da öz növbəsində tələbələrin daha tez adaptasiya olmasına səbəb olur [12]. Həmçinin, tələbələrin Böyük Britaniyada təhsil alması ingilis dilində müstəqil şəkildə istifadə edə bilməsi və ünsiyyət qurması deməkdir ki, bu da əksər işəgötürənlər tərəfindən yüksək qiymətləndirilir.

Mənşə ölkəsinə görə ən çox tələbənin gəldiyi ölkələr isə Çin, Hindistan, Nigeriyadır. Aİ ölkələrindən isə Fransa və İtaliyadan gələn tələbələr üstünlük təşkil edir [11].

Böyük Britaniyada sığınacaq üçün müraciət edənlərin də sayı kifayət qədər çoxdur. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına əsasən Böyük Britaniyada 230 mindən artıq qaçqın mövcuddur [13].

Mənşə ölkəsinə görə qaçqınların ən çox gəldiyi ölkələr Əfqanıstan, Suriya, Eriteriya, Sudan və İrandır [14]. Sığınacaq müraciəti edənlər bu hüquq onlara verilənədək işləmək icazələri yoxdur. Bu müddət ərzində onlar dövlət hesabına təmin edilirlər. Onların yaşayış xərcləri və yerləşmə yerləri dövlət tərəfindən seçilir və təmin edilir. Əslində Böyük Britaniya qaçqınların ən çox seçdiyi ölkələr içərisində yer almır. Gələn qaçqınlar adətən ailə birləşməsi yolu ilə və ya dil yaxınlığı baxımından bu ölkəni seçirlər.

Böyük Britaniyada qanunsuz miqrantların sayı da kifayət qədər çoxdur. Belə ki, onların sayı 600 mindən artıqdır. Böyük Britaniya ada dövlət olduğu üçün quru sərhədləri vasitəsilə qanunsuz miqrasiya mövcud deyildir. Qanunsuz miqrantlar, Böyük Britaniyaya əsasən hava yolu ilə və La Manş boğazı vasitəsilə kiçik qayıqlarla daxil olurlar. Bu baxımdan Fransanın Kalais şəhəri əsas toplaşma məntəqəsi hesab olunur. Bu yolla gələnlər isə əsasən

Əfqanıstan, Albaniya, İran, Suriya və İraqdan gələnlər təşkil edir [15]. Qanunsuz miqrasiya edənlərin əsas məqsədi Böyük Britaniyada sığınacaq əldə etməkdir.

Miqrantların Böyük Britaniya daxilində yerləşməsi qeyri bərabərdir. Belə ki, onların böyük əksəriyyəti paytaxt Londonda və ölkənin cənub şərq hissəsində məskunlaşıb. Ölkədə olan miqrantların 35%-i yəni təxminən 3.3 milyonu paytaxt Londonda yaşayır [16].

Həmçinin, miqrantlar 5 ildən artıq müddətdə Böyük Britaniyada yaşadıqları təqdirdə ölkə vətəndaşlığını əldə edə bilərlər. Böyük Britaniyada vətəndaşlıq hüququ "Life in the United Kingdom" inteqrasiya imtahanının nəticəsinə əsasən və ya ingilis dili və vətəndaşlıq dərslərinə qatılması ilə verilir. Bu imtahan və kurslar şəxslərin ingilis dəyərlərini bilməsini təmin etmək məqsədi güdür [2, s.14].

Həmçinin, Böyük Britaniyada miqrasiya saldosu 1990-cı illərdən etibarən daim müsbət olaraq qalır. Yəni, ölkəyə gələnlərin sayı gedənlərin sayından çoxdur. Xüsusilə, net miqrasiya 2020-ci ildən etibarən daha da artaraq ən yüksək səviyyəyə 2022-ci ildə çatıb. 2022-ci ildə miqrasiya saldosu 800 minə yaxın təşkil edib.

Göründüyü kimi Böyük Britaniyaya miqrasiya axını olduqca böyük həcmdədir və bu hər il artmaqda davam edir. Bu baxımdan bu prosesin tənzimlənməsi üçün aktiv miqrasiya siyasətinin həyata keçirilməsi vacibdir.

Böyük Britaniyanın miqrasiya siyasətinə baxsaq onun əsas məqsədi ölkəyə gələn qanunsuz miqrant axınının qarşısının alınması və digər tərəfdən ölkə iqtisadiyyatının işçi qüvvəsinə olan ehtiyacını təmin etmək məqsədi ilə xarici işçi qüvvəsini ölkəyə cəlb etməkdir.

Qanunsuz miqrasiya sahəsində tənzimləmə aparmaq məqsədilə 2023-cü ildə Böyük Britaniyada "İlleqal miqrasiya" haqqında qanun qəbul edildi. Bu qanununa əsasən qanunsuz yollarla ölkəyə daxil olan insanlar artıq Böyük Britaniyada qala bilməyəcəklər, onlar ölkədən kənarlaşdırılaraq ya öz ölkələrinə ya da, "təhlükəsiz üçüncü ölkə"lərə göndəriləcəklər. Bu qanun əsas məqsədlərini aşağıdakı kimi sıralamaq mümkündür:

- təhlükəli dəniz yolu vasitəsilə kiçik qayıqlarla Böyük Britaniyaya daxil olan qanunsuz miqrasiyanın qarşısını almaq,
- qanuni yollarla Böyük Britaniyadan sığınacaq istəyən şəxslərə daha yaxşı dəstək olmaq məqsədi ilə ölkədə yaşama icazəsi olmayanları ölkədən çıxarmaq,
- qanunsuz miqrasiyaya son qoymaqla miqrant qaçaqmalçılığı və insan alveri hallarının azalmasına nail olmaq,
- həqiqətən sığınacaq ehtiyacı olanları ölkədə yerləşdirilməsini təmin etməkdir [17].

Bu qanunun növbəti mərhələsi olaraq, Böyük Britaniya Ruanda ilə geri qəbul razılaşması imzalayıb. Buna əsasən qanunsuz yollarla Böyük Britaniyaya daxil olan miqrantların bir qismi Ruandaya göndəriləcək. Əgər onlara Ruandada qaçqın statusu verilərsə orada qalmalarına icazə veriləcək, yox əgər bu status təmin edilməzsə o zaman başqa ölkəyə sığınacaq hüququ üçün müraciət edə bilərlər. Bunun əvəzində isə Ruandaya maliyyə yardımı ediləcək. Bu plan insan hüquqlarına zidd olduğu eyni zamanda bu miqrantların öz mənşə ölkələrinə göndərilmə təhlükələrinin olduğu iddia edilsə də, Ruanda ilə imzalanan razılaşmaya əsasən göndərilən miqrantların öz mənşə ölkələrinə qaytarılmayacağı təmin edilir [18].

Eyni zamanda, qeyd etmək lazımdır ki, Böyük Britaniyada əhali artımı olduqca azdır və yaxın bir neçə il ərzində təbii artımın mənfi olacağı təxmin edilir. Bunun əksinə olaraq isə miqrasiya saldosu 1990-cı illərdən etibarən daim müsbət olaraq qalır. Buna əsasən də ölkədə əhalinin əsas artımı miqrasiya hesabına baş verir. Eyni zamanda ölkədə əhalinin yaşlanma prosesi baş verir ki, 65 yaş üzəri əhali ümumi əhalinin 19 %-ni təşkil edir. Bu göstəricinin 2070-ci ilə qədər 27%-ə qalxacağı gözlənilir [19]. Bu da ölkənin səhiyyə və sosial təminat sistemində əlavə yüklənmənin yaranmasına səbəb olacaq. Bu sahədəki boşluğun

isə miqrasiya hesabına təmin edilməsi mümkündür.

Buna görə, Böyük Britaniya 1 yanvar 2021-ci il tarixindən etibarən yeni bal əsaslı miqrasiya qanunu qəbul etmişdir. Bu qanun Böyük Britaniyanın Aİ-dən ayrılmasından sonra ölkəyə immiqrasiya axınını tənzimləmək və Aİ ölkələrinin vətəndaşlarına münasibətdə onların Böyük Britaniyadakı sonrakı taleyini müəyyən etmək məqsədilə qəbul edilmişdir.

Bu qanuna əsasən müəyyən kriteriyalara cavab verən insanlar Böyük Britaniyaya gələ biləcəklər. Bu qanun Aİ-na üzv ölkələrdən və digər ölkələrdən olan insanların hamısına eyni yanaşmanı ortaya qoyur. Bunun üçün başvuranlar hər hansı bir sponsordan iş təklifi aldıqlarını, kifayət qədər bacarıq səviyyəsinin olduğunu və ingilis dilində danışa bildiklərini sübut etməlidir. Bundan əlavə, onların minimum maaşı 25 min funt sterlinq təşkil etməlidir. Lakin, xüsusi işçi çatışmazlığı olan sahələrdə maaşın 20 min funt sterlinq olmasına icazə verilir ki, bu zaman həmin şəxsin işlədiyi sahə üzrə elmi dərəcəsi olmalıdır. İşçinin ölkəyə gələ bilməsi üçün 70 bal toplaması tələb olunur. Həmçinin qanunun əsas məqsədi ölkəyə gələn miqrant sayını azaltmaq eyni zamanda aşağı ixtisaslı və ya ixtisassız işçiləri yüksək ixtisaslı işçilərlə əvəz etməkdir [3, s.9].

Bundan əlavə, yeni qanunla Aİ ölkələri 30 iyun 2021-ci ildən sonrakı müddətdə Böyük Britaniyada yaşamaq üçün "Avropa Məskunlaşma Sxemi" (EUSS) proqramına baş vura bilərlər. Bu proqram Böyük Britaniya Aİ-dən ayrılmadan öncə ölkədə yaşayan Aİ üzv ölkə vətəndaşlarının qeydiyyatını aparmaq üçün idi. Əgər onların müraciəti qəbul edilərsə onlara yaşama icazəsi veriləcək. Lakin bu icazə onların Böyük Britaniyada nə qədər müddət yaşadığından asılıdır. Belə ki, əgər 2020-ci ilə kimi 5 ildən artıq müddətdə Böyük Britaniyada yaşayan insanlar daimi yaşayış icazəsi verilir, bununla da onlar istədikləri müddətdə ölkədə qala, eyni zamanda, vətəndaşlıq üçün də müraciət edə bilərlər. 5 ildən az bir müddətdə ölkədə yaşayanlar isə yeni yerləşmiş statusu verilir və 5 ildən sonra onlar daimi yaşayış icazəsi üçün müraciət edə bilərlər [20].

Nəticə. Göründüyü kimi, Böyük Britaniya tarixən bir immiqrasiya ölkəsi olmasa da, İkinci Dünya Müharibəsindən sonra Avropa regionuna miqrasiya axınının güclənməsi öz təsirini bura da göstərmişdir. Ölkə sənayesinin inkişafı, iqtisadiyyatın böyüməsi artan işçi qüvvəsi ehtiyacı ölkəyə miqrasiya axınının sürətlənməsinə və geniş miqyas almasına səbəb olmuşdur. Miqrasiya axınının çox olması, xüsusilə 1990-cı illərdən sonra kəskin artım olması ölkənin miqrasiya siyasətinin tənzimlənməsinə ehtiyac yaratmışdır. Bundan əlavə, Böyük Britaniyaya qanunsuz miqrant axının çox olması bu sahədə də tənzimləməni labüd etmişdir.

Böyük Britaniyanın Aİ-dan çıxmasının əsas səbəblərindən biri də Aİ ölkələrindən gələn miqrasiya axınlarına nəzarət və idarə edə bilmək istəyi ilə bağlıdır. Lakin göründüyü kimi, Brexit miqrasiya prosesinin azalmasına yox əksinə qeyri Avropa ölkələri hesabına miqrasiya prosesinin artmasına səbəb olmuşdur. Həmçinin, qeyd edilməlidir ki, ölkənin işçi qüvvəsinə olan ehtiyacı və əhalinin yaşlanma prosesi miqrasiya axınını labüd edir. Buna görə də 2021-ci ildə qəbul edilən miqrasiya qanunun əsas məqsədi ölkənin işçi qüvvəsinə olan ehtiyacını ixtisaslı işçilər hesabına təmin etmək və ixtisassız işçilərin gəlməsinin qarşısını almaqdır. Bununla da miqrasiya prosesinin tənzimləmək, və bu axının sürətini azaltmaq hədəflənir. Miqrasiya axınının tənzimlənməsi istəyi həmçinin əhalinin miqrantların ölkəni dəyişdirəcəyi qorxusundan qaynaqlanır. Həmçinin, Mühafizəkarlar Partiyasının bu sahədə apardığı siyasətin də böyük rolu olmuşdur.

**Ədəbiyyat:**


1. Beynəlxalq Miqrasiya Təşkilatının 2024-cü il Məruzəsi "World Migration Report 2024".
2. H.M.Bingöl, "İngiltere'de göçmen öğrenciler için geliştirilen eğitim politikalarinin incelenmesi", 2019, Bursa, s 183.
3. "The UK's Points-Based Immigration System Policy Statement", 2020, London, p. 16.
4. Polish soldiers and refugees in World War II Britain: [Elektron resurs]/- URL: https://www.ourmigrationstory.org.uk/oms/polish-soldiers-and-refugees-in-world-war-ii-britain-
5. 1972: Asians given 90 days to leave Uganda: [Elektron resurs]/ - URL: http://news.bbc.co.uk/onthisday/hi/dates/stories/august/7/newsid_2492000/2492333.stm
6. When Labour played the racist card: [Elektron resurs]/- URL: https://www.newstatesman.com/long-reads/1999/01/when-labour-played-racist-card
7. Migration stories: 1900–2000s: [Elektron resurs]/- URL: https://www.ourmigrationstory.org.uk/oms/by-era/1900%E2%80%932000
8. Somalis in Europe: [Elektron resurs]/- URL: https://core.ac.uk/download/pdf/45685718.pdf
9. Migrants in the UK: An Overview: [Elektron resurs]/- URL: https://migrationobservatory.ox.ac.uk/resources/briefings/migrants-in-the-uk-an-overview/
10. 6 reasons to work in the UK: [Elektron resurs]/ - URL: https://www.sanctuarypersonnel.com/blog/2023/05/6-reasons-to-work-in-the-uk
11. International student data: [Elektron resurs]/- URL:https://www.universitiesuk.ac.uk/what-we-do/policy-and-research/publications/features/uk-higher-education-data-international/international-student-data
12. FIVE REASONS TO STUDY IN THE UK: [Elektron resurs]/- URL: https://www.ucas.com/connect/blogs/five-reasons-study-uk
13. Asylum in the UK : [Elektron resurs]/- URL: https://www.unhcr.org/uk/asylum-uk
14. Facts about refugees in the UK: [Elektron resurs]/- URL: https://breaking-barriers.co.uk/our-impact/refugee-asylum-facts/
15. Irregular migration to the UK, year ending June 2023: [Elektron resurs]/- URL: https://www.gov.uk/government/statistics/irregular-migration-to-the-uk-year-ending-june-2023/irregular-migration-to-the-uk-year-ending-june-2023
16. Where are the Most Migrants in the UK? : [Elektron resurs]/- URL: https://en.uhomes.com/blog/where-are-most-immigrants-in-uk
17. Illegal Migration Act 2023: [Elektron resurs]/- URL: https://www.gov.uk/government/collections/illegal-migration-bill
18. İngiltere'nin Yasadışı Göçü Önleme Politikası: [Elektron resurs]/- URL: https://21yyte.org/tr/merkezler/islevsel-arastirma-merkezleri/i-ngiltere-nin-yasadisi-gocu-onleme-politikasi
19. The UK's changing population: [Elektron resurs]/- URL: https://commonslibrary.parliament.uk/the-uks-changing-population/
20. İngiltere'nin Puanlamaya Dayalı Yeni Göçmenlik Hukuku Politikası : [Elektron resurs]/- URL: https://www.guden.av.tr/ingiltere-puanlama-dayali-yeni-gocmenlik-hukuku-politikasi


***Açar sözlər:*** *miqrasiya, Böyük Britaniya, miqrasiya siyasəti, Avropa İttifaqı*

**Fakhri Gurbanzade**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Department of International Relations and Foreign Policy, Ph.D. Candidate*

## MIGRATION PROCESSES IN GREAT BRITAIN IN MODERN TIMES

### ABSTRACT

The article mainly examines migration processes in the European region, which is the main center of immigration. Also, the basic directions and characteristics of migrant flow in Great Britain, which is one of the crutial features of immigration in the European region, are shown during the historical period, the primary reasons for the migration flow and the purposes for which people flock to Great Britain are investigated, and the main statistical indicators of these groups are given. At the same time, the main directions of the migration policy of Great Britain are analyzed, together with the legislation and regulations adopted in this domain.

The essence of the article is to review migration processes in Great Britain, their main features and directions in Great Britain's migration policy.

The information in the article is important for understanding the characteristics of the migration process in Great Britain and identifying its main directions.

The article uses the latest statistical indicators, provided by the GB public authorities, to give an overview of the country's overall migration picture.

***Keywords:*** *migration, Great Britain, migration policy, European Union*

**Фахри Гурбанзаде**

*Докторант кафедры Международных отношений и*
*внешней политики Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

## МИГРАЦИОННЫЕ ПРОЦЕССЫ В ВЕЛИКОБРИТАНИИ В СОВРЕМЕННОЕ ВРЕМЯ

### РЕЗЮМЕ

В статье преимущественно рассматриваются миграционные процессы в европейском регионе, который является основным центром иммиграции. Также показаны основные направления и характеристики миграционных потоков в течение исторического периода в Великобритании, которая является одним из основных центров иммиграции в европейском регионе, основные причины миграционного потока и цели, с которыми люди устремляются в эту страну, приведены основные статистические показатели этих групп. При этом рассматриваются основные направления миграционной политики Великобритании, а также законы и правила, принятые в данной сфере.

Основная цель статьи – рассмотреть миграционные процессы в Великобритании, их основные особенности, а также основные направления миграционной политики этой страны.

Информация, использованная в статье, важна для понимания особенностей миграционного процесса в Великобритании и выявления его основных направлений.

В статье используются последние статистические показатели, предоставленные государственными органами Великобритании для формирования обзора общей миграционной картины страны.

***Ключевые слова:*** *миграция, Великобритания, миграционная политика, Европейский Союз*

DOI: https://doi.org/10.30546/2309-1347.2024.3.87.235

**G Ə N C T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G R E S E A R C H E R S**

**B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L R E L A T I O N S**

UOT 327; 339.9

**AĞALAR AĞALARLI**

**Qərbi Kaspi Universitetinin**
**Beynəlxalq münasibətlər kafedrasının doktorantı**

*e-mail: aghalaraghalarli@gmail.com*

# "KƏMƏR VƏ YOL" VƏ "ORTA DƏHLİZ" TƏŞƏBBÜSLƏRİ ÇƏRÇİVƏSİNDƏ ÇİN – AZƏRBAYCAN – TÜRKİYƏ İQTİSADİ VƏ TƏHLÜKƏSİZLİK ƏMƏKDAŞLIĞI

**Giriş**

"Kəmər və Yol" Təşəbbüsü (KYT) (və ya "Bir Kəmər, Bir Yol") və "Orta Dəhliz" (və ya Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) müvafiq olaraq Çin və Türkiyənin təklif etdiyi iki nəqliyyat və ticarət dəhlizi təşəbbüsləridir. Çin Xalq Respublikasının prezidenti Si Cinpinq 2013-cü ildə Qazaxıstanın paytaxtı Astanadakı nitqi zamanı ilk dəfə Avrasiya ölkələri arasında infrastrukturun yaradılması və qarşılıqlı əlaqələrin qurulmasına yönələn "Bir kəmər, bir yol" adlı yeni iqtisadi inkişaf strategiyasını elan edib. Strategiya iki əsas inkişaf istiqamətini nəzərdə tutur: "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu". Burada söhbət malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasından gedir.

Azərbaycan və Türkiyə İpək Yolu iqtisadi kəmərinin Orta Dəhlizində yerləşir. 4256 km dəmir yolu və 508 km dəniz marşrutunu əhatə edən bu dəhliz Çin-Qazaxıstan sərhədindən Azərbaycan (Xəzər dənizi vasitəsilə), Gürcüstan və Türkiyəyə qədər uzanır.

Orta dəhliz digər alternativlərə nisbətən daha qısa və sərfəlidir. Çindən dəniz yolu ilə daşınan malların Avropaya çatması 36 günə, Trans-Sibir marşrutu ilə isə 20 günə mümkün olur. Bununla belə, Orta Dəhliz Çin mallarının eyni təyinat yerinə çatması üçün tələb olunan vaxtı 12 günə qədər azalda bilər. [11] Orta dəhliz iqtisadi cəhətdən cəlbedici olmaqla yanaşı, həm də Çin üçün siyasi baxımdan daha əlverişlidir, çünki bu dəhliz boyunca yerləşən ölkələr həm coğrafi, həm də digər ölkələrlə sabit münasibətlərə görə daha təhlükəsizdirlər. Bundan əlavə, dəhliz Çinə ixracını şaxələndirməyə, şimal dəhlizində əsas oyunçu olan Rusiyadan asılılığını azaltmağa və ABŞ-ın sanksiya etdiyi İran vasitəsilə cənub dəhlizindən istifadə etmədən məhsullarını təhlükəsiz şəkildə Avropaya göndərməyə imkan verir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə rəsmi səfəri çərçivəsində "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu" imzalanıb [3]. Eyni şəkildə Kəmər

və Yol Təşəbbüsü 2013-cü ildə ilk dəfə elan ediləndən sonra elə həmin il Türkiyə rəhbərliyi bu təşəbbüsə dəstək verəcəyini açıqladı və 2015-ci ildə Türkiyə ilə Çin arasında bu layihə ilə bağlı əməkdaşlıq müqaviləsi imzalandı [10].

Azərbaycan özünü KYT-nin və Orta Dəhlizin açar qovşaq nöqtəsi kimi təqdim edə bilib. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan və Çin əsl strateji tərəfdaşlardır, Azərbaycan iqtisadiyyatını neft-qaz asılılığından xilas etməyə çalışır və bunun üçün özünün sənaye sektorundakı layihələrində Çinin aktiv iştirakına ümid edir. Bu yaxınlaşmanın məntiqi nəticəsi kimi, Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində 2024-cü il iyulun 3-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Tərəflərin Orta Dəhlizin inkişafında fəal iştiraka razılaşdığının vurğulandığı bəyannamədə ikili əlaqələrin bütün sahələrində əməkdaşlığın bundan sonra da genişləndirilməsinə yaşıl işıq yandırılıb [1]

Bu yerdə xatırlamaq lazımdır ki, 2015-ci ildə Çinin Avrasiyada öz nüfuzunu artırmaq və "ABŞ-ın başçılıq etdiyi dünya nizamına" meydan oxuyan təşkilatlar yaratmaq cəhdinin bir parçası olan Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) Azərbaycana dialoq tərəfdaşı statusu verilib. ŞƏT Azərbaycan üçün geniş iqtisadi məkan yaradır və Asiya ilə Avropa arasında ticarət-iqtisadi əməkdaşlıqda onun oynadığı rolu bir qədər də möhkəmləndirir. Belə demək olar ki, ŞƏT Azərbaycanın orta güc statusunu möhkəmləndirilməsinə şərait yaradan platformaya çevrilib.

Azərbaycan, həmçinin, İran və Rusiya ilə də strateji tərəfdaşlıq əlaqələrini inkişaf etdirir və onların sanksiyalardan yan keçərək iqtisadi əlaqələrini canlı tutma cəhdlərində əvəzolunmaz rol oynaya bilər. Bu kontekstdə Azərbaycan və Türkiyənin müttəfiqliyi isə Azərbaycana regional təsirini artırmağa və Rusiya və İranla daha sıx münasibətlərdə "riskli" davranışlar sərgiləməyə imkan verir. Bakının sabitliyini təmin etmək, onu regional gərginliyin azaldılmasında güclü tərəfdaşa çevirmək Çinin də maraqlarına uyğun olardı.

## İqtisadi Əməkdaşlıq

Azərbaycan Çinin irəli sürdüyü "Bir Kəmər, Bir Yol" təşəbbüsünə Qafqaz regionunda dəstək verən ilk ölkə olub. Bu baxımdan "Bir Kəmər, Bir Yol" strategiyasının həyata keçirilməsində Azərbaycan logistika mərkəzi, qovşaq və körpü rolunu oynayır. Eyni şəkildə Türkiyə də öz əhəmiyyətli coğrafi mövqeyi ilə orta dəhlizin açar ölkələrindəndir və onun inkişafına ən çox yatırım edənlər arasında gəlir. Bütün bu addımların məntiqi nəticəsidir ki, son illər ölkə arasında iqtisadi əməkdaşlıq sürətlə genişlənir. OEC-nin məlumatına görə, Azərbaycan və Türkiyə arasındakı ticarət dövriyyəsi 2022-ci ildə 7 milyard dollardan bir qədər yüksək olub (1995-ci ildə 200 milyon dollar). 2022-ci ildə Azərbaycanla Çin arasındakı ticarətin həcmi 1.7 milyard dollar (1995-ci ildə 3.5 milyon dollar), Türkiyə və Çin arasındakı ticarət dövriyyəsi isə 42 milyard dollardan yuxarı olub (1995-ci ildə 640 milyon dollar). Bunun 38.5 milyard dolları Çinin Türkiyəyə ixracı, 3.5 milyard dolları isə Türkiyənin Çinə ixracından ibarətdir [13].

Dəhliz tam potensialı ilə istifadəyə verilməyə başlayanda müxtəlif ölkələrə, o cümlədən, Azərbaycana və Türkiyəyə çoxlu imkanlar gətirəcək. Hazırda Çin və Avropa arasında ticarət dövriyyəsi təxminən 600 milyard dollardır. 2021-ci ilə qədər Çindən Avropaya il ərzində göndərilən 10 milyon konteynerin 96 faizi dəniz, 4 faizi isə Şimal dəhlizi adlanan Trans-Sibir dəmir yolu xətti ilə gedirdi. Şimal dəhlizi ilə müqayisədə Orta Dəhliz 2 min kilometr qısa, daha ucuz və iqlim şəraiti baxımından daha əlverişlidir [10]. "Orta Dəhliz" Təşəbbüsü çərçivəsində Bosfor dənizinin altından keçən Mərmərə dəmir yolu, üçüncü körpü, dünyanın ən böyük terminalına sahib hava limanı olan İstanbul hava limanı və Türkiyə ətrafında tikilən yeni limanlar, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad

İqtisadi Zonası, Bakı-Tbilisi-Qars dəmiryolu Orta Dəhlizin bir hissəsi hesab edilə bilər. Bundan əlavə, Türkiyə hazırda iki nüvə enerjisi mərkəzi tikir və Çinlə əməkdaşlıq edərək üçüncü atom elektrik stansiyasının tikintisini planlaşdırır, bu da Türkiyənin Çinlə strateji tərəfdaşlığı qoruyub inkişaf etdirməyi planlaşdırdığını göstərir.

Adıçəkilən infrastruktur layihələri nəticəsində 2021-ci ildə artıq Çinlə Avropa arasında baş verən ticarət daşımalarının 1%-i Orta Dəhliz üzərindən həyata keçirildi və bu hələki başlanğıc idi. Dəhliz boyunca ticarət 2021 və 2022-ci illər arasında həcm baxımından (ton) 10% artdı. Bunun səbəbi əsasən regional və transkontinental ticarət nümunələrində edilən dəyişikliklər idi. [7] Rusiyanın 2024-cü ilin fevralında Ukraynaya hücumundan sonra şimal dəhlizin öz aktuallığını müəyyən dərəcədə itirməsi nəticəsində Xəzər dənizi üzərindən yüklərin daşınması məqsədəuyğun variant kimi görünməyə başladı və Orta Dəhlizə tələbat xeyli artdı.

2017-ci il oktyabrın 30-da Azərbaycan və Türkiyə Gürcüstanla birlikdə 826 kilometrlik Bakı-Tbilisi-Qars dəmir yolunu rəsmən istifadəyə verib. 24 iyul 2019-cu ildə bu yol vasitəsilə Türkiyədən Gürcüstana ilk dəfə yük çatdırılıb. 19 aprel 2020-ci il tarixində isə 82 konteyner daşıyan 940 metr uzunluğunda karqo qatarı Orta Dəhliz boyunca Türkiyədən Azərbaycan vasitəsilə Özbəkistana yola salınıb. Covid-19 pandemiyası zamanı BTQ dəmir yolunda yükdaşımalara artan tələbat səbəbindən dəmir yolu xəttinin buraxılış qabiliyyətini 3500 tona çatdırmaq üçün Türkiyə-Gürcüstan sərhədinin Türkiyə tərəfində yerləşən Canbaz stansiyasında konteyner daşıma sistemi quraşdırıldı. [6] BTQ-nin yükdaşıma qabiliyyətinin artırılması və marşrut boyu yükdaşımalara artan tələbat Kəmər və Yol Təşəbbüsü çərçivəsində Azərbaycan və Türkiyənin strateji əhəmiyyətini daha da artırır. BTQ ildə 5 milyon ton yük daşıma qabiliyyətinə malikdir və Şərq-Qərb dəhlizində digər dəmir yolu marşrutlarına uyğun alternativ kimi çıxış edir.

BTQ-dən əlavə Bakıdan 70 km cənubda Ələt qəsəbəsində Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı (BBDTL) kompleksinin tikintisinə başlanıb və onun birinci mərhələsi artıq başa çatıb. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun mühüm hissəsi olan Bakı Limanı 400 hektarlıq ərazini əhatə etməklə müasir əməliyyat sisteminin tətbiqi ilə bütün növ yüklər üçün operativ yükaşırma xidməti, açıq və qapalı anbar sahələri təklif edir. Azərbaycanın əsas dəmiryolu və avtomagistrallarının birləşdiyi ərazidə yerləşən Bakı Limanının yükaşırma imkanı hazırda 15 milyon ton yük və 100 000 TEU (twenty-foot equivalent unit) ekvivalentində konteynerdir. Limanının 2-ci fazasının inşası üçün də layihə işlənilir ki, onun da icrası ilə Limanın illik yükaşırma gücü 25 milyon ton və 500 000 TEU konteynerə qədər artırıla bilər. Bundan başqa Orta Asiya ölkələrində mövcud olan böyük həcmdə gübrə potensialının mütəmadi olaraq məhz Azərbaycan üzərindən Türkiyə və Avropa ölkələrinə daşınması təmin etmək üçün hazırda Liman ərazisində illik yükaşırma gücü 2,5 milyon ton gübrə terminalının tikintisi davam etdirilir. Bu tikinti prosesi çərçivəsində ərazidə ümumi tutumu 60 000 ton olan iki anbar, yeni dizayn edilmiş vaqon yükləmə stansiyası, müxtəlif növ gübrələri birbaşa anbarlara, açıq və ya qapalı tipli vaqonlara boşaltmaq üçün ən müasir konveyer sisteminin də qurulması nəzərdə tutulur. Gələcəkdə liman ərazisində buğda terminalının və TIR parkının da tikintisi üçün layihə hazırlanıb. [5]

Ələt Azad İqtisadi Zonasının yaradılması haqqında qanunun qəbulu limanın əhəmiyyətini artırır, həm regional, həm də qeyri-regional ölkələrin diqqətini cəlb edir. Ələt Azad İqtisadi Zonasının yaradılması barədə qərar 2017-ci ildə, bununla bağlı müvafiq qanun isə 2018-ci ildə qəbul edilib. Azad İqtisadi Zona Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və qlobal nəqliyyat dəhlizlərinin (Orta Dəhliz və Şimal-Cənub dəhlizi) üzərində yerləşir. İqtisadi zonada investorlar əlavə dəyər vergisi, ödəmə mənbəyində vergi, mənfəət vergisi və hər hansı digər korporativ vergidən azaddır. 2023-cü il

iyunun 8-də Ələt Azad İqtisadi Zonasının birinci mərhələsinin açılışı olub. Ümumi sahəsi 850 hektar olan zonanın fəaliyyətə başlaması Azərbaycana iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkənin regionda mövqelərini daha da gücləndirəcək, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində Azərbaycanın strateji əhəmiyyətini daha da artıracaq [14].

Artıq qurulmuş infrastrukturun mövcudluğu və istismarı Azərbaycan və Türkiyənin Çin üçün strateji əhəmiyyətini daha da artırıb. Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Azərbaycan, Türkiyə və Çinin planlarında önəmli rol oynayır. Üstəlik, Orta dəhliz Azərbaycan və Türkiyəyə milli iqtisadiyyatı şaxələndirməyə, xüsusən də, Azərbaycanda neftdən asılılığı azaltmağa kömək edə bilər. İkitərəfli və çoxtərəfli əlaqələrin inkişafı həm də daha çox Çin sərmayəsinin cəlb edilməsinə, biznes mühitini inkişaf etdirməklə və onu ölkənin beynəlxalq təchizat şəbəkəsinin tərkib hissəsinə çevirməklə regionun nəqliyyat mərkəzinə çevrilmək potensialını artırmağa imkan verir. Siyasi baxımdan Çinin regionda artan nüfuzu Rusiya, Avropa İttifaqı və ABŞ kimi digər böyük oyunçuların təsir güclərini balanslaşdırmağa, Azərbaycan və Türkiyənin siyasi arenada manevr imkanlarını artırmağa və Çinin aparıcı rol oynadığı beynəlxalq təşkilatlarla əlaqələrini inkişaf etdirməyinə şərait yarada bilər (məsələn, Asiya İnfrastruktur İnvestisiya Bankı).

Bu məqamda onu vurğulamaq vacibdir ki, Azərbaycan və Ermənistan arasında 2020-ci il sentyabrın 27-də başlayıb noyabrın 10-da başa çatan 44 günlük İkinci Qarabağ müharibəsi Cənubi Qafqazın geosiyasi mənzərəsini dəyişdi. Uzun müddət davam edən Ermənistan-Azərbaycan münaqişəsi regional iqtisadi inteqrasiya və təhlükəsizliyin qarşısında duran əsas problem idi. 2020-ci il 10 noyabrda imzalanan atəşkəs sazişinin iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı 9-cu maddəsi regional inteqrasiyanın önünü açır. 9-cu maddədə deyilir ki: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir.” [2]

Azərbaycan qəti şəkildə inanır ki, 9-cu maddə Zəngəzur dəhlizinin açılmasını əhatə edir. və sərhədçilərinin Azərbaycan və Ermənistan arasında daşımalara nəzarət etməli olduğu nəzərdə tutulan Rusiya da “Zəngəzur dəhlizi” adlandırmasa da, bu marşrutun açılmasını dəstəklədiyini dəfələrlə bəyan edib. Sözügedən nəqliyyat marşrutunun istifadəyə verilməsi təqdirində Türkiyə tranzit üçün Gürcüstan və İran ərazilərindən istifadə etmədən Azərbaycana birbaşa çıxış əldə edə biləcək. Müqayisə üçün qeyd etmək lazımdır ki, Azərbaycanla Türkiyə arasında buradan açılacaq yeni quru yol Gürcüstan ərazisindən keçən Bakı-Tbilisi-Qars dəmiryolundan təxminən 340 km qısadır. Beləliklə, daşıma məsafəsinin qısalması və daşınma xərclərinin azalması Azərbaycan və Türkiyə arasında ikitərəfli ticarəti gücləndirəcək. Geniş nöqteyi-nəzərdən yanaşası olsaq, yeni dəhliz həm də Türkiyənin Orta Asiyadakı türk dünyası ilə əlaqəsi üçün alternativ və daha qısa marşrut təmin edər. Ona görə də Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, kommunikasiyaların bərpası türkdilli ölkələr arasında yeni inkişaf perspektivləri açmış olur.

## Təhlükəsizlik Əməkdaşlığı

“Kəmər və Yol” və “Orta Dəhliz”in sürətlə inkişaf etməsi ilə Çin, Azərbaycan və Türkiyə arasındakı siyasi və iqtisadi əlaqələrin möhkəmlənməsi ilə yanaşı, terror aktları riski də artacaq. Marşrut boyu istənilən terror aktı birbaşa xətt boyu olan ölkələrin iqtisadiyyatını sıxışdıracaq. Məsələn, təkcə 2017-ci ilin sentyabr ayında 123 terror aktı baş verib ki, onlardan 89-u “Kəmər və Yol” ölkələrində baş verib. “Kəmər və Yol boyunca olan ölkələrin əksəriyyəti (40) sülh və sabitlik içərisində olsa da, onlardan 15 ölkə hələ də risk altındadır; 11 ölkə daxili təlatümdən əziyyət çəkir, beş ölkə

isə qırmızı zonadadır (İraq, Əfqanıstan, Pakistan, Hindistan, Suriya). Bu ölkələrdə riskli hesab edilməli və təhlükəsizlik kontekstində aparılan analizlərdə gözdən qaçırılmamalı üç qüvvə var: terrorizm, dini ekstremizm və etnik separatizm [12].

2017-ci ildə Pekində keçirilən ilk "Kəmər və Yol Beynəlxalq Əməkdaşlıq Forumu"nun açılış mərasimində Türkiyə Prezidenti Ərdoğan Çin Prezident Si Cinpin və Rusiya Prezidenti Vladimir Putinin ardınca əsas nitq söyləyib. Ərdoğan Yaxın Şərqdən Foruma qatılan yeganə dövlət başçısı idi ki, bu da Türkiyənin "Kəmər və Yol" Təşəbbüsü ilə istənilən formada əməkdaşlıq qurduğunu göstərir. Ərdoğan çıxışında vurğulayıb ki, "Bir Kəmər və Bir Yol" Təşəbbüsü terrorizmin yayılmasını darmadağın edəcək: "Biz "Kəmər və Yol"un uğuru üçün terrorla mübarizə kampaniyalarını dəstəkləməyə, təhlükəsizlik və terrorla mübarizə sahəsində əməkdaşlığı dərinləşdirməyə hazırıq...". [15]

Türkiyə həmin illərdə "İslam Dövləti"nə qarşı formalaşmış qlobal koalisiyanın ən fəal üzvlərindən biri idi. O eyni zamanda PKK, FETÖ kimi digər terrorçu qruplaşmaları ilə də mübarizə aparır. 2014-cü ildə BMT Təhlükəsizlik Şurasının 2178 saylı icazəsi ilə Türkiyə xarici terrorçuların sızmasının qarşısını almaq üçün təhlükəsizlik tədbirlərini gücləndirib. Terrorizm təhlükəsi baxımından Azərbaycan qırmızı zonada olmasa da, mütəmadi olaraq belə cəhdlər olur və təhlükəsizlik orqanlarının tədbirləri nəticəsində qarşısı alınır.

Türkiyə ordusu eyni zamanda dünyanın müxtəlif bölgələrində təhlükəsizlik sahəsində fəaliyyətlə məşğul olur. Bu baxımdan 2021-2024-cü illərdə ölkəmizdə fəaliyyət göstərən Türkiyə-Rusiya birgə monitorinq mərkəzi də buna bir nümunədir. 2021-ci il yanvarın 30-da rəsmi mərasimlə fəaliyyətə başlamış monitorinq mərkəzində 60 türk hərbçisi atəşkəsə nəzarət edirdi. Onların fəaliyyəti 2024-cü il aprelin 26-da baş tutmuş bağlanış mərasimilə başa çatmışdır. Təhlükəsizlik sahəsində Azərbaycan və Türkiyə arasındakı əməkdaşlığın əsas sənədlərindən biri isə 2021-ci il iyunun 15-də imzalanmış Şuşa bəyannaməsidir. Həmin sənədin bəzi müddəaları konkret olaraq təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığa vurğu edir. Bəyannamədə deyilir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır.

Tərəflər milli və beynəlxalq öhdəliklərini nəzərə almaqla dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcək və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər...". Burada heç şübhə yoxdur ki, beynəlxalq öhdəliklər deyərkən iki ölkənin ticarət dəhlizləri layihələri çərçivəsində üzərlərinə götürdükləri öhdəliklər və onların təhlükəsizliyi məqsədilə əməkdaşlıq da nəzərdə tutulur. Bunu bəyanatın irəliləyən bölmələrində daha aydın başa düşmək olur. Belə ki, bəyanatın növbəti hissələrində deyilir: "Tərəflər iki ölkənin ərazisindən keçən Şərq-Qərb/Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə qarşılıqlı əməkdaşlığı möhkəmləndirəcəklər. Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirəcəklər.

Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat- kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər...

... Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər" [4, s.3-4].

Eyni tipli sövdələşmə sənədi prezident İlham Əliyevin 8-11 dekabr 2015-ci il tarixində Çinə etdiyi dövlət səfəri zamanı Çin prezidenti Si Cinpinlə də imzalanmışdır. İmzalanmış sənəddə əvvəlcə "iki ölkənin hərtərəfli əməkdaşlıq üçün yeni imkanların yaranması baxımından İpək Yolu İqtisadi Kəmərinə dair Çinin təşəbbüsünün dəstəklədiyi və təşəbbüsün həyata keçirilməsi üçün birgə səylər göstərməyə hazır" olduğu bildirilir. Daha sonra isə "terrorizm, separatizm və ekstremizmin bütün beynəlxalq birliyə ciddi təhlükə yaratdığı və bu təhdidlərin qarşısının alınması və onlara qarşı mübarizə üçün birgə səylər göstərilməsinin zəruriliyi qeyd olunur və iki ölkənin terrorizmlə mübarizə üzrə qarşılıqlı fəaliyyəti möhkəmləndirəcəyi" qeyd edilir [3].

Beləliklə, həm Azərbaycan, həm Türkiyə, həm də Çin başa düşür ki, təhlükəsizlik problemi təkcə əraziyə deyil, həm də "Kəmər və Yol" və "Orta Dəhliz" boyunca olan bütün ölkələrə təsir edəcək. Sabit azad ticarətin həyata keçirilməsi və "Kəmər və Yol" və "Orta dəhliz"in uyğunlaşdırılması üçün təhlükəsizlik sahəsində əməkdaşlığın qurulması zəruridir. İqtisadi inkişaf mühüm vasitələrdən biri olsa da, terror problemlərini təkbaşına həll edə bilməz. "Kəmər və Yol" və Orta Dəhliz təşəbbüsləri təkcə iqtisadi inteqrasiyanı təşviq etməyəcək, həm də terrorizm üçün ocaq yarada biləcək bəzi sosial problemləri də həll edəcək. İqtisadi inteqrasiya və inkişaf terror bataqlığını və sosial iğtişaşları qurudacaq. Ölkələr arasındakı mövcud antiterror əməkdaşlığının məqsədi "Bir Kəmər və Yol" və "Orta Dəhliz" boyunca yerləşən ərazilərdə potensial radikal düşüncələrin və terror hücumlarının qarşısını almaqdır. İki marşrut boyunca mövcud olan həssas nöqtələrin möhkəmləndirilməsi üçün Bakı, Ankara və Pekin gələcəkdə təhlükəsizlik sahəsində əməkdaşlığı daha gücləndirməlidirlər. Əgər marşrutun istənilən bir nöqtəsi qeyri-sabit olarsa, regiondan keçən marşrut daha böyük maneələrlə üzləşəcək. Beynəlxalq antiterror əməkdaşlığı təkcə sabit marşrut gətirməyəcək, həm də regional sülhə kömək edəcək.

Bu kontekstdə 2023-cü ilin sentyabrında baş verən 24 saatlıq anti-terror əməliyyatı sayəsində Azərbaycanın öz ərazilərini tamamilə işğaldan azad etməsi və bu ərazilərin bütün silahlı separatçı qüvvələrdən təmizlənməsinin Orta Dəhlizin təhlükəsizliyi baxımından çox önəmli nəticəsindən bəhs etmək mümkündür. Belə ki, bu hadisələr nəticəsində Orta Dəhliz üzərində yerləşən və hər zaman qızışmağa hazır bir münaqişə ocağı aradan qaldırıldı. Bu da öz növbəsində Orta Dəhlizlə bağlı təhlükəsizlik qayğılarını Cənubi Qafqaz regionunda əhəmiyyətli dərəcədə azaltmış oldu. Əgər işğal dövründə Ermənistan tərəfindən Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə bağlı vaxtaşırı səsləndirilən hədələyici fikirləri xatırlasaq, status-kvonun qalacağı təqdirdə gələcəkdə eyni risklərin Bakı-Tbilisi-Kars dəmiryolu, beləliklə, Orta Dəhlizlə bağlı da ortaya çıxacağını təxmin etmək çətin olmazdı. Lakin artıq öz ərazilərinə tam nəzarət imkanını bərpa etmiş Azərbaycan dövləti buradan keçən bütün növ nəqliyyat marşrutları və iqtisadi təşəbbüslərin təhlükəsizliyinə də söz verə bilər.

Xüsusilə Türkiyə Cümhuriyyətin 2053 və 2071-ci illər üçün müəyyən etdiyi uzunmüddətli hədəfləri və iqtisadi və siyasi inkişafı nəzərdə tutan "Çin arzusu"nu nəzərə alsaq,

deyə bilərik ki, bu ölkələr arasında təhlükəsizlik sahəsində əməkdaşlıq mütləq davam edəcək. Təsadüfi deyil ki, 2017-ci ildə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu keçirdiyi mətbuat konfransında "Çinin təhlükəsizliyi Türkiyənin təhlükəsizliyidir" demişdi ki, bu da Türkiyənin terrorla mübarizə mövzusunda Çin prezident Si Cinpinq tərəfindən irəli sürülmüş "ortaq tale" konsepsiyasını tədricən tanıması deməkdir. [8] Təhlükəsizlik olmadan daxildə və xaricdə iqtisadiyyatı inkişaf etdirmək mümkün deyil, ona görə də uzun tarixə malik bu sivilizasiyalar yavaş-yavaş, lakin əminliklə həyata keçirilən əməkdaşlığı davam etdirməyə borcludur.

**Nəticə**

Ölkələrimiz arasındakı əlaqələrin diqqətəlayiq irəliləyiş əldə etməsinin səbəblərindən biri də qloballaşmanın inkişafıdır. Hər üç ölkə inkişaf etməkdə olan ölkələrdir, xüsusilə, Çin və Türkiyə qlobal və regional güc mərkəzinə çevrilməyə iddialıdırlar. Onlar müxtəlif qlobal məsələlərdə bəzi ortaq maraqları bölüşürlər: qloballaşma, azad və açıq dünya ticarət sistemi, xarici investisiyalar, iqtisadi liberalizm, qlobal idarəetmə və regional sülh. Məsələn, Pakistan nümunəsi terrorla mübarizə sahəsində əməkdaşlığın müxtəlif aspektlərdən inkişaf etdirilməli olduğunun vacibliyi təsdiqləmişdir. Belə ki, təhlükəsizlik baxımından Pakistan qırmızı zonadadır, lakin Çinlə iqtisadi əməkdaşlıq onun təhlükəsizliyinə də müsbət təsir göstərir. Baxmayaraq ki, Türkiyə və Azərbaycan Pakistanla eyni təhlükəsizlik səviyyəsində deyil, Çin və Pakistan arasındakı ikitərəfli münasibətlərin təhlükəsizlik məsələlərinə müsbət təsiri, bunun Çin-Türkiyə və Çin-Azərbaycan münasibətlərində tətbiq oluna biləcəyini və oxşar nəticələr əldə edilə biləcəyini bizə deyir. Üstəlik bu baxımdan faydalanacaq tərəfin təkcə Türkiyə və Azərbaycan olmayacağını, bu əməkdaşlığın Çinə də böyük yarar təmin edə biləcəyini deyə bilərik. Türkiyə və Azərbaycanın terrorla və separatizmlə mübarizə sahəsindəki böyük təcrübəsi, Türkiyənin NATO-dakı statusu və Yaxın Şərq və Mərkəzi Asiyaya təsiri Azərbaycanın NATO və Avropa İttifaqı ilə təhlükəsizlik sahəsində uzun müddətli əməkdaşlığı bunu deməyə imkan verir. Bütün bu amillər sözügedən ölkələr arasında əməkdaşlığın müsbət nəticələr verəcəyindən xəbər verir. Bu ölkələrin təhlükəsizliklə bağlı təcrübələri və onların bölgəyə təsiri həm Şərqi Asiya, həm Qərbi Asiya, həm də Cənubi Qafqaza daha çox sabitlik gətirəcək.

Onların təhlükəsizlik sahəsində əməkdaşlığı birbaşa marşrutun sabitliyinə təsir edir və dolayısı ilə "Beş bağlantı" proqramının gələcəyini formalaşdırır. "Kəmər və Yol" təşəbbüsünün əsas çərçivə sənədində adı çəkilən beş bağlantı proqramına "siyasət koordinasiyası", "infrastruktur bağlantısı", "maneəsiz ticarət", "maliyyə inteqrasiyası" və "xalqlar arası əlaqə" daxildir. [9] "Beş Bağlantı Proqramı" ilə Azərbaycan, Türkiyə və Çin daha da məhsuldar əlaqələrə malik ola bilər. Birincisi, Bakı, Ankara və Pekin siyasət koordinasiyasını gücləndirməklə öz fərqli təcrübələrini bölüşə bilərlər. Siyasət koordinasiyası hər üç tərəf üçün təhlükəsizlik platformasının yaradılması baxımından əlavə etimad təmin edə bilər. Azərbaycan, Türkiyə və Çin siyasi qarşılıqlı etimadı artırmalı və siyasi ünsiyyəti gücləndirməlidir ki, bu da ölkələrin daha sıx əməkdaşlığına və qarşılıqlı anlaşmanın inkişafına gətirib çıxaracaq. Tərəflər davamlı və dərin inkişaf məqsədilə ikitərəfli strateji əməkdaşlıq əlaqələrini inkişaf etdirmək üçün əvvəllər əldə edilmiş mühüm konsensusu hərtərəfli həyata keçirməli və siyasi qarşılıqlı etimadı möhkəmləndirməlidir. Bundan əlavə, insanlar arasında və mədəni mübadilələr bir çox aspektlərdə uzunmüddətli davamlı münasibətlərin qorunmasına kömək edəcəkdir. Məsələn, TİKA (Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi) ölkələr arasında fəal əməkdaşlıq və mübadilələrin həyata keçirilməsi üçün də istifadə edilə bilər. TİKA və onun Azərbaycan və Çindəki həmkarı Türkiyə, Azərbaycan və Çində birgə layihələri həyata keçirmək üçün əməkdaşlıq edə bilər ki, bu da digər mübadilə proqramlarının əsasını təşkil edə bilər.

İkincisi, Azərbaycan, Türkiyə və Çin səmərəli iqtisadi layihələr və insanlar arasında mübadilə yolu ilə təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafına daha çox diqqət yetirməlidir. İqtisadiyyatın yazılmamış qaydalarından biri budur ki, heç kim təhlükəsizlik və sabitlik olmayan yerə sərmayə qoymaq istəməz. Buna görə də maneəsiz ticarət və təhlükəsizlik əməkdaşlığı bütün tərəflərin marağına xidmət edir. Beləliklə, maneəsiz ticarət hər üç tərəf üçün ən böyük təşviq mexanizmidir.

**Ədəbiyyat:**


1. Astanada "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub (Elektron resurs: https://president.az/az/articles/view/66389 müraciət tarixi: 05.07.2024)
2. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı (Elektron resurs: https://president.az/az/articles/view/45923 müraciət tarixi: 05.07.2024)
3. Azərbaycan Respublikası və Çin Xalq Respublikasının dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında birgə bəyannamə 10.12.2015 (Elektron resurs: http://az.china-embassy.gov.cn/eng/sbjw/202011/t20201118_1112331.htm müraciət tarixi: 30.04.2024)
4. Azərbaycan – Türkiyə əlaqələri, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası (elektron resurs: https://files.preslib.az/projects/azerturk/b6.pdf müraciət tarixi 22.05.2024)
5. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı haqqında (elektron resurs: https://portofbaku.com/az/page/bizim-liman/liman-haqqinda müraciət tarixi: 10.03.2024)
6. Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin tutumu artırıldı 13.05.2022 (Elektron resurs: https://www.raillynews.com/2020/05/capacity-of-baku-tbilisi-kars-railway-line-increased/ müraciət tarixi: 20.05.2024)
7. Birləşmiş Millətlər Təşkilatı (2021). "Dəniz Nəqliyyatının İcmalı 2021" ("Review of Maritime Transport 2021"). Birləşmiş Millətlər Təşkilatı Nəşriyyatı, Cenevrə, 2021.
8. Xarici İşlər naziri cənab Mövlud Çavuşoğlunun Çin Xalq Respublikasının Xarici İşlər naziri Vanq Yi ilə birgə mətbuat konfransı, 3 avqust 2017, Pekin (Elektron resurs: https://www.mfa.gov.tr/disisleri-bakani-sayin-mevlut-cavusoglu_nun-cin-halk-cumhuriyeti-disisleri-bakani-wang-yi-ile-ortak-basin-toplantisi_-3-agustos.tr.mfa müraciət tarixi: 23.05.2024)
9. Kəmər və Yol Təşəbbüsü: Beş Bağlantı İndeksi üzrə 2018 hesabatı (icmal) 10.01.2019 (elektron resurs: http://taiheinstitute.org/Content/2019/01-10/1657204494.html müraciət tarixi: 23.05.2024)
10. Kəmər və Yol layihəsi çərçivəsində Türkiyə-Çin əlaqələri 22.07.2019 (Elektron resurs: https://www.aa.com.tr/tr/analiz/kusak-yol-projesi-cercevesinde-turkiye-cin-iliskileri/1538112 müraciət tarixi 11.05.2024)
11. Mahir Hümbətov: Qovşaqların Qovşağı təşəbbüsü və onun uğurlu tətbiqi: Azərbaycan nümunəsi. Caucasus International, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi (SAM), cild 8, №2, səh. 111-121, Bakı, 2018.
12. M. Zhao, "Kəmər və Yol boyunca yerləşən ölkələrin təhlükəsizlik vəziyyətinin qiymətləndirilməsi və əks-tədbirlər", Çin Elmlər Akademiyasının Jurnalı, Pekin, 2015.

13. "Observatory of Economic Complexity" onlayn informasiya platformasının məlumat bazası (https://oec.world/en)
14. Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının birinci mərhələsinin açılış mərasimində iştirak edib 26.05.2023 (Elektron resurs: https://azertag.az/xeber/prezident_ilham_eliyev_elet_azad_iqtisadi_zonasinin_birinci_merhelesinin_achilis_merasiminde_istirak_edib_video-2653979 müraciət tarixi: 19.05.2024)
15. Terrora qarşı iqtisadiyyat yolu 14.05.2024 (elektron resurs: https://www.hurriyet.com.tr/ekonomi/terore-karsi-ekonomi-yolu-40457922 müraciət tarixi: 20.05.2024)

***Açar sözlər:*** *Kəmər və Yol Təşəbbüsü, Orta Dəhliz, iqtisadi əməkdaşlıq, təhlükəsizlik əməkdaşlığı, ticarət marşrutları, üçtərəfli əməkdaşlıq*

**Aghalar Aghalarli**

*Western Caspian University*
*Department of International Relations*
*Ph.D. Student*

## CHINA-AZERBAIJAN-TURKEY ECONOMIC AND SECURITY COOPERATION WITHIN THE FRAMEWORK OF "ONE BELT, ONE ROAD" AND "MIDDLE CORRIDOR" INITIATIVES

### ABSTRACT

This paper examines the economic and security cooperation between China, Azerbaijan, and Turkey within the frameworks of the "Belt and Road Initiative" (BRI) and the "Middle Corridor" (Trans-Caspian International Transport Route). Initiated by China in 2013, BRI aims to enhance infrastructure and connectivity across Eurasia, promoting economic integration. Azerbaijan and Turkey, strategically located along the Middle Corridor, play pivotal roles in facilitating the transportation of goods from East to West, significantly reducing transit times compared to other routes. The existing infrastructure, such as the Baku-Tbilisi-Kars railway, Baku International Sea Trade Port, and Istanbul International Airport, underscores the strategic importance of Azerbaijan and Turkey in China's plans, fostering economic diversification.

The study emphasizes the necessity of security collaboration to ensure the stability of these trade routes, highlighting that economic development alone cannot resolve terrorism issues. Enhanced cooperation among China, Azerbaijan, and Turkey is essential to prevent potential radicalization and terrorist activities along the BRI and Middle Corridor.

Moreover, the paper discusses the broader geopolitical implications of this trilateral cooperation, including perspectives on balancing the influence of major powers like Russia, the EU, and the US, and enhancing China's role in international organizations. The paper concludes that sustained political trust and economic collaboration are vital for the long-term success and security of the BRI and Middle Corridor, ultimately contributing to regional peace and stability.

***Keywords:*** *Belt and Road Initiative, Middle Corridor, economic cooperation, security cooperation, trade routes, trilateral cooperation*

**Агалар Агаларлы**

*Докторант кафедры Международных отношений*
*Западно-Каспийского Университета*

# СОТРУДНИЧЕСТВО КИТАЯ, АЗЕРБАЙДЖАНА И ТУРЦИИ В СФЕРЕ ЭКОНОМИКИ И БЕЗОПАСНОСТИ В РАМКАХ ИНИЦИАТИВ «ОДИН ПОЯС, ОДИН ПУТЬ» И «СРЕДИННЫЙ КОРИДОР»

## РЕЗЮМЕ

В статье рассматривается сотрудничество между Китаем, Азербайджаном и Турцией в сферах экономики и безопасности в рамках инициативы «Один пояс, один путь» (BRI) и «Срединного коридора» (Транскаспийского международного транспортного маршрута). Инициатива BRI, начатая Китаем в 2013 году, направлена на улучшение инфраструктуры и связности по всей Евразии, способствуя экономической интеграции. Азербайджан и Турция, стратегически расположенные вдоль Срединного коридора, играют ключевые роли в обеспечении транспортировки товаров с Востока на Запад, значительно сокращая время транзита по сравнению с другими маршрутами. Существующая инфраструктура, такая как железная дорога Баку-Тбилиси-Карс, Бакинский международный морской торговый порт, Стамбульский международный аэропорт подчеркивает стратегическое значение Азербайджана и Турции в планах Китая, способствуя экономической диверсификации.

Исследование подчеркивает необходимость сотрудничества в области безопасности для обеспечения стабильности этих торговых маршрутов, отмечая, что одного экономического развития недостаточно для решения проблем терроризма. Усиленное сотрудничество между Китаем, Азербайджаном и Турцией необходимо для предотвращения потенциальной радикализации и террористической деятельности вдоль BRI и Срединного коридора.

Кроме того, в статье обсуждаются более широкие геополитические последствия этого трёхстороннего сотрудничества, включая аспекты балансирования влияния крупных держав, таких как Россия, ЕС и США, а также усиление роли Китая в международных организациях. В заключении отмечается, что поддержание политического доверия и экономического сотрудничества жизненно важно для долгосрочного успеха и безопасности BRI и Срединного коридора, что в конечном итоге способствует региональному миру и стабильности.

***Ключевые слова:*** *Инициатива «Пояс и путь», «Средний коридор», экономическое сотрудничество, сотрудничество в области безопасности, торговые пути, трехстороннее сотрудничество*

DOI: https://doi.org/10.30546/2309-1347.2024.3.87.237

GƏNC TƏDQİQATÇILAR
YOUNG RESEARCHERS

BEYNƏLXALQ MÜNASİBƏTLƏR
INTERNATIONAL RELATIONS

UOT 327(091)

**GÜLARƏ BAĞIROVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının
Tarix kafedrasının doktorantı**

*e-mail: doktorantura-dia@mail.ru*

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN İLƏ MƏRKƏZİ ASİYA DÖVLƏTLƏRİ ARASINDA HƏRBİ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİNİN İNKİŞAF DİNAMİKASI

*Dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir.*

***Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev***

Müasir dövrdə hərbi qarşıdurmaların davam etməsi, beynəlxalq terrorizmin geniş vüsət alması, iqtisadi və təbii sərvətlər uğrunda mübarizə ilə müşayiət olunan geosiyasi güc mərkəzlərinin formalaşması bütün dünya üçün ciddi təhdidə çevrilməkdədir. Belə bir şəraitdə hər bir dövlətin qarşısında duran əsas məsələlərdən biri ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi məsələsidir. Bu bir çox dövlətlərin həm daxili, həm də xarici siyasətinin əsas prioritetini təşkil edir. Azərbaycan Respublikası ilə Mərkəzi Asiya dövlətləri arasında əməkdaşlıq əlaqələrinin mühüm istiqamətlərindən birini də məhz bu dövlətlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində hərbi əməkdaşlığın genişləndirilməsidir. Son illər Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə və eyni zamanda region dövlətlərinin başçılarının Azərbaycana səfərləri zamanı təhlükəsizlik və müdafiə sahəsində səylərin birləşdirilməsinə, əlaqələrin genişləndirilməsinə dair müzakirələrin aparılması, mövcud sahədə əməkdaşlığa dair sazişlərin imzalanması bunu bir daha təsdiqləyir. Cari ildən başlayaraq Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin hərbi birləşmələri arasında birgə təlimlərin keçirilməsi bu xüsusda mühüm əhəmiyyət kəsb edir. Buna misal olaraq, iyul ayında Qazaxıstanın Aktau şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan respublikalarının Müdafiə Nazirlikləri arasında imzalanmış birgə plana əsasən keçirilmiş “Birləşdik-2024” beynəlxalq əməliyyat-taktiki təlimini göstərmək olar. Bu cür təlimlərin keçirilməsi adı

çəkilən ölkələrin qoşun növləri arasında birgə fəaliyyətlərin planlaşdırılması və qarşılıqlı təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, "Birləşdik-2024" beynəlxalq təlimində ölkəmiz Quru Qoşunlarının, Hərbi Hava Qüvvələrinin və Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçuları, gəmi və aviasiya vasitələri ilə təmsil olunmuşdur [20].

Əslində, Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında hərbi sahədə əməkdaşlıq əlaqələrinin əsası hələ sovetlər dönəmində qoyulmuşdur. Bu ölkələrdən olan kursantlar Bakıda yerləşən hərbi məktəblərdə təhsil alırdılar və gün də almaqdadırlar. Məsələn, 2008-ci ildən başlayaraq Azərbaycanda Qazaxıstan Hərbi Dəniz Qüvvələri üçün hərbi kadrlar hazırlanır [27]. Müasir dövrdə Azərbaycan-Qazaxıstan hərbi əməkdaşlıq əlaqələri daha yeni istiqamətlər üzrə uğurla inkişaf edərək genişlənməkdədir. Belə ki, 2024-cü ilin iyun ayında Qazaxıstan Respublikasının müdafiə naziri R.Jaksılıkovun ölkəmizə səfəri zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sahəsində hərbi kəşfiyyat üzrə əməkdaşlıq haqqında Saziş" [15] imzalanmışdır. Qeyd etmək lazımdır ki, iki ölkə arasında hərbi kəşfiyyat sahəsində əməkdaşlığa dair müzakirələr 2022-ci ilin may ayında Qazaxıstan Respublikasının Müdafiə Nazirliyinin Baş Kəşfiyyat Departamentinin rəisi S.İztleuovun rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıya səfəri zamanı müzakirə edilmişdir. Eyni zamanda həmin görüşdə birgə təlimlərin keçirilməsinin vacibliyi də xüsusi vurğulanmışdır [7]. Məlum olduğu kimi, artıq bu məsələ reallığa çevrilmişdir. İki ölkənin orduları arasında birgə təlimlərin keçirilməsi hərbi əməkdaşlıq əlaqələrinin mühüm istiqamətini təşkil edir. Cari ilin avqust ayında Qazaxıstan Respublikasının Jarkent şəhərində yerləşən "Koktal" təlim poliqonunda iki ölkənin hərbi qulluqçularının "Altın Kıran-2024" ("Qızıl Qartal – 2024") birgə taktiki-xüsusi təlimini [1], sentyabr ayının əvvəlində isə Türküstan vilayətində Azərbaycan xüsusi təyinatlılarının "Sonsuz qardaşlıq III" çoxmillətli birgə xüsusi təyinatlı qüvvələr təlimində iştirakını [24] buna misal olaraq göstərmək olar.

Azərbaycan və Qazaxıstan Silahlı Qüvvələrinin Baş Qərargahları arasında da geniş əməkdaşlıq əlaqələri mövcuddur. Əməkdaşlığa dair niyyət protokolu 2015-ci il iyulun 13-dən 15-dək Qazaxıstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi S.Jasuzakovun Azərbaycana səfəri zamanı imzalanmışdır [28]. Keçirilən görüşlərdə S.Jasuzakov ölkəsinin Azərbaycanın müdafiə infrastrukturunun və hərbi sənayesinin təcrübəsindən istifadə etmək niyyətində olduğunu bildirmişdir [32]. İki ölkə arasında hərbi sahədə əməkdaşlığın gələcək perspektivləri barədə müzakirələr 2017-ci ilin oktyabr ayında Qazaxıstan Respublikasının Hərbi Hava Qüvvələri komandanının Bakıya işçi səfəri zamanı da aparılmışdır [29].

Azərbaycan Daxili Qoşunları və Qazaxıstan Milli Qvardiyası Komandanlıqları arasında təcrübə mübadiləsinin həyata keçirilməsi hər iki ölkənin bu növ qoşunlarının inkişafına müsbət təsir göstərir. Belə ki, Azərbaycan Daxili Qoşunları Komandanının nümayəndə heyətinin 2018-ci il mayın 29-dan 31-dək Qazaxıstana səfəri çərçivəsində nümayəndə heyətinə Qazaxıstanın Milli Qvardiyasının xidməti-döyüş fəaliyyəti barədə məlumat verilmiş, eyni zamanda Qoşunların İdarə Olunması Mərkəzində, Milli Müdafiə Universitetində, Milli Qvardiyanın Astana şəhərində yerləşən və Regional Komandanlığın hərbi hissələrində görüşlər keçirilmişdir [22]. Qarşı tərəfin Azərbaycana səfəri sentyabrın 28-də baş tutmuşdur. Səfər zamanı Qazaxıstan Milli Qvardiyasının Baş Komandanının başçılıq etdiyi nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində təlim-tədris prosesi ilə tanış olmuş, o cümlədən Qoşunların Təlim Mərkəzində xüsusi-taktiki təlimi izləmişdi [30].

Məlum olduğu kimi, Azərbaycanın hərbi hüquqşünaslarının xarici ölkələrdən olan həm-

karları ilə mütəmadi olaraq görüşləri keçirilir. Belə görüşlər qazaxıstanlı hərbi hüquqşünaslar ilə də həyata keçirilir. Azərbaycan və Qazaxıstan hərbi hüquqşünasları arasında hüquq xidmətinin təşkili, hərbi qanunvericilik və hərbi hüquqşünasların xidməti fəaliyyəti sahəsində əldə edilmiş təcrübəyə dair qarşılıqlı fikir mübadiləsinin aparılması hər iki ölkənin hərbi qanunvericiliyinin beynəlxalq hüquq və prinsipləri çərçivəsində uyğunlaşdırılmasında mühüm rol oynayır. Belə görüşlərdən biri 2024-cü ilin avqust ayında Bakıda baş tutmuşdur [19].

2022-ci il avqustun 24-də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana səfəri zamanı iki ölkə arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamənin imzalanması [6] Azərbaycan-Qazaxıstan əlaqələrinin gələcək inkişafı üçün əhəmiyyətli olması ilə yanaşı, ölkələrarası hərbi əməkdaşlığın daha dinamik inkişafı üçün yaxşı zəmin yaradır.

Türkmənistanın Xəzərin hüquqi statusu və dənizin sərvətlərindən istifadə sahəsində bir sıra iddiaları müəyyən müddət ərzində Azərbaycan-Türkmənistan münasibətlərinin inkişafına mane olmuşdur. Lakin 2017-ci il avqustun 8-də Strateji tərəfdaşlıq haqqında Bəyannamənin [14] imzalanması iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması istiqamətində mühüm addım oldu. Bəyannamənin imzalandığı gün Azərbaycan və Türkmənistanın həm daxili işlər, həm də fövqəladə hallar nazirlikləri arasında əməkdaşlıq haqqında sazişlərin bağlanması iki ölkənin müvafiq qurumları arasında gələcək illərdə əməkdaşlıq əlaqələrinin inkişafı üçün zəmin yaratmış oldu. Qeyd etmək lazımdır ki, iki ölkənin sərhəd qurumları arasında Xəzər dənizində transsərhəd mütəşəkkil cinayətkarlığın qarşısının alınması, həyata keçirilən transxəzər iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsi məqsədilə əməkdaşlıq əlaqələri də inkişaf etməkdədir [21].

2018-ci ilin noyabr ayında Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri zamanı iki ölkə arasında 20-dən artıq sənədin imzalanması qarşılıqlı maraq kəsb edən ikitərəfli münasibətlərin dərinləşməsini bir daha nümayiş etdirdi. Bu səfər, eyni zamanda Azərbaycan ilə Türkmənistan arasında təhlükəsizlik sahəsində əməkdaşlıq əlaqələrinin genişlənməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Azərbaycan və Türkmənistan dövlətləri başçılarının görüşündə Prezident İlham Əliyev hər iki ölkə üçün təhlükə yarada bilən təhdidlərə qarşı mübarizə sahəsində dövlətlərin səylərinin birləşdirilməsinin zəruriliyini vurğulamışdı [25].

Azərbaycan-Tacikistan hərbi əməkdaşlığının əsas istiqamətini hərbi təhsil sahəsində əlaqələr təşkil edir. Tərəflərarası razılaşmaya əsasən 2010-cu ildən başlayaraq Tacikistandan olan kursantlar Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alırlar. Bundan əlavə, 2018-ci ilin avqust ayında Tacikistan Prezidentinin Azərbaycana səfəri zamanı imzalanmış sazişə əsasən Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti Akademiyasında Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsinin sərhəd qoşunlarının hərbi qulluqçuları üçün təlimlər keçirilir [17]. 2023-cü ilin aprel ayında Tacikistanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatında da bildirmişdir ki, “...Tacikistandan olan 50-yə yaxın kursant Azərbaycanın Müdafiə Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin tədris müəssisələrində təhsil alır”. Ölkə başçısı tacik tələbələrin sayının artırılmasına şəraitin yaradılmasını vurğulayaraq, eyni zamanda azərbaycanlı tələbələrin də böyük sevinc və istəklə Tacikistanda təhsil ala biləcəklərini qeyd etmişdir [18]. Hərbi təhsil sisteminin inkişaf perspektivlərinə dair məsləhətləşmələr Tacikistan Müdafiə Nazirliyinin Kadrlar və Hərbi Təhsil İdarəsinin rəisi Hafiz Cabor Əzizzodanın rəhbərlik etdiyi nümayəndə heyətinin 2024-cü ilin oktyabr ayında ölkəmizə səfəri zamanı aparılmışdır. Heydər Əliyev adına Hərbi İnstitutu ziyarət edən nümayəndə heyətinə institutun tarixi və fəaliyyət istiqaməti

barədə brifinq təqdim edilmiş, burada təhsil alan tacik kursantlarla görüş keçirilmişdir [35].

Məlum olduğu kimi, Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsi zamanı nümayiş etdirdiyi yüksək peşəkarlıq və tətbiq etdiyi döyüş taktikaları dünyanın aparıcı hərbi elmi mərkəzlərində təhlil edilir və bir sıra ölkələrin Silahlı Qüvvələri tərəfindən bu təcrübə yaxından öyrənilir. Rusiyanın "Nasionalnaya oborona" jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenkonun söylədiyi kimi: "...dünya hələ belə bir vəziyyətlə rastlaşmamışdı ki, bir ordu tərəfindən digər ordu ilə vuruşarkən bu sayda yüksəkdəqiqlikli silahlardan istifadə edilsin. Zərbə uçuş aparatlarından istifadənin miqyasına və intensivliyinə görə bu, dünya tarixində ilk belə hadisədir... Buraya Azərbaycan Ordusu tərəfindən... hava hücumundan müdafiə vasitələrinin və daha sonra zirehli texnikanın, yüksək dərəcədə müdafiə olunan hədəflərin məhv edilməsi üçün pilotsuz üçüş aparatlarından geniş istifadə taktikasını da əlavə etmək lazımdır" [23]. Azərbaycan Ordusunun bu təcrübəsinə maraq göstərən ölkələrdən biri də Tacikistandır. Cari ilin iyun ayında Azərbaycan və Tacikistan Hərbi Hava Qüvvələrinin (HHQ) nümayəndələri arasında keçirilən görüşdə İkinci Qarabağ müharibəsində HHQ-nin rolu haqqında məlumat verilmiş, pilotsuz uçuş aparatlarından istifadəyə dair fikir mübadiləsi aparılmışdır. Səfər zamanı Tacikistan nümayəndə heyəti HHQ-nin hərbi hissələrində və hərbi təhsil müəssisələrində olmuşdur. Tacikistanlı qonaqlara Azərbaycan Ordusunun arsenalında yer alan bəzi pilotsuz uçuş aparatları əyani olaraq göstərilmiş, qurğuların taktiki-texniki xüsusiyyətləri barədə məlumat verilmişdir [34]. Bu cür görüşlərin keçirilməsi gələcək illərdə hər iki ölkənin Hərbi Hava Qüvvələri arasında da əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün yaxşı zəmin yaradır.

Özbəkistan-Azərbaycan hərbi əməkdaşlıq əlaqələrinə gəldikdə onu qeyd etmək lazımdır ki, bu əlaqələr də ildən-ilə inkişaf edərək genişlənməkdədir. 2016-cı ilin oktyabr ayında Azərbaycanın Müdafiə nazirinin Özbəkistana rəsmi səfəri zamanı Özbəkistan Respublikası Silahlı Qüvvələrinin Akademiyası və Daşkənd Ali Ümumqoşun Komandirlər Məktəbində [4] və 2017-ci ilin noyabr ayında Özbəkistanın Müdafiə nazirinin Azərbaycana səfəri zamanı Hərbi Elmi Tədqiqat İnstitutunda [33] keçirilən görüşlərdə iki ölkə arasında hərbi təhsil sahəsində ikitərəfli əməkdaşlığın imkanları ətrafında müzakirələr aparılmışdır. Danışıqların nəticəsi olaraq, 2018-ci ildə Azərbaycan və Özbəkistan Müdafiə Nazirlikləri arasında hərbi təhsil sahəsində təcrübə mübadiləsi ilə bağlı birgə tədbirlərin keçirilməsi və Özbəkistan hərbi mütəxəssislərinin Azərbaycan ərazisində keçirilən beynəlxalq təlimlərdə müşahidəçi qismində iştirak edəcəkləri barədə razılıq əldə edilmişdir [11]. İki ölkənin müdafiə nazirlərinin növbəti görüşü 2019-cu ilin oktyabr ayında Bakıda baş tutmuşdur [12].

Azərbaycan və Özbəkistan hərbi mütəxəssisləri arasında keçirilən görüşlər təcrübə mübadiləsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buna misal olaraq, 2024-cü ilin sentyabr ayında Özbəkistan Respublikasının Müdafiə Nazirliyinin nümayəndə heyətinin ölkəmizə səfərini göstərmək olar. Səfər zamanı özbəkistanlı qonaqlar Müdafiə Nazirliyinin Mühəndis Qoşunları Baş İdarəsində olmuş, nümayəndə heyətinə Azərbaycan Ordusunun azad edilmiş ərazilərdə mühəndis-istehkam bölmələri tərəfindən həyata keçirilən mühəndis təminatı üzrə tədbirlər barədə məlumat verilmişdir. Eyni zamanda qonaqlar mühəndis şəhərciyində hərbi qulluqçuların iştirakı ilə keçirilən praktiki məşğələləri də izləmişdilər [8].

2022-ci ilin iyun ayında Prezident İlham Əliyevin Özbəkistan Respublikasına rəsmi səfəri zamanı iki ölkə arasında həm hərbi, həm də hərbi-texniki əməkdaşlıq haqqında Sazişlərin [9], 2024-cü ilin avqust ayında isə "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin [10] imzalanması hərbi sahədə

ölkələrarası əməkdaşlıq əlaqələrinin gələcək illərdə də uğurla inkişaf etməsi üçün geniş imkanlar açır. İki ölkə arasında müttəfiqlik münasibətlərinin qurulmasını yüksək qiymətləndirən Prezident İlham Əliyev bunun mühüm xarici siyasət addımı olduğunu vurğulayaraq, gələcək illərdə ölkələrarası münasibətləri, bir çox hallarda regional siyasəti müəyyən edəcəyinə əminliyini bildirmişdir: "Bu gün Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionları vahid geosiyasi regiona çevrilir və regionlarımızda müsbət proseslər Özbəkistan ilə Azərbaycan arasında səmərəli əməkdaşlıqdan asılı olacaq" [13].

Hər iki ölkənin hərbi birləşmələrinin birgə təlimlərdə iştirakı regional təhlükəsizliyin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, Azərbaycan və Özbəkistan Müdafiə Nazirlikləri arasında imzalanmış ikitərəfli əməkdaşlıq Planına əsasən sentyabrın 30-dan oktyabrın 5-dək Bakıda "Məharət-2024" kompüter dəstəkli birgə komanda-qərargah təlimi keçirilmişdir. Təlimin əsas məqsədi iki ölkənin ordularının əməliyyat bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi, əməliyyat bölmə komandirlərinin hərbi qərar qəbuletmə, təşəbbüs göstərmə və idarəetmə bacarıqlarının inkişaf etdirilməsindən ibarət olmuşdur [5].

Azərbaycan və Qırğızıstan respublikaları arasında hərbi əməkdaşlığın hüquqi əsasını 2004-cü ilin iyun ayında Bakıda imzalanmış saziş [16] təşkil edir. Həmin sazişə əsasən 2007-ci ilin oktyabr ayında Qırğızıstanın hərbi qulluqçularının Azərbaycanın hərbi məktəblərində təhsil almaları haqqında Protokol [31] imzalanmışdır. 2015-ci ilin iyun ayında Qırğızıstanın Baş naziri Azərbaycanın Müdafiə naziri ilə görüşündə Qırğızıstan-Azərbaycan hərbi əməkdaşlığının iki ölkə arasında münasibətlərin bütün spektrinin ən mühüm elementlərindən biri olduğunu vurğulayaraq, ölkəsinin bu əməkdaşlığın gücləndirilməsində maraqlı olduğunu qeyd etmişdir. 2022-ci ilin aprel ayında Qırğızıstan Prezidentinin Azərbaycana səfəri zamanı iki ölkə arasında strateji tərəfdaşlıq haqqında Bəyannamənin imzalanması və oktyabrın 11-də Azərbaycan Prezidenti İlham Əliyevin ilk dəfə olaraq Qırğızıstana rəsmi səfəri ikitərəfli münasibətlərin dərinləşməsi ilə yanaşı, iki ölkə arasında hərbi əməkdaşlığın genişlənməsi üçün də geniş imkanlar açmış oldu. 2023-cü ilin iyul ayında Qırğız Respublikasının müdafiə nazirinin Bakıya səfəri [2] zamanı iki ölkə arasında hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinin, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlərin müzakirə edilməsi bunu söyləməyə əsas verir.

İki ölkənin hərbi tibb mütəxəssisləri arasında keçirilən görüşlər də mövcud istiqamətdə əlaqələrin genişlənməsində mühüm rol oynayır. 2024-cü ilin iyun ayında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Tibb İdarəsində iki ölkənin mütəxəssisləri arasında keçirilən görüşdə hərbi tibb sahəsində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır. Səfər çərçivəsində qırğızıstanlı nümayəndə heyəti Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı, Mərkəzi Hərbi Poliklinika, Mərkəzi Stomatoloji Poliklinika, Sanitar-Epidemioloji Mərkəz, Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzində olmuş, burada xidmət edən həkimlərin fəaliyyətləri ilə tanış olmuşdular [3].

Beləliklə, Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əldə etdiyi Böyük Qələbə və ölkəmizin dünyada yüksələn nüfuzu bir çox dövlətlərin Azərbaycanla əməkdaşlığa və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə marağını artırır və onların arasında Mərkəzi Asiya dövlətləri xüsusi yer tutur. Son illər region dövlətlərinin başçılarının ölkəmizə və eyni zamanda Azərbaycan Prezidentinin Mərkəzi Asiya ölkələrinə ardıcıl səfərləri dövlətlərarası münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir. Prezident İlham Əliyevin Mərkəzi Asiya və Azərbaycan Respublikasının

Dövlət Başçılarının 2024-cü ilin avqust ayında Astanada keçirilən görüşündə də söylədiyi kimi: “Bu, son iki ildə mənim Mərkəzi Asiya ölkələrinə 16-cı səfərimdir. Həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarlarım Azərbaycanı ümumilikdə 15 dəfə ziyarət ediblər”. Həmin görüşdə regional təhlükəsizliklə bağlı ciddi çağırışların səsləndirilməsi bu ölkələr arasında hərbi əməkdaşlıq əlaqələrinin genişləndirilməsini zəruri edir. Bunu Prezident İlham Əliyev də xüsusi vurğulayaraq söyləmişdir: “Dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da genişləndirilməsini tələb edir” [26]. Bu xüsusda, Azərbaycan Prezidenti görüşdən bir ay əvvəl Qazaxıstanda keçirilmiş və Azərbaycan Ordusunun da iştirak etdiyi “Birləşdik-2024” beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini diqqətə çatdırmışdır. Ölkə başçısı region dövlətləri arasında təhlükəsizlik sahəsində əməkdaşlığın zəruri olduğunu həm Türk Dövlətləri Təşkilatının sammitlərində, həm də digər beynəlxalq tədbirlərdə dəfələrlə qeyd etmişdir. Bu nöqteyi-nəzərdən Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında hərbi sahədə əməkdaşlığın genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Göründüyü kimi, artıq bu ölkələrin orduları arasında birgə təlimlərin keçirilməsi, hərbi, hərbi-texniki sahədə əməkdaşlığa dair sazişlərin imzalanması, təcrübə mübadiləsinin həyata keçirilməsi müasir dövrdə Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında hərbi əməkdaşlıq əlaqələrinin yüksələn xəttlə inkişaf etdiyini nümayiş etdirir. Bu isə Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin, eyni zamanda regionun təhlükəsizliyinin təmin edilməsi baxımından çox önəmlidir.

**Ədəbiyyat:**


1. Azərbaycan hərbçiləri "Altın Kıran-2024" birgə taktiki-xüsusi təlimində iştirak edirlər // Azərbaycan Ordusu. – 2024, 24 avqust. – s. 8
2. Azərbaycan ilə Qırğızıstan arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib: [Elektron resurs] / - 06 iyul, 2023. URL: https://mod.gov.az/az/news/azerbaycan-ile-qirgizistan-arasinda-herbi-emekdasliq-meseleleri-muzakire-edilib-video-48318.html
3. Azərbaycan ilə Qırğızıstan arasında hərbi tibb sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib: [Elektron resurs] / - 01 iyun, 2024. URL: https://mod.gov.az/az/news/azerbaycan-ve-qirgizistan-arasinda-herbi-tibb-sahesinde-emekdasligin-inkisaf-perspektivleri-muzakire-edilib-51937.html
4. Azərbaycan ilə Özbəkistan arasında hərbi əməkdaşlığın perspektivləri müzakirə edilib // Azərbaycan Ordusu. – 2016, 8 oktyabr. - s. 2
5. Azərbaycan ilə Özbəkistan arasında kompüter dəstəkli taktiki komanda-qərargah təlimi keçiriləcək: [Elektron resurs] / - 29 sentyabr, 2024. URL: https://mod.gov.az/az/news/azerbaycan-ile-ozbekistan-arasinda-komputer-destekli-taktiki-komanda-qerargah-telimi-kecirilecek-53001.html
6. Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb: [Elektron resurs] / - 24 avqust, 2022. URL: https://president.az/az/articles/view/57013
7. Azərbaycan Ordusunun Baş Qərargah rəisi qazaxıstanlı nümayəndə heyəti ilə görüşüb // Azərbaycan Ordusu. – 2022, 14 may. – s. 3
8. Azərbaycan-Özbəkistan hərbi mütəxəssisləri arasında görüş keçirilib // Azərbaycan Ordusu- 2024, 07 sentyabr. - s. 4
9. Azərbaycan-Özbəkistan sənədləri imzalanıb: [Elektron resurs] / - 21 iyun, 2022. URL: https://president.az/az/articles/view/56481
10. Azərbaycan-Özbəkistan sənədləri imzalanıb: [Elektron resurs] / - 23 avqust, 2024. URL: https://president.az/az/articles/view/66727
11. Azərbaycan və Özbəkistanın müdafiə nazirlikləri arasında hərbi əməkdaşlıq planı imzalanıb: [Elektron resurs] / - 2018, 11 oktyabr. URL:https://mod.gov.az/az/news/azerbaycan-ve-ozbekistanin-mudafie-nazirlikleri-arasinda-herbi-emekdasliq-plani-imzalanib-24507.html
12. Azərbaycan və Özbəkistanın müdafiə nazirlikləri arasında hərbi əməkdaşlığın genişləndirilməsi məsələsi müzakirə olunub //Azərbaycan Ordusu. – 2019, 30 oktyabr. – s. 2
13. Azərbaycan və Özbəkistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər: [Elektron resurs] / - 23 avqust, 2024. URL: https://president.az/az/articles/view/66728
14. Azərbaycan Respublikası ilə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə. 8 avqust 2017: [Elektron resurs] / - URL:https://e-qanun.az/framework/37712
15. "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sahəsində hərbi kəşfiyyat üzrə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 26 iyul 2024-cü il tarixli Fərmanı: [Elektron resurs] / URL: https://president.az/az/articles/view/66572
16. Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş – 01 iyun 2004: [Elektron resurs] / URL: https://e-qanun.az/framework/6203
17. Azərbaycan-Tacikistan sənədləri imzalanıb: [Elektron resurs] / - 2018, 10

avqust. URL: https://president.az/articles/29653
18. Azərbaycan və Tacikistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər: [Elektron resurs] / 05 aprel, 2023. URL: https://president.az/az/articles/view/59307
19. Bakıda Azərbaycan və Qazaxıstanın hərbi hüquqşünaslarının işgüzar görüşü keçirilib // Azərbaycan Ordusu. – 2024, 31 avqust. – s. 6
20. “Birləşdik-2024” təliminin açılış mərasimi keçirilib: [Elektron resurs] - 02 iyul, 2024 URL: https://mod.gov.az/az/news/quot-birlesdik-2024-teliminin-acilis-merasimi-kecirilib-video-52318.html
21. Cəbrayılov, A. Azərbaycan Sərhəd Mühafizəsi: tarix və bu gün // Xalq qəzeti. - 2009, 18 avqust.- s.3
22. DQ Komandanı Qazaxıstanda rəsmi səfərdə olub: [Elektron resurs] / - 1 iyun, 2018. URL: https://ordu.az/az/news/133698/dq-komandani-qazaxistanda-resmi-seferde-olub
23. Hərb sənətimizin böyük Zəfəri: [Elektron resurs] / 30 yanvar, 2021. URL: https://mod.gov.az/az/pre/34659.html
24. Xüsusi təyinatlılarımız “Sonsuz qardaşlıq-III” təlimində iştirak edirlər // Azərbaycan Ordusu. – 2024, 11 sentyabr. – s. 3
25. İlham Əliyevin və Prezident Qurbanqulu Berdiməhəmmədovun geniş tərkibdə görüşü olub: [Elektron resurs] / - 22 noyabr, 2018. URL:https://president.az/articles/30825
26. İlham Əliyev Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə çıxış edib: [Elektron resurs] / - 09 avqust, 2024. URL: https://president.az/az/articles/view/66644
27. Qazaxıstanda Bakı ilə əməkdaşlıq alqışlanır: [Elektron resurs] / - 12 oktyabr, 2007. URL: http://hafta.az/index2.php?m=yazi&id=65481
28. Qazaxıstanın Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Azərbaycana rəsmi səfərə gəlib // Azərbaycan Ordusu. – 2015, 16 iyul. - s.2
29. Qazaxıstan HHQ-nin nümayəndə heyəti Azərbaycanda səfərdədir // Azərbaycan Ordusu. – 2017, 11 oktyabr. – s. 4
30. Qazaxıstan Milli Qvardiyasının Baş Komandanı Azərbaycana rəsmi səfərə gəlib: [Elektron resurs] / - 30 sentyabr, 2018. URL:http://az.azeridefence.com/qazaxistan-milli-qvardiyasinin-bas-komandani-azerbaycana-resmi-sefere-gelib/
31. Qırğızıstan-Azərbaycan münasibətləri müsbət inkişaf perspektivlərinə malikdir. Aycigit Buranov, Qırğızıstan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri: [Elektron resurs] / - 2017, 18 aprel. URL: http://newtimes.az/az/diplomatik/5145/
32. Müdafiə naziri Qazaxıstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşüb // Azərbaycan Ordusu. – 2015, 16 iyul. - s.2
33. Özbəkistanın Müdafiə naziri Silahlı Qüvvələrin Hərbi Akademiyasında olub // Azərbaycan Ordusu. – 2017, 22 noyabr. - s. 3
34. Tacikistan nümayəndə heyəti Azərbaycan HHQ-ni ziyarət edib: [Elektron resurs] / 03 iyun, 2024. URL: https://mod.gov.az/az/news/tacikistan-numayende-heyeti-azerbaycan-hhq-ni-ziyaret-edib-51951.html
35. Tacikistan nümayəndə heyəti hərbi institutu ziyarət edib: [Elektron resurs] / 10 oktyabr, 2024. URL:https://mod.gov.az/az/news/tacikistan-numayende-heyeti-herbi-institutu-ziyaret-edib-video-53097.html

***Acar sözlər:*** *Azərbaycan, Mərkəzi Asiya, hərbi əməkdaşlıq, birgə hərbi təlimlər, regional təhlükəsizlik*

**Gulara Baghirova**

*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Ph.D. student*

# DYNAMICS OF MILITARY COOPERATION DEVELOPMENT BETWEEN AZERBAIJAN AND CENTRAL ASIAN STATES IN THE MODERN PERIOD

## ABSTRACT

In the modern period, ongoing military conflicts, the spread of international terrorism, and the formation of geopolitical centers of power - accompanied by the struggle for economic and natural resources, pose serious threats to the entire world. In such conditions, one of the main issues facing each state is the issue of ensuring the military security of the country. This is a primary priority of both domestic and foreign policy in many countries. One of the important areas of cooperation between the Republic of Azerbaijan and the Central Asian states is the expansion of military cooperation in order to ensure the security of these states. This article examines the main directions and aspects of military cooperation between Azerbaijan and the Central Asian States, as well as the dynamics of the development of these relations. It should be noted that these relations are dynamically evolving at the present stage, which in turn contributes to the security of each of the countries and the entire region.

***Keywords:*** *Azerbaijan, Central Asia, military cooperation, joint military exercises, regional security*

**Гюляра Багирова**

*Докторант кафедры Истории*
*Академии Государственного Управления*
*При Президенте Азербайджанской Республики*

# ДИНАМИКА РАЗВИТИЯ ВОЕННОГО СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНА С ГОСУДАРСТВАМИ ЦЕНТРАЛЬНОЙ АЗИИ В СОВРЕМЕННЫЙ ПЕРИОД

## РЕЗЮМЕ

В современной период продолжающиеся военные конфликты, распространение международного терроризма, формирование геополитических центров силы, сопровождающееся борьбой за экономические и природные ресурсы, становятся серьезной угрозой для всего мира. В таких условиях одним из главных вопросов, стоящих перед каждым государством, является вопрос обеспечения военной безопасности страны. Это главный приоритет как внутренней, так и внешней политики многих государств. Одним из важных направлений сотрудничества между Азербайджанской Республикой и государствами Центральной Азии является расширение военного сотрудничества с целью обеспечения безопасности этих государств. В данной статье рассматриваются основные направления и аспекты военного сотрудничества Азербайджана со странами Центральной Азии, а также динамика развития этих отношений. Следует отметить, что эти отношения на современном этапе динамично развиваются, а это в свою очередь способствует обеспечению безопасности как каждой из стран, так и всего региона.

***Ключевые слова:*** *Азербайджан, Центральная Азия, военное сотрудничество, совместные военные учения, региональная безопасность*

DOI: https://doi.org/10.30546/2309-1347.2024.3.87.238

**G Ə N C T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G R E S E A R C H E R S**

**B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L R E L A T I O N S**

UOT 327.5; 327(4/9)

**AYGÜN QURBANOVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**"Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının doktorantı**

*e-mail: qurbanova010@gmail.com*

# CƏNUBİ QAFQAZDA HƏRBİ MÜNAQİŞƏLƏRİN İNSAN TƏHLÜKƏSİZLİYİNİN SİYASİ, SOSİAL-İQTİSADİ VƏ EKOLOJİ ASPEKTLƏRİNƏ TƏSİRİ

Əvvəla, insan təhlükəsizliyinin vahid tərifi yoxdur. Beynəlxalq münasibətlərə və inkişaf məsələlərinə həsr olunmuş ədəbiyyatda ona müxtəlif terminlərlə istinad edilmişdir: yeni nəzəriyyə və ya konsepsiya, təhlil üçün başlanğıc nöqtəsi, dünya görüşü, siyasi gündəm və ya siyasət çərçivəsi kimi. İnsan təhlükəsizliyinin tərifi açıq sual olaraq qalmasına baxmayaraq, onun tərəfdarları arasında konsensus var ki, diqqətin dövlət mərkəzli yanaşmadan təhlükəsizliyə xalq mərkəzli yanaşmasına keçilməlidir, dövlət sərhədlərinin təhlükəsizliyi ilə bağlı narahatlıq öz yerini o sərhədlər daxilində yaşayan insanların təhlükəsizliyi ilə bağlı narahatlığa verməlidir [13, s.5].

Buzan və Vever əsərlərində təhlükəsizlik prosesləri ilə regionların formalaşması arasındakı əlaqəni aydın şəkildə göstərirlər. Onlar hesab edirlər ki, soyuq müharibənin başa çatması regional səviyyənin beynəlxalq təhlükəsizlikdə əhəmiyyətini artırıb, baxmayaraq ki, bu, bütün regionlarda təhlükəsizlik baxımından regional səviyyənin daxili və ya beynəlxalq səviyyədən üstün olması demək deyil. [11, s.3].

Qafqaz Avropa ilə Asiya arasında unikal körpüdür. Bu region enerji təhlükəsizliyi baxımından son dərəcə vacibdir. Cənubi Qafqazın üç respublikası Sovet İttifaqının dağılmasından sonra fərqli istiqamətlər seçmişdilər. Bu gün Cənubi Qafqaz həm siyasi, həm də iqtisadi baxımdan çox müxtəlifdir. Ermənistan-Azərbaycan, Abxaziya və Cənubi Osetiyadakı Qafqaz etnik münaqişələri regionda qeyri-sabitlik faktorlarının mövcudluğundan xəbər verirdi. Əslində etnik münaqişələr bir çox iqtisadi və sənaye strukturlarının dağılmasına, mütəşəkkil cinayətlərin artmasına və yayılmasına, ekoloji problemlərə və hər şeydən əvvəl regionda qeyri siyasi sabitliyə gətirib çıxarıb. Digər tərəfdən, bu münaqişələr bölgədə davamlı olaraq etnik millətçiliyi bir ideologiya şəklində təbliğ etmişdir. Hazırda Ermənistan və Azərbaycan arasında ziddiyyətlər, Gürcüstanın mərkəzi hökuməti ilə Abxaziya və Cənubi Osetiyanın separatçı regionları arasında münaqişələr hələ də həll olunmamış qalır [12, s.92].

Ümumiyyətlə, Azərbaycan və Gürcüstan daxilində etnik müxtəlifliyin yüksək olması,

bəzi etnik qrupların (erməni, osetin və abxazların) siyasi olaraq təşkilatlanması kənar faktorların təsiri ilə bu respublikaların ciddi siyasi, iqtisadi, sosial problemlərlə üzləşməsinə səbəb olmuşdur. Cənubi Qafqazın, həmçinin, ölkəmizin ən yeni tarixini yazdıqlarımızın təsdiqi kimi qəbul edə bilərik [7, s.4]. Ermənistanın Azərbaycana təcavüzü Azərbaycan ərazisinin bir hissəsi Ermənistan tərəfindən işğal edilmiş, bu da coğrafi vəziyyəti dəyişmiş və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycan Respublikası arasında nəqliyyatın hərəkəti dayandırılmışdır. Bütün bunlar hər iki tərəf üçün sosial və iqtisadi problemlər yaratmışdır.

Təhlükəsiz Cənubi Qafqaz Avrasiya əlaqələri, ticarət axını, enerji təhlükəsizliyi və səmərəli nəqliyyat üçün həyati əhəmiyyət kəsb edir. Azərbaycan və Ermənistan arasında sülh, Türkiyə və Orta Asiya ilə layihələrin tamamlanması çiçəklənən region üçün çox vacibdir. Ən mühüm inkişaf enerji təchizatı sahəsində olmuşdur. Avropa ölkələri öz enerji ehtiyatlarının şaxələndirilməsi siyasəti çərçivəsində 2022-ci il iyulun 18-də Azərbaycanla yeni enerji anlaşması memorandumu imzalamışdılar. Bu Anlaşma Memorandumu ilə Azərbaycan “Şahdəniz-2” layihəsindən Azərbaycan qazını Avropa bazarına daşıyan Cənubi Qafqaz Dəhlizinin tutumunun 2027-ci ilə qədər 32 milyard kubmetrə qədər artırılması qərara alınmışdır.

Ermənistan və Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin olmaması səbəbindən bir çox mənfi təsirlər iqtisadi vəziyyətə və yaşayış şəraitinə və nəticədə həyat standartlarına və iki ölkə vətəndaşlarının ümumi rifahına təsir göstərmişdir. Əhəmiyyətli məqam ondan ibarətdir ki, problemin gec həlli və münaqişəni sona çatdırmaq üçün lazımi hazırlıq və tədbirlərin görülməsində hətta cüzi də olsa irəliləyişin olmaması bu baxımdan problemlərin həlli imkanlarının axtarışını və tapılmasını çətinləşdirmişdir. Bu yolda əsas maneə tərəflərin bir-birinə inamsızlığı, Ermənistanın düşmən münasibəti və onun bu baxışını gücləndirməsidir.

Ermənistan Azərbaycanla sülh müqaviləsi bağlamaq əvəzinə müxtəlif bəhanələrlə prosesi ləngidir. Azərbaycan tərəflərin ərazi bütövlüyünün qarşılıqlı tanınmasını ehtiva edən beş bənddən ibarət təkliflər paketi təqdim edib. Son nəticədə Ermənistanın baş naziri Azərbaycanın ərazi bütövlüyünü tanıdı. Bununla belə, Azərbaycanın ərazi dairəsində yaşayan ermənilərin hüquqları və təhlükəsizliyi üçün beynəlxalq mexanizm tələbi hələ də irəli sürülür ki, bu da danışıqlara mənfi təsir göstərir. Bu arada Ermənistanın baş naziri Nikol Paşinyan 1987-1991-ci illərdə Ermənistandan qovulmuş 250 mindən çox azərbaycanlının geri qayıtmaq hüququ tələbinə məhəl qoymayıb. Ermənistandan qovulan azərbaycanlılar Ermənistandakı torpaqlarına qayıtmaq üçün təşkilatlanaraq fəaliyyətə başlayıblar. İndiki mərhələdə beynəlxalq təşkilatların bəzi nümayəndələri bu məsələ ilə ciddi maraqlanırlar. İşğal dövründə Ermənistan azərbaycanlıların evlərini dağıdıb, mədəni sərvətlərini talan edib. Buna görə də Ermənistan hökuməti kompensasiya ödəməlidir. Ermənistan 2020-ci il noyabrın 10-da müharibəyə son qoyan üçtərəfli bəyannamənin şərtlərini hələ də yerinə yetirməkdən çəkinir.

Gürcüstanın NATO və Aİ-yə üzv olmaq üçün qarşısına məqsəd qoyub. İkinci Qarabağ müharibəsindən sonra Gürcüstan əvvəlki kimi regional nəqliyyat və enerji layihələrini və əməkdaşlıq mexanizmlərini dəstəkləyir. Müharibədən sonra Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan-Gürcüstan-Ermənistan üçtərəfli platformasının yaradılmasını təklif etdi. Gürcüstan bu platformanı dəstəklədiyi halda, Ermənistan dəstəkləmədi. Nəticə olaraq, Cənubi Qafqaz regionu Mərkəzi Asiya, Yaxın Şərq və Qərblə əlaqələri baxımından Avrasiyanın mühüm hissəsidir. Təhlükəsiz Cənubi Qafqaz Şərqlə Qərb arasında ticarət axınını təmin edəcək və şimal-cənub nəqliyyat marşrutlarının sağlam işləməsi ilə yanaşı qlobal enerji təchizatı təhlükəsizliyini təmin edəcək. Bunu təmin etmək üçün Azərbaycanla Ermənistan arasında sülh sazişi imzalanmalı, regionun bütün dövlətləri qarşılıqlı suverenliyə və ərazi bütövlüyünə hörmət çərçivəsində əməkdaşlıq etməlidir. Türkiyə-Cənubi Qafqaz-Mərkəzi Asiya arasında yarımçıq qalmış enerji və

nəqliyyat layihələri tamamlanmalı, Cənubi Qafqaz-Orta Asiya platforması yaradılmalıdır. [14]

Ölkə daxilində insan hüquqları məsələlərinə riayət edilməsi və hesabatların verilməsi davam edən münaqişə vəziyyəti ilə şərtlənən insan hüquqları məsələlərinə tabedir. Nəticədə, yerli əhali insan hüquqlarının pozulması ilə üzləşir və həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə seçki hüququndan məhrum edilir.

2020-ci ilin İkinci Qarabağ müharibəsi nəinki Cənubi Qafqazda geosiyasi tarazlığı dəyişdirdi, həm də mühüm hərbi qarşıdurmadan sonra insan hüquqlarının müdafiəsinin nəticələrinin nəzərdən keçirilməsinə ehtiyac yaratdı. Ermənistan-Azərbaycan münaqişəsinin nəticələri Cənubi Qafqazda milyonlarla insanların, xüsusilə də azərbaycanlıların taleyinə ciddi təsir göstərdi. Vətən müharibəsinin gedişində dinc insanları hədəf alan Ermənistanın Gəncə şəhərinə hücumu Avropa İttifaqı tərəfindən pislənildi. İkinci Qarabağ müharibəsi dövründə Ermənistan Silahlı Qüvvələri tərəfindən Gəncə şəhərinə ümumilikdə 5 dəfə (4, 5, 8, 11, 17 oktyabrda) raket və ağır artilleriya ilə hücum edilib. Nəticədə 26 nəfər şəhid olub, 175 nəfər yaralanıb, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib [5].

Təəssüf ki, işğal illərində Ermənistan Azərbaycan ərazilərini minalayıb və buna görə də Qarabağ hazırda dünyanın ən ciddi mina terroru problemi ilə üzləşən bölgələrindən hesab olunur. Mina sahəsinin dəqiq xəritələri olmadan effektiv minatəmizləmə əməliyyatlarının aparılması çətin məsələdir. Qarabağ bölgəsindəki mina çirklənməsi bərpa prosesinə əhəmiyyətli dərəcədə təsir edir və bir sıra hallarda mülki əhalinin ölümünə səbəb olur. Təəssüf ki, bölgədəki minalardan təmizləmə işlərinə baxmayaraq, mina partlayışlarında mülki şəxslər yaralanmağa və ölməyə davam edir. Minaların təmizlənməsi Qarabağ bölgəsində ən ciddi problemdir və bu, minalar insan həyatı üçün böyük təhlükə yaradır. Azad edilmiş ərazilərin minalardan tamamilə təmizlənməsi azərbaycanlı məcburi köçkünlərin bu bölgələrə köçürülməsi üçün vacib amildir. Azad edilmiş ərazilərdə minalanmış ərazilərin miqyası olduqca böyükdür, Buna görə də xəritə olmadan geniş əraziyə yayılmış piyada və tank əleyhinə minaları zərərsizləşdirmək çox çətin olacaq. Sonrakı prosesdə əvvəlcə erməni tərəfi mina xəritələrinin mövcudluğunu inkar etsə də, daha sonra sözügedən xəritələri təhvil verməkdən imtina etdi [2, s.10]. Qeyd etmək lazımdır ki, 1991-ci ildən indiyədək mina və partlamamış hərbi sursatların partlaması nəticəsində ümumilikdə 3381 nəfər azərbaycanlı xəsarət alıb. Onlardan 358-i uşaq, 38 nəfəri isə qadındır. Bununla yanaşı, İkinci Qarabağ müharibəsi başa çatsa da, mina təhlükəsi hələ də davam edir [6].

İkinci Qarabağ müharibəsinin iqtisadi təsirlərinin əhəmiyyətini başa düşmək üçün Ermənistan – Azərbaycan münaqişəsi nəticəsində yaranan iqtisadi problemlərə nəzər salmaq kifayət edər. Xüsusilə 44 günlük Vətən müharibədən sonrakı yeni iqtisadi vəziyyət mövcud regional əməkdaşlıq problemlərinin bir çoxunu həll etmək üçün imkanlar yaratdı. Erməni işğalı zamanı bölgə ölkələrinin iqtisadiyyatı və iqtisadi əlaqələri böyük zərər gördü. Azərbaycan və Türkiyənin Ermənistanla sərhədləri bağlandığı üçün Ermənistanın bu ölkələrlə iqtisadi əlaqələri dayandırıdı. Erməni təcavüzü Azərbaycanın iqtisadi inkişaf və istehsalda əhəmiyyətli rol oynayan ərazilərinin 20%-ni itirməsinə səbəb oldu. Sovet dövrü ilə müqayisədə Azərbaycan iqtisadiyyatı işğalı nəticəsində itirilən ərazilərdəki müəssisələrin bağlanması səbəbilə taxıl gəlirlərinin təxminən 24%-ni, spirt istehsalının 41%-ni, kartof istehsalının 46%-ni, ət istehsalının 18%-ni və süd istehsalının 34%-ni itirdi. Müxtəlif iqtisadi sektorlarda istehsalın əhəmiyyətli dərəcədə azalması Azərbaycanda Ümumi Daxili Məhsulunun (ÜDM) 60% azalmasına səbəb oldu. Kənd təsərrüfatı sektorunda ÜDM-in azalması təxminən 43%, sənaye sektorunda isə təxminən 60% oldu. İşğal olunmuş ərazilər çoxsaylı təbii sərvətlərə malik olduğundan Ermənistan bu sərvətləri erməni və xarici şirkətlərin iştirakı ilə qanunsuz olaraq istismar etdi.

Qeyri-qanuni rejim mineralları, əlvan və qara metalları, mineral suları, şirin su ehtiyatlarını və meşə sahələrini amansızcasına mənimsədi, bitki və faunanı sistemli şəkildə məhv etdi. Rəsmi məlumatlara görə, əvvəllər işğal olunmuş ərazilərdə 163 müxtəlif növ faydalı qazıntılar yatağı yerləşirdi. İşğal zamanı qeyri-qanuni və intensiv mədən işləri əsasən Qarabağın qızıl, gümüş, mis, molibden və civə yataqlarını hədəfə aldı. Qanunsuz fəaliyyətdən əldə edilən maliyyə vasitələri əvvəllər işğal altında olmuş ərazilərdə mövcud olan qanunsuz rejimin maliyyə təhlükəsizliyini təmin etməyə xidmət edirdi. Təbii sərvətlərin qanunsuz istismarı zamanı zəhərli tullantıların yerli su anbarlarına və çaylara axıdılmasının qarşısını almaq üçün heç bir tədbir görülmədi. Bu da öz növbəsində faydalı qazıntı və digər yataqların məhvinə, geniş ərazilərin zəhərlənməsinə və deqradasiyasına, içməli su mənbələrinin keyfiyyətinin kəskin şəkildə aşağı düşməsinə səbəb oldu. Ermənistanın qonşularına qarşı təcavüzkar siyasəti iqtisadi əlaqələrin inkişafına və bölgədə nəqliyyat şəbəkəsinin genişlənməsinə mane oldu. Ermənistan qonşularına qarşı təcavüzkar siyasətindən əl çəkəcəyi və sülh siyasəti və əməkdaşlığı seçəcəyi təqdirdə bütün yolların bərpası və Zəngəzur Dəhlizinin yaradılması bu ölkəyə əhəmiyyətli iqtisadi üstünlüklər verir. Zəngəzur Dəhlizi və digər ənənəvi marşrutlardan istifadə etməklə Ermənistan iqtisadi təcridə son qoya və regional nəqliyyat layihələrinə qoşula bilər. Kommunikasiyaların bərpası Ermənistanın əsas iqtisadi problemlərindən birini – Avrasiya İqtisadi Birliyinin bazarları ilə quru əlaqəsinin olmaması problemini də həll edə bilər [2, s.16-17-19].

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin məlumatına görə işğal altındakı torpaqlarımızda tarixi-dini abidələrin təqribi sayı 403-dür. Onlardan 67-si məscidlər, 144-ü məbədlər (Alban irsinə aid kilsələr, sovmələr və monastırlar), 192-i ziyarətgahlardır (pirlər, türbələr, ocaqlar, məqbərələr). Son illərdə məscidlərdə mal-qara və digər heyvanların saxlanılması faktı Qərb ölkələrinin fotomüxbirləri tərəfindən də lentə alınmış və bütün dünya ictimaiyyəti bu kadrlarla tanış olmuşdur [3, s.127].

Cənubi Qafqazda münaqişələrin mövcud olduğu ölkələrdən biri Gürcüstandır. Gürcüstanın identik etnoslu dövlətlərlə sərhəddə yerləşməsi, orada kompakt halda məskunlaşan bir neçə millətin olması ölkəni münaqişələr zonasına çevirmişdir. Samsxet-Cavaxetiyada məskunlaşan erməni əhalisi Ermənistanla, Kvemo Kartlidə (Borçalıda) yaşayan azərbaycanlılar Azərbaycanla, Şida Kartlidə yaşayan osetinlər Şimali Osetiya ilə, Pankissdə yaşayan kistinlər (vaynax-çeçenlər) Çeçenistanla, Kvarel rayonunda yaşayan avarlar Dağıstanla sərhəddir. Bu ərazilər potensial münaqişə zonaları hesab edilir. Kompakt və ya səpələnmiş halda respublikanın daxili rayonlarında məskunlaşan öz etnosları ilə sərhəd olmayan etnik qruplar arasında isə açıq münaqişə yoxdur. Hətta gürcü-abxaz münaqişəsi zamanı ermənilər abxazların tərəfində vuruşurdular. Gürcülər bildirirlər ki, general Baqramyanın əksəriyyəti ermənilərdən ibarət olan batalyonu abxazların tərəfində fəal vuruşaraq gürcülərə qarşı qəddarlıqlar etmişlər. Gürcü tarixçisi Q.Marxuliyanın yazdığı məqalələrdə erməni ekspansionizminin tarixi kökləri və Ermənistanın Gürcüstanda olan geosiyasi maraqları araşdırılır. Q.Marxuliya bildirir ki, Gürcüstan Baş Prokurorluğunda Abxaziya müharibəsi zamanı dinc gürcü əhalisinə qarşı törədilmiş cinayətlər barədə 200 cildlik material saxlanılır: “Ən dəhşətli cinayətləri Baqramyan batalyonu törədib. Bu cinayətlər hamıya məlum olmalı və dünya ictimaiyyəti tərəfindən qınanmalıdır”. Ermənilər Cavaxetiyanı “Kiçik Ermənistan” adlandırırlar. Mağazalar, elanlar, küçə adları erməni dilindədir. Hər yerdə, dövlət idarələrində Ermənistanın bayrağına rast gəlmək olar. Məktəblərdə, icra hakimiyyətinin binasında Gürcüstan bayrağı ilə yanaşı Ermənistan bayrağı da asılmışdır. İWPR (The Institute for War and Peace Reparting) beynəlxalq təşkilatının nümayəndəsi bildirir ki, Cavaxetiyada olanda fikirləşirsən ki, bura Gürcüstan üçün potensial Dağlıq Qarabağdır. Ermənistan

dəfələrlə Gürcüstan hökumətini Cavaxetiyada yaşayan ermənilərı sıxışdırmasında günahlandırmışdı [3, s.131].

Rusiyanın müdaxiləsi ilə Cənubi Osetiyanın Şimali Osetiyaya birləşməsinə dair Cənubi Osetiyada referendum keçirilməsi və Gürcüstanın tərkibində köhnə inzibati sərhədi bərpa edilməklə, ona siyasi status verilməsi barədə tələblər, Rusiyanın separatçıları maliyyələşdirməsi, hərbi sursat, silahla təchiz etməsi Cənubi Osetiya münaqişəsinin yaranmasının başlıca səbəbləridir. Münaqişə nəticəsində minlərlə insan həlak oldu, qaçqın vəziyyətinə düşdü, iqtisadiyyata külli miqdarda zərər dəydi, Gürcüstanın ərazi bütövlüyü pozuldu [3, s.143].

Gürcüstanda olan münaqişələr də bölgədə sabitliyi pozmuşdur. 1990-cı illərin əvvəllərində baş verən münaqişələr zamanı Gürcüstanda 220 minə yaxın insan öz evlərini tərk etmək məcburiyyətində qalmışdır. 2008-ci ilin avqustunda Gürcüstan və Rusiya arasında baş vermiş müharibə nəticəsində son yerdəyişmə ölkədəki köçkünlərin ümumi sayına təxminən 26.000 nəfər də əlavə edilmişdir [17, s.1].

Bu iki münaqişə beynəlxalq münaqişəyə çevrilmiş, başlanğıcından Abxaziya problemi, 2008-ci il avqust ayında Rusiyanın Gürcüstanın daxili işlərinə müdaxiləsi nəticəsində baş vermiş 5 günlük müharibədən sonra isə Cənubi Osetiya problemi BMT çərçivəsində dəfələrlə müzakirə edilmişdir [3, s.143].

İnsan təhlükəsizliyi əsas etibarilə sağlam ekosistemdən asılıdır. Cənubi Qafqazda region dövlətləri ekoloji problemlərə əməkdaşlıq ediləcək sahələr kimi baxmaq əvəzinə, əsasən qarşı tərəfi günahlandırmaq, və beləliklə münaqişələri şiddətləndirmək üçün başqa səbəb kimi baxırlar. Təmiz su hövzələrinin çirkləndirilməsi ən böyük ekoloji təhdidlərdən biridir. Ermənilərin ekoloji terroru Azərbaycanın su idarəetməsi və planlaşdırması sisteminə də mənfi təsir etmişdir. Azərbaycanın transsərhəd içməli su ehtiyatları və suvarma sistemləri Ermənistanın birbaşa işğalı altında olmuşdur və bunlar həmişə Azərbaycan xalqına qarşı “hərbi silah” kimi istifadə olunmuşdur [15, s.111-114].

Birinci Qarabağ müharibəsindən əvvəl altı rayonu əhatə edən 96 min hektar məhsuldar torpağın suvarılması Tərtərçay üzərində qurulmuş Sərsəng, Suqovuşan su anbarları, sağ və sol sahil magistral kanalları vasitəsilə həyata keçirilib. Ermənistan tərəfindən torpaqlarımız işğal edildikdən sonra su anbarlarının işğal altında olması Ağdam, Ağcabədi, Tərtər, Bərdə, Yevlax və Goranboy rayonlarında əkinlərin suvarma suyu ilə təminatında çətinliklər yaratmışdı.

3 oktyabr 2020-ci il tarixində Suqovuşan qəsəbəsinin Ermənistanın işğalından azad edilməsi ilə regional eko balansın bərpasına imkan yaradılıb. Nəticədə Tərtər, Goranboy, Bərdə və Yevlax rayonlarına suyun verilməsi təmin olunub [10]. Ermənistan tərəfindən Azərbaycan Respublikasının işğal altında saxlanılan ərazilərində təbii sərvətlər talan edilmiş, 163 faydalı qazıntı yatağı, o cümlədən qızıl, civə, mis, qurğuşun, sink, daş kömür, meşə örtüyü, nadir ağaclar və digər sərvətlər qanunsuz istismara məruz qalmışdır.8000 hektardan çox olan, qiymətli və çoxillik palıd, ardıc, fıstıq, vələs, şam, qoz ağaclarından ibarət sıx meşəliklərdən ibarət unikal bir ekosistemin məhv edilməsi ilə bioloji müxtəlifliyə ciddi ziyan vurulmuşdur. Bu isə Ermənistanın ətraf mühitlə bağlı qoşulduğu beynəlxalq konvensiyaların, o cümlədən “Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin qadağan edilməsi” haqqında BMT konvensiyasının pozulması deməkdir. Bu, ekoloji terrordur [9].

Gürcüstanın şərqində yerləşən Zonkar/i su anbarı üç kəndin – Yuxarı Zonkar/i, Aşağı Zonkar/i və Atsrisxevi/Atsrisxeu arasında yerləşir. Su təchizatını Kiçik Liakhvidən alır və 40 m$^3$ su tutmaq qabiliyyətinə malikdir. Zonkar/i su anbarı 1973-cü ildə tikilib istismara verilib və 2008-ci ilə qədər Gürcüstan hökuməti tərəfindən təyin edilmiş mühəndislər tərəfindən idarə olunub. 2008-ci ilin avqust müharibəsindən sonra su anbarı Cənubi Osetiya münaqişəsi nəticəsində artıq Gürcüstan hökuməti tərəfindən idarə olunmur və Gürcüstan hökuməti tərəfindən təyin edilmiş mühən-

dislərin daimi monitorinq üçün anbar ərazisinə daxil olmasına icazə verilmir. Zonkar/i su anbarı indi de-fakto Cənubi Osetiya hökuməti tərəfindən idarə olunur. Onu yerli ehtiyaclara zidd şəkildə idarə edirlər. 1990-cı illərin əvvəllərində Cənubi Qafqazın hər üç respublikasını əhatə edən etno-siyasi münaqişələrin aktiv hərbi əməliyyatlar mərhələsinə daxil olması region dövlətlərinin ciddi siyasi-iqtisadi, sosial və ekoloji böhranlarla üzləşməsinə səbəb olmuşdur. Yalnız bir faktı xatırlamaq kifayətdir ki, bu münaqişələrin nəticəsində əlli mindən artıq insan həyatını, on minlərlə insan sağlamlığını itirmiş, yüz minlərlə insan daimi yaşayış yerindən məhrum olaraq qaçqın, məcburi köçkün durumuna düşmüşdür.

Ermənistanın hərbi təcavüzü nəticəsində ümumilikdə, Ermənistanın bu hərbi təcavüzü nəticəsində 20 min azərbaycanlı həlak olub, 50 min nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olub [4]. Cənubi Qafqazda region dövlətləri daxilində hələ də hərtərəfli sülhə nail olunmaması bütövlükdə regionun təhlükəsizlik mühiti üçün ciddi fəsadlar yaradan amil olaraq qalmaqdadır. Eyni zamanda regionda (Gürcüstan) Samtsxe – Cavaxetiyada olduğu kimi potensial etnik münaqişə ocaqları da mövcuddur. Bu kimi bölgələrdə mürəkkəb etno – siyasi proseslər hazırda latent səviyyədə olsa da onların açıq müstəviyə keçməsi ehtimalı da qalmaqdadır [7, s.3].

Abxaziya münaqişəsi zonasında yerləşən İnquri bəndi və su elektrik stansiyaları gürcü və abxazların görüş, söhbət və əməkdaşlıq yeri olub. 1992-ci il müharibəsi Qafqazın ən böyük su elektrik stansiyasının müxtəlif hissələri, o cümlədən İnquri çayının Gürcüstan tərəfindəki bənd və Abxaziya tərəfindəki elektrik stansiyaları arasında parçalanma yaratdı. Kompleksin strateji əhəmiyyəti var: bu həm gürcülər, həm də abxazlar üçün elektrik enerjisinin əsas mənbəyidir. Bu strateji kompleks yalnız bütövlükdə fəaliyyət göstərə bildiyindən, münaqişə tərəfləri öz enerji təhlükəsizliyi üçün onun daimi fəaliyyətini saxlamaq üçün müəyyən şərtlərlə razılığa gəliblər. Hətta 2017-ci ilin qışında reabilitasiya üçün kompleksin bağlandığı qısa müddət ərzində Abxaziyaya enerjinin bir hissəsini Rusiya, qalan hissəsini isə Gürcüstan hökuməti təmin edib [15, s.111-114].

Münaqişələr nəticəsində Cənubi Qafqaz regionunda qaçqın və məcburi köçkün problemi insan təhlükəsizliyinə təsir edən mühüm məsələlərə çevrilmişdir. Miqrasiya özü beynəlxalq münasibətlər sisteminin bir funksiyasıdır. Hətta daxili qaçqın və köçkünlərin dinamikası belə qlobal siyasətlə birbaşa əlaqəlidir. Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş və bir milyona yax ın insan təcavüzə məruz qalaraq, öz doğma yurdlarından məcburən köçkün düşmüşdür. Nəticədə işsizlik, miqrasiya, demoqrafiya və başqa problemlər yaranmışdır. Bununla da, qaçqın və məcburi köçkün axını dövlətimizin milli təhlükəsizliyi üçün böyük təhdidlərdən birinə çevrilmişdir. [1, s. 116-117]

Ermənistan Respublikasının Azərbaycana təcavüzünün faciəli nəticələri təkcə Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı yeddi rayonun zəbt edilməsi, milyona yaxın insanın qaçqın və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmır, Azərbaycan tarixinə, mədəniyyətinə, xalqın dini əqidəsi ilə bağlı dəyərlərə də ağır zərbələr vurmuşdur. Belə bir şəraitdə, ölkədə yaranmış psixoloji və mənəvi durumu hər hansı bir meyar ilə qiymətləndirmək qeyri-mümkündür [8].

Gürcüstanda indiyədək üç yüz minə yaxın insan öz yurd-yuvasından didərgin düşüb. Bölgədə böyük miqyaslı yerdəyişmə işsizliyin artmasına, zədələnmiş infrastruktura, valyutanın dəyərini itirməsinə və hökumətin sosial rifah proqramlarının demək olar ki, iflasa uğramasına səbəb oldu. İşsizlik və yoxsulluq beynəlxalq iqtisadi göstəricilərlə Gürcüstan üçün əsas problemlər olaraq qalır. Abxaziya və Cənubi Osetiyadakı münaqişələr böhrana səbəb oldu. Yüz minlərlə gürcü qaçqını böyük iqtisadi və siyasi problemlərə gətirib çıxardı. Əhalinin ən fəal və əmək qabiliyyətli hissəsi iş dalınca ölkəni tərk etdi. Çətin böhran şəraitində məhsuldar məşğulluğu təmin edəcək sektorun olmaması, insanları yaşamaq üçün daha

varlı qonşu ölkələrdə iş tapmaq üçün miqrasiya etməyə məcbur etdi [16, s. 237-238].

**Nəticə**

Qafqaz dağlıq, tarixi və Şərqlə Qərbi, Şimalla Cənubu, Avropa ilə Asiyanı birləşdirən kəsişmə yeri kimi tanınır. Soyuq müharibə illərində Qafqaz regionu ucqar ərazi sayılırdı. Lakin Sovet İttifaqı dağılandan sonra bu ərazinin geosiyasi siması tamamilə dəyişdi. İndi bu region özünəməxsus siyasi, iqtisadi, hərbi, sosial, mədəni cəhətlərinə görə siyasi iqtisadi, hərbi, sosial və ekoloji qeyri-sabitliyin şahidi olur. Sovet İttifaqının dağılmasından sonra Cənubi Qafqazda baş verən regional müharibələr nəticəsində çoxlu sayda təhlükəsizlik problemləri yaranıb. Əhalinin köçürülməsi və etnik təmizləmə, terrorizm, cinayətkarlıq və s. kimi qeyri-qanuni aktlar geniş şəkildə həyata keçirilib. Ona görə də, Cənubi Qafqazda insan təhlükəsizliyinin təminatı üçün bu məsələlərin araşdırılması əhəmiyyət kəsb edir.

Münaqişələr bölgədə millətçiliyin alovlanmasına təkan vermişdir ki, bu da demokratik siyasətin inkişafına mane olmuşdur. Münaqişələr əsasən birbaşa zorakılıqla – insan itkisi, xəsarətlər və yerdəyişmə ilə nəticələnmişdir. Azərbaycan və Gürcüstanda qaçqın əhali problemlərə, bütövlükdə cəmiyyətə təsir edən həm maddi, həm də psixoloji əziyyətlərə məruz qalmışdır. Abxaziya və Cənubi Osetiyada həll olunmamış münaqişələr əhalinin didərgin düşməsinə, humanitar problemlərə səbəb olmuşdur. İqtisadi mənada münaqişələr və yaranan etibarsızlıq regional ticarət əlaqələrini kəsdi. Bundan əlavə, mübarizə maddi dağıntılara səbəb oldu və ölkələrində qaçqın düşən yüz minlərlə insanın köçməsi iqtisadi istehsalın azalmasına və mütəşəkkil cinayətkarlıq ilə əlaqəli problemlərin daha da artmasına səbəb oldu. İş yerlərinin itirilməsinə, infrastrukturun məhvinə və iqtisadi qeyri-sabitliyə gətirib çıxardı. Bu, yoxsulluq, ərzaq təhlükəsizliyi və əhalinin ümumi iqtisadi rifahının azalması ilə nəticələndi.

Cənubi Qafqazda baş verən münaqişələri ümumi təhlil etdikdə gəlinən nəticə ondan ibarətdir ki, süni şəkildə yaradılmış bu münaqişələr regionu iqtisadi, sosial baxımdan çox geri salıb. İstər Azərbaycan, istər Gürcüstan hüquqi dövlətçilik prinsiplərini qorumaq yolunda hər zaman təzyiqlərə və zərbələrə məruz qalıb.

İkinci Qarabağ müharibəsinin nəticələri region üçün yeni reallıqlar yaratmışdır. Cənubi Qafqazda yeni əməkdaşlıq imkanları yaranmışdır və eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb. Həm Ermənistan, həm də Azərbaycan bir - birinin ərazi bütövlüyünə və suverenliyinə qarşılıqlı hörmət nümayiş etdirməlidir. Region dövlətləri daxilində insan amilinin üstün tutulması və onun təhlükəsizliyinin təmin olunması istiqamətində hərtərəfli sülhə, nail olunmalıdır. Dövlətlər öz təhlükəsizliklərini təmin etmək istəyirlərsə, digər dövlətlərin də təhlükəsizliyində maraqlı olmalıdırlar.

**Ədəbiyyat:**


1. Allahyarova T. Qlobal miqrasiya böhranı: Beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində, Ş. Hacıyev, E. Qəribova Bakı, 2018, s. 116-117
2. Cəfərova E. Hüseynov V. və s., 44 Günlük Qarabağ Müharibəsi: Mülahizə və nəticələr, Bakı, 2021, s.16-17-19 s.10
3. Dadaşova R. Cənubi Qafqazda olan münaqişələrin səbəb və nəticələri, 2020, yanvar, 4 (2) 115-155
4. Əhmədov E. Azərbaycan ərazilərinin işğalı zamanı Ermənistan beynəlxalq hüququn bütün fundamental prinsiplərini pozub. /24.02.2020/ [Elektron resurs], https://azertag.az/xeber/elchin_ehmedov_azerbaycan_erazilerinin_isgali_zamani_ermenistan_beynelxalq_huququn_butun_fundamental_prinsiplerini_pozub-1423367
5. Əhmədov E. Dövlət terrorizmi siyasəti yürüdən Ermənistanın beynəlxalq cinayətləri və dünyanın ikili yanaşması. /04.06.2021/, [Elektron resurs], https://azertag.az/xeber/1798875
6. Əhmədov E. Dövlət terrorizmi siyasəti yürüdən Ermənistanın insan haqlarından danışması absurddur. /15.08.2023/. [Elektron resurs], https://azertag.az/xeber/Dovlet_terrorizmi_siyaseti_yuruden_Ermenistanin_insan_haqlarindan_danismasi_absurddur-2730205
7. Məmmədli M. Cənubi Qafqazın təhlükəsizlik mühitinə çoxaspektli baxış, beynəlxalq münasibətlərin təhlili mərkəzi, 2023, Avqust, s.4
8. Şahbazov T. Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi ziyan, onun ödənilməsinin hüquqi aspektləri, Azərbaycan Respublikası Müdafiə Nazirliyi, https://mod.gov.az/az/pre/24525.html
9. Ombudsman Azərbaycanın işğal altındakı ərazilərində Ermənistanın törətdiyi ekoloji terrorla bağlı beynəlxalq ictimaiyyətə müraciət edib, Azərbaycan qəzeti, [Elektron resurs], https://www.azerbaijan-news.az/az/posts/detail/ombudsman-azerbaycanin-ishgal-altindaki-erazilerinde-ermenistanin-toretdiyi-ekoloji-terrorla-bagli-beynelxalq-ictimaiyyete-muraciet-edib-200503
10. Zəfər tariximiz-Suqovşan və Talışın azad edilməsindən iki il ötür, [Elektron resurs], Azərbaycan qəzeti, 3 Oktyabr, 2022
11. Buzan B. and Wæver O. Regions and Powers the Structure of International Security, USA, Cambridge University Press, New York, 2003, p.3
12. Jansiz A & Mohammad, R. Hojastes, Conflicts in the Caucasus Region and its effects on regional security approach, Journal of Politics and Law, Canadian Center of Science and Education,Vol.8< No.1; 2015, p.92
13. Tadjbakhsh, Sh. Human Security: Concepts and Implications, p. 4-5
14. Valiyev J. South Caucasus after the two wars, Center of Analysis of International Relations, [Electronic resource], https://aircenter.az/en/single/south-caucasus-after-the-two-wars-1244
15. Veliyev J. The Environment, Human Rights, and Conflicts in the South Caucasus and Turkey: Transboundary Water Cooperation as a Mean to Conflict Transformation, p.115-117
16. Zhorzholiani T. The Impact of Unemployment on Economic Development: Georgia's Example, 2024, p. 237-238
17. Amnesty International, In the waiting room internally displaced People in Georgia, p. 1, August, 2010, [Electronic resource], https://www.amnesty.org/en/wp-content/uploads/2021/07/eur560032010en.pdf

***Açar sözlər:*** *insan təhlükəsizliyi, Cənubi Qafqaz, Qarabağ, münaqişələr, Abxaziya, Cənubi Osetiya*

**Aygun Gurbanova**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Ph.D. Student*

## THE POLITICAL, SOCIAL-ECONOMIC, AND ENVIRONMENTAL ASPECTS OF HUMAN SECURITY IN THE SOUTH CAUCASUS

### ABSTRACT

The human security approach was an attempt to shift the traditional concepts of security, which were framed in terms of national and regional stability, as well as the stability of political and economic systems, and to focus attention on the individual. This meant that the main threats that needed to be eliminated were no longer the exclusive prerogative of the military. Instead the main threats were internal ones: economic collapse, human rights violations and political discrimination. Therefore, the guarantee of national security was no longer dependent on military power, but on favorable social, political and economic conditions, the promotion of human development and the protection of human rights.

Unresolved conflicts in the South Caucasus, the lack of regional cooperation and the proliferation of weapons of mass destruction pose a serious threat to peace and stability and increase the fear of future conflicts. This has obvious humanitarian consequences, including higher levels of crime and increased mortality as a result of murders, suicides, accidents and armed conflicts, as well as environmental problems. The process of normalizing relations between Azerbaijan and Armenia closely linked to the security of the region, has not yet achieved significant success, and regional security remains a threat. The conflicts between Abkhazia and Georgia, South Ossetia and Georgia also creates instability in the region. The presence of some economic opportunities, as well as security threats in this region led to the transformation of the Caucasus security from the early stages of independence into intense political debates. In fact, energy resources, the potential of regional experience, as well as the spirit of separatism and insecurity in some areas of this region are among the reasons that indicate the importance of discussing security in the Caucasus. The study was conducted using a descriptive-analytical research method. The article examines conflicts in the South Caucasus region after the 90s and analyzes their impact on human security aspects.

***Keywords:*** *Human security, South Caucasus, Karabakh, conflicts, Abkhazia, South Ossetia*

**Айгюн Гурбанова**

*Докторант кафедры Международных отношений и внешней политики*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

# ВЛИЯНИЕ ВОЕННЫХ КОНФЛИКТОВ НА ЮЖНОМ КАВКАЗЕ НА ПОЛИТИЧЕСКИЕ, СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ И ЭКОЛОГИЧЕСКИЕ АСПЕКТЫ БЕЗОПАСНОСТИ ЧЕЛОВЕКА

## РЕЗЮМЕ

Подход к безопасности человека был попыткой изменить традиционные концепции безопасности, которые были сформулированы с точки зрения национальной и региональной стабильности, а также стабильности политических и экономических систем, и сосредоточить внимание на человеке. Это означало, что основные угрозы, которые необходимо было устранить, больше не были исключительной прерогативой военных. Основными угрозами были внутренние угрозы: экономический крах, нарушения прав человека, политическая дискриминация. Поэтому гарантия национальной безопасности уже не в военной мощи, а в благоприятных социальных, политических и экономических условиях, содействии человеческому развитию и защите прав человека.

Неразрешенные конфликты на Южном Кавказе, отсутствие регионального сотрудничества и распространение оружия массового уничтожения представляют серьезную угрозу миру и стабильности и усиливают страх перед будущими конфликтами. Это имеет очевидные гуманитарные последствия, к которым относятся более высокий уровень преступности, убийств, самоубийств, несчастных случаев и вооруженных конфликтов, а также экологических проблем. Процесс нормализации отношений между Азербайджаном и Арменией, который тесно связан с безопасностью региона, пока не достиг серьезных успехов, и региональная безопасность остается под угрозой. Конфликты в Абхазии и Южной Осетии в Грузии также создают нестабильность в регионе. Наличие некоторых экономических возможностей, а также угроз безопасности в этом регионе привело к трансформации безопасности Кавказа с начальных этапов независимости в острые политические дебаты. Фактически, энергетические ресурсы, потенциал регионального опыта, а также дух сепаратизма и небезопасности в некоторых сферах данной области являются одними из причин, указывающих на важность обсуждения безопасности на Кавказе. Исследование проведено с использованием описательно-аналитического метода исследования. В статье были рассмотрены конфликты в Южно-Кавказском регионе после 90-х годов и проанализировано их влияние на аспекты человеческой безопасности.

***Ключевые слова:*** *человеческая безопасность, Южный Кавказ, Карабах, конфликты, Абхазия, Южная Осетия*

DOI: https://doi.org/10.30546/2309-1347.2024.3.87.239

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

P S İ X O L O G İ Y A
P S Y C H O L O G Y

UOT 159.99

**GÜNAY RÜSTƏMOVA**

**Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı**

*e-mail: gunayrustamova@inbox.ru*

# QAZİ FENOMENİNİN AİLƏYƏ SOSİAL-PSİXOLOJİ TƏSİRİ

*"Xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır".*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

Yaşadığımız XXI əsrdə dünyada yaşanan qlobal problemlərin sırasında ailədaxili problemlər ön sıralarda yer alır. Yəni, deyə bilərik ki, dərin böhrana qərq olan sahələrdən ən birincisi ailə institutudur. Ailə fərdin bir şəxsiyyət kimi formalaşmasına bir başa təsir göstərən amildir. Eyni zamanda ailə, cəmiyyət sisteminin onunla birlikdə dəyişikliklərə uğrayan, adaptasiya edən altsistemidir.

Cəmiyyətin bütün sosial qurumlarında baş verən bu proseslər ailə institutuna, ailə dəyərlərinə və gənc nəslin yetişdirilməsi ilə bağlı olan bütün strateji sistemə nüfuz etmişdi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra (1991-ci il) cəmiyyətdə tamamilə yeni sosial münasibətlər, ailə institutlarının formalaşması və inkişafına təkan verilmişdi. Bildiyimiz kimi ənənəvi davranış qaydaları öz mühafizəkarlığını nə qədər qoruyub saxlasa da, cəmiyyətdə baş verən bu dəyişikliklər ailələrdən də yan ötüb keçmir. İndi Azərbaycan ailəsində kişi-qadın münasibətləri yeni müstəvidə inkişaf etməkdədir. İstənilən tarixi mərhələdə cəmiyyətdə baş verən bütün dəyişikliklər ailənin nümunəsində bir damla suda olduğu kimi əksini tapan reallıqdır. Fransız yazıçısı Viktor Hüqoya görə, ailə cəmiyyətdə baş verən münasibətlərin əks olunduğu kristaldır. Avstriyalı həkim, psixoterapevt və fərdi psixologiyanın yaradıcısı Alfred Adler (1870-1937) isə qeyd edib ki, ailə bəşər cəmiyyətinin təhlükəsizliyinin asılı olduğu

"miniatür cəmiyyətdir" [1, s.8]. Dövlətin təməlini sağlam ailə, sağlam nəsil, sağlam xalq-millət təşkil edir.

Ailə modelində böhrana səbəb olan dəyişiklikləri, ailədaxili münaqişələri cəmiyyətdə dayanıqlılığa təhdid və sosial gərginliklərin əsas mənbələrindən birincisi hesab etmək olar. Boşanmalar müasir Azərbaycan ailəsinin mənəvi və psixoloji səbəblərdən qaynaqlanan başlıca problemi statusuna malikdir. Ailədə ər və arvadın – hər ikisinin mənəvi və psixoloji durumuna bir çox amillər təsir edir. Xüsusilə, müharibə dövründə yaşamaq, müharibə ilə bağlı xəbərlərin daima içində olmaq özü bir travmatik hadisədir və bir çox insanda travma sonrası stress əlamətləri yaradır. Bu da öz növbəsində insanların psixoloji durumuna ciddi təsir edir. Belə ki, müharibədə birbaşa iştirak edən şəxslərdə həmin anların təkrar-təkrar zehində yaşanması daimi bir qəzəb və qorxu hissləri ilə mübarizə etmək halları gözləniləndir. Onu da qeyd edək ki, ailəsi və doğmaları müharibədə iştirak edən insan üçün də eyni hal gözləniləndir, yəni hər an bəd bir xəbər almaq qorxusu, təşviş və həyəcan hissini yaşamaq stress və ciddi psixoloji gərginliyə səbəb olur. İnsanların müharibədə aldıqları travmalar psixoloji durumundakı problemlər normal həyata adaptasiyalarını çətinləşdirir.

Hərbidə döyüşçülərin psixoloji səviyyəsi haqqında hələ eramızdan əvvəl Assur krallığı dövrünə (e.ə. 1300-cü il) aid mənbələrdə də rast gəlinir. Belə ki, həmin mənbələrdə döyüş sonrası döyüşçülərin psixi pozuntularının olmasına dair yazılı sübutlar da tapılmışdır. Bu dövrə aid mənbələrdə müharibə veteranlarını təqib edən "döyüşdə öldürülən düşmənlərin ruhları" qeyd olunur [15].

"Müharibə şoku" ("Shell shock") termini, döyüş psixi travması ilk dəfə Kanadada, ABŞ-da və əksər Avropa ölkələrində Birinci Dünya Müharibəsi zamanı xüsusi müharibə hadisəsi kimi tanınmışdır. Bir çox əsgərin heç bir fiziki zədə əlaməti olmadan iflic, kar və lal olması ilə bəzi nevroloqlar və psixiatrlar artilleriya atəşinin özünün nevrotik xəstəliyə səbəb olması ehtimalını nəzərdən keçirməsinə imkan vermişdi. Kontuziya termini 1915-ci ildə ingilis psixiatrı Ç.Mayers tərəfindən irəli sürülmüşdür [19].

Travmatik hadisəyə məruz qalmış fərd əhəmiyyətli dərəcədə disstress və ya sosial məşğulluq və həyatın digər vacib sferalarında problemlər yaşaya bilər. Bu proses iki gündən çox davam etsə, kəskin stress pozuntusu (KSP) diaqnozu nəzərə alınmalıdır. Buna görə də müharibədə, hərbi əməliyyatlarda iştirak edən şəxs və ya qazilər müharibədən sonra ailəyə və cəmiyyətə mütləq şəkildə adaptasiya olunmalıdır ki, onlarla cəmiyyət arasında yaşanan xoşagəlməz hallar, ailədaxili münaqişə və gərginliklər olmasın. Qazilərə travmatik hadisəni (obsessiv yaddaş) təkrar-təkrar yaşamasınlar deyə onlara xüsusi psixoloji seanslar və təlimlər keçirilməlidir. Müharibə zamanı hiss etdiyi fiziki və mənəvi gərginliyi, emosional hissləri, yaşadığı travmanı xatırladan hər hansı bir faktoru unutmaq üçün mütləq psixoloji seanslardan keçməlidirlər.

Müstəqilliyinin otuzuncu ildönümündə Azərbaycan yeni tarixi mərhələyə – Qarabağın azad edilməsi ilə başlayan Zəfər Salnaməsinin yazıldığı dövrə qədəm qoymuşdur. Bildiyimiz kimi Ermənistan-Azərbaycan münaqişəsi XX yüzilliyin tarixinə ən faciəvi münaqişə kimi yazılıb, onun nəticələri isə milyonlarla Azərbaycan vətəndaşının, xüsusən gənclərin taleyinə çox ciddi, mənfi təsir göstərib. I və II Qarabağ müharibələrində iştirak edən gənclərimizin çoxu qəhrəmanlıqla şəhid və qazi oldular. Müharibədə olan hadisələr qazilərdə və şəhid ailələrində müəyyən psixoloji problemlərə səbəb oldu, bu da ailədə qarşılıqlı anlaşılmama problemi, ailədaxili gərginlik yaradır. Uzun sürən şiddətli stressin, psixoloji travmanın sonu ya da bir müddət sonrasında insanlarda posttravmatik stress pozğunluğu (PTSP)

inkişaf edə bilir. Müharibədə isə bütün bu sadalanan faktorları yaşamamaq qeyri-mümkündür [20]. Hərbi əməliyyatların bir başa iştirakçısı, eyni zamanda müharibə şəraitində yaşayan insanlarda da psixoloji gərginliklər müşahidə edilir. Belə ki, müharibə iştirakçılarından yaxınlarının, doğmalarının, ailə üzvlərinin ölüm xəbərini alan insanlarda da travma sonrası stress pozğunluğu yaranır. Bu səbəbdən insanların həyatlarını müharibədən öncə və sonraya ayırmaq olar. Bu iki zaman kəsiyində insanlarda psixoloji dəyişiklik olduğundan ailədə çox ciddi problemlər, ailədaxili münaqişələr yaşanır. Hətta bu münaqişələr ailədə çox hallarda boşanmalara və ailədə böyüyən övladlara da psixoloji olaraq təsir edir. Ona görə də mütəxəssislər tərəfindən psixoloji seans və təlimlər təkcə qazilərə, hərbidə iştirak edən şəxslərə deyil, onların ailələrinə də şamil olunmalıdır. Psixoloq Aytən Məmmədova bildirib ki, psixoloji travmadan 4 həftə – 6 aydan sonra posttravmatik stress pozğunluğu özünü göstərir: "Məhz buna görədir ki, müharibə bitsə belə, onun insanlarda da psixoloji olaraq qoyduğu izlər özünü bir müddət sonra göstərməyə başlayır" [20].

Qazilik və şəhidlik motivi qəhrəmanlıq və vətənpərvərliyi özündə tərənnüm edən "Kitabi-Dədə Qorqud" dastanında da xüsusi yer alır. Belə ki, dastanının ideoloji xəttini müəyyənləşdirmiş və onun bütövlükdə əxlaqi dəyərlər sistemini də formalaşdırmışdır. Dastanın etik-mənəvi məkanında alp ərlik, alp ərənlik, qazi ərənlik həm də müəyyən davranış dəyərlərinə əməl olunmasını şərtləndirir. Həmçinin dastanın qəhrəmanlıq süjetində mübarizədə daim uğur qazanan qəhrəman qazi adlandırılır. Bunlara qazi ərənlər də deyilir [9, s.57].

XIII yüzildə yaşamış məşhur dahi Azərbaycan alimi Nəsirəddin Tusi "Əxlaqi-Nasir" əsərində yazır ki, "insanlar tək yaşaya, inkişaf edə, kamala çata bilməzlər. Onların bir-birinə ailə şəklində yaşama ehtiyacları var. Qadınla kişinin bir çox istedadı ailə qurduqdan sonra lazımi həddə çatır. Çünki insanın bir çox ehtiyacı ailədə təmin olunur. Qurulan ailə ocağı qarşılıqlı səmimiyyətə, inama, sevgiyə, bir də milli-mənəvi, əxlaqi dəyərlərə tapınıb yanarsa, heç vaxt sönməz" [8, s.16]. N.Tusinin bu fikirlərinə əsaslanıb deyə bilərik ki, ailədə, ailə üzvlərindən hər hansında ciddi psixoloji gərginlik, travma olarsa o ailədə sağlam düşüncə və inkişaf ola bilməz. Əgər nəzərə alsaq ki, müasir cəmiyyətdə ailələrdə patriarxal əxlaq hökm sürür və ailə başçısı kantuziyalı və ya psixoloji gərginliyi varsa orda sağlam ailə ola bilməz. Tusiyə görə, ailə sağlam olarsa, varlılığı da, kasıblığı da sınaq kimi qəbul edər və yaşadıqları çətinliklərdən sarsılmaz [8, s.8].

Qeyd edək ki, ailə münasibətlərində patriarxal əxlaq üstünlük təşkil edir. Bu mənada professor İ.Məmmədzadənin patriarxal əxlaqla bağlı mülahizələri maraq doğurur: "Son illərin dəyişiklikləri şüurumuzdan marksizmlə bağlı hər şeyi kökündən qoparsa da, patriarxal əxlaq qalır və bu azmış kimi, çox vaxt mənəvi ideallar onun tələbləri və üstünlüklərindən irəli gəlir [4, s.98]. Patriarxal əxlaqın ictimai əxlaqa yüksəlməsi prosesini belə səciyyələndimişdir:

Normal həyat tərzi üçün ruhi-mənəvi, fizioloji və psixoloji sağlamlıq vacibdir. Bu faktorlar bir-biri ilə sıx əlaqədar olduğu üçün insan həyatının meyarı hesab olunur. Psixoloji cəhətdən sağlam insanın ruhu saf və fiziologiyası sağlam olar. Əgər balans pozularsa, problemlərin yaranması zərurəti baş verər. Ruhi düşkünlük nəticəsində psixo-fizioloji pozğunluqlar yaranır və insan xəstələnir. Yəni sağlam həyat tərzi üçün saf mənəviyyat tələb olunur, əks təqdirdə nəfs insanı günahlara çəkərək psixoloji dəyişikliklərə uğradır. Tədricən kiçik günahlar böyüklərlə əvəz olunaraq, mənəviyyatın mənfi dəyişilməsinə gətirir və ruhi pozğunluq fizioloji xəstəliklərlə əvəz olunur.

Böyük Şərq filosofu və həkimi İbn Sina bir neçə əsr bundan öncə yazırdı ki, baş verən istənilən hadisənin dərkinə, onun səbəblərini dərk etmək vasitəsi ilə nail olunur... Buna görə də tibb elmi sağlamlıq və xəstəliklərin səbəblərini bilməlidir [9, s.4]. İbn Sinaya görə, insan sağlamlığında qidalanma ilə ətraf mühitin harmoniyası ciddi rol oynayır [11, s.5]. Müasir tibbi biliklər həmin mövqenin doğruluğunu təsdiq edir.

Qeyd etdiyimiz kimi, insan sağlamlığında mənəvi-psixoloji amillərin rolu böyükdür. Mənəviyyatı saf olan insan psixoloji pozğunluqla həmişə mübarizədədir. İnsan ruhi və fizioloji baxımdan tam sağlam olmalıdır. Bu iki amil bir-birini tamamlamasa disfunksiya (dəyişiklik) halı tez-gec özünü büruzə verməlidir. İnsanın mənəvi saflığı onun yaşam tərzində olmalıdır. Əvvəla, bu daxildən gəlməlidir, yəni dünyaya pak gəlir, daha sonra cəmiyyətdə formalaşır. Deməli, cəmiyyətin rolu bu sahədə böyük ola bilir. Yəni ailə-valideyn, məktəb tərbiyə-təhsilin rolu insanın mənəvi, psixi və fizioloji sağlamlığında böyükdür. Ancaq onu da demək lazımdır ki, mənəviyyatı güclü olan kəsı dəyişdirmək asan deyil. İnsanın fizioloji baxımdan sağlamlığı üçün keyfiyyətli mineral, vitaminlərlə zəngin olan qida məhsulları vacib olduğu üçün, mənəviyyat saflığı üçün də bədəndə sağlam ruh olmalıdır. Ruhun qidası – mənəvi qidadır.

Dahi filosof Nəsirəddin Tusi özünün "Əxlaqi-Nasiri" əsərində bu hikməti belə açıqayır: "İnsanın mənəvi ehtiyacları, mənəvi qüvvələri, kamalı, fəzilətinin şərafəti-fikir, əql, şüur və iradə vasitəsi ilə təmin və idarə edilir. İnsanın xoşbəxtlik və bədbəxtlik açarı, kamillik və naqislik sükanı onun ağıl və iradəsinin ixtiyarına verilmişdir" [7, s.53].

Mənəvi-psixoloji problemlər nəticəsində stress və depressiya müasir həyatda qaçılmaz bir problemə çevrilib. Bu xəstəliklər öz dağıdıcı təsirini nəinki insanın psixoloji halına, ondan qabaq fizioloji sağlamlığına təsir göstərir. Xroniki stress orqanizmin bütün funksiyalarını pozur və insan sağlamlığına düzəlməyən xeyli zərər yetirir. Uzun çəkən stress vəziyyətində kortizol hormonunun (kimyəvi birləşmə) uzunmüddətli yüksəlməsi, hətta cavan yaş həddində bir sıra ciddi xəstəliklərin inkişafına şərait yaradır.

Bir insan digərinə qarşı qəzəb saxlayarsa və ya göstərərsə, onun qəlbində neqativ hisslər yaranar, ruhi harmoniyası və fiziki sağlamlığı pozular. Yəni xəstəliklərin yaranmasına əlverişli şərait yaranar. "Bəzən elə olur ki, (adam) hirsini boğub ürəyinə salmaqla kifayətlənir, bundan insanın məhv olması ilə nəticələnən ağır xəstəliklər əmələ gələ bilər. «Qəzəbin» əlacı bu səbəbləri aradan qaldırmaqdır, çünki səbəb gücləndikcə, onun nəticəsi də güclənər, səbəb aradan qalxdıqda, xəstəlik də aradan qalxar" [7, s.127].

Ailədə münasibətlərin psixoloji səviyyəsi ailənin müqəddəratını və gələcəyini bir çox cəhətdən təyin edir.

Həyatın ictimai psixologiya nöqteyi-nəzərindən dəyərləndirilməsinin səciyyəvi cəhətlərindən biri də cəmiyyətin müxtəlif təbəqələrinin həyat tərzlərinin qarşı-qarşıya qoyulmasıdır. Cəmiyyətin müəyyən bir təbəqəsi üçün səciyyəvi olan ictimai psixologiya özündə digər təbəqələrin həyat tərzinə qarşı bəzən rəğbət, bəzən isə qısqanclıq hisslərini yaradır. İctimai psixologiyanın anlaşılmasında sinfi yanaşma bütövlükdə olmasa da, əsasən özünü doğruldur [6, s.63].

İctimai psixologiya – kortəbii surətdə əmələ gəlir. İnsanların gündəlik yaşayış şəraitindən asılı olaraq bilavasitə baş verir. O, ictimai hisslərin, əhval-ruhiyyənin, ehtirasların, adətlərin, fikir və xəyalların cəmindən ibarətdir. İctimai psixologiya sinfi rəğbətdən və ya əksinə sinfi rəğbətsizlikdən, bəzi ictimai təşkilatlara, tayfalara, qruplara nifrət və ya rəğbətdən yaranır. İnsanların yaşayış şəraitində yaranan sosial psixoloji məqamlar sinfi xarakter də daşıya bilər. Bu mənada biz hansı sinfin

mənafeyini güdürüksə, həmin sinfi instinktə uyğun olaraq, təbii instinktlərdən fərqli olaraq həmin sinfin psixologiyasına uyğun fikirlərə əsaslanırıq [6, s.65].

Cəmiyyəti yaradan insan öz fərdi psixologiyası əsasında ictimai psixologiyanı formalaşdırır. Deməli, fərdi insan psixologiyası eyni zamanda sinfi ideologiyanı formalaşdırır. "İnsan yaşayır, insan yarandığı gündən özünü ölümlü adlandırıb [12, s.121-122].

Şəxsiyyətin sosial-psixoloji keyfiyyətləri başqa insanlarla birgə fəaliyyət və ünsiyyət prosesində formalaşır, lakin fəaliyyət və ünsiyyət insanın özünün dəyərlər sistemi ilə şərtlənərək gerçəkləşir. Məlum olduğu kimi, insanın davranışı yalnız xarici, obyektiv, zahiri müşahidə üçün əlçatan maddi şəraitə müvafiq surətdə cərəyan etmir və reallaşmır, həm də gerçəkliyin psixoloji mənzərəsi adlanan reallıqdan asılıdır və fərd özünü məhz həmin psixoloji reallığa uyğun surətdə aparır [3, s.154].

Ailə makrososial və ictimai dəyərlərin formalaşmasında mühüm rol oynayır və oynamaqdadır. Mənəviyyatın formalaşmasında genetik əsaslar, sosial-mənəvi mühit nə qədər əhəmiyyətli rol oynasa da, ailə dəyərlərinin başlıca rol oynaması danılmaz faktdır [2, s.98].

Stress pozuntuları daimi təşviş, həyəcan və narahatlıqla müşayiət olunan şərtlərin xüsusi bir alt qrupunu təşkil edir. Bu pozuntular qazilərin həddin dən artıq psixi travmaya məruz qaldığında baş verir. Beləliklə, mülki həyata qayıtdıqdan sonra qazilər sosial stress amillərinin, eləcə də müharibədə aldıqları xəsarətlərin nəticələri ilə bağlı stress amillərinin təsirinə məruz qalmaqda davam edirlər.

Travmatik bir hadisədən sonra "qaç, döyüş və ya don" beyin sisteminin yaratdığı qorxu hissi və cavab reaksiyası normaldır. İnsanlar əvvəlkindən daha əsəbi ola bilər və ya travmatik hadisəni xatırladan müəyyən yerlərdən və ya insanlardan qaça bilərlər. Çoxları üçün qorxu reaksiyaları və simptomları qısa müddətdən sonra yox olur. Bu simptomları gündəlik fəaliyyətlərinə təsir edəcək dərəcədə yaşamağa davam edən insanlara travma sonrası stress pozuntusu diaqnozu qoyula bilər [14].

Psixoloji sarsıntıdan sonra insanın yaşadığı sosial şərait böyük əhəmiyyət kəsb edir. Qeyd olunur ki, qazilərin onlara dəstək olub insanların əhatəsində olduğu hallarda təşvişli həyəcan vəziyyətin inkişaf riski əhəmiyyətli dərəcədə azalır. Qazilərdə təşvişli həyəcan pozuntusuna səbəb olan amillər araşdırılmalı və aradan qaldırılaraq onların psixi sağlamlığına nail olmaq lazımdır [18].

"Müharibədən sonra qazilər ətrafdakı insanlardan diqqət gözləyirlər. Bunu hiss etmək tələbatı yaranır. Diqqət mərkəzində olmaq, sevgi ilə əhatə olunmaq istəyirlər. Onlar nə qədər çox sevənin əhatəsində olarsa, qəsəbə, şəhər içərisində insanlar tərəfindən nə qədər çox dəyərləndirilərlərsə, bir o qədər çox xoşbəxt olarlar.

Psixoloq Elnur Rüstəmov müharibədə iştirak edən, yaralanan hərbçilərə, eləcə də şəhid ailələrinə psixoloji yardımın vacib olduğunu qeyd edir: "Bu, dünya praktikasında da var. Çünki müharibədən sonra müharibə iştirakçıları, həlak olanlar və onların ailələri post-travmatik stress pozuntusu yaşayır. Onlara psixoloji dəstəyin göstərilməsi vacibdir. Bildiyimə görə, Vətən müharibəsindən sonra qazilərə, şəhid ailələrinə psixoloji yardım və dəstək göstərilir, Bakı şəhərində psixoloji mərkəzlərin əksəriyyəti imkanları daxilində bu işi görürlər. Nəzərə almaq lazımdır ki, psixoloq seansı bir saatdır, yəni bir psixoloq gün ərzində 3-4 müharibə iştirakçısı, qazi və şəhid ailəsi ilə görüşə bilər. Bildiyimiz kimi, həmin insanların sayı çoxdur. Ona görə də bu işin təşkil olunması, koordinasiyası çox vacibdir. Şəhid ailələri, qazilər, müharibə iştirakçıları konkret olaraq hara müraciət etmək lazım olduğunu bilməlidir. Çünki bu məsələ uzun müddət aktuallıq kəsb edəcək" [17].

Psixologiya üzrə fəlsəfə doktoru Müşviq Mustafayev isə bildirib ki, müharibədə olan hadisələr qazilərdə müəyyən psixoloji problemlərə səbəb olur: "Xüsusən də, onların müharibədən 1 ay, 6 ay müddət keçdikdən sonra aldıqları travmalar posttravmatik stress formasında özünü göstərməyə başlayır. Buna görə də müharibədə iştirak etmiş hər bir qazi cəmiyyətə adaptasiya edilməlidir. Xoşagəlməz halların qarşısını almaq üçün müharibə iştirakçılarına, qazilərə peşəkar psixoloji yardımlar göstərilməlidir. Bu olmadıqda problemlər daha da böyüyür. Bu səbəblə də, qazilərlə xüsusi psixoloq qrupunun işləməsi, treyninqlərin keçirilməsi olduqca vacibdir. Son baş verən hadisələr də mühüm addımların atılmasının necə vacib olduğunu göstərir" [16].

Davranış anlayışının psixologiya elminin bir başa cəlb etdiyi sahə olduğunu nəzərə alsaq, fərdin, xüsusən də müharibə iştirakçılarının və şəhid ailələrinin davranışının bu sahədə təhlili vacib sayıla bilər.

Bütün bunları nəzərə alaraq müharibə iştirakçıları, xüsusən, qazi və şəhid ailələrinin üzvləri ilə ünsiyyət qurduqda travma sonrası stress pozğunluğunun olma ehtimalını nəzərə alaraq, diqqət etməli olduğumuz bir neçə məqam var. Bu anlar bir insanın öhdəsindən gəlmədiyini göstərən əlamətlər ola bilər:

- Davranış dəyişiklikləri – işdə aşağı məhsuldarlıq, gecikmə, xəstəlik məzuniyyəti, kiçik qəzalar.
- Emosiyalardakı dəyişikliklər – qəzəb, əsəbilik, depressiya, maraq və konsentrasiyanın olmaması.
- Düşüncələrdəki dəyişikliklər – təhdid və ya qorxu ilə məşğul olmaq, gələcəyə mənfi baxış.
- Nəfəs darlığı, əsəbilik və ya qarın ağrısı kimi gözlənilməz fiziki simptomlar.

Sun Tzunun "Savaş sənəti" adlı əsəri, yer üzündə yazılmış ən qədim hərbi əsər olaraq qəbul edilir. Müharibədə hökmdar və generallara yol göstərəcək prinsipləri qeyd etmək məqsədi ilə qələmə alınan bu əsər, tarix boyu Çin və Yapon hərbi düşüncə sistemini öz təsiri altına salıb. Dahi ustad Sun Tzu, hər nə qədər savaş metodlarını qeyd etsə də, ən ideal zəfərin savaşmadan və qan tökmədən əldə olunmasını uyğun görüb və müharibəni ən son çarə kimi qiymətləndirib. [13]

Qazi ailələrinə dəstək sahəsində dövlət idarəçiliyi onların sosial adaptasiyası, bərpası və psixoloji reabilitasiyası üçün əlverişli şəraitin yaradılmasında son dərəcə mühüm rol oynayır. Qazilər, xüsusən də döyüş bölgələrindən qayıdan və ya xidməti başa vurduqdan sonra çətinliklərlə üzləşənlər, dövlət səviyyəsində təşkil edilməli olan hərtərəfli dəstəyə ehtiyac duyurlar. Bu sahədə effektiv dövlət idarəçiliyi geniş məsələlərin həllinə yönəlmiş çox səviyyəli proqramların işlənib hazırlanmasını və həyata keçirilməsini tələb edir: tibbi xidmət, psixoloji dəstək, sosial reabilitasiya və işə düzəlməyə kömək.

Əsas vəzifələrdən biri nazirliklər və idarələr, habelə ictimai təşkilatlar və qazi birlikləri daxil olmaqla müxtəlif dövlət qurumları arasında yüksək səviyyədə qarşılıqlı əlaqə və koordinasiyanın təmin edilməsidir. Yalnız bu qurumların sıx əməkdaşlığı ilə qazilər üçün tibbi və psixoloji xidmətlərə çıxış, əmək uyğunlaşmasına kömək, habelə mənzil və sosial-iqtisadi problemlərin həlli də daxil olmaqla effektiv və sistemli yardım yaradıla bilər. Qazi icmaları ilə müntəzəm işləmək də vacib bir cəhətdir, çünki qazi ailələrinin həqiqi ehtiyacları haqqında ən uyğun məlumatları təmin edə bilən və göstərilən xidmətlərin keyfiyyətini qiymətləndirən onlardır.

